AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

QAFQAZŞÜNASLIQ İNSTİTUTU

VAHİD ÖMƏROV, ELNUR KƏLBİZADƏ,
NƏSİBƏ MİRZƏYEVA

# Gürcüstan:
## daxili ictimai-siyasi şərait

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2018

66.3(5Gru)+63.3(5Gru)6+83.3(5Gru)6
Ö44

**ELMİ REDAKTOR VƏ ÖN SÖZÜN MÜƏLLİFİ:**

**Musa Qasımlı,**
*AMEA-nın müxbir üzvü, professor*

**RƏYÇİLƏR:**

**Ramiz Sevdimalıyev,**
*siyasi elmlər üzrə elmlər doktoru*

**Qasım Hacıyev,**
*tarix üzrə elmlər doktoru*

**Ramilə Dadaşova,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

Ömərov V.A., Kəlbizadə E.H., Mirzəyeva N.E. Gürcüstan: daxili ictimai-siyasi şərait. – Bakı: Mütərcim, 2018. – 168 s.

*Mötəbər mənbələr əsasında yazılmış monoqrafiyada müasir Gürcüstanın daxili sosial-siyasi şəraiti və ölkənin ərazi bütövlüyünə ciddi təhlükə yaradan erməni separatizminin mahiyyəti araşdırılmışdır. Mənbə və ədəbiyyatların demək olar ki, hamısı elmi dövriyyəyə ilk dəfə gətirilmişdir. Kitab qafqazşünaslıq ixtisası üzrə təhsil alan bakalavr və magistrlər, alimlər, siyasətçilər və diplomatlar üçün nəzərdə tutulmuşdur.*

ISBN: 978-9952-28-411-9

© AMEA Qafqazşünaslıq İnstitutu, 2018

## İÇİNDƏKİLƏR

ÖN SÖZ .................... 4
GİRİŞ .................... 8
Gürcüstan haqqında ümumi məlumat .................... 11

I FƏSİL
XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜSTANIN DAXİLİ İCTİMAİ ŞƏRAİTİ .................... 26
1.1. Böhrandan inkişafa doğru .................... 26
1.2. Gürcüstanda yeni sosial inkişaf modellərinin axtarışı (2003-2008-ci illər) .................... 43
1.3. Gürcüstanda sosial şəraitin təhlili: imkanlar və perspektivlər (2008-2017-ci illər) .................... 53

II FƏSİL
MÜASİR GÜRCÜSTANIN DAXİLİ SİYASİ ŞƏRAİTİ .................... 78
2.1. Gürcüstanda siyasi hərəkatlar və partiyalar .................... 78
2.2. "Qızılgül inqilabı" .................... 83
2.3. Gürcüstanın ərazi bütövlüyü uğrunda vuruşan azərbaycanlılar .................... 91
2.4. Gürcüstanda keçirilən bələdiyyə seçkilərində ermənilərin separatçı fəaliyyəti .................... 94

III FƏSİL
ERMƏNİ SEPARATİZMİ GÜRCÜSTANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ TƏHDİD KİMİ .................... 100
3.1. Müasir dövrdə Gürcüstana qarşı erməni iddiaları və "Samtsxe-Cavaxetiya məsələsi" .................... 100
3.2. Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları .................... 108
3.3. Ermənilərin Tbilisi şəhərinə iddiaları .................... 117
3.4. Gürcüstan mətbuatı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında .................... 123
3.5. Gürcüstanda müxtəlifdilli KİV və hakimiyyət .................... 131
3.6. Ermənidilli mətbuatda düşmənçiliyin və separatizmin təbliği .................... 144
3.7. Ermənilərin gürcü soyadlarını qəbul etməsi: məqsəd nədir? .................... 147
3.8. Gürcü kilsələrinin erməniləşdirilməsi .................... 150
NƏTİCƏ .................... 158
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT .................... 159

# ÖN SÖZ

Ecazkar təbiətinə, zəngin təbii sərvətlərinə, Şərqlə Qərb, Avropa ilə Asiya arasında əlverişli coğrafi-siyasi və geostrateji mövqedə yerləşdiyinə, Yaxın, Orta Şərqə yaxınlığına görə tarix boyu böyük dövlətlərin, ölkələrin maraq göstərdiyi, müasir dövrdə də diqqət mərkəzində olan Qafqaz regionunun bir sıra ölkələr arasında gizli və aşkar mübarizə, rəqabət meydanı olduğu aydın görünür. Qafqazda maraqları olan dövlətlər regiona dair siyasətlərini düzgün işləyib hazırlamaq məqsədi ilə universitetlərində Qafqazşünaslıq ixtisaslarını açır, mütəxəssislər hazırlayır və müvafiq elmi-tədqiqat mərkəzləri qururlar. Hətta coğrafi baxımından regiona uzaq olan ölkələrdə Qafqaza həsr edilmiş əsərlərin sayı artır. Heç əbəs deyildir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi:

*"Qafqaz ... dünyanın diqqət mərkəzindədir, dünyanın böyük ölkələrinin diqqətini cəlb edir..."*[1]

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasından ötən ilk illərdə Cənubi Qafqazın ən böyük və inkişaf etmiş qabaqcıl ölkəsi olan Azərbaycan Respublikasında Qafqaz regionunun araşdırılması pərakəndə halda idi. Yalnız 90-cı illərin sonlarından etibarən müxtəlif universitetlərdə əhatə dairəsinə görə xeyli geniş olan Qafqazşünaslıq ixtisası açıldı, bakalavr və magistrantlar hazırlanmağa, regionun müxtəlif problemlərinə həsr edilmiş dissertasiya işləri və əsərlər yazılmağa başlandı. Lakin Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda müvafiq elmi-tədqiqat mərkəzinin olmaması Qafqaz regionuna həsr olunmuş araşdırmaların kompleks və ardıcıl şəkildə aparılmasına mane olurdu. 2015-ci il aprelin 29-da AMEA-da Qafqazşünaslıq İnstitutunun yaradılması haqqında qərarın qəbul edilməsi bu sahədə olan boşluğu doldurmaq və müvafiq işə sistemli xarakter vermək baxımından əhəmiyyətli addım oldu. Yaradılmasından qısa müddət keçməsinə baxmayaraq, Qafqazşünaslıq İnstitutunda region ölkələrinin daxili ictimai-siyasi, iqtisadi vəziyyətinə, xarici siyasətinə, qonşu ölkələrin və böyük dövlətlərin region siyasətinə dair dərin elmi-tədqiqat işləri aparılır, məqalələr dərc edilir, əməkdaşlar xarici ölkələrdə keçirilən elmi toplantılarda Azərbaycanı layiqincə təmsil edirlər. İndiyədək İnstitutun təşkilatçılığı ilə keçirilən beynəlxalq və ölkə

---

[1] Əliyev H.Ə. Yeni Azərbaycan Partiyasının birinci qurultayında nitq. 20.12.1999 // Müstəqilliyimiz əbədidir. XXIV kitab. Bakı: Azərnəşr, 2008, s. 62.



səviyyəli elmi konfransların materialları, xarici ölkələrin görkəmli alim və tədqiqatçılarının məqalələri əsasında nəşr olunan kitablar həm Azərbaycan, həm də xarici ölkələrin qafqazşünaslarının böyük marağına səbəb olmuşdur. Dünyanın bir çox ölkələrinin qafqazşünas alimlərinin İnstitut əməkdaşlarının əsərlərinə tez-tez istinad etmələri bir daha göstərir ki, Qafqazşünaslıq İnstitutu artıq ciddi elmi-tədqiqat mərkəzi olaraq qəbul edilir. Keçirilən beynəlxalq konfranslara Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məktub göndərməsi bu sahəyə dövlətin diqqət və qayğısının göstəricisidir.

İnstitutun elmi-tədqiqat istiqamətlərindən biri Azərbaycan Respublikası ilə qonşu, strateji tərəfdaş olan Gürcüstanda dövlət müstəqilliyi bərpa edildikdən sonrakı illərdə daxildə baş verən ictimai-siyasi şəraitin, xarici siyasətin, qonşu və böyük dövlətlərin Gürcüstan siyasətinin dərindən təhlil edilməsi, ümumiləşdirmələrin aparılması, nəticələrin çıxarılması və baş verə biləcək mümkün proseslərin proqnozlaşdırılmasıdır. Məlum olduğu kimi, dövlət müstəqilliyinin bərpasından sonra Gürcüstan hakimiyyətinin və xalqının qarşısında planlı sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına, diktaturadan demokratiyaya, təkpartiyalılıqdan çoxpartiyalılığa keçid, ərazi bütövlüyünün qorunması və s. kimi böyük vəzifələrin yerinə yetirilməsi dayanırdı. Lakin ölkə bir sıra daxili və xarici amillərin təsiri altında bəzi kəskin problemlərlə qarşılaşdı. İqtisadi sahədə və idarəçilikdəki ağır böhran, yoxsulluq və işsizliyin artması, separatçılıq və etnik münaqişələrin yaranması, tez-tez baş verən hakimiyyət dəyişikliyi ölkəni geriyə aparan, Gürcüstan xalqlarında mənəvi-psixoloji böhran yaradan amillər oldu. Bütün bunlara baxmayaraq, gürcü xalqı inkişaf yoluna çıxmağı bacardı. Heç şübhəsiz, həmin məsələdə ölkə daxilində yürüdülən siyasət, Azərbaycan Respublikasının etdiyi dost yardımları və Gürcüstanın beynəlxalq layihələrdə iştiraka cəlb edilməsi mühüm rol oynadı. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev deyirdi:

*"Biz Azərbaycanda Gürcüstanı sevdiyimizə görə, gürcü xalqına əsrlər boyu böyük hörmət etdiyimizə görə Gürcüstanda gedən prosesləri daim çox maraqla izləmiş və çalışmışıq ki, bu proseslərin normal istiqamətdə getməsi üçün kənardan da olsa həm öz həmrəyliyimizi bildirək, həm də dost əlimizi uzadaq. Ona görə də indi artıq Gürcüstanda ictimai-siyasi sabitlik bərqərar olduğu üçün, bir çox proseslərin qarşısı alındığı üçün və ölkəmizdə demokratik hüquqi dövlət quruculuğu sürətlə həyata keçirildiyi üçün, Gürcüstanda dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda*

*çox gərəkli addımlar atıldığı üçün biz bir qonşu kimi, dost kimi ürəkdən sevinirik...*[2]

Deməli, 1991-2018-ci illərdə Gürcüstanda daxili ictimai-siyasi şəraitin dərindən araşdırılması tədqiqatçıların qarşısında dayanan başlıca vəzifələrdən biridir. Bu baxımdan Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsi əməkdaşlarının giriş, Gürcüstan haqqında ümumi məlumat, on altı yarımfəsli əhatə edən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət yazdıqları "Gürcüstan: daxili ictimai-siyasi şərait" adlı əsər elmi aktuallıq və praktik siyasi əhəmiyyət kəsb edir.

Əsərin yazılmasında başlıca məqsəd göstərilən illərdə Gürcüstanda daxili ictimai-siyasi şəraitin dərindən tədqiq edilməsi, elmi-nəzəri ümumiləşdirmələrin aparılması, nəticələrin çıxarılması və perspektivlərin müəyyənləşdirilməsidir. Məqsədə nail olmaqdan ötrü əsərin düzgün konsepsiyası və ona uyğun olaraq strukturu müəyyənləşdirilmişdir. Azərbaycan, gürcü, rus, ingilis, alman və b. dillərdə mövcud olan mənbə və ədəbiyyatları öyrənərək sistemləşdirib elmi dövriyyəyə cəlb edən müəlliflər şərh, təhlil və müqayisəli təhlillər aparmışlar. Gürcüstan haqqında ümumi məlumat, onun təbiəti, iqlimi, tarixi, iqtisadiyyatı, dövlət quruluşu, siyasi idarəetmə strukturu haqqında məlumat verildikdən sonra əsərin birinci fəslində ölkənin daxili ictimai şəraiti, XX əsrin sonlarında SSRİ-nin dağılması və Gürcüstanın dövlət müstəqilliyinin ilk illərində baş verən böhranların səbəbləri, hakimiyyət dəyişiklikləri nəticəsində yeni inkişaf modellərinin axtarışı, real imkanlar və perspektiv inkişaf yolları tədqiq edilmişdir.

Gürcüstanın daxili siyasi şəraiti, hüquqi və demokratik dövlət quruluşu, siyasi sistemi, siyasi hərəkatlar və partiyalar, "Qızılgül inqilabı", yerli azərbaycanlıların Gürcüstanın ərazi bütövlüyü uğrunda separatçılara qarşı vuruşması ikinci fəsildə təhlil edilmişdir. Azərbaycanlıların Gürcüstanın dövlət müstəqilliyi və ərazi bütövlüyü naminə döyüşmələri səbəbsiz deyildi. Azərbaycan xalqının Umummilli lideri Heydər Əliyev bununla bağlı olaraq deyirdi:

*"Azərbaycanlılar Gürcüstanda öz vətənlərində yaşayır, öz əcdadlarının, öz ulu babalarının yaşadıqları diyarda, eldə, obada yaşayırlar. Borçalı Azərbaycan xalqının ən dəyərli diyarlarından biridir. Borçalı diyarı Gürcüstan üçün əziz olduğu kimi, Azərbaycan üçün də əziz olmuşdur, bu*

[2] Əliyev H.Ə. Tbilisi Dövlət Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində çıxış. 09.03.1996 // Müstəqilliyimiz əbədidir. V kitab. Bakı: Azərnəşr. 1998, s. 429.



*gün də əzizdir. ...Onlar burada əsrlərlə yaşamış, yaratmış azərbaycanlılardır."*[3]

Azərbaycanlıların Gürcüstan dövlətçiliyini həmişə müdafiə etdiklərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aşağıdakı kimi ifadə etmişdir:

*"Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə həmişə dəstək olmuşlar və Gürcüstanın yaxşı vətəndaşları olmuşlar. Belə də olmalıdır, çünki siz bu torpaqlarda əsrlər boyu yaşayırsınız."*[4]

Gürcüstanın ərazi bütövlüyünə və suverenliyinə təhdid olan erməni separatizminin məqsədləri, mahiyyəti və erməni terror-siyasi təşkilatlarının fəaliyyət metodları əsərin üçüncü fəslində öyrənilmişdir. Müəlliflər ermənilərin Cavaxetiyaya, Tbilisi şəhərinə iddialarını, erməni təşkilatlarının pozuculuq, separatçılıq fəaliyyətlərini, gürcülərə məxsus tarix və mədəniyyət abidələrinin, kilsələrin erməniləşdirilməsini, ermənidilli mətbuatın separatizmi dəstəkləməsini, ermənilərin gürcü soyadlarını qəbul etməsinin əsl mahiyyətini, bələdiyyə seçkilərində gürcü dövlətçiliyi əleyhinə zərərli işlərini, gürcü mətbuatının Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə münasibəti və b. məsələləri tədqiq etmişlər.

Azərbaycan qafqazşünaslıq elminə qiymətli töhfə olan bu əsərin ölkəmizin ali məktəblərinin tələbələri, magistrləri, müvafiq sahənin mütəxəssisləri, siyasətçilər və diplomatlar üçün faydalı olacağına inanıram. Müəlliflərə yaradıcılıq uğruları arzulayıram.

**_Musa Qasımlı,_**
**_AMEA Qafqazşünaslıq İnstitutunun direktoru,_**
**_AMEA-nın müxbir üzvü, professor_**

[3] Əliyev H. Ə.Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdə çıxış. 09.03.1996// Müstəqilliyimiz əbədidir. V kitab, s. 440-441.

[4] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Marneulidə "Çay evi" tədris mərkəzi ilə tanışlıq zamanı çıxışı // Azərbaycan-Gürcüstan:dostluğun inkişaf yolu. Bakı, 2017, s. 39-40.

# GİRİŞ

Avropa ilə Asiyanın qovşağında mühüm geostrateji mövqedə yerləşən Cənubi Qafqaz ölkələrindən biri olan Gürcüstan özünün təbii zənginlikləri, iqlimi, flora, faunası, coğrafi mövqeyi ilə diqqəti cəlb edir. Bu ölkənin Şərqlə Qərb, Şimalla Cənub arasındakı mühüm ticarət yolları üzərində yerləşməsi, hələ qədim dövrlərdən etibarən dəniz ticarətinin əsas tranzit xətlərinin keçdiyi Qara dənizin sahilində yerləşməsi onu dünyanın ən qüdrətli dövlətlərinin diqqət mərkəzinə salmışdı. Məhz bu səbəbdəndir ki, Gürcüstana Roma, Sasani, Bizans, Ərəb xilafəti, Səlcuqlar, Azərbaycan Atabəyləri, Hülakilər, Səfəvilər, Osmanlılar, çar Rusiyası, Almaniya kimi qüdrətli imperiyalar maraq göstərmişlər. Xarici müdaxiləçilərin təzyiqi ilə üzləşməsinə baxmayaraq, bu ölkə bütün hallarda özünün daxili muxtar idarəçiliyini qoruyub saxlamağa çalışmışdır.

Məlum olduğu kimi, Gürcüstan və Azərbaycanı coğrafi baxımdan olduğu kimi tarixi tale baxımından da bir çox məsələlər birləşdirir. Hələ qədim dövrlərdən etibarən Azərbaycan və Gürcüstan ərazilərində yaranmış dövlətlər bir çox hallarda yadelli işğalçılara qarşı birgə mübarizə aparmışlar. Çar Rusiyasının süqutundan sonrakı dövrdə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Demokratik Respublikasının fəaliyyətində bunlar xüsusən açıq şəkildə özünü göstərir. Sonrakı dövrdə Gürcüstan Respublikası da Azərbaycan kimi bolşevik Rusiyasının işğalına məruz qalmış və Sovetlər İttifaqının tərkibinə daxil edilmişdir.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Gürcüstanın tarixində yeni bir mərhələ başlamışdır.

Gürcüstanın müstəqillik dövrü siyasi tarixinin təhlili bir neçə mərhələnin fərqləndirilməsinə imkan verir. Bir çox postsovet respublikaları kimi Gürcüstanda da müstəqilliyin əldə edilməsi ərəfəsində millətçilik ön plana çıxmış, müstəqilliyin əldə edilməsindən sonra isə bu amil xeyli dərəcədə məhdud xarakter kəsb etmişdir. Bu isə ölkənin bir sıra ciddi problemlərinin daha da ağırlaşmasının əsas səbəblərindən biri olmuşdur. Belə ki, müstəqilliyin ilk illərində Gürcüstanın birinci prezidenti Z.Qamsaxurdiyanın apardığı siyasət ölkəni fəlakətli vəziyyətə gətirib çıxarmış, respublika iqtisadiyyatı iflic olmuş, ətraf ölkələrdən təcrid olmuş şəraitdə qalmışdır. Bütün bunlar ölkədə demoqrafik, iqtisadi, siyasi həyata ağır



zərbə vurmuş, əhalinin böyük qismi Gürcüstanı tərk edərək qonşu dövlətlərə və uzaq Avropa ölkələrinə mühacirət etməyə məcbur olmuşdur.

Z.Qamsaxurdiyanın ifrat millətçilik siyasəti nəticəsində bir çox xalqların nümayəndələrinin Gürcüstanı tərk etməsinə baxmayaraq bu ölkə hələ də çoxmillətli ölkə hesab olunur. Çoxmillətli ölkə olması isə bəzi problemlərlə müşayiət edilir. Belə ki, bu gün Gürcüstanın ərazi bütövlüyünə ən böyük təhdid erməni separatizmidir. Oxuculara təqdim olunan əsərdə bu məsələlərə xüsusi diqqət yetirilmiş, Gürcüstanda erməni separatizminin tarixi kökləri ilə müasir vəziyyəti arasında müqayisələr aparılmışdır.

Kitabın yazılmasında başlıca məqsəd Azərbaycanın ən yaxın qonşusu, strateji tərəfdaşı Gürcüstan, onun daxili ictimai-siyasi şəraiti haqqında oxucularda geniş təsəvvür yaratmaqdır. Bu kitab ölkəmizdə gürcüstanşünaslıq sahəsində ilk addımlardan olub aktuallığı ilə diqqəti cəlb edir.

Gürcüstanın geosiyasi əhəmiyyətinin araşdırılması, beynəlxalq layihələrdə tranzit ölkə statusu qazanması, ölkənin hüquqi, demokratik, ictimai-siyasi proseslərinin tədqiqi zərurəti kitabın yazılmasının aktuallığını önə çəkir.

Gürcüstanın daxili ictimai-siyasi vəziyyətinin təhlil edildiyi bu kitabda ölkə haqqında ümumi məlumat verilmiş, monoqrafiya üç fəslə bölünmüşdür. Birinci fəsildə XX əsrin sonu XXI əsrin əvvəllərində Gürcüstanın daxili ictimai-siyasi şəraiti, ölkənin böhrandan inkişafa doğru keçdiyi yol, yeni inkişaf modellərinin axtarışı, inkişaf perspektivləri, ikinci fəsildə müasir Gürcüstanda daxili siyasi şərait, ölkədə demokratik hüquqi dövlət quruculuğu, siyasi hərəkatlar və partiyaların fəaliyyəti, "Qızılgül inqilabı"nın mahiyyəti, respublikanın ərazi bütövlüyü uğrunda vuruşan azərbaycanlılardan bəhs edilmişdir.

Kitabın üçüncü fəslində müasir dövrdə Gürcüstana qarşı ermənilərin ərazi iddiaları və "Cavaxetiya məsələsi", onların Tbilisi şəhərinə və gürcü kilsələrinə iddiaları, ermənilərin gürcü soyadlarını qəbul etməsinin məqsəd və səbəbləri, Gürcüstanın rəsmi mətbuatında Ermənistanın hərbi təcavüzünə münasibət, Gürcüstandakı erməni təşkilatlarının və seçkilər zamanı onların separatçı fəaliyyətinin bütün mahiyyəti təhlil edilmişdir. Beləliklə, müəlliflər müstəqillik illərində Gürcüstanda azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiya olunduğu, hətta ölkənin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olduqları halda ermənilərin separatçı fəaliyyətləri ilə Gürcüstanın ərazi bütövlüyünə ən böyük təhlükə yaratdıqlarını faktiki materiallar əsasında şərh etmişlər.

Kitabın XX əsrin sonu XXI əsrin əvvəllərində *"Gürcüstanın daxili ictimai şəraiti"* adlanan I fəsli, III fəslin *"Ermənilərin Tbilisi şəhərinə iddiaları"* adlanan üçüncü, *"Gürcüstan mətbuatı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında"* adlanan dördüncü, *"Ermənidilli mətbuatda düşmənçiliyin və separatizmin təbliği"* adlanan altıncı, *"Ermənilərin gürcü soyadlarını qəbul etməsi: məqsəd nədir?"* adlanan yeddinci yarımfəsilləri Gürcüstanşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru ***Vahid Ömərov*** tərəfindən yazılmışdır.

*"Müasir Gürcüstanın daxili siyasi şəraiti"* adlanan II fəslin *"Gürcüstanda siyasi hərəkatlar və partiyalar"* adlanan birinci, *"Gürcüstanın ərazi bütövlüyü uğrunda vuruşan azərbaycanlılar"* adlanan üçüncü və *"Gürcüstanda keçirilən bələdiyyə seçkilərində ermənilərin separatçılıq fəaliyyətləri"* adlanan dördüncü yarımfəsilləri, III fəslin *"Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları"* adlanan ikinci, *"Gürcüstanda müxtəlifdilli KİV və hakimiyyət"* adlanan beşinci, *"Gürcü kilsələrinin erməniləşdirilməsi"* adlanan səkkizinci yarımfəsilləri Gürcüstanşünaslıq şöbəsinin elmi işçisi ***Nəsibə Mirzəyeva***, II fəslin *"Qızılgül inqilabı"* adlanan ikinci yarımfəsli, *"Erməni separatizmi Gürcüstanın ərazi bütövlüyünə təhdid kimi"* adlanan III fəslin *"Müasir dövrdə Gürcüstana qarşı erməni iddiaları və "Samtsxe-Cavaxetiya məsələsi""*nə həsr edilmiş birinci yarımfəsli şöbənin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru ***Elnur Kəlbizadə*** tərəfindən yazılmışdır.

Müəlliflərin Azərbaycan, gürcü, ingilis, rus, türk, erməni dillərində olan çoxsaylı elmi ədəbiyyatlardan, dövri mətbuat və elektron informasiya ehtiyatlarından, müasir tarix, siyasətşünaslıq, iqtisadi nəzəriyyə, konfliktologiya və sosiologiya elmlərinin müxtəlif tədqiqat metodlarından istifadə etmələri qarşıda qoyulan tədqiqat vəzifələrinin daha sanballı şəkildə yerinə yetirilməsinə xidmət etmişdir.

Azərbaycanda müasir Gürcüstanşünaslıq sahəsində ilk tədqiqatlardan olan bu əsərin gələcəkdə daha fundamental tədqiqatların aparılması üçün yol açacağına, elmi ictimaiyyət, siyasətçilər, diplomatlar, həmçinin məsələ ilə maraqlanan oxucular üçün maraq doğuracağına ümid edirik. Əsər haqqında xeyirxah qeydlərini söyləyəcək şəxslərə əvvəlcədən təşəkkürümüzü bildiririk.



## Gürcüstan haqqında ümumi məlumat

Şərqi Avropa ilə Qərbi Asiyanın kəsişməsində yerləşən Gürcüstan şimalda Rusiya, şərqdə Azərbaycan, cənubda Ermənistan və Türkiyə ilə həmsərhəddir. Qərb sərhədlərində Qara dəniz yerləşir. Gürcüstanın tərkibinə daxil olan Abxaziya və Cənubi Osetiya (Tsxinvali regionu) onunla münaqişəli vəziyyətdədir. Gürcüstanın paytaxtı Tbilisi, böyük şəhərləri Kutaisi, Batumi, Rustavi və Suxumidir. Hazırda ölkənin ərazisi 69.700 km², əhalisi isə rəsmi məlumata görə, təxminən 3,7 milyon nəfərdir.[5]

**Təbiəti**. Gürcüstan ərazisinin böyük hissəsi dağlıqdır. Ölkənin şimalında Böyük Qafqaz, cənubunda Kiçik Qafqaz sıra dağları yerləşir. Böyük və Kiçik Qafqaz sıra dağları arasında Kolxida düzənliyi və Kartli vadisi, şərqdə isə Alazan vadisi yerləşir.

**İqlimi**. Gürcüstanın iqlimi coğrafi bölgələr üzrə dəyişkəndir. Ölkənin qərbində iqlim subtropik, şərqində subtropikdən mülayim iqlimə keçiddir. Qafqaz dağlarının soyuq şimal küləklərinin və ölkənin Qara dənizdən gələn rütubətli, isti hava axınının təsiri altında qalması iqlimin yumşaq və yağışlı olmasına imkan yaradır. Qara dənizə yaxın Kolxida ovalığında isə subtropik iqlim özünü göstərir. Əsasən payız və qış aylarında yağan yağışlar qərbdən şərqə doğru getdikcə azalır. Kolxida ovalığında ildə orta hesabla 1600-2000 mm olan yağışın miqdarı Kartli və Kaxetiya yaylalarında 508 millimetrə qədər azalır. Yay və qış arasındakı istilik fərqi qərbdə çox dəyişkən, quru iqlimin hökm sürdüyü şərqdə daha çoxdur.[6]

**Daxili suları.** Əsas çayları Kür, Rioni, gölləri – Paliastomi, Risa və Aletxelidir. Təbii su ehtiyatları baxımından zəngin bir ölkə olan Gürcüstanda Böyük Qafqaz dağlarının buzlaqlarından qidalanan Bzibi, Kodori, İnquri, Çxeniçkal və Rioni çayları Qara dəniz hövzəsinə daxildirlər. Mənbəyi Türkiyədən başlayan Çoruk Batum yaxınlarında Qara dənizə, Kür isə Xəzər dənizinə tökülür. Kürün qolları olan Liaxvi, Çama, Tana, Tedzami, Araqvi, İori və Alazanda əkin sahələrinin suvarılmasında əhəmiyyətli yer tutur.

Cavaxetiya vulkanik yaylasında olan irili - xırdalı bir neçə göl yağış və yeraltı su mənbələrindən qidalanır. Bu göllərdə bol miqdarda farel və sazan balıqları vardır.

---

[5] მოსახლეობის რიცხოვნობა 2018 წლის 1 იანვრის მდგომარეობით. სტატისტიკის ეროვნული სამსახური. 30.04.2018 // www.geostat.ge/cms/-site_images/_files/georgian/population/Population%20press_30%2004%20Geo_1.pdf
[6] Климат Грузии // www.world-globe.ru/countries/georgia/climate/

**Səthi.** Gürcüstan səth baxımından üç bölgəyə ayrılır:

1. Şimalda Böyük Qafqaz sıra dağlarının yerləşdiyi bölgə;
2. Cənubdakı Acari-İmereti, Trialeti, Borjomi-Bakuriani və Axaltsixe dağlarının yerləşdiyi Kiçik Qafqaz kütləsindən yaranan bölgə;
3. Bu iki kütlə arasında ovalıq və yaylaların yer aldığı Engebeli çöküntü bölgəsi.

Qərbdən Şərqə doğru getdikcə yüksələn Böyük Qafqaz sıra dağları ölkəni Rusiya Federasiyasından ayırır. Ən yüksək zirvələri olan Şxara (5060 m), Kazbek (5047 m), Rustavi (4960 m), Tetnults (4852 m) və Uşba (4700 m) bu bölgədədir. Cənubdakı Kiçik Qafqaz dağları daha alçaq olub yüksəklik Dedi Abuli qoruğunda ancaq 3301 metrə çatır. Qafqaz dağları cavan dağlardır. Bu səbəbdən burada tektonik proseslər bu gün də davam edir. Gürcüstanın sahil xətti enir. Yüz il ərzində Kolxida ovalığı 13 sm alçalmışdır. Aktiv zona olduğundan burada zəlzələlər müşahidə edilir. Xüsusilə ölkənin şərqində 5-7 bal gücündə zəlzələlər baş verir.

Qafqaz dağlarının ortası su ayrıcı rolunu oynayır. Burada Krestovi (2384 m) və Mamison (2829 m) aşırımları yerləşir. Əvvəllər buradan Hərbi-Gürcüstan yolu keçirdi (2006-cı ildə). Üstəlik iki yol Rok tuneli və Transqafqaz magistralı Abxaz-Gürcüstan və Gürcüstan-Osetin münaqişəsi ilə əlaqədar hazırda bağlıdır.[7]

Gürcüstanın yüksək dağlıq zonalarını buzlaqlar örtmüşdür. Ölkənin qərbində kars mənşəli süxurlar geniş yayılmış, şərqində isə cavan vulkanik formalara rast gəlinir. Gürcüstanda 600-dən çox buzlaq vardır ki, onun da sahəsi 520 km$^2$-dən ibarətdir. Ən iri buzlaqlar Svanetiyada yerləşir. Ölkənin cənubunda Kiçik Qafqaz silsilə dağlar uzanır (2850 m). Böyük və Kiçik Qafqaz dağları arasında Kolxida ovalığı yerləşir. Ovalıq üçbucağı xatırladır. Ölkənin şərqindəki İberiya çökəkliyindən isə Kür çayı axır.

Gürcüstanın Qara dənizlə sahil boyu əraziləri dəniz səviyyəsindən o qədər də hündürlükdə yerləşmir. Şərqində isə düzənliyin hündürlüyü 150 metrə çatır. Ölkənin Pankisi dərəsində çeçen-kistinlər yaşayırlar. Onlar Şimali Qafqazdakı çeçenlərin qohum nümayəndələridir. İkinci Çeçenistan müharibəsi illərində əraziyə çoxlu sayda qaçqın çeçenlər gəlmişdilər.

Şimal və cənubdakı dağlıq kütlələr arasında qalan qərb tərəfində Kolxida ovalığı, şərqdə Kartli və Kaxetiya yaylaları yerləşir.

---

[7] Как готовилась война. 01.07.2009 // www.novayagazeta.ru/articles/2009/07/01/42284-kak-gotovilas-voyna



**Flora.** Bol yağışlar Kolxida ovalığında subtropik bitki örtüyünün və bambuk, evkalipt, palma kimi ağacların da yetişməsinə şərait yaradır. Qara dənizə yaxın bölgələrdə 1000-1200 metrə qədər gürgən və 2000 metrə qədər şam ağaclarından yaranan meşələr üstünlük təşkil edir. Daha yüksəklərdə isə otlaqlar yerləşir. Torpaqlarının üçdə biri meşələrlə örtülü olan ölkədə şam, ladin, şabalıd, ağcaqayın, küknar, dişbudaq və cökə boldur.

**Fauna.** Meşələrin yüksək yerlərində və dağlarda dağ keçisi, çöl donuzu, ayı, vaşaq, tülkü və canavar kimi heyvanlar, çaylarında bol miqdarda balıq vardır.

**Qoruqlar və milli parklar.** Gürcüstanda hələ 1912-ci ildə Laqodexidə qoruq yaradılmışdır. Hazırda ölkə ərazisində 14 dövlət qoruğu, 8 milli park, 12 qorunan ərazi, 14 təbii abidə və 2 qorunan landşaft mövcuddur. Ümumilikdə bunlar Gürcüstan ərazisinin 7 faizini təşkil edir (386684 hektar). Ölkədə 75%-ə yaxın xüsusi qorunan meşələr vardır.[8]

**"Gürcüstan" sözünün mənşəyi.** Gürcülər özlərini "kartveli", ölkələrini "Sakartvelo", dillərini "kartuli ena" adlandırırlar. Sakartvelo "Kartvellərin ölkəsi" deməkdir.[9] Kartvelebi adlanan qrup isə sadəcə gürcüləri deyil, ölkədə yaşayan digər millətlər və subetnik qrupları da əhatə etməkdədir. Fars dilindən türk dilinə keçən "gürcü" sözünün mənşəyi haqqında iki fərqli yanaşma mövcuddur. Bunlardan birincisi qədim yunan və latın mənşəli "təsərrüfatla əlaqəsi olan" mənasında işlənən "georgicus" sözündən əmələ gəldiyinə dair baxışdır. Bir başqa yanaşma isə qədim Sasanilər imperiyası dönəmində gürcülərin "Gürcan" və ya "Gürc" olaraq adlandırıldığı və "gürcü", "georgian" kimi adların bu sözdən yaranmış olmasıdır.

**Gürcüstan tarixinə qısa baxış.** Gürcüstan Cənubi Qafqazda qədim tarixə malik bir dövlətdir. Bu ölkənin əsas əhalisi gürcülər-avropoid irqindən olan kartvellərdir. Gürcüstan ərazisinə qədim Kolxida və İberiya, Kartli, Laz çarlıqları mövcud olmuşdur. Gürcüstan Makedoniyalı İsgəndər, Roma, Sasani imperiyalarının, Ərəb xilafətinin tərkibinə daxil olmuşdur. Fərqli sivilizasiyalarla əlaqələr, etno-konfessional cəhətdən dəyişkən bir regionda yerləşməsi nəticəsində hələ orta əsrlərdən etibarən Gürcüs-

---

[8] Заповедники в Грузии. 03.06.2016 // www.mygeotrip.com/ru/%D0%B7%D0%B0%D0%BF%D0%BE%D0%B2%D0%B5%D0%B4%D0%BD%D0%B8%D0%BA%D0%B8%D0%B2%D0%B3%D1%80%D1%83%D0%B7%D0%B8%D0%B8/

[9] Гурам Гумба. Значение терминов "Грузия" и "Сакартвело" в средневековых источниках. // www.apsnyteka.org/1126gumba_g_znachenie_terminov_gruziya_i_-sakartvelo_v_srednevekovyh_istochnikah.html

tanda mitraizm, zərdüştlük, xristianlıq, duxoborluq, iudaizm və islam dinləri geniş yayılmışdır. Kartlinin paytaxtı VI əsrdən Tiflis (Tbilisi) şəhəri olmuşdur. X əsrdə ilk dəfə olaraq Gürcüstan-Kartli anlayışı meydana gəlmişdir. XI-XII əsrlərdə feodal Gürcüstanı siyasi, iqtisadi, mədəni cəhətdən inkişaf etmişdir. Uzun bir zaman ərzində müsəlman əmirlərin, Səlcuq dövlətinin yaranmasından sonra isə türklərin nəzarətində olan Tiflis şəhərini Çar IV Qurucu David qıpçaqların köməyi ilə səlcuqlardan azad edərək yenidən paytaxta çevirmişdir. Qurucu Davidin varisləri I Demetre, V David, III Georgi ölkəni daha da inkişaf etdirmişlər. IV Davidin nəticəsi çariça Tamaranın hakimiyyət illərini Gürcüstanın "Qızıl əsri" adlandırırlar. XII əsrdə Gürcüstan monqollar, XIV-XV əsrlərdə Əmir Teymur tərəfindən işğal olunmuşdur.

XVI əsrdə Gürcüstan Səfəvi, Osmanlı dövlətlərinin və Rusiya imperiyasının mübarizə meydanına çevrilmişdir. 1555-ci ildə Osmanlı və Azərbaycan Səfəvi dövlətləri arasında bağlanmış sülh müqaviləsinə əsasən Cənubi Qafqaz nüfuz dairələrinə bölündü. Müqaviləyə əsasən İmereti Osmanlı dövlətinin, Kartli-Kaxeti isə Azərbaycan Səfəvi dövlətinin nəzarətinə keçdi. Gürcüstanın Səfəvilərin tərkibinə daxil olduğu dövr burada xeyli dərəcədə quruculuq tədbirləri ilə yadda qalan olmuşdur. Azərbaycan Səfəvi imperiyası hökmdarlarının bir çoxunun xanımlarının məhz gürcü əsilzadələrinin övladlarından olması bu ölkəyə xüsusi diqqət yetirilməsinə səbəb olmuşdur.[10] Lakin XVII əsrdə bütün ölkə miqyasında baş verən iqtisadi tənəzzül prosesləri, eləcə də xarici müdaxilənin güclənməsi bütün Səfəvilər dövlətində olduğu kimi Gürcüstana da təsirsiz ötüşməmiş, baş verən müharibələr və iqtisadi əlaqələrin xeyli dərəcədə zəifləməsi nəticəsində XVII əsrdə Gürcüstan hədsiz dərəcədə yoxsullaşmışdı. XVIII əsrdə gürcü hakimləri çar Rusiyasına müraciət edib Gürcüstanı bu imperiyaya birləşdirməyi xahiş etdilər.

Gürcüstan və Rusiya arasında 1783-cü ildə bağlanmış Georgiyevsk müqaviləsinə əsasən Kartli-Kaxeti çarlığı üzərində Rusiyanın protektoratlığı bərqərar oldu.[11]

[10] Калбизаде Э. Диларам-султан. Грузинка при сефевидском дворе // «Каспий» № 85 (981), 12 мая 2018, с. 18.

[11] Мераб Вачнадзе, Вахтанг Гурули, Михаил Бахтадзе. История Грузии (с древнейших времен до наших дней) /www.e-reading.club/bookreader.php/4682/Bahtadze%2C_Vachnadze%2C_Guruli_Istoriya_Gruzii_%28s_drevneiishih_vremen_do_nashih_dneii%29.html



1795-ci ildə keçmiş Səfəvilər imperiyasının sərhədlərində dövlət nəzarətini bərpa etməyə çalışan Ağa Məhəmməd şah Qacar Tiflisə hücum etdi. İqtisadi və siyasi cəhətdən xeyli zəifləmiş olan Qacara qarşı gürcülərin ruslarla anlaşması şahın qəzəbinə səbəb olmuş, bu səbəbdən də o, Tiflis şəhərini darmadağın etmişdi.

1798-ci ilin yanvarında XII Georgi Rusiya imperatoru I Paveldən Gürcüstanı-Kartli-Kaxetini Rusiyanın tərkibinə daxil etməyi xahiş etdi. 1802-ci il mayın 8-də yeni idarəetmə-"Gürcüstanın ali hökuməti" yaradıldı. 1803-cü ildən geniş səlahiyyətli general Pavel Sisianov (Sisişvili) Tbilisidə yeni idarəçiliyi həyata keçirməyə başladı.

XIX əsrin sonu XX əsrin əvvəllərində Gürcüstanda milli azadlıq hərəkatı gücləndi. 1918-ci ildə Gürcüstan Demokratik Respublikası yaradıldı.

1921-ci ilin fevralında XI Qırmızı Ordu hissələri Gürcüstanı işğal edərək onu sovetləşdirdi. 1922-1924-cü illərdə ölkədə sovet hökumətinə qarşı antisovet üsyanları baş verdi.

II Dünya müharibəsi zamanı SSRİ respublikalarından biri kimi Gürcüstan SSR də Böyük Vətən müharibəsində fəal iştirak etmişdir. Müharibə zamanı bir neçə milli gürcü diviziyası təşkil olunmuş və onlar alman qoşunları ilə döyüşmüşlər. Müharibədən sonrakı dövrdə həm iqtisadi, həm də gizli ideoloji proseslərin təsiri nəticəsində Gürcüstanda 1956-cı ildə hökümətə qarşı kütləvi çıxışlar baş verdi. 1970-ci illərdə E.Şevardnadzenin Gürcüstan KP MK-nın birinci katibi seçilməsi və onun uzun müddət ölkəyə başçılıq etməsi Gürcüstanın siyasi və iqtisadi həyatında yeni mərhələnin yaranmasına səbəb oldu. XX əsrin 80-ci illərində E.Şevardnadze SSRİ rəhbərliyinə irəli çəkildiyinə-SSRİ xarici işlər naziri vəzifəsinə təyin edildiyinə görə onu C.Patiaşvili əvəz etdi.

1989-cu ildə Gürcüstan SSRİ tərkibindən çıxmaq uğrunda mübarizəyə başladı. 1991-ci ilin martında Gürcüstan hakimiyyəti SSRİ-nin gələcəyi haqqında referendumun keçirilməsindən imtina etdi, bunun əvəzində həmin ilin mart ayının 31-də Gürcüstanın müstəqilliyi haqqında referendum keçirdi. Referendumda iştirak edən 95% seçicidən 93%-i Gürcüstanın müstəqilliyinə səs verdi. Referendum nəticəsində 1991-ci ilin aprelin 9-da Gürcüstanın Ali Soveti müstəqilliyin bərpası haqqında aktın qəbul edilməsini təsdiqlədi. "Dəyirmi Masa-Azad Gürcüstan" millətçi blokun-

dan olan və milli-azadlıq hərakatının genişləndiyi bir dövrdə hərəkatda fəal iştirak etmiş Zviad Qamsaxurdiya Ali Sovetin sədri seçildi.[12]

1991-ci il aprelin 14-də Ali Sovetin fövqəladə iclası zamanı Zviad Qamsaxurdiya Gürcüstanın birinci prezidenti elan edildi. Mayın 26-da ilk prezident seçkilərində Zviad Qamsaxurdiya seçicilərin 87%-nin səsini toplamaqla qələbə qazandı. O, Ali Sovet kimi 5 il müddətinə heç bir maneə olmadan vəzifələrini icra etmək üçün seçilmişdi. Zviad Qamsaxurdiyaya hakimiyyətdə qanunvericiliyə əsaslanan geniş səlahiyyətlər verilmişdi. O, özünün məşvərətçi komissiyasını təşkil edə bilərdi, Ali Sovetin razılığı ilə bütün kabineti dəyişdirə və baş naziri vəzifəsinə təyin edə bilərdi. Ali Sovetin komissiyasına sədr təyin etmə səlahiyyəti var idi. O, həmçinin Ali Sovetin qərarlarına veto qoya və ya şuranı buraxa, Nazirlər Kabinetinin fəaliyyətini dayandıra və inzibati rayonlar yarada, muxtar respublikaların idarəçiliyində iştirak edə bilərdi.

Zviad Qamsaxurdiyanın milli siyasəti nəticəsində hələ ölkənin yeni hakimiyyətinə uyğunlaşa bilməmiş xeyli sayda digər millətlərindən olan əhali ölkəni tərk etməli oldu. Gürcü dilini mükəmməl bilmək yeni qurulmuş və təşkil edilmiş dövlət strukturlarında ən ilkin tələblərdən biri olduğundan bu gürcü dilini zəif bilən digər xalqlar üçün maneələr yaradırdı. Zviad Qamsaxurdiya tərəfindən səsləndirilən "Gürcüstan gürcülər üçündür" şüarı nəinki Gürcüstanda yaşayan digər millətlərin ona qarşı çıxmasına, hətta gürcülərin özlərinin belə narazılığına səbəb oldu.

Bunun kimi bir sıra səbəblər və ilk prezidentin yalnış addımları onun keçmiş tərəfdarlarının müxalifətə keçməsinə səbəb oldu. Məsələn baş nazir Tengiz Siqua, Milli Qvardiyaya rəhbərlik edən Tengiz Kitovani dövlət başçısı Zviad Qamsaxurdiyanın istefasını tələb etməyə başladılar.[13] Bu istiqamətdə genişlənən etiraz dalğaları tezliklə 1991-ci ilin dekabrı-1992-ci ilin yanvarında hərbi çevrilişlə nəticələnən vətəndaş müharibəsinə gətirib çıxartdı və Gürcüstanın ilk prezidenti Zviad Qamsaxurdiya hakimiyyətdən devrildi. O, vəzifəsini tərk edib gizlənmək məcburiyyətində qaldı. Bir müddət Ermənistanda, daha sonra Qroznıda olan keçmiş prezident Gürcüstanın Sameqrelo bölgəsində qaçaq olmasına baxmayaraq, gizli hakimiyyət qurmağa cəhd göstərdi. Bir neçə ay sonra kütləvi informasiya

[12] Первому президенту Грузии исполнилось бы 78 лет www.sputnik- georgia.ru/-society/20170331/235426496/Pervomu-prezidentu-Gruzii-ispolnilos-by-78let.html

[13] 1991 წლის 22 დეკემბერს თბილისის ომი დაიწყო. 22.12.2017 / / www.tabula.ge/-ge/story/127954-1991-tslis-22-dekembers-tbilisis-omi-daitsko



vasitələrinin yaydığı məlumata əsasən məlum oldu ki, 1992-ci il dekabrın 31-də Sameqrelo regionunun Dzveli Xibula kəndində keçmiş prezident Zviad Qamsaxurdiya vəfat edib. Onun ölümü haqqında iki fikir var idi: o, ya öldürülmüş, ya da özünə qəsd etmişdi. Parlament Komissiyası hadisəni araşdırdıqdan sonra belə bir qənaətə gəldi ki, keçmiş prezidentə qarşı sui-qəsd təşkil edilmiş və o öldürülmüşdür.[14]

Bundan sonra yaradılmış Hərbi Şuraya Milli Qvardiyanın komandiri Tengiz Kitovani rəhbərlik etməyə başladı. O, hakimiyyəti ələ alıb parlamenti buraxdı və Konstitusiyanın fəaliyyətini dayandırdı. 1992-ci ilin martında Hərbi Şura özünü buraxmaq haqqında qərar qəbul etdi və 36-sı müxalif partiyadan olmaqla 70 nümayəndədən ibarət Dövlət Şurası yaratdı. Dövlət Şurasının sədri E.A.Şevardnadze təyin edildi. 1992-ci ilin oktyabr ayında yeni parlamentin təşkili üçün seçkilər keçirildi. E.Şevardnadze seçicilərin 96% səsini toplamaqla parlamentin sədri seçildi. 235 yerlik parlamentdə 26 partiya təmsil olunurdu ki, onlar da 11 fraksiyada birləşmişdilər. Parlamentə əksər səlahiyyətlər həvalə olunsa da, o hakimiyyəti dəyişdirə bilməz (2/3 səs çoxluğu ilə) və yeni seçkilərin keçirilməsinə dair qərar verə bilməzdi.

Yeni hakimiyyət milli siyasət sahəsində xeyli dəyişiklik etdi. Artıq Zviad Qamsaxurdiyanın şüarları səslənmirdi. Lakin zaman-zaman mövcud vəziyyət pisləşirdi: kütləvi şəkildə elektrik və qaz kəsilirdi. Əvvəllər mövcud olmuş dövlət strukturları fəaliyyətini dayandırmış, zavodların və fabriklərin mülkü dağıdılmış, avadanlıqlar metal qalıqları şəklində qonşu ölkələrə daşınmışdı. İqtisadiyyatı zəifləmiş ölkə ağır böhran dövrünü keçirir, küçələrdə qanunsuz ticarətçilər artır, cinayət halları və Gürcüstanda uzun müddət davam edən korrupsiya kök salırdı. Ardı-arası kəsilməyən iqtisadi və hərbi böhranlar ucbatından ölkə acınacaqlı vəziyyətə düşmüşdü və hakimiyyət orqanları əlavə səlahiyyətlərdən istifadə etməyə başlamışdılar.

1992-ci ilin sonlarında E.Şevardnadze öz tərəfdarlarından ibarət Nazirlər Kabineti təşkil etdi. 1992-ci il oktyabr seçkilərinə qədər ölkəni 70 nəfərdən ibarət və əksəriyyətini müxalif partiyanın təşkil etdiyi Dövlət Şurası idarə edirdi.

Prezident seçkilərindən və konstitusiya referendumundan sonra 1995-ci ilin oktyabr ayında Gürcüstan demokratik respublika elan edildi.

[14] Звиад Гамсахурдия: от президента до беглеца. 12.09.2014 // www.ria.ru/radio/-20140912/1023778451.html

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Eduard Şevardnadze Gürcüstanın ikinci prezidenti oldu. O, 1995-ci ildən 2003-cü ilə qədər dövlətə rəhbərlik etdi.[15]

Bu dövrdə Gürcüstan beynəlxalq hüququn bütün konvensiyalarına qoşuldu. Lakin buna baxmayaraq, ölkənin vəziyyəti ağır olaraq qalırdı. Əhalinin böyük əksəriyyəti işsizlikdən əziyyət çəkir, yalnız bir neçə min vətəndaş müxtəlif strukturlarda işləyən tanışları olduğu üçün çalışa bilirdilər. Əksəriyyət isə yalnız ticarətlə məşğul olurdu.

Bir çoxları E.Şevardnadzenin hakimiyyətə gəlməsində Rusiyanın əli olduğunu düşünsə də, məhz onun dövründə Rusiya Gürcüstanla viza rejimini tətbiq etdi və həmin dövrdə əsas iqtisadi əlaqələr pozuldu. İqtisadi böhran getdikcə artırdı, əhalinin yoxsulluq dərəcəsi və işsizlərin sayı gündən-günə daha da çoxalırdı. Faktiki olaraq Gürcüstan əcnəbi dövlətlərin verdiyi borclar və iqtisadi yardımlar əsasında mövcudluğunu davam etdirə bilirdi, lakin borclarla iqtisadiyyatı inkişaf etdirmək cəhdləri müsbət effekt vermədi. 2003-cü ilin yayında Gürcüstanın ümumi borcu 1,75 milyard ABŞ dollarına çatdı. Bu isə respublikanın tamamilə iflası demək idi. Hakimiyyət sistemi korrupsiyanın təsirindən zəifləmişdi. Şevardnadze siyasətində Rusiya ilə Qərb arasında tərəddüd etməkdə davam edirdi və məhz bu amil xarici siyasətdə Rusiya ilə bərabər bir çox Qərb ölkələrinin də narazılığına səbəb olurdu (sonuncular iqtisadi və siyasi islahatların keçirilməməsi və yüksək dərəcədə korrupsiya hallarının baş alıb getməsindən narazı idilər).

Bütün bu şərtlər daxilində Gürcüstanda 2003-cü ildə növbəti parlament seçkiləri keçirildi. Həmin dövrün rəsmi məlumatlarına görə, parlamentə E.Şevardnadzenin, Aslan Abaşidzenin və M.Saakaşvili-Z.Jvaniyanın bloku daxil oldu. Lakin seçkinin nəticələri müxalif liderlərindən-Mixeil Saakaşvili, Zurab Jvaniya və Nino Burcanadzeni razı salmadı. Buna görə də onlar Qərb ölkələrinin, bir sıra beynəlxalq və qeyri-hökumət təşkilatlarının yardımı ilə kütləvi etiraz aksiyaları keçirməyə başladılar.[16]

M.Saakaşvili, N.Burcanadze və Z.Jvaniyanın rəhbərliyi ilə müxalif qüvvələr tərəfindən "Qızılgül inqilabı" baş tutdu və onlar parlament seçkilərinə yenidən keçirilməsi tələbi ilə çıxış edib, prezident E.Şevardnadzenin hakimiyyətdən getməsini istədilər. Təzyiqlər nəticəsində E.Şevardnad-

[15] Шеварднадзе и его роль в судьбе советской страны. 25.01.2018 // www.topwar.ru/-134473-shevardnadze-i-ego-rol-v-sudbe-sovetskoy-strany.html

[16] «Революция роз» и приход к власти М. Саакашвили. 11.07.2016 // www.hyno.ru/-tom1/589.html



ze elə həmin gün istefa verdi. Prezidentin vəzifələrini müvəqqəti olaraq N.Burcanadze yerinə yetirirdi. Vaxtından əvvəl prezident seçkiləri 2004-cü il yanvarın 4-də keçirildi. Mixeil Saakaşvili Gürcüstanın yeni prezidenti seçildi.

2004-cü il fevralın 6-da respublika parlamenti konstitusiyada dəyişikliklər edərək Baş Nazir vəzifəsini və Nazirlər Kabinetini bərpa etdi. Parlament 3/5 səs çoxluğu ilə hakimiyyəti buraxmaq səlahiyyəti aldı. Konstitusiyaya görə, parlament Baş Nazirin təyin olunmasını üç dəfə təsdiqləməsə və dövlətin büdcəsini müəyyən etməsə prezident onu buraxa bilərdi.

Saakaşvilinin rejiminə 2011-ci ildə siyasətə daxil olmasını elan edən və 2012-ci il parlament seçkilərində "Gürcü Arzusu" Partiyasını yaradan Bidzina İvanişvili son qoydu. 2013-cü ildə G.Marqvelaşvili Gürcüstan Prezidenti seçildi.

**Dövlət quruluşu.** 1995-ci ildə qəbul edilmiş Konstitusiyaya əsasən Gürcüstan dualist idarəetmə üsuluna malik respublikadır. Milli bayram hesab olunan müstəqillik günü iki dəfə - (1918) 26 may və (1991) 9 aprel tarixlərində qeyd edilir. Ölkə Konstitusiyası 1995-ci il avqustun 24-də qəbul olunmuşdur. 2010-cu il oktyabrın 15-də ona yenidən əlavələr və dəyişikliklər edilmişdir.[17]

**Valyuta.** Müstəqil Gürcüstanda dövriyyədə olan valyuta 1993-cü il aprelin 5-dək Sovet rublu, 1995-ci il oktyabrın 2-dək kupon idi. 1995-ci ildən onu gürcü larisi əvəz etdi.

**Dövlət başçısı.** İdarəetmə forması respublika olan Gürcüstanın dövlət başçısı prezidentdir. Prezident ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. Gürcüstanın mövcud Konstitusiyasına görə, bir namizəd iki müddətdən əlavə ölkə prezidenti vəzifəsinə seçilə bilməz.

Dövlət başçısı, silahlı qüvvələrin ali baş komandanı, xarici əlaqələr üzrə Gürcüstanın ən yüksək təmsilçisi sayılan prezident ölkənin daxili və xarici siyasətini istiqamətləndirir, xalqın milli birlik və bütövlüyünü, habelə dövlət qurumlarının və digər orqanların fəaliyyətini təmin edir, formal olaraq Baş Naziri təyin edir. Qeyd etmək lazımdır ki, hazırda səlahiyyətlər Baş Nazirə həvalə olunmuşdur.[18]

[17] О структуре, полномочиях и порядке деятельности правительства Грузии. // www.matsne.gov.ge/ru/document/view/2062

[18] პრეზიდენტის უფლებამოსილება. // www.president.gov.ge/ka-GE/prezidenti/-prezidentis-uflebamosileba.aspx

2010-cu ildə Gürcüstanda konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində dövlət başçısının səlahiyyətləri nəzərəçarpacaq dərəcədə məhdudlaşdırılmışdır.

Gürcüstanın daxili siyasi şəraiti ümumiyyətlə, çox dəyişkəndir. Bunun səbəbləri kimi isə Gürcüstanın daxilində baş verən çəkişmələr, xalqın etirazı, terror hadisələri, mitinqlər, siyasi mübarizələri göstərmək olar.

**Ali qanunverici hakimiyyət orqanı.** 1906-1917-ci illərdə Gürcüstandan deputatlar Rusiya imperiyasının Dövlət Dumasında iştirak edirdilər. Onların arasında Noy Jordaniya, İrakli Tsereteli, İliya Çavçavadze, Karlo Çxeidze və digər görkəmli siyasi xadimlər var idi. 1918-ci ildə ilk parlamentli Gürcüstanın Demokratik Respublikası yaradıldı. 1921-ci ildən etibarən Sovet hakimiyyəti dövründə Gürcüstan SSR təkpartiyalı sistem şəraitində mövcud olmuşdur. Qanunverici orqan Gürcüstan SSR Ali Soveti idi. Gürcüstan Kommunist Partiyası Sov.İKP-nin tərkib hissəsi idi. 1990-cı il oktyabrın 28-də keçirilən ilk çoxpartiyalı seçkilərdə Zviad Qamsaxurdiya Gürcüstan SSR Ali Sovetinin Sədri, sonra isə ölkənin ilk prezidenti seçilmişdir.

Müasir Gürcüstanda ali qanunverici orqan Gürcüstan parlamentidir. 150 üzvdən ibarət birpalatalı parlamentə deputatlar ümumi seçkilər yolu ilə 4 il müddətinə seçilirlər.[19] Parlamentin 75 üzvü birmandatlı dairələr üzrə, digər yarısı isə partiya siyahıları sistemi üzrə seçilirlər.

Parlamentin hökumətə etimadsızlıq göstərmək, prezidentin veto hüququnu 3/5 səs çoxluğu ilə ləğv etmək, Nəzarət Palatası vasitəsilə dövlət büdcəsinin istifadəsinə nəzarət etmək və s. digər mühüm səlahiyyətləri vardır.

Parlamentin iki sessiyası keçirilir. Bunlar yaz (fevral-iyun) və payız (sentyabr-dekabr) sessiyalarıdır. Plenar iclaslarında və komitələrin fəaliyyətində alternativ həftə vardır. Konstitusiyaya görə, Gürcüstan parlamentinin qanunvericilik hakimiyyətinə muxtar respublikaların parlamentləri də daxildir.

**İcraedici orqan.** İcraedici orqan Parlament seçkilərində qalib gəlmiş siyasi partiyaların lideri və namizədliyi prezident tərəfindən təqdim edilən Baş Nazirin rəhbərlik etdiyi Nazirlər Kabinetidir. Nazirlər Kabineti

[19] საკანონმდებლო ხელისუფლება. // www.nplg.gov.ge/gsdl/cgi-bin/library.exe?e=d-01000-00---off-0samartal--00-1----0-10-0---0---0prompt-10---4-------0-1l--11-ka-50---20-about---00-3-1-00-0-0-11-1-0utfZz-800&cl=CL1.11&d=HASH018e083605e388a0f0c0f1-d1.5.2.1&gt=1



ali qanunverici orqan qarşısında idarəçilik məsuliyyəti daşıyır. Bununla belə, hökumət dövlət büdcəsinin layihəsini, ratifikasiya məqsədilə beynəlxalq müqavilələri və s. parlamentə təqdim etməkdə, habelə səfir və diplomatik nümayəndəliyin başçısı vəzifəsinə təyin edilmək məqsədilə namizədlərin prezidentə təqdimatında səlahiyyətlidir.[20]

**İnzibati-ərazi bölgüsü.** Gürcüstan 2 muxtar respublikadan və 9 diyardan ibarətdir. Muxtar respublikalara Acarıstan və Abxaziya aiddir. Onların hər ikisi sovet dövründə yaradılmışdır və müasir Gürcüstan Konstitusiyası tərəfindən tanınırlar. Separatçı Cənubi Osetiya (Tsxinvali regionu) isə inzibati baxımdan Şida Kartli regionuna daxildir. Digər 9 region isə Quriya, İmeretiya, Kaxetiya, Yuxarı Kartli, Msxeta-Mtianeti, Raça-Leçxumi və Kvemo Svaneti, Sameqrelo-Zemo Svaneti, Samtsxe-Cavaxeti, Aşağı Kartli regionlarıdır. Bu regionlar özləri də inzibati olaraq rayonlara bölünürlər. Bütövlükdə Gürcüstanda 72 rayon mövcuddur.

Gürcüstan ərazisi hazırda ümumi olaraq 76 bələdiyyəyə bölünmüşdür. Gürcüstanda ölkənin paytaxtı Tbilisi də olmaqla 12 muxtar şəhər və 64 icma mövcuddur. İki muxtar respublika və Tbilisi xaricindəki bələdiyyələr müvəqqəti olaraq doqquz bölgə üzrə qruplaşdırılmışdır: Quriya, İmereti, Kaxeti, Aşağı Kartli, Msxeta-Mtianeti, Raça-Leçxumi və Aşağı Svaneti, Sameqrelo - Yuxarı Svaneti, Samtsxe-Cavaxetiya və Şida Kartli. Tbilisinin özü də 10 rayona bölünmüşdür.[21]

**Gürcüstan silahlı qüvvələri.** Müstəqillinin bərpasına qədər Gürcüstanda 200 mindən artıq sovet hərbi qulluqçusu var idi. 1994-cü ildə Rusiya ilə ikitərəfli razılaşmadan sonra Rusiya hərbi qüvvələrinin sayı 20 min nəfərə qədər azaldıldı. Onlar Gürcüstanda üç əsas hərbi bazada yerləşmişdilər.

1990-cı ilin noyabrında Gürcüstan Milli Qvardiyası yaradıldı. Daha sonralar bu qvardiyanı 1992-ci ilin yazında yaradılmış hərbi qüvvələrin tərkibinə daxil etdilər. Yarıhərbi təşkilat olan "Mxedrioni" faktiki olaraq dövlət tərəfindən "Gürcüstanı Xilas edən Korpus"a daxil edilməsinə baxmayaraq, əlahiddə qurum kimi fəaliyyət göstərirdi. 1994-cü ilin yayında yeni müdafiə naziri 20 minlik ordunu yenidən təşkil etməyə başladı. Möv-

[20] აღმასრულებელი ხელისუფლება. / www.gil.mylaw.ge/ka/term/154.html

[21] საქართველოს გეოგრაფია / www.geocodna.wordpress.com/category/%E1%83%A1-%E1%83%90%E1%83%A5%E1%83%90%E1%83%A0%E1%83%97%E1%83%95%E1-%83%94%E1%83%9A%E1%83%9D%E1%83%A1-%E1%83%92%E1%83%94%E1%8-3%9D%E1%83%92%E1%83%A0%E1%83%90%E1%83%A4%E1%83%98%E1%83%90/

cud orduda intizam qaydaları yox idi, hərbi xidmətdən yayınma artmışdı, köhnə və istifadəyə yarasız silahlardan istifadə edilirdi. 1995-ci il Konstitusiyası “Hərbi xidmətə çağırış haqqında”, “Müdafiə haqqında”, “Hərbi vəziyyət haqqında” qanunlar qəbul etməklə Gürcüstanda silahlı qüvvələrin qanunvericilik bazası əsasını formalaşdırdı. Elə həmin ildə də parlament ölkənin hərbi doktrinasını qəbul etdi.

Gürcüstanın silahlı qüvvələri Müdafiə Nazirliyinə tabe olan ordudan, həmçinin daxili və xarici qoşun və dövlət təhlükəsizliyi briqadalarından təşkil olunmuşdur. Silahlı qüvvələrin Ali Baş Komandanı Gürcüstan Prezidentidir. 1995-ci ildə Gürcüstanın silahlı qüvvələri aşağıdakı tərkibdən ibarət idi:

- Quru qoşunları;
- Hərbi-dəniz qüvvələri;
- Hərbi-hava qüvvələri;
- Hava müdafiə qurğuları;
- Milli Qvardiya və Respublika təhlükəsizlik qüvvələri

Hərbi xidmətə çağırış 18 yaşındandır. Şəxsi heyətin ümumi sayı 25-30 min nəfərə yaxındır.

Eyni zamanda, 1997-ci ilədək əsasən, 15-dən 49-a qədər olan 1 milyon 289 min nəfər səfərbər edilə bilərdi. Ölkədə hər il 40,8 min nəfər çağırış yaşına çatır.[22]

Gürcüstan parlamenti silahlı qüvvələrin gücünü və müdafiə xərclərini təsdiq edir. Qərb ölkələri ilə hərbi əməkdaşlıq tədricən genişlənir. 1996-1997-ci illərdə Gürcüstan silahlı qüvvələri ilk dəfə genişmiqyaslı hərbi təlimlər keçirdi.

1996-cı ildə ABŞ-da "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilən təlimlərdə Gürcüstan ordusunun bir qismi iştirak etdi. Gürcüstan sərhəd qoşunları ABŞ-dan əhəmiyyətli yardım alır.

“Qızılgül inqilabı”ndan sonrakı dövrdə Gürcüstan silahlı qüvvələri NATO standartları əsasında formalaşdırıldı. 2003-cü ildə hakimiyyətə gələn Mixeil Saakaşvili ölkədə digər sahələrlə yanaşı ordu quruculuğu sahəsində də ciddi islahatlara başladı. İlk növbədə ordunu Rusiya sistemindən NATO standartlarına keçidinə başladı. Digər sahələrdən fərqli olaraq, silahlı qüvvələrin modernləşdirilməsi daha sürətlə aparıldı və demək olar ki, ölkə büdcəsinin çox hissəsi ordu quruculuğuna yönəldildi. Məhz ölkənin xarici dövlətlərdən aldığı çoxsaylı kreditlər bu gün Gürcüstan üçün böyük həcmdə borc yaratmışdır.

[22] საქართველოს შეიარაღებული ძალები: ისტორიული მიმოხილვა. // www.nplg.-gov.ge/gsdl/cgi-bin/library.exe?e=d-00000-00---off-0civil2--00-1----0-10-0---0---0prompt-10---4-------0-11--10-ka-50---20-about---00-3-1-00-0-0-01-1-0utfZz-8-00&a=d&cl-=CL2.20&d=HASH019c62a824c8d16c8515c324.2



**İqtisadiyyat.** Gürcüstanın iqtisadiyyatı həm xammal ehtiyatlarından, həm də sənaye və aqrar sahələrindən ibarətdir. Gürcüstanın ən mühüm faydalı qazıntı ehtiyatları marqans, mis, qurğuşun, sink filizi və digər metal filizi yataqları, həmçinin neft və daş kömürdür. Gürcüstanın əsas neft yataqları Kolxida düzənliyində və Kaxetiya regionunun cənub hissəsində, Azərbaycanla sərhəd ərazilərdə yerləşir. Neft yataqları 350-1500 metr dərinliklərdədir. Daş kömür ehtiyatları əsasən Qərbi Gürcüstanda yerləşir. Onun ehtiyatları bir neçə yüz milyon tondur. Dəmir filizi ehtiyatı 150 milyon ton, marqans yataqları ehtiyatı 50 milyon ton həcmində dəyərləndirilir.

Gürcüstan çox sayda termal və mineral su mənbələri ilə də zəngindir. Gürcüstan sənaye-aqrar ölkəsidir. Sənayenin aparıcı sahələri-yeyinti (çay, meyvə, konserv, şərabçılıq, ətirli efir yağı, mineral su istehsalı), yüngül, kimya, neft-kimya və neft emalı sənayesi, qara metallurgiyadır. Ölkədə marqan, daş kömür, əlvan metal mədənləri vardır. Barıt hasil edilir, çay, sitrus, dəfnə yarpaqları, üzüm yığılır, meyvəçilik inkişaf edir, dənli bitkilər – taxıl, qarğıdalı, arpa əkilir. Heyvandarlığın əsas sahələri ətçilik, südçülük, qoyunçuluq, maldarlıq, donuzçuluq, balıqçılıq, quşçuluqdur.

Gürcüstanın sosial-iqtisadi inkişafını üç dövrə ayırmaq olar: Birinci dövr - müstəqilliyin ilk illərində 90-cı illərdə ağır iqtisadi vəziyyət; ikinci dövr - yeni sosial-iqtisadi inkişaf modellərinin axtarışı dövrü; üçüncü dövr – müasir sosial-iqtisadi və strateji prespektiv inkişaf dövrüdür.[23]

Müstəqilliyin ilk dövrlərində vahid sovet təsərrüfatının dağılması, Rusiya ilə bazarın itirilməsi daxili münaqişələr Gürcüstanda ciddi iqtisadi problemlər yaratdı. Mütəşəkkil təchizat, ehtiyat təminatının kəsilməsi, işçi qüvvəsinin azalması, kütləvi yoxsulluğun artması, ölkədən əhalinin mühacirət axını, transformasiya tənəzzülünə gətirib çıxartdı (1991-1994-cü illərdə). Həmin illərdə vergidən yayınma halları da müşahidə olunurdu. Bu, qismən siyasi qarşıdurma və etno-siyasi müharibələrin nəticəsində baş verdi. 1990-1993-cü illər ərzində ümumi daxili məhsul (ÜDM) orta hesab-

[23] საქართველოს სოციალურ-ეკონომიკური განვითარების სტრატეგია. // www.-mrdi.gov.ge/sites/default/files/1_sakartvelos_socialur-ekonomikuri_ganvitarebis_-strategiis-_-_sakartvelo_2020.pdf

la bir ildə 28% azaldı və alıcılıq qabiliyyəti baxımından adambaşına 4,433 dollardan 1,437 dollara düşdü. 1995-ci ildən başlayaraq ölkənin iqtisadi böhrandan çıxması üçün tədbirlər görüldü. 1995-ci ildə isə istehsal 1990-cı illə müqayisədə 78% azaldı.[24] Bu göstərici hətta ABŞ-dakı "Böyük böhran" zamanı istehsalatın aşağı düşməsindən üç dəfə artıq idi. Şərqi Avropanın digər post-sosialist ölkələri də eyni böhranı yaşadı. Bundan əlavə, bu ölkələrdə 4 il orta hesabla davam edən böhran, bəzi postsovet ölkələrində 7 il davam etdi. Gürcüstanın iqtisadi geriləməsi nisbətən qısa müddət davam etməsinə baxmayaraq, daha dərin idi. Bundan əlavə qara bazar da ölkə iqtisadiyyatına ağır zərbə vururdu.

Yeni qanunvericilik aktları, kodekslər qəbul olundu. Ölkədə Rustavi Metallurgiya Kombinatı, Tbilisi Aviasiya Dövlət Birliyi, Çiatura Marqans, Zestafoni Ferroərinti Zavodu, İnquri SES fəaliyyətə başladı.[25]

2003-cü ildən Gürcüstan iqtisadiyyatında dönüş mərhələsi başladı. İqtisadi islahatlar nəticəsində ölkənin beynəlxalq nüfuzu artdı. Bu dövrdə Gürcüstan Avropa tipli iqtisadiyyat modelindən uzaqlaşaraq "sinqapurlaşma" modelinə üstünlük verdi.[26]

Ölkənin təbiəti turizmin və kurortların inkişafına geniş şərait yaratmışdır. Mövcud olan 50-dən artıq kurort-turizm bölgələrindən ən məşhuru Borjomi və Tsaxaltubodur.

Əlverişli coğrafi mövqedə yerləşən, Avropa və Asiya arasında körpü rolunu oynayan, təbii ehtiyatları, iqtisadiyyatı, qlobal iqtisadi ticarət əlaqələri inkişaf edən Gürcüstan Avropada və dünyada müstəqil dövlət, əlverişli iqtisadi məkan kimi tanındı.

Gürcüstan iqtisadiyyatı aşağıdakı sənaye sahələrindən: ağır, yüngül, aviasiya, mikroelektronika, qaz, kağız, yeyinti, neft, neft emalı, maşınqayırma, gəmiqayırma, müdafiə, metallurgiya, meşə, elektrik enerjisi, tikinti materialları sənayesi, elektron, dərman sənayesindən, kənd təsərrüfatı-heyvandarlıq və bitkiçilikdən ibarətdir. Ölkədə dəmiryol, avtomobil, hava,

[24] European Union, Trade in goods with Georgia, European Commission 2015. www.trade.ec.europa.eu/doclib/docs/2006/september/tradoc_111507.pdf

[25] ძეგლის სტატუსი - „ენგურჰესის" თაღოვან კაშხალს. 21.08.2015 // www.-radiotavisupleba.ge/a/engurhesis-kashkhlis-statusi/27201504.html

[26] სინგაპურის ეკონომიკური მოდელი და მისი ანალოგი საქართველოში // www.eprints.iliauni.edu.ge/5219/1/Pages%20from%20biz%20%-2856%29.pdf



dəniz, çay nəqliyyatı, boru-kəmər, şəhər nəqliyyat vasitələri mövcuddur. Gürcüstanda İKT, telekommunikasiya inkişaf etdirilmişdir.

Əlverişli sərmayə mühiti Avropa İttifaqının və Azərbaycanın Gürcüstana investisiya qoyması ilə nəticələndi. Əhalinin əsas gəlirləri əmək haqqı və təqaüdlərdir.

Lakin müstəqilliyin əldə edilməsi və 90-cı illərin islahatları bazar iqtisadiyyatının formalaşmasına zəmin yaratdı. Postsovet ölkələrinin əksəriyyəti kimi Gürcüstanda da iqtisadi keçid strategiyasının inkişafı ərəfəsində bazar iqtisadiyyatına uyğunlaşma tədricən baş verirdi. Ancaq müxtəlif siyasi, iqtisadi və institusional amillər sayəsində bazar iqtisadiyyatı istənilən səviyyədə reallaşa bilmirdi. Bunun üçün isə köklü və radikal dəyişikliklər etmək lazım idi .

Gürcüstanda sosial-iqtisadi islahatların ilkin mərhələlərində iqtisadçıların böyük əksəriyyəti bazar iqtisadiyyatına tədricən keçidi dəstəklədilər, lakin bazar iqtisadiyyatına keçən postsovet ölkələrinin iqtisadiyyatı böyük çətinliklərlə qarşılaşdı. Daha radikal dəyişikliklər etmək lazım idi. Bu dövrdə yeni iqtisadi inqilab köhnə stereotipləri dağıtmalı və əhəmiyyətli sayılan bazar iqtisadiyyatına keçidi bu yeni iqtisadi münasibətləri reallaşdıra bilməyən bir ölkədə gerçəkləşdirməli idi.

Aparılan sosial-iqtisadi siyasət, ölkənin zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi, tranzit-kommunikasiya funksiyasını yerinə yetirməsi, həyata keçirilən islahatlar, qiymətlərin, xarici ticarətin liberallaşdırılması, özəlləşdirmə, böhran əleyhinə proqramlar, torpaq islahatı, investisiya, vergi, büdcə siyasəti, pul islahatı sayəsində tənəzzülün qarşısı alındı və ölkə iqtisadi inkişaf yoluna qədəm qoydu.

# I FƏSİL

# XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ GÜRCÜSTANIN DAXİLİ İCTİMAİ ŞƏRAİTİ

## 1.1. Böhrandan inkişafa doğru

**Gürcüstan Zviad Qamsaxurdiyanın hakimiyyəti illərində.** Zviad Konstantinoviç Qamsaxurdiya Gürcüstanın ilk prezidenti, ictimai, siyasi və dövlət xadimi hesab olunur. O, 1939-cu il martın 31-də Tbilisidə Gürcüstan ədəbiyyatının görkəmli nümayəndəsi Konstantin Qamsaxurdiya və Miranda Palavandaşvilinin ailəsində anadan olmuşdur.

Zviad Qamsaxurdiya 1954-cü ildə Merab Kostava ilə birlikdə "Qorqaslani" adlı gizli gənclər təşkilatı yaratdılar. O, 1958-ci ildə antikommunist ədəbiyyatı yaydığına görə həbs olunub 6 aylıq psixatriya xəstəxanasına salındı. 1961-ci ildə Qamsaxurdiya Tbilisi Dövlət Universitetinin Qərb dilləri fakültəsini bitirərək filoloq ixtisasına yiyələnmişdir. 1965-ci ildə Tbilisi Sioni məbədinin kilsə şurasının 1970-ci ildə isə Gürcüstan Yazıçılar İttifaqının üzvü seçilmişdir.[27]

Antisovet fəaliyyət göstərdiyinə görə SSRİ DTK-sı onu təqib etmişdir. 1977-ci il aprelin 7-də o, Merab Kostava ilə birlikdə həbs edilərək iki il Dağıstana sürgün edilmiş, 1979-cu ilin iyununda isə Gürcüstan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə əfv olunmuşdur. Z.Qamsaxurdiya bundan sonra Tbilisidə Gürcüstan Dillər İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır.

1975-1976-cı illərdə Z.Qamsaxurdiya M.Kostava ilə birlikdə gürcü dilində "Qızıl dəri" və "Gürcüstan xəbərləri" jurnalının nəşrinə başladılar. O, 1988-1991-ci illərdə "Dəyirmi Masa - Azad Gürcüstan" blokunun lideri oldu.

1990-cı il oktyabrın 28-də Gürcüstanda keçirilən parlament seçkilərində Z.Qamsaxurdiyanın millətçi bloku qalib gəldi. O, 1990-cı il noyabrın 14-də Gürcüstan Ali Sovetinin sədri seçildi. Z.Qamsaxurdiyanın millətçilik siyasəti ölkədə milli qarşıdurmanın yaranmasına gətirib çıxartdı.[28]

---

[27] ზვიად გამსახურდია // www.nplg.gov.ge/bios/ka//874/

[28] Тяжесть исторической цены. 09.04.2016 // www.inosmi.ru/country_georgia-/20160409/236074205.html



Hələ 1989-cu il noyabrın 10-da Cənubi Osetiya Muxtar Vilayətinin Xalq Deputatları Soveti Cənubi Osetiya Muxtar Vilayətinin Gürcüstan SSR tərkibində Muxtar Respublikaya çevrilməsi haqqında qərar qəbul etdi. Lakin həmin il noyabrın 16-da Gürcüstan SSR Ali Sovetinin Rəyasət Heyəti bu qərarı qeyri-qanuni elan etdi.

1989-cu il Z.Qamsaxurdiya öz tərəfdarları ilə Tsxinvali üzərinə "dinc yürüş" etdi. Z.Qamsaxurdiya demişdi: "Mən iki minlik ordu gətirəcəyəm. Samaçablo torpağında (Cənubi Osetiya torpaqları - V.Ö) heç bir osetin qalmayacaqdır." Z.Qamsaxurdiya bəyan edirdi: "Cənubi Osetiya – qeyri-coğrafi termindir, onu bolşeviklər "ixtira etmişlər." Heç bir Cənubi Osetiya yoxdur və heç zaman o mövcud olmamışdır. Təbiətdə belə termin yoxdur. Z.Qamsaxurdiya "öz əcdadlarının dini və milli ideallarının bərqərar və bərpa olunması uğrunda mübarizə" apardığını bəyan edirdi.

Sovet dövründə əhalisinin 50 faizi azərbaycanlılardan ibarət olan Dmanisi və Bolnisi əhalisi də "Gürcüstan gürcülər üçündür!" şüarı ilə çıxış edən Z.Qamsaxurdiya rejiminin təzyiqlərinə məruz qaldı. Onlar zorla öz evlərindən qovuldular. Təkcə Bolnisidən 800 ailə çıxarıldı. Qeyd etmək lazımdır ki, 1980-ci illərin sonlarında azərbaycanlıların əksəriyyəti Borçalıda-Kvemo Kartlidə yerli idarəetmə strukturlarında yüksək vəzifələr tuturdular. Onlar hamısı öz vəzifələrindən çıxarıldılar. 1989-cu ildə azərbaycanlı-gürcü qarşıdurması baş verdi. Z.Qamsaxurdiyanın millətçilik siyasəti sayəsində minlərlə azərbaycanlı Gürcüstanı, öz dədə-baba torpaqlarını tərk etdi. 1990-cı ildə Azərbaycan dilində olan 32 kənd, çay, dağ adları gürcü adları ilə əvəz olundu.

1990-cı ilin iyununda Z.Qamsaxurdiyanın tərəfdarları Kxvareli rayonunda avar kəndi Tivini mühasirəyə aldıqları zaman qısamüddətli gürcü-avar qarşıdurması baş verdi. Avarlar Tixliskaro, Tivi aullarını, Laqodexdə Cantlus Kure kəndini tərk etməli oldular. Gürcü kəndi Axalsopelidə 1990-cı il iyunun 14-də keçirilən antiavar mitinqində Z.Qamsaxurdiya tələb edirdi: "Avarları gürcü torpaqlarından qovmaq lazımdır." 1991-ci ildə Z.Qamsaxurdiya bildirirdi: "Gürcüstanda osetinlər var, Osetiya yoxdur." Başqa bir çıxışında isə o deyirdi: "Osetin xalqı-zibildir, onları Rokk tuneli vasitəsilə silib süpürmək lazımdır. Biz Osetiyaya gedirik, osetinlər qoy ya boyun əysinlər, itaət etsinlər və gürcü olsunlar, ya da əgər onlar rusları çox sevirlərsə qoy Gürcüstandan Rusiyaya getsinlər."[29]

---

[29] Как Звиад Гамсахурдия заявил, что осетинский народ мусор. 10.10.2016 // www.proza.ru/2016/10/10/1453

XX əsrin sonlarında bütün postsovet ölkələrində olduğu kimi Gürcüstanda da SSRİ-dən çıxmaq uğrunda milli hərəkat başlamışdı. 1989-cu ildən Abxaziyanın Gürcüstandan ayrılmasına cavab olaraq həmin ilin aprelin 9-da Tbilisidə keçirilən mitinq SSRİ Daxili İşlər və Müdafiə nazirliklərinin qoşunları tərəfindən darmadağın edildi. Nəticədə mitinqçilər arasında insan tələfatı baş verdi. Bu isə Mərkəzi sovet hakimiyyətinə inamın sarsılmasına gətirib çıxartdı və Gürcüstanın SSRİ tərkibindən çıxmasını sürətləndirdi. 1991-ci il martın 31-də Gürcüstanda referendum keçirildi. Referendumda iştirak edən ölkə əhalisinin 98,9%-i dövlət müstəqilliyinin bərpa olunmasına səs verdi. Gürcüstan Ali Soveti 1991-ci il aprelin 9-da müstəqillik aktının qəbul olunması haqqında qərar qəbul etdi. Bununla da Gürcüstan SSRİ-nin tərkibindən çıxdı. Lakin Gürcüstan Abxaziya və Cənubi Osetiya ilə silahlı münaqişəyə başladı. Keçmiş SSRİ-dən ayrılması Gürcüstanın iqtisadiyyatına ağır zərbə vurdu. Post-sovet məkanında yeni sosial-iqtisadi sistemə keçid zamanı respublikanın ən dağıdıcı mərhələyə qədəm qoymasının aşağıdakı bir neçə səbəbi göstərilir: "Onlardan birincisi 1991-ci ildə müstəqillikdən sonra ölkəni bürümüş daxili siyasi xaos idi. Bazar iqtisadiyyatına keçidə mane olan müxtəlif ziddiyyətli platformalara malik 150-yə qədər partiya meydana gəldi. Dövlət qaydalarının pozulmasına yol verildi, kriminogen şəraitin kəskinləşməsi baş verdi, ölkənin iqtisadi potensialının böyük bir hissəsi dağıldı.

İkinci səbəb Abxaziyada, Cənubi Osetiyada baş verən dağıdıcı hərbi münaqişələr idi. Abxaziya ilə müharibə nəticəsində iqtisadi ziyan 6-7 milyard dollar təşkil etdi. Ölkənin iqtisadi potensialının əhəmiyyətli bir hissəsi fəal təsərrüfat həyatından çıxdı və uzun müddət fəaliyyətsiz qaldı. Rusiya və digər MDB ölkələri ilə təsərrüfat əlaqələri kəsildi. Abxaziyadan Bakı-Mahaçkala-Qroznı əsas dəmiryol magistralı praktiki olaraq işləmədi, avtomobil yükdaşımaları məhdudlaşdırıldı. Gürcüstan faktiki olaraq iqtisadi blokada şəraitində idi, istehsal ehtiyatlarının, xüsusilə enerji daşıyıcıları, kənd təsərrüfatının inkişafı üçün zəruri olan maddi- texniki vasitələr kəskin surətdə çatışmırdı. Gürcüstanda kəskin iqtisa-di, sosial, enerji böhranı baş verdi."[30]

1991-ci ildə Zviad Qamsaxurdiyanın Rusiya ilə ticarət əlaqəsinə qadağan qoyması böhranı dərinləşdirdi, sənaye və kənd təsərrüfatına ağır

[30]Асатаиани Т. Токмазишвили М. Экономическая политика Грузии до и после «революции роз» // Социально-экономическая трансформации в странах СНГ. Достижения и проблемы (материалы международной конференции) М.ИЭПП.2004.с.311-312.



zərbə vurdu. 1992-ci ildə sənaye istehsalının həcmi 43%, ÜDM isə 45% azaldı.[31]

Keçmiş İttifaq xüsusilə Rusiya bazarının itirilməsilə kurort və digər turizm sahələrinin ehtiyat təchizatı, məişət malları və xidmət bazarları da itirildi. Ölkədəki tənəzzül Gürcüstanın 90%-i kənd təsərrüfatı mallarının ixracını heçə endirdi, hərbi münaqişələr isə turist axınına son qoydu. Açıq rəqabətə uyğunlaşmamaq və ittifaqdaxili subsidiyaların olmaması bir çox müəssisələrin bağlanmasına gətirib çıxardı. İxtisaslı işçi qüvvəsinin böyük bir hissəsi sənaye sahələrini tərk etdi.[32]

Orta əmək haqqının kəskin sürətdə aşağı düşməsi əhalinin kütləvi şəkildə başqa ölkələrə, əsasən Rusiyaya mühacirət axınını gücləndirdi. Gürcüstan əhalisinin, xüsusilə gürcü əhalisinin 20%-ni itirdi. Bəzi məlumatlara görə, müstəqilliyin ilk illərində (1991-1996-cı illər) Gürcüstanı 1,1-1,3 milyon nəfər tərk etmişdi.[33] Məhz bu illərdə Gürcüstanın bir çox vətəndaşları Rusiya, Yunanıstan, ABŞ, Türkiyə, Ukrayna və İspaniyaya mühacirət etdilər.

Referenduma qədər Z.Qamsaxurdiya bəyan etdi ki, kim müstəqilliyin əleyhinə səs versə Gürcüstan vətəndaşlığından məhrum ediləcəkdir. 1991-ci il aprelin 9-da Gürcüstan Ali Soveti Gürcüstanın 26 may 1918-ci il tarixli müstəqillik aktı əsasında Dövlət müstəqilliyinin bərpası haqqında aktı qəbul etdi. Eyni zamanda Gürcüstanının Prezidenti vəzifəsi təsis edildi.

1991-ci il aprelin 14-də Ali Sovetin Fövqəladə sessiyasında Gürcüstanın ilk Prezidenti Z.Qamsaxurdiya seçildi.

Gürcüstan milli-azadlıq hərəkatının görkəmli nümayəndələri M.Kostava və Z.Çavçavadze müəmmalı şəkildə həlak oldular. Bundan sonra bloka və ölkəyə Z.Qamsaxurdiya başçılıq etdi. Lakin Z.Qamsaxurdiyanın liderliyi və siyasəti yüzlərlə gürcü ailəsinə ölüm gətirdi, Gürcüstanın ictimai həyatının bütün sahələrində böhran baş verdi.

Tezliklə Tengiz Kitovaninin başçılıq etdiyi Milli qvardiya Qamsaxurdiyaya qarşı qiyam qaldırdı. 1992-ci il yanvarın 6-da Z.Qamsaxurdiya hakimiyyətdən devrildi. Hakimiyyəti Hərbi Şura ələ keçirdi.

[31] Грузия (Республика Грузия) // страны мира. От. А до Я. Новый информационный справочник. Харьков: Книжнойклуб, 2007, с. 352

[32] Власть в Грузии перешла к Государственному Совету // www.yeltsinseuter.ru/d-igest/releace/den-za-dnem.11-marta1992qoda/.Известия, 11марта 1992.

[33] Комерики В. 1 октября - День старшего поколения. // www.pervius-geroi.ru/imaqes/stories.

1991-ci il yanvarın 14-də Gürcüstanın Baş Prokuroru V.Razmadze Z.Qamsaxurdiyanı aşağıdakı məsələlərə görə günahlandırdı:[34]

1. Milli ədavəti qızışdırmaqda;
2. Xüsusən iri məbləğdə vəsaiti mənimsəməkdə;
3. Xidməti vəzifəsindən sui-istifadə etməkdə;
4. Memarlıq və mədəniyyət abidələrini qəsdən məhv etməkdə.

1993-cü ildə Z.Qamsaxurdiya ölkəyə qayıdaraq vətəndaş müharibəsi törətdi. 1993-cü il dekabrın 31-də isə öldürüldüyü bildirildi.

**Gürcüstan Eduard Şevardnadzenin hakimiyyəti illərində** Sovet və gürcü siyasi dövlət xadimi olan E.Şevardnadze 1928-ci il yanvarın 25-də Gürcüstanın Lançxuti rayonunun Mamati kəndində anadan olmuş, 2014-cü il iyulun 7-də Tbilisidə vəfat etmişdir.

SSRİ Xarici İşlər Naziri vəzifəsində işləyən E.Şevardnadze SSRİ dağıldıqdan və Z.Qamsaxurdiya devrildikdən sonra Gürcüstana qayıtmış Dövlət Şurasının və parlamentin sədri, 1995-2003-cü illərdə isə Gürcüstanın ikinci Prezidenti olmuş, M.Saakaşvilinin "Qızılgül inqilabı" nəticəsində istefa vermişdir.

1968-1972-ci illərdə Gürcüstanın daxili işlər naziri vəzifəsini yerinə yetirən daxili xidmət general-mayoru E.Şevardnadze 1972-ci il sentyabrın 29-da Gürcüstan KP MK-nin birinci katibi vəzifəsinə təyin edilmişdir. O, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. E.Şevardnadze 1985-1990-cı illərdə SSRİ Xarici İşlər Naziri vəzifəsində işləmişdir.

1992-ci il martın 10-da Gürcüstana dəvət olunan E.Şevardnadze ölkənin müvəqqəti idarəetmə orqanı olan Hərbi Şuranı əvəz edən Gürcüstanın Dövlət Şurasının sədri təyin edilmişdir. 1992-ci ilin oktyabrında parlament seçkilərində E.Şevardnadze qalib gəldi. 1992-ci il noyabrın 4-də parlamentin sədri vəzifəsinə seçildi, 1995-ci ildə bərpa edilmiş Gürcüstan Prezidenti vəzifəsini tutdu. O, həm də Gürcüstan Vətəndaşlar İttifaqı Partiyasının sədri vəzifəsini də icra edirdi.

E.Şevardnadze Gürcüstandan Rusiya qoşunlarının çıxarılmasına nail oldu.[35] Z.Qamsaxurdiyanın hakimiyyəti illərini faşizm dövrü adlandırırdı.

[34] Кем был Звиад Гамсахурдия ? 21.11.2009 // www.osinform.org/1023-kem_byl zviad-gamsaxurdija.html

[35] Эдуард Шеварднадзе: достижения и неудачи. 25.01.2017 // www.sputnik-georgia.ru/reviews/20170125/234640785/Jeduard-Shevardnadze-dostizhenija-i-neudachi-Belogo-lisa.html



1998-ci ildən qərbyönümlü siyasət aparan E. Şevardnadze 2000-ci il aprelin 9-da 82% səs toplayaraq ikinci dəfə Gürcüstan Prezidenti seçildi.

2003-cü il noyabrın 21-23-də "Qızılgül inqilabı" baş verdi. Noyabrın 23-də istefa verən prezident 2012-ci ilin iyulunda "Qızılgül inqilabı" zamanı hakimiyyəti M.Saakaşviliyə verdiyinə görə Gürcüstan vətəndaşlarından üzr istədi. E.Şevardnadze açıq-aşkar öz səhvini etiraf etdi, M.Saakaşvilinin siyasətini tənqid edərək bildirdi ki, o, Gürcüstanın problemlərini həll etməyə qabil deyildir. 2014-cü il iyulun 7-də Gürcüstanın sabiq prezidenti 87 yaşında özünün Tbilisidə yerləşən Qrdzanisidəki iqamətgahında vəfat etmişdir.[36]

Bu illərdə iqtisadi tənəzzül Gürcüstanı sarsıtmışdı. İlkin keçid tənəzzülü dövründə (1992-1994-cü illər) ÜDM orta sürətlə 28,2% aşağı düşdü. İqtisadi tənəzzül 65%-ə çatdı. Bu dövrdə sənaye məhsullarının buraxılışı orta hesabla 35%, kənd təsərrüfatı məhsulları istehsalı isə 21% aşağı düşmüşdü. 1994-cü ilin ortalarında böhran ölkədə bütün sahələri əhatə etdi. Meşə təsərrüfatı və tikinti sahələrində işlər tamamilə dayandı, qalan sahələrdə istehsal olunan məhsullar 1960-cı illərin səviyyəsinə endi, sənaye istehsalı, kənd təsərrüfatı, nəqliyyat infrastrukturları tamamilə dağıldı. Ölkədə xarici şəraitin təzyiqi altında iqtisadiyyatın "mülayim modeli" təşəkkül tapmağa başladı.[37]

1994-cü ildən ölkəni böhrandan çıxarmaq və iqtisadiyyatı inkişaf etdirmək üçün bir neçə proqram işlənib hazırlandı. Dünya Maliyyə Bankının tövsiyəsi nəzərə alınmaqla bu proqramlarda aşağıdakılar nəzərdə tutulmuşdu:

– bazar iqtisadiyyatını tənzimləyən qanunvericilik bazasının yaradılması;
– maliyyə-kredit sahələrinin formalaşdırılması;
– mülkiyyət formalarının dəyişdirilməsi;
– bank sahələrinin və vergi sistemlərinin transformasiyası;
– xarici ticarətin və qiymətlərin liberallaşdırılması.

İqtisadi islahatların uğurlu həyata keçməsi yalnız Qərbin köməyi ilə mümkün idi. Elə şərait yaranmışdı ki, ilk dövrlərdə Gürcüstanda dövlət quruculuğu və iqtisadiyyatın dəyişdirilməsi vəzifələri yerinə yetirilmirdi. SSRİ-dən ayrıldıqdan sonra bazar iqtisadiyyatına sürətlə keçmək ümidi də özünü doğrultmadı. Xalq təsərrüfatının sistemli transformasiyası uzun-

[36] ედუარდ შევარდნაძე // www.nplg.gov.ge/bios/ka/00001162/

[37] Власть в Грузии перешла к Государственному Совету// www.yeltsinseuter.ru/-digest/releace/den-za-dnem.11-marta1992qoda/.Известия,11марта 1992

müddətli ağır bir prosesə çevrildi. Müstəqillik öncəsi və müstəqillik dövründə Gürcüstanın iqtisadi inkişafı iki mərhələdən keçdi:

Birincisi, 1990-1994-cü illəri əhatə edən böhran dövrü: bu dövrdə əsaslı tənəzzül və mövcud iqtisadiyyatın dağılması prosesi baş verdi.

İkinci dövr 1995-ci ildən başlayan sabitləşmə və bərpa dövrü. Bu dövrü böhranın aradan qaldırılması və iqtisadiyyatın yeni əsasda bərpasının başlanması dövrü kimi də səciyyələndirmək olar. "Təkcə 1991-1992-ci illərdə ölkənin iqtisadiyyatı 56%, 1993-cü ildə yenidən 25% aşağı düşdü. 1990-1994-cü illərdə Gürcüstanda ÜDM 70% və ya 10 milyard dollardan 2.8 milyard dollaradək, sənaye istehsalı 80%, kənd təsərrüfatı 15%, kapital qoyuluşu 2,8% aşağı düşdü. 1993-cü ildə infilyasiya yüksək olsa da, hiperinfilyasiya həddinə çatmadı. 1993-cü ildə sənaye məhsulunun həcmi 5 dəfə azaldı. Bir sıra sahələrin istehsalat gücü 5-10% oldu. Yeyinti sənayesinin həcmi əsaslı şəkildə azaldı: şərab - 4 dəfə, meyvə konservləri 27 dəfə, çay 90 dəfə, ət və ət məhsulları 45 dəfə, süd və süd məhsulları 29 dəfə azaldı.

Böhran zamanı elektrik enerjisi 13,6 milyard kilovat saatdan 6,8 milyard kilovat saata, neft istehsalı 186 min tondan 67 min tona, neft emalı 2,3 milyon tondan 60 min tona, kömür istehsalı 995 min tondan 32,9 tona düşdü. 1994-cü ildə Gürcüstanda 1 magistral elektrovoz, 135 yük maşını, 34 min ton mineral gübrə var idi. Həmin ildə dəmiryol yükdaşımaları 6,8% təşkil edirdi.[38]

Böhran kənd təsərrüfatı istehsalının strukturuna təsir etdi. Çayçılıq, şərabçılıq, meyvəçilik, sitrus bitkiçiliyi sahələri azaldı. Dövlət büdcəsində kəsr artmağa başladı. Səhiyyəyə, təhsilə və infrastruktura ayrılmış xərclər azaldı, əhalinin həyat səviyyəsi aşağı düşdü. Əhali yoxsulluq həddində idi. Vətəndaşlar yalnız ərzaq məhsulları ala bilirdilər. Gürcüstana Ümumdünya Ərzaq Proqramı xətti ilə 1993-1994-cü illərdə 50-100 milyon dollar məbləğində humanitar yardım və ərzaq daxil oldu. Kredit-maliyyə sisteminin böhranı hiperinflyasiyaya gətirib çıxartdı. Dövlətin zəifləməsi "gizli iqtisadiyyat"ı inkişaf etdirdi, işsizlik artdı.

Tbilisi Dövlət Universitetinin rektoru görkəmli gürcü iqtisadçısı, iqtisad elmləri doktoru, professor Vladimir Papavanın fikrincə, müstəqilliyin ilk illərində ölkənin hərbi münaqişələrə cəlb olunması və düzgün iqtisadi siyasətin olmaması ucbatından Gürcüstanın iqtisadi vəziyyəti ağır idi. Xüsusilə komanda-inzibati iqtisadiyyatından bazar iqtisadiyyatına keçidin ilkin

[38] Жизнь в Грузии 23.03.2016 // www.emigrant.guru/kuda/zhizn-v-gruzii-vchera-segodnya-i-zavtra.html



mərhələsində ciddi səhvlərə yol verilmişdi. Bu səhvlərin nəticəsində 1993-cü ildə ÜDM 1990-cı ilin ÜDM-nin 30,73%-ni təşkil edirdi. 1994-cü ildə illik inflyasiyanın səviyyəsi 7840%-ə çatmışdı. Gürcüstan iqtisadiyyatına 1998-ci ildə Rusiyada baş verən iqtisadi böhran da ciddi mənfi təsir göstərdi. Nəticədə korrupsiyanın miqyası artdı. 1993-cü ildə Gürcüstan əhalisinin 52%-i yaşayış minimumundan aşağı səviyyədə gəlirə malik idi.[39]

Sovet İttifaqı ölkələri ilə iqtisadi əlaqələrin xeyli dərəcədə zəifləməsi, eləcə də Qərbin-Avropa İttifaqının Qafqazdakı maraqları Gürcüstanın Aİ ilə əlaqələrinin inkişafını zəmanətə çevirirdi. Gürcüstan və Avropa İttifaqı arasında ticarət və iqtisadi əlaqələrin hüquqi əsasları 1992-ci ildə yarandı. Aİ 1992-ci ildə Gürcüstanın müstəqilliyini ilk tanıyanlardan biri idi. 1995-ci ildə Avropa Komissiyası Gürcüstanda öz nümayəndəliyini açdı.

Gürcüstan və Aİ arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş 1996-cı il aprelin 22-də Lüksemburqda imzalandı və 1999-cu il iyulun 1-də qüvvəyə mindi. Qarşılıqlı dəyərlər əsasında tərəflər arasında əlaqələr quruldu. Müqavilə on il müddətinə imzalanmışdı. Ancaq tərəflər razı olduqları halda avtomatik olaraq onun vaxtı uzadıla bilərdi. Gürcüstan və Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş həm də Gürcüstan və Aİ-nin üzv ölkələri arasında müəyyən qaydaları da təmin edir, onlar arasında əməkdaşlığın inkişafına daha da dəstək verirdi. Bu saziş tərəflər arasında ticarətin, iqtisadi əlaqələrin yaxşılaşdırılması və Gürcüstana investisiyalar yatırmaq məqsədi güdürdü. 1997-ci ildə Gürcüstan hökuməti və Aİ Gürcüstan qanunvericiliyinin Avropa qanunvericilik standartlarına uyğunlaşdırılması haqqında razılığa gəldilər. Tərəfdaşlıq və əməkdaşlıq haqqında imzalanmış sazişin əsas məqsədləri aşağıdakılardan ibarət idi:

a. siyasi dialoq vasitəsilə Gürcüstan və Aİ arasında siyasi əlaqələrin inkişafını təmin etmək;

b. Gürcüstanda demokratiya və iqtisadiyyatı inkişaf etdirmək;

c. Bazar iqtisadiyyatına keçidi başa çatdırmaq üçün ona yardım etmək;

d. ticarət, investisiya vasitəsilə tərəfləri davamlı iqtisadi inkişafa, ahəngdar iqtisadi əlaqələrə təşviq etmək;

e. qanunvericilik, iqtisadi, sosial, maliyyə, mülki, elmi, texniki və mədəni əməkdaşlıq üçün əsasları təmin etmək.

[39] Кутелия Б.Н. Меладзе Г.Г., Цуладзе Г.Е.Эмиграция из Грузии в постсоветский период // Социологический журал, 1997. № 4, с.178-191.

Saziş demokratiyaya hörmət, beynəlxalq hüquq və insan hüquqları prinsiplərinə uyğun qurulmuş, bazar iqtisadiyyatı isə müqavilənin yuxarıdakı prinsiplərinə əsaslanırdı.

1994-cü ilin sonlarında hökumət vəziyyəti dəyişdirməyə başladı, 1995-ci ildə daxili siyasi stabillik yarandı. Ölkənin yeni konstitusiyası qəbul edildi, yeni pul vahidi lari dövriyyəyə buraxıldı, maliyyə sahəsində böhran aradan qaldırıldı, prezident və parlament seçkiləri keçirildi, iqtisadi islahatlar reallaşdırıldı.

Beynəlxalq Valyuta Fondunun (BVF) köməyilə proqramların reallaşmasına uyğun olaraq qiymətlərə nəzarət aradan qaldırıldı. Xarici ticarət liberallaşdırıldı. Hökumətin böhran əleyhinə proqramları geniş miqyaslı iqtisadi islahatlara təkan verdi. İxrac və idxalın bütün dövlət tənzimlənməsinin qeyri-tarif tədbirləri aradan götürüldü. Təşkilati-hüquqi islahatlar keçirildi, qanunvericilik aktları qəbul edildi, dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlandı. Bazar infrastrukturuna, sahibkarlıq, inhisar fəaliyyəti və rəqabət, investisiya fəaliyyətinə yardım, icarə və icarə münasibətlərinə, qiymətli kağızlara aid qanunlar, vergi və gömrük kodeksləri qəbul olundu. Özəlləşdirmə ilə əlaqədar parlamentin 10 qərarı və prezidentin sərəncamları ilə 20 normativ sənəd təsdiq edildi.

Dövlət müəssisələrinin özəlləşdirilməsi Gürcüstan hökumətinin qərarı ilə təsdiq edildi və onun icrası Dövlət Mülkiyyətinin İdarə olunması Nazirliyinə tapşırıldı. Onlar BVF, Dünya Bankı və Aİ-nin müvafiq komissiyalarının tövsiyələri nəzərə alınmaqla gerçəkləşdirildi, səhmdar cəmiyyətlər yaradıldı, özəlləşdirmə kartları-vauçerlər əhaliyə paylanıldı. 1999-cu ildə bütün "kiçik özəlləşdirmə" proqramları həyata keçirildi. 10 mindən artıq kiçik və orta dövlət obyektləri, o cümlədən 8000 ticarət və məişət xidməti obyekti, 214 sənaye obyekti, 300 kənd təsərrüfatı, 220-dən artıq tikinti, 505 səhiyyə obyekti xüsusi mülkiyyətə keçdi. Orta və iri müəssisələrin səhmdarlaşması daha ağır prosesə çevrildi.[40]

Kiçik sahibkarlıq inkişaf etdi. 1998-ci ilin axırlarında 1100-ə qədər müəssisə, o cümlədən 600-dən artıq sənaye müəssisəsi, 10% nəqliyyat, 6% ticarət müəssisələri səhmdar formasına keçdi.[41]

---

[40] Экономика Грузии после распада СССР и ее развитие (кратко) Место Грузии в мировой экономике 15.09.2015 // www.fb.ru/article/204926/ekonomika-gruzii-posle-raspada-sssr-i-ee-razvitie-kratko-mesto-gruzii-v-mirovoy-ekonomike

[41] Жизнь в Грузии 23.03.2016 // www.emigrant.guru/kuda/zhizn-v-gruzii-vchera-segodnya-i-zavtra.html



Xarici kapitalı ölkəyə cəlb etmək üçün beynəlxalq tenderlər keçirildi. Tikintisi yarımçıq qalmış bir neçə müəssisə, 17 çay emalı, bir çox neft emalı müəssisələri, mehmanxanalar xarici sərmayədarlara satıldı.

Özəlləşdirməni sürətləndirmək üçün Gürcüstan hökuməti xüsusi auksionlar keçirdi. Özəlləşdirmə dövlətin əsas strateji sahəsi olan enerji sahəsini də əhatə etdi. 19 kiçik su elektrik stansiyası özəlləşdirildi və 8-i isə icarəyə verildi. Böyük elektrostansiyalar dövlət mülkiyyətində qaldı. Elektrik enerjisi sektorunun özəlləşdirilməsi kommissiyası yaradıldı. Prezidentin sərəncamı ilə "Elektroenerji sektorunun Özəlləşdirilməsi Planı" təsdiq edildi.

Bank sisteminin də özəlləşdirilməsi həyata keçirildi. Nəticədə "Aqrobank", "Gürcüstan Bank", "Eksimbank", "Yeni Gürcüstan Bankı", "Sənaye Bankı" kimi səhmdar bankları meydana gəldi. Kənd təsərrüfatı sahəsinin özəlləşdirilməsi mövcud olan 740 kolxozu və 601 sovxozu əhatə etdi. Gürcüstan parlamenti torpağa aid qanunvericilik aktları qəbul etdi. 390 kənd təsərrüfatı kooperativləri 80-dən artıq səhmdar cəmiyyətləri, 50-dən artıq dövlət təsərrüfatları yaradıldı.[42] 300 min hektardan artıq kənd təsərrüfatı təyinatlı torpaq hüquqi və fiziki şəxslərə icarəyə verildi. Torpaq islahatları nəticəsində taxıl, üzüm, meyvə-tərəvəz, ət, süd istehsalı artdı. 1996-cı ildə ticarət islahatları prosesi başa çatdı. Sosial, təhsil və səhiyyə sahələrində də islahatlar keçirildi.

1995-ci ildə taxılın, ümumiyyətlə, kənd təsərrüfatı məhsullarının 80%-dən çoxunu demək olar ki, xüsusi, özəl təsərrüfatlar istehsal etməyə başladılar. Ümumiyyətlə, 1995-ci ildə kənd təsərrüfatı məhsullarının həcmi, taxıl, ət, kartof, süd, meyvə-tərəvəz istehsalı artdı, heyvandarlıq inkişaf etdi. Yeyinti sahə-sində liker, alkoqolsuz içkilər və mineral sular istehsalı sahəsində də canlanma müşahidə olunmağa başladı. Hökumət bəzi yeyinti sahələrinə xarici kapitalın cəlb olunmasını sürətləndirdi. Nəticədə qara və yaşıl çay istehsalı dörd il ərzində 3,4 min ton artaraq 11 min tona çatdırıldı.[43]

Gürcüstanda fermerlər və torpaq sahibkarları ittifaqları, yerli təsərrüfatlar assosiasiyaları yaradılsa da, bu sahədə lazımi nəticə əldə olunmadı. Belə bir şəraitdə Dünya Bankı və BVF kənd təsərrüfatının inkişafı üçün maliyyə yardımı və kredit ayırdı. Gürcüstanda 165 kredit ittifaqları yaradıldı. Bundan sonra xidmət, ictimai iaşə, nəqliyyat yükdaşımaları, fərdi yaşayış

---

[42] Yenə orada.

[43] Yenə orada.

evlərinin tikintisi sahələrində canlanma müşahidə olunmağa başlandı. Gürcüstanda iqtisadi yüksəliş 1998-ci ilin avqustuna qədər davam etdi. Lakin əksər MDB ölkələrini əhatə edən maliyyə böhranı Gürcüstana da təsir etdi, sənaye və kənd təsərrüfatında tənəzzül özünü göstərdi.

1994-1998-ci illərdə ölkənin iqtisadiyyatını liberallaşdırılması və sabitləşdirilməsinə nail olmaq üçün keçirilən islahatlar "Vaşinqton konsessusu" konsepsiyasına əsaslanırdı.[44] Liberal iqtisadiyyat üçün zəmin tədricən yaradılırdı. 1995-ci ildə idxal məhdudiyyətləri tədricən aradan qaldırıldı, kvota sistemi ləğv edildi. Sovet dövrünə nisbətən idxal mallarının sayı az da olsa artdı.

Hökumətin uğursuz siyasəti nəticəsində sosial təminat gerçəkləşmədi və gəlirin qeyri-bərabər bölgüsü işsizliyin səviyyəsinin artmasına gətirib çıxartdı. Xüsusən də işçiyə düşən əlavə dəyər vergisi kənd təsərrüfatı sektoru işçilərindən 5 dəfə çox idi. Az məhsuldarlıq verən sahələrdə yüksək əmək potensialları var idi. 1990-cı ildə kənd təsərrüfatı sektorunda əhalinin məşğulluq faizi 26% olmuşdu. Əhalinin bu səviyyədə məşğulluq faizi 2003-cü ilə qədər 51%-ə kimi yüksəldi. Yüksək göstəriciyə baxmayaraq, kənd yerlərində və onların gündəlik həyatında əsas yer tutan məhsuldarlığın səviyyəsi aşağı idi, əslində kənd əhalisi arasında kütləvi yoxsulluq hökm sürürdü. Bu dövrdə ancaq özlərini və ailələrini güclə dolandıranlar ümumi işçi qüvvəsinin 70%-ni təşkil edirdi. Bu göstəricinin il ərzində dəyişməz qaldığını da qeyd etmək lazımdır. Muzdurluq edənlərin sayı da qismən 1990-cı ildə başlayan güclü köç axını nəticəsində azalmışdı. Eyni dövrdə rəsmi işsizlik 11-14% olmuşdu. Kəndlərdə isə işsizlik şəhərlərə nisbətən 4 dəfə çox idi. Kənd əhalisinin demək olar ki, 52,3 %-i işsiz idi. Əhalinin 4/5 hissəsi şəhər yerlərində cəmləşmişdi, yəni şəhərdə yaşayanlar idi. Bundan əlavə, işsizlik daha çox ali təhsili olanlar arasında idi.

Dövlət sosial təminatın səmərəliliyini artırmaq üçün radikal tədbirlər həyata keçirmək məcburiyyətində qaldı. Gürcüstanda hər iki vətəndaşdan biri yoxsulluq şəraitində yaşayırdı. İqtisadiyyatın az sürətlə artımına baxmayaraq, dövlətin sosial təhlükəsizlik sistemi insanların yoxsulluğunu azaltmadı və sabit həyat şəraitini təmin edə bilmədi. Bir müddət yoxsul və fiziki imkanları məhdud olan əhalinin "normal" yaşaması üçün nəzərdə tu-

[44] Асатаини Т. Токмазишвили М.Экономическая политика Грузии до и после «революции роз» // Социально-экономическая трансформации в странах СНГ. Достижения и проблемы (материалы международной конференции) М., ИЭПП, 2004, с. 311-312.



tulmuş humanitar yardım xeyriyyə məqsədi güdürdü və müəyyən müddətdən sonra bu dəstək də kəsildi.

Gürcüstanın ümumi sosial problemləri, o cümlədən yoxsulluq və həyat şəraitinin pisləşməsi əsasən ölkədə mövcud olan sosial xidmətlərin səviyyəsinin aşağı olması nəticəsində baş vermişdi. Bu dövrdə sosial infrastrukturun inkişafı sistemində 3 əsas problem müəyyən edilmişdi:

a) əmək haqqının aşağı olması;

b) demoqrafik dəyişikliklər, əhalinin miqrasiyası nəticəsində işləyənlərin sayının azalması;

c) sosial təminatın natamamlığı.

Taxıl məhsullarına bazar qiymətləri tətbiq edildi, inflyasiya aşağı düşdü, kommersiya bankları haqqında qanun qəbul edildi, vergi və torpaq islahatları həyata keçirildi. 1998-ci ildə Rusiyada baş verən iqtisadi böhran Gürcüstanın iqtisadiyyatına mənfi təsir göstərdi.[45]

Gürcüstanın iqtisadi yüksəlişinə səbəb olan amillərdən biri də ölkənin tranzit potensialından istifadə olunması idi. Respublikanın beynəlxalq və regional neft-qaz infrastrukturunda layihələrə cəlb olunması və xarici investisiyaların qoyulması onun nəqliyyat-kommunikasiya rolunun artması iqtisadiyyatın inkişafına təsir edən amillərdən idi.

1997-1998-ci illərdə Bakı-Supsa boru kəmərinin və Supsa terminalının (bu layihəyə 370 milyon dollar vəsait ayrılmışdı) tikintisi kapital qoyuluşunun 66% artmasına gətirib çıxartdı.[46] Gürcüstan iqtisadiyyatında ən böyük problemlər büdcə kəsiri, hiperinflyasiya və əlavə olaraq 1998-ci ildən başlayan dünya maliyyə böhranı idi. Gürcüstan iqtisadiyyatının xarakterik fundamental problemləri inkişaf etməmiş iqtisadiyyatın dövlət borcunun çoxluğu, dövlət büdcə kəsirinin artımı, zəif bank sistemi, institusional və struktur islahatlarda yol verilmiş səhvlər idi.[47]

Keçid prosesində bazar iqtisadiyyatı zəif şəkildə fəaliyyət göstərirdi. Bazar institutlarının fəaliyyətinin zəifləməsinə özəl sektorun inkişafı, korrupsiya və yeni dövlət oliqarxlarının formalaşması təkan vermişdir. Ölkənin pul gəlirləri az, ixrac səviyyəsi isə çox aşağı idi. Dövlət büdcəsində kəsirlər,

[45] Папава В. Социально-экономическое развитие Грузии: взгляд на среднесрочную перспективу 18.10.2013 // www.researchgate.net/publication/316430774_Socialno-ekonomiceskoe_razvitie_Gruzii_vzglad_na_srednesrocnuu_perspektivu

[46] Жизнь в Грузии 23.03.2016 // www.emigrant.guru/kuda/zhizn-v-gruzii-vchera-segodnya-i-zavtra.html

[47] Саакашвили Михаил Николозович 13.02.2018 // www.kavkaz-uzel.eu/articles/49305

nağd əməliyyatların daha çox aparılması və yüksək dollarlaşma əmsalı, bankların məhdud inkişafı bütün bunlara öz mənfi təsirini göstərirdi.

Sahibkarların ölkə daxilində deyil, xaricdə investisiyalar yatırması, iqtisadiyyatın qeyri-sabitliyi və larinin devalivasiyası Gürcüstan iqtisadiyyatının xarici amillərdən asılılığını daha da artırdı. Bu və digər göstəricilərə nəzər yetirdikdə Gürcüstanın ümumiyyətlə, zəif maliyyə imkanları olduğu görünür. Lakin ölkə öz inkişaf dinamikasını tədricən artırmaqda davam etdirmişdir.

Gürcüstan iqtisadiyyatının inkişafı homogen (həmcins) proses kimi təsvir edilə bilməz. 1998-ci ilin maliyyə böhranından sonra, Gürcüstanda başlayan struktur islahatları təxirə salındı və iqtisadi artım sürəti azaldı. Ölkənin hələ orta hesabla 3-3,5% orta aşağı sürətdə inkişaf etməsinə baxmayaraq, "Qızılgül inqilabı"na qədər bu dövr Gürcüstan iqtisadiyyatında "sükunət" dövrü adlandırıldı. Bu dövrdə sosial-iqtisadi təhlil nəticəsində əvvəlki dövlət orqanları sosial-iqtisadi və siyasi dəyişikliklərdə müəyyən yanlışlıqlara yol verdiklərini anladılar. Lakin bu dövrdə elə də ciddi dəyişiklik olmadı. Nəticədə əhalinin sosial həyatında fərqlər yaranmağa başladı. İqtisadiyyat sahəsində qanunsuzluqlar baş verdi. Təqaüdlərin verilməsi qısa müddət ərzində dayandırıldı. İnsanların müəyyən bir qrupunun sərvəti artmağa başladı. Bu insanlar ölkənin elitasını təşkil edirdi. Orta aylıq əmək haqqı yaşayış səviyyəsinin yalnız 60-70%-ni təqaüdlər da bunun yalnız 1/10 hissəsini təşkil edirdi, 1998-2003-cü illər dövründə təqaüdlər faktiki olaraq azalmışdı.[48] Bütün bunlara baxmayaraq, müəyyən institusional dəyişikliklər baş verdi. Bunlar qismən narazılıq yaratmasına baxmayaraq, iqtisadiyyatın liberallaşmasının inkişafına kömək etdi. Gürcüstanda başlayan özəlləşdirmə prosesindən dövlət səmərəli istifadə edə bilmədi. O dövrdə müəssisələrin özəlləşdirilməsini böyük bir uğur hesab etmək olardı. Lakin dövlət mülkiyyətinin liberallaşdırılmasına baxmayaraq, iqtisadi artım hələ cüzi idi. Bu sahədə maliyyələşdirmədə geriləmələr və kadr çatışmazlığı özünü göstərirdi. Həmin müəssisələrin şəxsi sahiblərinin heç bir təcrübəsi yox idi və onlar bazar iqtisadiyyatı prinsipləri əsasında fəaliyyət göstərə bilmədilər və nəticədə bu müəssisələrin əksəriyyəti dayandırıldı. Yalnız dövlət tərəfindən müəyyən borc hesabına alınaraq yaradılmış müəssisələr qaldı. Bu isə iqtisadiyyatın rəqabətə davamlılığına mənfi təsir

[48] Kakulia M., Strengthening of Bilateral Trade, the European Neighborhood Policy and Georgia. Analysis of independent experts (Friedrich Ebert Fund), Tbilisi, 2007, p. 36.



göstərdi. Lakin buna baxmayaraq, bazar iqtisadiyyatının gerçəkləşməsi üçün institusional zəmin yarandı.

Gürcüstan mallarının Rusiya bazarlarına ixracının azalması ölkə iqtisadiyyatının tənəzzülünə səbəb oldu. 1998-ci il və 2000-ci ilə qədər Gürcüstanın iqtisadi inkişaf sürəti zəifləməyə başladı. 2000-ci ildə Gürcüstan Ümumdünya Ticarət Təşkilatının üzvü oldu. Bu isə xarici ticarət əlaqələrinin, xüsusilə idxalın inkişafına səbəb oldu. Həmin il sənaye məhsulları istehsalı rəsmi məlumata görə, 1 milyard dollara çatdı ki, bu da 1995-ci ildəki 122 milyon dollarla müqayisədə çox idi. Maliyyə sabitliyi müəssisələrin yenidən qurulması inkişafa təsir edən əsas amillər idi. 2000-ci ilin rəsmi statistikası göstərir ki, ilin ortalarında müvəqqəti geriləmə olsa da, Gürcüstanda iqtisadi inkişaf sürəti artırdı. Dəmiryol nəqliyyatında yükdaşımalar 16% artdı. Buna səbəb tranzit yüklərinin payının artması idi. 2000-ci ilin istehsalın dinamikasına aid rəsmi məlumatlar bəzən həqiqətə uyğun gəlmirdi. Belə ki, Kaxetiyadakı quraqlıq şübhəsiz ki, kənd təsərrüfatı məhsulları istehsalının azalmasına təsir etdi, lakin tənəzzülün miqyası haqqında məlumat yox dərəcəsindədir. Gürcüstanın ixracatdan əldə etdiyi gəlirlər haqqında məlumatlar da şişirdilmiş məlumatlardır. Gürcü ekspertlərinin fikrincə, xaricdəki 650 min nəfər əmək mühacirlərinin (xüsusilə Rusiyadan) Gürcüstana pul köçürmələri ildə iki milyard dollara çatırdı.[49]

Gürcüstan parlamenti 2000-ci il aprelin 20-də Ümumdünya Ticarət Təşkilatına üzvlük haqqında sazişi ratifikasiya etdi. Beləliklə, Gürcüstan həmin ilin iyulun 14-dən təşkilatın tamhüquqlu üzvü oldu. Gürcüstanın Aİ ilə ikitərəfli danışıqları 1999-cu il mayın 31-də başa çatdı.

Avropa İttifaqının ilk müqavilələrindən biri olan toxuculuq məhsullarının ticarəti haqqında Gürcüstan ilə bağlanmış saziş 1999-cu il dekabrın 31-ə qədər qüvvədə idi. Aİ bazarına Gürcüstandan əvvəlki illərlə müqayisədə ixrac həcmi və ümumi ixracın xüsusi həcmi artdı. Sazişə görə, Aİ bazarına Gürcüstandan toxuculuq və geyim məhsullarının ixrac kvotasına tabe oldu. ÜTT-yə üzv olduqdan sonra Gürcüstanın toxuculuq və geyim ixracı üzrə bir çox məhdudiyyətlər aradan qaldırıldı. Buna baxmayaraq, Gürcüstan heç bir fayda əldə edə bilmədi. Bilindiyi kimi, Aİ bazarında heç bir Gürcüstan markasının adı keçmir. Bu sazişdə Gürcüstan demək olar ki, qazanc əldə edə bilmədi.[50]

[49] Жизнь в Грузии 23.03.2016 // www.emigrant.guru/kuda/zhizn-v-gruzii-vchera-segodnya-i-zavtra.html

[50] Экономика Грузии. ВВП и Внешней долг Грузии. 01.01.2018.

Beləliklə, qeyd edilən dövr liberal bazar iqtisadiyyatının yaradılması və sosial inkişaf arasında ziddiyyətlər dövrü kimi xarakterizə edilə bilər. 2003-cü ilə qədər müəyyən iqtisadi siyasət yeridilsə də, liberallaşdırılmış və modernləşdirilmiş iqtisadiyyatı yaratmaq o qədər də uğurlu olmamışdır. 2003-cü ildən sonra isə iqtisadi siyasətin sərt dəyişməsi, tez-tez görülən tədbirlər nəticəsində problemlər qismən aradan qaldırılmışdır. Lakin iqtisadi siyasətin istiqaməti, mərhələləri və nailiyyətlərinə baxmayaraq, ölkə vətəndaşlarının rifahını, maddi vəziyyətini yaxşılaşdırmaq mümkün olmamış, respublika iqtisadi davamlılığının təmin edilməsi baxımından böyük çətinliklərlə üzləşmişdi.[51]

Gürcü xalqı öz müstəqil dövlətini dinc və əmin-amanlıq şəraitində inkişaf etdirmək istəyirdi. 1995-ci ilə qədər Gürcüstan iqtisadiyyatı Qərb ölkələri tərəfindən dəstəkləndi ki, bu da böhrandan çıxmaq üçün ölkəyə müəyyən qədər əlverişli şərait yaradırdı. Bu mərhələdə iqtisadi inkişafın ən yüksək nöqtəsi 1997-ci ildə müşahidə olundu Bu zaman ÜDM 10,7%, artaraq "Qızılgül inqilabı" ərəfəsində ən yüksək səviyyəyə çatdı. Lakin artım sürəti sonradan Rusiyada baş verən maliyyə böhranı nəticəsində kəskin şəkildə pisləşdi və 1998-ci ildə respublikada inflyasiya başladı.

***Cədvəl 1. Keçid böhranı və "Böyük iqtisadi tənəzzül"***

| Ölkələr | 1990-cı illərdən istehsalın azalması | İstehsalın kumulyativ azalması (%) | Real ÜDM, 2000 (1990=100) |
|---|---|---|---|
| Mərkəzi və Şərqi Avropa ölkələri Baltikyanı dövlətlər | 4 | 23 | 107 |
| Postsovet ölkələri | 7 | 51 | 63 |
| Azərbaycan | 6 | 60 | 55 |
| Belarus | 6 | 35 | 88 |
| **Gürcüstan** | 5 | 78 | 29 |
| Qazaxıstan | 6 | 41 | 90 |
| Qırğızıstan | 6 | 50 | 66 |
| Moldova | 7 | 63 | 35 |
| Ermənistan | 4 | 63 | 67 |
| Rusiya | 7 | 40 | 64 |
| Tacikistan | 7 | 50 | 48 |
| Ukrayna | 10 | 59 | 43 |
| Özbəkistan | 6 | 18 | 95 |

*Mənbə: Transition (2002 (Keçid), January-February, World Bank(Dünya Bankı).*

// www.countrymeters.info/en/Georgia

[51] Europa von A bis Z: Taschenbuch der europäischen Integration. BPB, 2006. // www.booklooker.de/B%C3%BCcher/Angebote/autor=Werner+Weidenfeld+Wolfgang+Wessels&titel=Europa+von+A-Z+-+Taschenbuch+der+europ%C3%A4ischen+Integration



İlk böyük inflyasiya Gürcüstanda xarici valyuta dəyərinin artmasına səbəb oldu və dollarlaşmanın bir əmsalı 2003-cü ilin sonuna qədər "gizli iqtisadiyyatın" ölçüsü ilə 86%-i keçdi. Bu zaman Gürcüstanda mövcud iki valyuta zonası mövcud idi: 1) yerli valyuta xərcləri, 2) kiçik biznes əməliyyatları və istehlak xərcləri. Burada ABŞ dolları çox vaxt böyük biznes əməliyyatlarının, böyük istehlakçı xərclərinin edilməsi üçün istifadə edilmişdir.[52]

Əslində yeni yaradılan bazar iqtisadiyyatında dövlət fondlarının funksionallığını təmin etmək və ya vergi yığmaq uğursuzluqla nəticələndi. ÜDM-in dövlət büdcəsində payı çox cüzi idi. ÜDM dövlət büdcəsinin yalnız 5%-i olsa da sonradan qismən də olsa artmışdır. Lakin 12%-i heç vaxt keçə bilməmişdir. 2004-cü ilə qədər bu göstərici bütün postsovet məkanında ən aşağı indeks idi. Belə ki, dövlətin maliyyə, iqtisadi və institusional imkanları, iqtisadi və sosial sahələrdə köklü dəyişiklik etmək imkanı yox idi.

1995-1998-ci illərdə bir sıra sabitləşdirici islahatlar, iqtisadiyatın liberallaşdırılması siyasəti həyata keçirildi. Milli valyuta dəyişdirilərək lariyə keçildi və onun idarə olunması Gürcüstanın Mərkəzi Bankına həvalə edildi. Ticarətin liberallaşdırılması kiçik və orta həcmli şirkətlərin özəlləşdirilməsi ilə başladı. Bu iqtisadi sabitləşmə və struktur dəyişikliyi, hiperinflyasiyanın zərərlərinin minimuma endirilməsi, ölkə iqtisadiyyatının tarazlaşdırılmış və şaxələndirilmiş bazar iqtisadiyyatının potensialının təkmilləşdirilməsi üçün nəzərdə tutulmuşdu.

1990-1994-cü illərin ağır tənəzzülündən sonra 1995-1998-ci illərdə iqtisadiyyatda azacıq da olsa inkişaf müşahidə olunmağa başladı. Əhalinin gəlirləri, əmək haqqı və təqüdləri nisbətən artdı. Bu illərdə kiçik və orta biznes daha məhsuldar inkişaf etdi və işsizlik azaldı. Lakin 1998-1999-cu

[52] Foreign Trade of Georgia, National Statistics Office of Georgia, 2014. // www.geostat.ge/index.php?action=page&p_id=2231&lang=eng

illərdəki qlobal maliyyə böhranının artım surəti 2004-cü ilə qədər ölkənin iqtisadi inkişafını ləngitdi.

Əsas problemlərdən biri əhalinin sosial təhlükəsizliyinin minimal həddə olması idi. 2002-ci ildə bir ailənin ümumi gəliri, sosial ödəniş (təqaüd, müavinət) payı 3,8% olmuşdu. Özəl pul köçürmələri isə (dostlardan və ailədən alınan) 10% təşkil etmişdi.

Hökumət ölkəni bürüyən enerji böhranını aradan qaldıra bilmədi. Məşğulluq sahəsində də ciddi problemlər qalmaqda idi. Gürcüstanda əmək bazarının formalaşmasına təsir edən mənfi amillərdən biri işçi qüvvəsinin dəyərinin aşağı olması idi. Bu dövrdə artıq 1 milyondan artıq Gürcüstan vətəndaşı qazanc məqsədilə ölkəni tərk etmək məcburiyyətində qaldı. İşsizliyin səviyyəsi olduqca yüksək idi.

Gürcüstanın kredit-maliyyə sisteminin imkanları hələ də istənilən səviyyədə deyildi. Kommersiya banklarının inkişaf potensialı məhdud idi. Sabitləşmə ölkənin iqtisadi inkişafı üçün əlverişli şərait yaratdı. Sonralar Gürcüstan ərazisindən neft-qaz kəmərlərinin, Avrasiya transmilli dəhlizlərin keçməsi, qlobal layihələrin reallaşması, humanitar yardımlar iqtisadiyyatın inkişafına müsbət təsir göstərdi. Bu proses tədricən, təkamül yolu ilə davam etdirilirdi. Gürcüstan hökuməti yaxın gələcəkdə iqtisadiyyatı inkişaf etdirmək üçün proqram işləyib hazırladı və təsdiq etdi. Proqramda:

– Sənayenin 5-7 ildə inkişafını təmin etmək, iqtisadi inkişaf və maliyyə sabitliyi üçün əsas yaratmaq;

– Özəl sektorun, özəl sənaye şirkətlərinin inkişafına yardım etmək; bunun üçün bilavasitə subsidiyalar və ucuz kreditlərdən istifadə etmək;

– İdxal olunan malların daşınmasının məhdudlaşdırılması;

– Ayrı-ayrı müəssisələrə münasibətdə vergi həvəsləndirmələrinin tətbiq olunmasını nəzərdə tuturdu.

Hökumət aşağıdakı yardım formalarımdan istifadə olunmasını nəzərdə tutdu:

– istehsal fəallığı üçün əlverişli qanunvericilik mühitinin yaradılması;

– beynəlxalq aləmdə gürcüstan müəssisələrinin maraqlarının qorunması;

– ümumdünya ticarət təşkilatının üzvü kimi gürcüstanın statusundan istifadə edilməsi;

– beynəlxalq təşkilatların maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatına cəlb olunması;

– müəssisələrə məsləhət yardımı edilməsi;

– menecerlərin hazırlığı proqramlarının həyata keçirilməsi.



Bütün bunlarla yanaşı, Gürcüstanda hələ də kəskin, həll olunmamış iqtisadi problemlər qalmaqda idi. Bunlar aşağıdakılar idi:

– investisiya böhranı;
– ödəməmələrin kütləvi xarakter daşıması;
– xarici borcun kəskin artması;
– korrupsiya və "gizli iqtisadiyyat"ın miqyasının kəskin artması;
– ödəmə balansının pisləşməsi;
– işsizliyin yüksək həddə olması;
– bankdan kənar sahələrdə pul mübadilələrinin çoxluğu;
– büdcə kəsirinin xarici borc hesabına ödənilməsi;
– vergi sisteminin təkmilləşməməsi;
– hüquqi bazanın qeyri-sabitliyi.

Beləliklə, Gürcüstanın struktur islahatlarının hələ də davam etdirilməsinə ehtiyac var idi.

Gürcüstan hökumətinin iqtisadi siyasəti üç əsas prinsipə əsaslanırdı. İlk prinsip iqtisadi inkişafın səmərəli sürətlə artımı, iş yerlərinin açılması və yoxsulluğun azaldılması idi. İkinci prinsipdə daxili iqtisadi artım siyasətinin həyata keçirilməsi, iqtisadi artım vasitəsilə cəmiyyətin hər bir üzvünün rifahı, diaspor, mühacirlər, etnik azlıqlar və digər qruplar da daxil olmaqla bütün əhalinin iqtisadi inkişaf prosesində sosial bərabərliyi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması nəzərdə tutulurdu. Üçüncü əsas prinsip ekoloji təhlükəsizliyin və sabitliyin təmin edilməsi və iqtisadi inkişaf prosesində təbii fəlakətlərin aradan qaldırılması, təbii ehtiyatların səmərəli istifadəsinə əsaslanmaq idi.

## 1.2. Gürcüstanda yeni sosial inkişaf modellərinin axtarışı (2003-2008-ci illər)

**Gürcüstan Mixeil Saakaşvilinin hakimiyyəti illərində.** 2003-cü ildə Gürcüstanda "Qızılgül inqilabı" ("Məxməri inqilab") baş verdi. Hakimiyyətə M.Saakaşvili gəldi. Mixeil Saakaşvili 1967-ci il dekabrın 21-də Tbilisidə anadan olmuşdu.

Tbilisidə orta məktəbi qızıl medalla bitirən M.Saakaşvili 1992-ci ildə Kiyev Dövlət Unversitetini qırmızı diplomla başa vurmuş, ABŞ-da Kolumbiya Universitetində hüquq magistri dərəcəsi almışdır. O, xaricdə Avropada insan hüquqlarının müdafiəsi ilə bağlı olan şirkətlərdə çalışmışdır.

M.Saakaşvili 1995-ci ildə dostu Zurab Jvaniyanın dəvətilə Gürcüstana qayıtmışdır. O, parlamentə E.Şevardnadzenin rəhbərlik etdiyi "Gürcüstan Vətəndaşlar İttifaqı" partiyasından deputat seçilmişdir. 1996-cı ildə parlamentdə Konstitusiya və hüquq məsələləri komitəsinin sədri və partiya fraksiyasının başçısı vəzifəsini tutmuşdur.

M.Saakaşvili 2000-ci ilin oktyabrında ədliyyə naziri təyin olunaraq Gürcüstan Vahid Kommunist Partiyasının ləğv edilməsini tələb etdi.

2001-ci ilin sentyabrında E.Şevardnadze və onun hökumət üzvlərini korrupsiyada günahlandıraraq istefa verdi, müxalifət siyasi təşkilat olan "Milli Hərəkat Partiyası"nı yaratdı. Tezliklə partiya üzvlərinin sayı 20 min nəfərə çatdı.

2003-cü il noyabrın 22-də müxalifətçilər əllərində qızıl güllərlə parlamentə daxil olub parlament binasını tutdular. 2003-cü il noyabrın 23-də M.Saakaşvilinin "Milli Hərəkat Partiyası"nın, Zurab Jvaniya və parlamentin spikeri Nino Burcanadze ilə birlikdə təşkil etdikləri etiraz aksiyası nəticəsində hakimiyyət dəyişikliyi baş verdi. E.Şevardnadze istefa verməyə məcbur oldu.

2004-cü ildə "Milli Hərəkat"la Z.Jvaniyanın "Birləşmiş Demokratlar" siyasi təşkilatı birləşdi. Blok "Milli Hərəkat-Demokratlar" bloku adlandırıldı, sonra isə Vahid Milli Hərəkat Partiyası yaradıldı. Mixeil Saakaşvili isə onun lideri oldu.

2004-cü il yanvarın 4-də Mixeil Saakaşvili seçicilərin 96,27 faizini toplayaraq Gürcüstanın yeni, üçüncü prezidenti seçildi.

2004-cü ilin martında Saakaşvili və Burcanadzenin "Milli Hərəkat-Demokratlar" bloku parlament seçkilərində 76 faiz səs toplayaraq qələbə çaldı.

Prezidentlik dövründə M.Saakaşvili gördü ki, Gürcüstan hakimiyyəti Abxaziyaya, Cənubi Osetiyanın böyük bir hissəsinə, Kodor dərəsinə nəzarət etmir, Acarıstan özünü yarımmüstəqil muxtar respublika hesab edir. Kodor dərəsində Elizar Kvisianinin qiyamını yatırmaq üçün "xüsusi polis əməliyyatı" apararaq o, Acarıstana və Kodor dərəsinə nəzarəti bərpa etdi. Cənubi Osetiyada əməliyyat isə uğursuzluğa uğradı.

2007-ci ilin sentyabrında müxalifət M.Saakaşvilini korrupsiya, qətiyyətsizlik və sifarişli qətllərdə ittiham etdi. M.Saakaşvilinin ən qatı əleyhdarı Gürcü Arzusu Partiyasının lideri, milyarder Bidzina İvanişvili idi. M.Saakaşvilinin hakimiyyəti illərində Gürcüstanda korrupsiya aşağı düşdü. Lakin müxalifət Gürcüstanın etalitar korrupsiyadan əziyyət çəkdiyini iddia edirdi.



M.Saakaşvilinin özünü siyasi opponentlərinin qətlində ittiham edirdilər. Onu eyni zamanda Cənubi Osetiyaya ağılsız hücumda günahlandırırdılar.

2013-cü ildə M.Saakaşvilinin hakimiyyəti başa çatdı.

Gürcüstanın Baş Prokuroru onu:

– Büdcə vasitələrini israf etməkdə;

– Xidmət səlahiyyətlərini aşmaqda;

– Siyasi qətllərə görə ittiham edərək daxili və beynəlxalq axtarış elan etdi. Lakin İnterpol 2015-ci ilin avqustun 1-də M.Saakaşvilinin beynəlxalq axtarışını elan etməkdən imtina etdi.

Mixeil Saakaşvili Ukraynada Odessada vilayət dövlət administrasiyasının başçısı vəzifəsini yerinə yetirdi. Lakin az sonra Ukrayna Prezidenti Pyotr Poroşenkonun ən güclü rəqibi kimi müxalifətə rəhbərlik etdi.

**Daxili ictimai-siyasi islahatlar.** Ölkədə geniş miqyaslı islahatlar həyata keçirildi, işgüzar mühit yaxşılaşdırıldı. Lakin iqtisadiyyatın keyfiyyəti lazımi səviyyəyə qalxmadı. Belə ki, bu iqtisadi yüksəliş sənayenin yüksək texnologiyalı sahələri innovasiyaların və investisiyaların qoyuluşu, kiçik və orta müəssisələrin fəaliyyətinin genişlənməsi, iş yerlərinin sayının artması, gəlirlərin ədalətli və bərabər bölgüsü, yoxsulluğun azaldılması ilə əlaqədar deyildi. Hərçənd ki, işgüzar mühitin yaxşılaşması istehsalın ümumi həcminin yüksəlişinə gətirib çıxartdı.

Gürcüstanın kredit ekspensiyası əsasən ixrac sahələrinə yönəlmiş xarici investisiya ilə əlaqədar idi.[53]

2003-cü ildə M.Saakaşvili hökumətinin korrupsiya ilə mübarizəsi büdcə və enerji böhranının aradan qaldırılmasına səbəb oldu. 2005-ci ildə yeni vergi kodeksinin qəbul edilməsilə biznes mühiti üçün əlverişli şərait yarandı, yeni əmək qanunvericiliyi sayəsində işə götürənlər işçiləri qəbul etmək üçün fəaliyyət sərbəstliyi əldə etdilər. Bütün bu islahatlar Gürcüstana neoliberal ölkə imici qazandırdı. Gürcü müəlliflərinin yazdıqlarına görə, mülkiyyət hüquqlarının pozulması iri biznesə hökumət tərəfindən tam nəzarət olunması; antiinhisar qanunvericiliyinin ləğv edilməsi nəticəsində iqtisadi xidmətlərin güclü inhisarlaşması, kütləvi korrupsiyanın yox olması fonunda əsasən rüşvət almaq nəticəsində elitar korrupsiyanın təhlükəli miqyas alması kimi bir çox faktlar üzə çıxdı. Öz xarakterinə görə bu po-

[53] Bundeszentrale für Politische Bildung.Werner Weidenfeld/Wolfgang Wessels (Hrsg.). Bonn : BPB. 2009.

zuntular neobolşevizmə bənzəyirdi. Nəticədə Gürcüstanın müasir iqtisadiyyatı neoliberalizmlə neobolşevizmin simbiozundan ibarət idi.[54]

M.Saakaşvilinin prezidentliyi dövründə ABŞ Gürcüstana humanitar sahədə, eyni zamanda texniki, hüquqi və təşkilati imkanlarla parlament üzvlərinin, hüquq-mühafizə orqanları əməkdaşlarının, iqtisadi müşavirlərin təhsil almalarını təşkil etdi. 2004-2007-ci illərdə Gürcüstan iqtisadiyyatı 35% inkişaf etdi. Ölkənin müasir iqtisadiyyatı ənənəvi olaraq aqrar, yeyinti sənayesi, kimya və maşınqayırma ilə əlaqədardır. Gürcüstan iqtisadiyyatının strukturuna aşağıdakılar daxildir:

– turizm;
– sitrus, çay və üzümçülük bitkilərinin becərilməsi;
– marqans və mis çıxarılması;
– şərabın sənaye istehsalı;
– metal, maşın, kimyəvi maddə və tikinti istehsalı;
– energetika.

Əlverişli mövqeyi, qonşu və dost Azərbaycanın səyləri və beynəlxalq konsorsiumlarla aparılan danışıqlarda təkidli tələbləri nəticəsində Gürcüstan ərazisindən iri miqyaslı neft-qaz daşımalarını təmin edən boru kəmər layihələri reallaşdırıldı. Gürcüstana xarici investisiyalar axını başlandı. 2002-2004-cü illərdə xarici investisiyalar əsaslı şəkildə artdı. Nəqliyyat sektoruna və tikintiyə investisiyaların 90%-i cəmləşmişdi. Qaz kəmərindən ölkəyə tranzit haqqı ödənildi. Gürcüstan müstəqilliyin ilk illərindəki aqrar-sənaye ölkədən tranzit xidmətini yerinə yetirən ölkəyə çevrildi. Respublikanın iqtisadiyyatı beynəlxalq regional layihələrin həyata keçirilməsinə xidmət üzrə ixtisaslaşdırıldı. Mahiyyət etibarilə bu layihələrin həyata keçirilməsi üçün Gürcüstan tranzit-kommunikasiya funksiyasını yerinə yetirməyə başladı.

İqtisadiyyatın yüksəlişinin təmin olunmasında dövlət iqtisadi siyasəti və iqtisadiyyatın sahə strukturlarının formalaşmasında xarici maliyyələşmə əhəmiyyətli rol oynamışdır. E.Şevardnadzenin hakimiyyəti illərində Gürcüstan iqtisadiyyatı qrantlar və xaricdən pul köçürmələri hesabına inkişaf edirdi.[55]

---

[54] Кутелия Б.Н. Меладзе Г.Г., Цуладзе Г.Е. Эмиграция из Грузии в постсоветский период // Социологический журал. 1997. N4, с.178-191.

[55] Власть в Грузии перешла к Государственному Совету // www.yeltsinseuter.-ru/digest/releace/den-za-dnem.11-marta1992qoda/.Известия,11марта 1992.



2008-ci ilin avqustunda Rusiya-Gürcüstan müharibəsindən sonra Avropa İttifaqı Gürcüstanda azad ticarət rejimi yaratmağa hazır olduğunu bildirdi. Bunun üçün aşağıdakı şərtlər irəli sürüldü:

– bazarın antiinhisar tənzimlənməsinin Avropa institutlarına uyğunlaşması;
– istehsalçıların hüquqlarının müdafiə olunması;
– ərzaq təhlükəsizliyinin təmin olunması.

M.Saakaşvili hökuməti həmin şərtləri həyata keçirmədi. İqtisad elmləri doktoru Vladimir Komerika 2008-ci ilin sentyabrında yazırdı: "Gürcüstanın iqtisadiyyatı olduqca "ağır" vəziyyətdə idi. Çünki ölkə əsasən Saakaşvili rejiminin aldığı kreditlər hesabına yaşayırdı. Bu kreditlər ağır yük kimi gürcü xalqının gələcək nəsillərinin çiyinləri üzərində dururdu. Kreditlərin böyük bir hissəsini Saakaşvili rejimi sadəcə olaraq oğurlayıb axırına çıxır, xalqa isə qırıntıları çatırdı.

Qərbin yardımına gəldikdə gürcü məhsulları üçün oradakı bazarlar bağlıdır, onlara əlavə rəqiblər lazım deyildir. Gürcü məhsulları üçün ənənəvi bazar post-sovet məkanıdır, böyük hissəsi üçün isə Rusiyadır. Lakin alkoqol məhsullar, şərab, mineral sular, kənd təsərrüfatı məhsullarını Rusiya bazarlarına aparırlar. Gürcüstanda iqtisadi böhran çox dərindir, istehsalın yüksəlişi praktiki olaraq yoxdur, borclar artır, ödəməyə isə heç nə yoxdur."[56]

2003-cü ildən neoliberallaşdırılma, yoxsulluğun azaldılması və "sosial iqtisadiyyat" siyasəti həyata keçirildi. Azad ticarətin tənzimlənməsi və iqtisadi modernləşdirmə prinsipləri əsasında əhəmiyyətli institusional islahatlar, iqtisadi artımın yüksək dərəcəsi və birbaşa xarici investisiyaların artımı iqtisadiyyatın dirçəlməsinə əhəmiyyətli dərəcədə təsir göstədi. Lakin əhalinin kasıb təbəqəsinin əmlakının qorunmasına və sosial sahəyə diqqət yetirilməməsi islahatların natamam həyata keçirilməsi bir daha ciddi problemlər yaratdı. İşsizlik və yoxsulluq müəyyən yüksək çatmışdı. Gürcüstan iqtisadiyyatının xarici öhdəlikləri, infilyasiya və idxaldan asılı iqtisadiyyat hələ də qalırdı. Hökumətin modernləşdirmə siyasəti iqtisadi siyasətlə uyğunlaşmırdı.

"Qızılgül inqilabı"ndan sonra Gürcüstanın yeni prezidenti Mixeil Saakaşvili sosial və iqtisadi sahələrdə köklü dəyişikliklər etməyə başladı. Əslində Gürcüstanın yeni bir dövlət formalaşdırılması prosesi başlamışdı. İnqilabdan sonrakı dövrü üç mərhələyə bölmək olar:

---

[56] История экономики Грузии. 25.02.2017 // www.newsruss.ru/doc/

1) Birinci mərhələdə əsas vəzifə maliyyə sisteminin qaydaya salınması idi. İnqilabdan sonrakı ilk aylarda əmək haqqı və təqaüdlərin verilməməsinin, borcların və öhdəliklərin yerinə yetirilməməsinin, büdcə kəsirinin aradan qaldırılması, enerji təchizatında problemlərin həll edilməsi lazım idi.

2) 2004-cü ilin ikinci yarısından 2007-ci ilin sonuna qədər Gürcüstan hökumətinin siyasətində bir sıra problemlər ortaya çıxdı.

3) 2007-ci ilin sonundan 2008-ci ilin siyasi və qlobal maliyyə böhranına qədərki dövrdə Gürcüstan-Rusiya müharibəsi də (2008-ci il) ölkə iqtisadiyyatına mənfi təsir etdi.

Əvvəlcə, yeni hökumət maliyyə intizamının yaradılması haqqında müəyyən ali məqsədlərini bildirdi və iqtisadi hüquqi qaydaları bərpa etdi. Bu, daha çox əhalinin yoxsul təbəqəsinin mülkiyyəti üzərinə kölgə salmış müəyyən qurumların, özəl və qeyri-qanuni sektorların, onların mal və mülklərini müəyyən mənada əllərindən alınmasının qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Eyni zamanda aşağıdakı sahələri əhatə edən siyasət də həyata keçirildi: sənaye obyektlərinin ətraf mühiti yaxşılaşdırıldı, nəzarət orqanlarının sayı ixtisar edildi və onların səlahiyyətlərini məhdudlaşdıran iqtisadiyyatın qanunvericilik bazası dəyişdirildi. Vergilərin sayı azaldıldı (20 vergidən 6 vergiyə endirildi), bəzi vergi dərəcələri azaldıldı. Lakin bu qanunvericilikdə edilən dəyişikliklər, vergi yükünün azaldılması və qanunların liberallaşdırılması dövlət orqanlarının, xüsusilə gömrüyün dövlət büdcəsinə göstərdiyi yardımı azaltdı.

2004-cü ilin dəyişikliklərindən sonra vergi gəlirləri müxtəlif səviyyəli büdcələrə ayrıldı. Mərkəzləşdirmə siyasəti daha da artdı. Acarıstan Muxtar Respublikasında idxaldan alınan vergi və əmlak vergisindən başqa bütün vergi gəlirləri dövlət büdcəsinə yönəldilmişdi. Lakin digər yerli idarəetmə orqanları büdcədən yalnız 5-10%-lik gəlir əldə edə bilirdi. Xüsusi kapital köçürmələrinin bərabərləşdirilməsi yerli hakimiyyət orqanlarının dövlət büdcəsindən əldə olunan gəlirlərini əllərindən aldı.

"Qızılgül inqilabı"ndan sonra dövlət əmlakının özəlləşdirilməsi xüsusilə intensivləşdi. Yeni hökumətin liberal siyasətinin təməl dayaqlarından biri strateji obyektlərin özəlləşdirilməsi idi. Bundan başqa digər ölkələrin dəniz və dövlət şirkətləri üçün əmlak transferi qadağası aradan qaldırıldı. Böyük miqyaslı obyektlər, eləcə də kiçik müəssisə və torpaqlar özəlləşdirildi.

Özəlləşdirmə vasitəsilə büdcə gəlirlərinin toplanması ilə büdcənin maliyyə imkanları artdı. Özəlləşdirmə obyektlərinin alınması və birbaşa



xarici investisiyaların axını artdı. Makroiqtisadi baxımdan bunlar həm ÜDM-in, həm də dövlət büdcəsinin artımında mühüm rol oynadı.

"Qızılgül inqilabı"ndan sonra müxtəlif tənzimləyici sistemlərin minimuma endirilməsi hökumətin əsas siyasət istiqamətlərindən biri oldu. Bu siyasət belə əsaslandırıldı:

1) Belə sistemlər səmərəsizdir və onların funksiyaları yerinə yetirilə bilməz;

2) Korrupsiyanın səviyyəsi müəssisələrin fəaliyyətinə imkan verməmdiyindən antikorrupsiya siyasəti iqtisadiyyatda yüksək rola malikdir;

3) Liberallaşdırılmanın tənzimlənməsi bu sistemlərin sayının azaldılmasını qarşıya məqsəd qoymuşdu.

Bu prosesin o qədər də sırf dövlət tərəfindən tənzimlənməsi tələb olunmurdu. Tezliklə müəyyən məhdud funksiyaları olan antiinhisar xidməti ləğv edildi. Bunların nəticəsində "pulsuz rəqabət agentliyi" əsasında bazar daha da liberallaşdırıldı.[57]

Qida təhlükəsizliyinə nəzarət sistemləri və təşkilatlar, texniki tənzimləmə, standartlaşdırma, lisenziyalaşdırma və sertifikatlaşdırma kimi məsul strukturlar ləğv edildi. Ticarət üçün tələb olunan lisenziya və icazələrin sayı 84% azaldıldı. Lisenziya və icazələr yalnız yüksək riskli məhsul və xidmətlərə, təbii ehtiyatları və xüsusi əməliyyatlar ticarəti üçün tələb olunurdu. Bundan başqa lisenziya və icazələrin verilməsi prosedurları sadələşdirildi, "bir pəncərə" və "səssiz razılıq" prinsipləri tətbiq edildi. Bu islahatların nəticəsində ölkə könüllü şəkildə bu standartları qəbul etdi, dövlətin tənzimləyici rolu sayəsində sahibkarlığa dəstək artdı.

Əmək bazarının əhəmiyyətli şəkildə tənzimlənməsində azad ticarət da iştirak etdi. Yeni Əmək məcəlləsi tənzimləmə sahələrini minimuma endirdi. Lakin 2006-cı ildə qəbul edilmiş Əmək məcəlləsi Avropa Sosial Xartiyasına, Beynəlxalq Əmək Təşkilatının və Avropanın standartlarına zidd idi. Gürcüstan institusional dəyişikliklər nəticəsində ticarət sərhədlərini açdı. İdxal-ixrac prosedurları sadələşdirildi, vergi dərəcələri və növləri azaldıldı, tarif və qeyri-tarif tənzimlənməsi sadələşdirildi, ticarət əlaqələri regional və əsas ticarət tərəfdaşları təkmilləşdirilmiş investisiya mühitində

[57] Putkaradze R., Perspectives of Georgia-European Union trade relations. Istanbul international annual conference on the economic cooperation and development within the Black Sea basin Countries, Donetsk National University, Collection of Scientific Works. Part I. Istanbul-Donetck 2010. // www.repozytorium.uph.edu.pl/bitstream/handle/11331/-620/Putkaradze_Historical_determinants_of_the_economic_relations.pdf?sequence=1

sərbəst ticarət müqavilələrinin bağlanması ilə şaxələndirildi. Nəticədə 2006-cı ildən İqtisadi Azadlıq İndeksi Gürcüstanın reytinqini tərtib etməyə başladı.

*Cədvəl 2. Gürcüstan iqtisadiyyatının strukturu.*
*1990-2010-cu illər*




*Cədvəl 3. Gürcüstanın iqtisadiyyatının strukturunun dinamikası.*
*1990-2010-cu illər*




*Mənbə: www.he5.biz/ekonnomika?/002/georgia.htm*

*Cədvəl 4.*



| İllər | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Vəziyyət | 96 | 83 | 79 | 93 | 43 | 31 | 32 | 32 | 26 | 26 |

Source: http://www.heritage.org/index/visualize

Gürcüstan iqtisadiyyatında xarici maliyyə ehtiyatlarının artımı nəticəsində xarici borclar və xaricdən pul köçürmələri artdı. Ümumi xarici borc demək olar ki, 2006-2010-cu illərdə üç dəfə artaraq 2006-ci ildə 3,800,535.3 min ABŞ dollarından 2010-cu ildə 9,817,145.1 min ABŞ dollarına çatdı.

2008-ci ilin ikinci yarısında ölkə yenidən tənəzzülə uğradı. Buna 2008-ci ilin Rusiya-Gürcüstan müharibəsinin dramatik nəticələri səbəb oldu. Ölkədə iqtisadiyyatla bağlı bir çox sahələrin kəskin azalması birbaşa iqtisadi geriləməyə gətirib çıxardı. 2008-ci ildə ÜDM 2,1% artdı. 2007-ci ildə bu rəqəm 12,3% idi.

Müharibə ətraf mühitə ağır ekoloji zərər vurmaqla yanaşı digər problemlər də yaratdı. Məcburi köçkünlərin sayı 160 000 nəfəri keçdi və onlar üçün müvəqqəti sığınacaq lazım oldu.

Qlobal iqtisadi böhran iqtisadiyyatın tənəzzülündə əsas səbəblərdən biri idi. Böhran zamanı Qərb şirkətləri Gürcüstan banklarına kreditlərin verilməsini dayandırdı. Nəticədə banklar verdikləri kreditləri dayandırdı. Bu birbaşa xarici sərmayə axınını da azaltdı. 2009-cu ildə birbaşa xarici investisiya əvvəlki ilin yalnız yarısı qədər idi. Ölkənin maliyyə borcu da artdı.

2008-ci ilin oktyabr ayında Brüssel konfransında 38 ölkə və 15 beynəlxalq təşkilatın rəhbərləri Gürcüstana 4,5 milyard dollar dəyərində yardım ayırdı. Bu vəsaitin 2.0 milyardı qrant və 2,550 milyardı kredit şəklində oldu. Həmin yardım 2008-2010-cu illər ərzində münaqişə zamanı dağıdılmış iqtisadiyyatın bərpası üçün nəzərdə tutulmuşdu. Yardım həmçinin qlobal maliyyə böhranının Gürcüstan iqtisadiyyatına təsirinin və ölkə iqtisadiyyatının tənəzzülünün qarşısının alınmasına görə verilmişdi. Başqa bir ciddi problem isə cari kəsir idi. Gürcüstanın artan ticarət kəsiri əvvəllər birbaşa xarici investisiyalar və köçürmələr ilə tarazlaşdırılırdı. 2008-ci ilin ikinci yarısından etibarən bu cari kəsir daha da artdı. Gürcüstan iqtisadiyyatında yaranan bu kəsrə əsasən idxal yönümlü iqtisadiyyat səbəb olmuşdu.

"Qızılgül inqilabı"ndan bəri hökumət ardıcıl iqtisadi siyasət aparmadı. 2004-2007-ci illər ərzində kənd təsərrüfatı və sosial təminat, yoxsulluq və ya iş yerləri ilə bağlı bir çox problemlər həll edildi. 2008-ci ildən

sonra hökumət ciddi nəticələr verən müzakirələr apardı. İqtisadi artım işsizliyin azalmasına qismən təsir etdi.

Hökumətin iqtisadi siyasəti modernləşmə və liberallaşma əsasında davam etdirildi. Modernləşdirilmə nəticəsində köklü dəyişiklik olmadı. Dəyişikliklər sosial sektorda da baş verdi. "Qızılgül inqilabı"ndan sonra müəyyən tədbirlər görülərək sosial sektor yenidən bərpa edildi. Bir çox ailələr üçün dövlət proqramı təsis edildi. Həddindən artıq yoxsulluq şəraitində yaşayanlar üçün maddi yardım göstərildi və müavinətlər verildi. Onların sayı müəyyən edildi və vahid bazada qeydə alındı. Yaşayış yerləri qeydiyyata alındı və ünvanlı yardım paylandı. İqtisadi artım və sosial islahatlar nəticəsində yoxsulluğun səviyyəsi bir qədər azaldı, lakin eyni zamanda sosial bərabərsizlik artdı. Yoxsulluq Gürcüstanda ən ciddi və ağır problemlərdən biri olaraq qalır.

Dünya Bankının biznes reytinqinə görə, 2006-2007-ci illərdə Gürcüstan 112-ci yerdən 37-ci yerə yüksəlmişdir. 2008-ci ildə onun reytinqi 21-ci yerdə olmuş, 2009-cu ildə isə 5-ci yerə yüksəlmişdir. 2010-cu ildə 12-ci, 2011-ci ildə isə 13-cü yerdə oldu. Lakin Qlobal Rəqabətlilik haqqında hesabatda Gürcüstan 2011-2012-ci illərdə 142, ölkə daxilində 93, 2010-2011-ci illərdə 88-ci, 2008-2009-cü illərdə isə 90-cı yerdə idi.

*Cədvəl 5. Azad ticarətdə tənzimləmə göstəriciləri*




*Mənbə: East West Management Institute, The Economic Transformation of Georgia in its 20 years of Independence Summary of the Discussion Paper*



## 1.3. Gürcüstanda sosial şəraitin təhlili: imkanlar və perspektivlər (2008-2017-ci illər)

2009-cu ildə ABŞ və Gürcüstan arasında sərbəst ticarət rejiminin tətbiqini nəzərdə tutan "Strateji tərəfdaşlıq haqqında xartiya" imzalandı. Lakin bu istiqamətdə də irəliyə doğru addım atılmadı.

1997-ci ildə çoxtərəfli və ikitərəfli qrantlar 116 milyon 400 min lari, 1998-ci ildə 182 milyon 800 min lari təşkil etdi. 2003-2011-ci illərdə ölkənin iqtisadiyyatına yatırılan birbaşa investisiya 851 milyon 100 min ABŞ dollarına çatdı. 2006 və 2008-ci illərdə Ümumdünya Bankı Gürcüstanı dünyanın digər ölkələri arasında islahat aparan lider ölkə adlandırdı. Bu zaman sənaye və xidmət sahələrindən gələn gəlir ÜDM-in əsas hissəsini təşkil etdi.

2010-cu ildə ölkəyə valyuta axını ixrac və xarici investisiyalar hesabına artdı.[58]

Hökumət bazar islahatları sahəsində aşağıdakı sahələrdə tərəqqiyə nail ola bildi:

– qiymətlərin liberallaşması;
– milli valyutanın (larinin) sabitləşməsi;
– idarəetmə aparatının kütləvi ixtisar edilməsi;
– cəzbedici biznes mühitinin yaradılması.

Ölkədə kənd təsərrüfatı və sənaye məhsulları, ticarət, nəqliyyat və kommunikasiyanın payı 1,5 dəfə artmışdır.

Gürcüstanda sənaye məhsulları əsasən polad, dəzgahlar, elektrocihazlar, marqans, mis, qızıl, kimyəvi maddələr, ağac məmulatları, şərabdır. İxrac malları nəqliyyat vasitələri, gübrə, qoz, qızıl, misdir. Ölkə Türkiyə, ABŞ, Ukrayna, Azərbaycan, Rusiya, Ermənistanla iqtisadi əlaqələr qurmuşdur. Gürcüstan yanacaq, nəqliyyat vasitələri, maşınlar, dərman preparatları idxal olunur.

11,2% inflyasiyadan sonra 2010-cu ildə inflyasiyanın illik səviyyəsi 2% oldu. Bu gün Gürcüstan üçün işsizlik əsas problem olaraq qalmaqdadır.

[58] Перспективы развития экономики Грузии в 2017 году: вызовы и прогнозы 25.02.2017. // www.dlmn.info/ ru/perspcktivi-akanomiki-qruzii.v-2017 qodu-vizovi-i//-rodnovi

*Cədvəl 6. 1996-2010-cu illərdə (ÜDM %-lə) iqtisadiyyatın strukturu*

| *İqtisadiyyatın sahələri* | *1996* | *1998* | *2000* | *2004* | *2006* | *2010* |
|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 34,1 | 27,6 | 21,9 | 17,9 | 12,8 | 8,4 |
| Sənaye | 21,2 | 18 | 18,4 | 17,6 | 17 | 16,9 |
| Tikinti | 2,6 | 4,9 | 4 | 8,8 | 7,9 | 6,3 |
| Ticarət | 12,6 | 11 | 13,4 | 3,9 | 15,6 | 16,6 |
| Nəqliyyat və rabitə | 5,7 | 11,5 | 15,1 | 14,6 | 13,2 | 11,6 |
| Dövlət idarəçiliyi | 2,9 | 4,1 | 3,6 | 6,4 | 9,7 | 13 |
| Digər sektorlar | 20,9 | 23 | 23,6 | 20,8 | 23,7 | 23,2 |
| ÜDM | 100 | 100 | 100 | 100 | 100 | 100 |

***Mənbə:*** *Gürcüstanın Milli Statistika Agentliyinin məlumatları.*

**Gürcüstan Georgi Marqvelaşvilinin prezidentliyi dövründə.** 2013-cü ildə Gürcüstanın Prezidenti Georgi Marqvelaşvili seçildi. G.Marqvelaşvili 1969-cu il sentyabrın 4-də anadan olub. O, Tbilisi Dövlət Universitetinin məzunudur. Fəlsəfə elmləri doktorudur. G.Marqvelaşvili 1995-2000-ci illərdə ABŞ Milli Demokratiya İnstitutunun (NDİ) Gürcüstan nümayəndəliyində işləmişdir. 2012-ci ildən B.İvanişvili hökumətində təmsil olunmuşdur. İngilis və rus dillərini bilir. G.Marqvelaşvili prezident seçilənə qədər baş nazir B.İvanişvilinin müavini idi, həmçinin, elm və təhsil naziri vəzifəsini tuturdu. 1996-1997-ci illərdə Georgi Marqvelaşvili Azad Tbilisi Universitetində fəlsəfə müəllimi kimi dərs demişdir. 2000-2012-ci illərdə Gürcüstan İctimai İşlər İnstitutunda işləmişdir. 2000-2006-cı illər və 2010-2012-ci illər arasında institutun rektoru olmuşdur. 2013-cü il fevralın 7-də Georgi Marqvelaşvili Gürcüstan Baş Nazirin müavini vəzifəsinə təyin olunurdu. 2012-ci ilin oktyabrında Marqvelaşvili seçkilərdə qalib gələn Gürcü Arzusu koalisiyasının rəhbəri Bidzina İvanişvilinin yeni formalaşdırdığı hökumətdə təhsil naziri vəzifəsinə təyin olunur. Marqvelaşvili heç bir siyasi partiyanın üzvü olmamışdır. 2013-cü il mayın 11-də hakim Gürcü Arzusu Partiyası prezident seçkilərində G.Marqvelaşvilini öz namizədi gördüyünü açıqladı. 16 iyul 2013-cü ildə o, könüllü olaraq təhsil naziri vəzifəsindən istefa verərək seçki kompaniyasına başladı. Bununla belə, Baş Nazirin müavini vəzifəsini icra etməkdə davam etdi. 9 sentyabr 2013-cü ildə G.Marqvelaşvili rəsmən Gürcüstan prezidentliyinə namizəd kimi qeydə alındı, 2013-cü il oktyabrın 27-də keçirilən seçkilərdə qalib gəldi.

*Cədvəl 7. Gürcüstanda ÜDM-in dinamikası*

| İl | Cari qiymətlərdə ÜDM, mlrd.dollarla | Hər nəfərə düşən ÜDM, dollarla | ÜDM-in artımı, % |
|---|---|---|---|
| 1990 | 8.4 | 1544.2 | |
| 1991 | 6.9 | 1267.4 | -21.3 |
| 1992 | 3.9 | 729.8 | -44.5 |
| 1993 | 2.8 | 536.6 | -29.3 |
| 1994 | 2.6 | 500.2 | -10.4 |
| 1995 | 2.7 | 532.8 | 2.6 |
| 1996 | 3.1 | 613.6 | 11.3 |
| 1997 | 3.5 | 712.9 | 10.5 |
| 1998 | 3.6 | 743.0 | 3.1 |
| 1999 | 2.8 | 582.7 | 2.9 |
| 2000 | 3.1 | 644.4 | 1.8 |
| 2001 | 3.2 | 687.1 | 4.8 |
| 2002 | 3.4 | 734.1 | 5.5 |
| 2003 | 4.0 | 873.4 | 11.1 |
| 2004 | 5.1 | 1134.1 | 5.9 |
| 2005 | 6.4 | 1432.0 | 9.6 |
| 2006 | 7.7 | 1743.3 | 9.4 |
| 2007 | 10.2 | 2303.7 | 12.3 |
| 2008 | 12.8 | 2911.9 | 2.3 |
| 2009 | 10.8 | 2461.8 | -3.8 |
| 2010 | 11.7 | 2680.3 | 6.4 |

***Cədvəl 8. Gürcüstanda ÜDM-in dinamikası. 1990-2010-cı illər. (hər nəfərə düşən doll.)***




***Mənbə:*** *www.he5.biz/ekonnomika?/002/georgia.htm*

2014-cü ildə işsizliyin səviyyəsinin 13,7% aşağı düşməsinə baxmayaraq, də hələ də problem kimi qalır. Əhalinin yarısı kənd yerlərində yaşayır və burada məşğulluğun səviyyəsi aşağıdır.

Ekspertlər, o cümlədən BVF və Avropa Komissiyası 2014-2015-ci illərdə Gürcüstanın uğurla inkişaf edəcəyini proqnozlaşdırırdılar. Gürcüstanın Elmi-Tədqiqat Mərkəzi göstərirdi ki, ixracın şaxələndirilməsinin həyata keçirilməsi məqsədəuyğundur. Avropa İttifaqı ilə 2014-cü il bağlanmış assosiasiyalar, azad ticarətin genişləndirilməsi haqqında razılaşma ölkəyə kömək edəcəkdi. Rusiya Federasiyasına qarşı tətbiq edilmiş sanksiya riskləri və Ukrayna ilə əmtəə mübadiləsinin aşağı düşməsini də nəzərə almaq lazım idi.

Gürcüstanın iqtisadi inkişaf modeli istehsalın yüksəlişinə deyil, istehsalın stimullaşdırılmasına əsaslandı ki, bu da bir çox mənfi nəticələrə gətirib çıxartdı. V.Papava yazır ki, istehsalın stimullaşdırılması iqtisadiyyatın real sektorunun inkişafı olmadan idxal demək olar, ixracı 4 dəfə üstələyir. İxracın strukturunda yüngül avtomobillər 22%, metal tullantıları 8% təşkil edir. Lakin məlumdur ki, Gürcüstanda avtomobilqayırma sənayesi yoxdur. Buradan belə nəticə çıxır ki, Gürcüstan qonşu ölkələrə yüngül avtomobillərin satışı ilə məşğul olan ötürücü məntəqə rolunu oynayır. İxrac idxaldan əsaslı şəkildə geri qalır, həmçinin ixracın 30%-i iqtisadiyyatın real sektorunun məhsulu deyildir. Bütün bunlar isə Gürcüstanın iqtisadiyyatının nisbi geri qalmasını sübut edir.[59]



İstehsalatın istehlakın yüksəlişi hesabına nisbi geriliyini xaricdən gələn pul vəsaitləri təmin edir. "Qızılgül inqilabı"nın ilk illərində bu, hər şeydən əvvəl, birbaşa xarici investisiyaların və xaricdə yaşayan Gürcüstan vətəndaşlarının öz qohumlarına pul köçürmələri hesabına baş verirdi.

***Cədvəl 9. Gürcüstanın xarici ticarətinin dinamikası. 1990-2010-cu illər***

| İl | Gürcüstanın ixracı mlrd. doll. | Gürcüstanın idxalı, mlrd. doll. |
|---|---|---|
| 1990 | 3.4 | 3.9 |
| 1991 | 1.9 | 2.1 |
| 1992 | 1.9 | 3.9 |
| 1993 | 0.5 | 1.0 |
| 1994 | 0.6 | 1.2 |
| 1995 | 0.4 | 0.8 |
| 1996 | 0.4 | 1.0 |
| 1997 | 0.5 | 1.5 |
| 1998 | 0.6 | 1.3 |
| 1999 | 0.5 | 1.1 |
| 2000 | 0.7 | 1.2 |
| 2001 | 0.8 | 1.3 |
| 2002 | 1.0 | 1.4 |
| 2003 | 1.3 | 1.9 |
| 2004 | 1.6 | 2.5 |
| 2005 | 2.2 | 3.3 |
| 2006 | 2.5 | 4.4 |
| 2007 | 3.2 | 5.9 |
| 2008 | 3.7 | 7.5 |
| 2009 | 3.2 | 5.3 |
| 2010 | 4.1 | 6.1 |

[59] Кутелия Б.Н., Меладзе Г.Г., Цуладзе Г.Е. Эмиграция из Грузии в постсоветский период // Социологический журал, 1997. № 4, с.178-191.

*Cədvəl 10. Gürcüstanın idxalı: ölkə üzrə struktur. 2010-cu il*



*Mənbə: www.he5.biz/ekonnomika?/002/georgia.htm*

*Cədvəl 11.Gürcüstanın idxalının strukturu. 2010-cu il*




*Mənbə: www.he5.biz/ekonnomika?/002/georgia.htm*



Birbaşa xarici investisiya daşınmaz əmlakda cəmləşmiş və ölkə daxilində əlavə maliyyə ehtiyatı yaradırdı. Bu maliyyə ehtiyatı əsasən banklar vasitəsilə daxil olur, yaşayış evlərinin tikintisini sürətləndirirdi.

Kommersiya banklarının kredit ehtiyatları Avropa maliyyə bazarlarından əldə edilir, öz növbəsində tikinti biznesinə və məişət texnikasının əldə olunmasına kreditlər verilirdi. Gürcüstanda məişət texnikası da istehsal olunur. Gürcüstanın kommersiya banklarının istehlak kreditləri bununla da məişət texnikasının real iqtisadi sektorunun inkişafına kömək edir. Başqa sözlə, Gürcüstanın bank sektoru üçüncü ölkənin real sektorunun inkişafı üçün vasitəçi rolu oynayır. Beləliklə, Gürcüstan ekspertlərinin yazdığına görə, "Qızılgül inqilabı"ndan sonra Gürcüstanda maliyyə ehtiyatlarının axınının yüksəlişi yeni tələb yaratsa da, istehsalın inkişafına kömək edə bilmədi. Qlobal maliyyə-iqtisadi böhranı başlanandan sonra Gürcüstana birbaşa xarici investisiya axını kəskin şəkildə azaldı. 2008-ci ilin avqustunda baş vermiş Rusiya-Gürcüstan müharibəsindən sonra beynəlxalq birlik zərər çəkmiş tərəf kimi Gürcüstana 5,8 milyard ABŞ dolları məbləğində yardım təklif etdi."[60]

Ölkədə əhalinin 70%-dən çoxu işsiz idi. Gürcüstanda turizmin inkişafı üçün əlverişli şəraitdən istifadə edildi. Respublika formal olaraq iqtisadi inkişaf modelləri axtarışında Avropa istiqamətində olduğunu təbliğ edirdi. Ancaq M.Saakaşvili bəyan etmişdi ki, Gürcüstan Sinqapur modeli üzrə inkişaf etməlidir.

Gürcüstanın iqtisadiyyatını "sinqapurlaşma" yolu ilə apararaq M.Saakaşvili hökuməti Gürcüstanı Avropa İttifaqından, Avropa tipli iqtisadi quruluşdan uzaqlaşdırdı.

Gürcüstan iqtisadiyyatını sabit postindustrial iqtisadiyyat kimi səciyyələndirmək olar. Lakin ölkə iqtisadiyyatında kənd təsərrüfatı da mühüm rol oynadı. 1993-2008-ci illərdə aqrar sektorun göstəriciləri 25% aşağı düşdü. Bunlar meyvəçilik, tərəvəzçilik və heyvandarlıq məhsulları arasında bərabər bölünmüşdü. 2000-ci ildən sonra Gürcüstanda 16% əlverişli torpaq qaldı. Torpaqların böyük əksəriyyəti biznesmenlərə, fermerlərə verilmişdi. Kənd təsərrüfatı məhsulları ölkənin ÜDM -nin ancaq 12 faizini təşkil edirdi.

Xroniki olaraq gübrə və müasir texnikanın çatışmamazlığı ucbatından kənd təsərrüfatı məhsulları azalmağa başlamışdı. Gürcüstan tarixində

[60] Yenə orada.

ilk dəfə olaraq əlavə taxıl idxalına ehtiyac oldu. Üzümçülüyün məhsuldarlığı 75%, çayçılığın 94%, meyvə və tərəvəzçiliyinki isə 50% aşağı düşdü.

Sənaye sahəsində yüngül, yeyinti sənayesi, əlvan metallurgiya ən gəlirli sahə kimi inkişaf etdi. Son vaxtlar emal və dağ sahələrində, su təchizatı, qaz, faydalı qazıntıların istehsalının həcmində artım müşahidə olunur. Yeyinti sənayesi Gürcüstan iqtisadiyyatının əsasını təşkil edir. Bu ölkənin içkiləri və şərabçılıq məhsulları xarici ölkələrdə böyük şöhrət qazanmışdır. Gürcüstan özünün çayı, konyakı, şərabı, siqareti, yağ məhsulları, mineral suları, meyvə və tərəvəzilə məşhurdur.

Kimya sənayesi də respublikanın istehsal sahəsində 6%-ni təşkil edir. Ən çox tələb olunan məhsullar azot gübrəsi, lak-boya məmulatları və kimyəvi liflərdir.

İqtisadi tənəzzül Gürcüstanın ildə neft məhsullarının 100% idxal etməsinə məcbur edir. Yanacağın böyük bir hissəsi Azərbaycandan, qazın bir hissəsi Rusiyadan alınır. Ölkənin enerji kompleksi bir neçə iri istilik və hidravlik stansiyalardan əldə olunur. Ölkədə iki istilik stansiyası mövcuddur ki, onlar respublikaının enerji mənbəyinin üçdə iki hissəsini əhatə edir. Hidroenerji kompleksinə gəldikdə onun nüvəsini İnquriya Dövlət Elektrik Stansiyası təşkil edir ki, onun gücü 1300 mvt.dır.[61] Nisbətən kiçik stansiyalardan biri də Vartsixi stansiyasıdır.

Dövlət büdcəsinə telekommunikasiyadan gəlir daxil olur. Onların gəliri ÜDM-in 4%-ni təşkil edir. Bu sahədə 2008-ci ildə irəliləyiş baş verdi. Gürcüstan bahalı şəbəkə rabitəsinə görə dünyada üçüncü yeri tutur.

Xarici ticarət sahəsində böhranın özünü göstərdiyi Gürcüstanda idxala tələbat artdı. Ən çox tələb olunan gürcü malları ferroərinti və emal olunmamış qızıldır. Daş kömür, marqans, mis ehtiyatlarının emalının həcmi də azalır. Viza rejiminin ləğv edilməsi ölkəyə turist axınını gücləndirmişdir. ÜDM-in həcminə görə, ölkə dünyada 113-cü yeri tutur.

Gürcüstanın xəzinəsi 16,5 milyard dollar qiymətləndirilir Ayda hər bir nəfərə orta aylıq əmək haqqı 300 dollar hüdudlarında düşür.[62]

Gürcüstanın iqtisadiyyatı xarici amillərdən asılıdır. Ölkə iqtisadiyyatı kreditlər və investisiyalar üzərində qurulmuşdur.

Gürcüstana son on illərdə xarici yardım 3 milyard avro təşkil etmişdir. Ölkənin ümumi dövlət borcu 11 milyard dollardan artıqdır.[63] 2008-ci

[61] Социально-экономическая ситуации Грузии // www.worldofscience.ru/geografija-mira/19-geografija-gruzii/424-social-no-jekonomicheskaja-situacija-gruzii.html
[62] Yenə orada.



ilə qədər iqtisadiyyatın əsas prioriteti birbaşa xarici investisiya və bank sisteminin inkişafı idi. Lakin Gürcüstan iqtisadiyyatı istehlak yönümlü idi və onun istehsal gücü zəif idi. Bu 2008-2010-cu illərdə inflyasiyanın prioritetləşdirilməsinin əsas səbəblərindən biri idi.[64]

***Cədvəl 12. Gürcüstanın son illərdəki iqtisadi dəyişiklikləri***




Dövlət sektorunda istehlak əhəmiyyətli dərəcədə özəl sektor ilə müqayisədə artdı. Dövlət sektorunun xərcləri və ÜDM-in artım payı özəl sektordan daha çox dinamik idi.

Daşınmaz əmlak, tikinti və ticarət birbaşa bank sektorunun inkişafı və qismən də birbaşa xarici investisiyalarla bağlı idi. ÜDM-in təhlili maliyyə sektoruna aid sahələrdə artımın yüksək olduğunu göstərir. Lakin ÜDM-in artımı dövlət xərclərinin əhəmiyyətli dərəcədə təhsil, səhiyyə, sosial təminat və kommunal xidmət sahələrinin inkişafında öz əksini tapdı.

***Cədvəl 13. Dövlət sektorunun xərcləri***




*Mənbə: Gürcüstanın Standartlar Bürosu*

[63] Yenə orada.
[64] Putkaradze R., Directions of International Trade Development under Globalization, Georgian Economy, No. 5/ 2007.

Ölkə iqtisadiyyatında birbaşa xarici investisiyaların artan dinamikasına baxmayaraq, iqtisadiyyatda investisiyaların səviyyəsi elə də yüksək deyildi. Bu baxımdan, Gürcüstan digər postsovet respublikalarından geridə qalırdı.[65]

"Qızılgül inqilabı"ndan sonra investisiyaların axını kəskin sürətdə əsasən özəlləşdirmə sahəsində artmışdır.[66]

***Cədvəl 14. Gürcüstana yatırılan birbaşa xarici investisiyalar (minlərlə ABŞ dolları)***




***Mənbə:** Gürcüstanın Standartlar Bürosu*

"Qızılgül inqilabı"ndan sonra bank sistemi əhəmiyyətli dərəcədə genişləndirildi. ÜDM-də kreditlərin xüsusi faizi 9,2%-dən 19,4%-ə qədər yüksəldi. Bu baxımdan 2004-2006-cı illərdə iqtisadi sıçrayış baş verdi. İqtisadiyyat banklar tərəfindən verilən vəsaitlər hesabına inkişaf etməyə başladı. Bankların əhəmiyyəti və ÜDM-in artımı onların inkişafını daha artırdı. Bank sisteminin artım sürəti iqtisadiyyatın digər sektorlarından daha yüksək idi. 2008-ci ilə qədər bu meyl davam etdi. Bundan əlavə, kredit alma imkanı da genişləndirildi. Bu müddət ərzində milli kommersiya bankları qlobal maliyyə böhranı dövründə beynəlxalq maliyyə bazarlarında dəstəklənmişdir. Ölkəyə xarici kredit ehtiyatları cəlb olundu. Bu yolla da bank sektoru Gürcüstanın ÜDM-in artımında əhəmiyyətli rol oynadı.

---

[65] Putkaradze R., Trade and Economic Relations of Georgia: Problems and Perspectives, Universali, Tbilisi, 2010. // www.repozytorium.uph.edu.pl/bitstream/handle/11331/620/-Putkaradze_Historical_determinants_of_the_economic_relations.pdf?sequence=1

[66] The European Union explained. Europe 2020: Europe's growth strategy, Brussels, 2013. // www.epan2.antagonistikotita.gr/uploads/europe_2020explained.pdf



Gürcüstanın Sosial Xidmət Agentliyinin məlumatına görə, 2012-ci il yanvarın 12-də Gürcüstan əhalisinin 36.7%-i yoxsulluq həddində olmuşdur. Hökumət məşğulluq ilə bağlı hər hansı əhəmiyyətli yeniliklər etmədi.

Gürcüstan Avropa İttifaqı ilə əməkdaşlıqda mühüm irəliləyiş əldə etmişdir. Aİ-Gürcüstan Assosiasiya Sazişi 2014-cü il iyunun 27-də imzalandı. Buna görə də hal-hazırda Gürcüstan keyfiyyətcə yeni perspektivlərlə üzləşir. Hərtərəfli Azad Ticarət Sazişi (DCFTA) ticarət və iqtisadi inteqrasiya üçün mühüm amillərdən biridir və 505 milyon istehlakçının olduğu bazarı Gürcüstanın üzünə açıqdır. Gürcüstanda Aİ standartlarının tətbiqi Aİ ilə sosial-iqtisadi inkişafı, ticarət əlaqələrini dərinləşdirilməsi, ölkəyə investisiyaların artmasına əlverişli şərait yaradır. Bütün bunlar Gürcüstana Aİ-nin irəli sürdüyü üç-dörd azadlıqdan faydalanmağa, malların, xidmətlərin və kapitalın sərbəst hərəkətinə imkan verir. Liberallaşdırılma prosesi, vizanın ləğvi dördüncü azadlığa daxildir. Müqavilə Gürcüstanın imzaladığı digər sərbəst ticarət razılaşmalarından keyfiyyətcə fərqlidir. DCFTA-ya mallar və xidmətlər üçün ticarət liberallaşdırılması daxildir. Bundan əlavə, bu saziş ticarətlə bağlı məsələləri (məsələn, qida təhlükəsizliyi, rəqabət siyasəti, intellektual mülkiyyətin qorunması, rəsmi xidmətlər və s.) geniş əhatə edir və tədricən Aİ qanunvericiliyinə Gürcüstanın ticarət qanunvericiliyinin uyğunlaşdırılması prossesini davam etdirir.[67] DCFTA-nın həyata keçirilməsi zamanı Aİ-nin tələblərinə cavab verdiyi təqdirdə Gürcüstan Avropanın böyük bazarına daxil olacaqdır. Bu isə Gürcüstana investisiyaların artmasına və yeni iş yerlərinin yaradılmasına gətirəcəkdir. Bununla da Gürcüstan investorlar üçün cəlbedici ölkə imici qazanmaq imkanı əldə edə bilər. Bütün bu müsbət hadisələr ölkənin sosial-iqtisadi inkişafında öz əksini tapmışdır. Bu müqavilə daxili bazarın təhlükəsizliyini, Aİ bazarına Gürcüstanın kənd təsərrüfatı və sənaye istehsalı mallarının sərbəst daxil olmasını təmin edə bilər. Ölkə üçün milli ərzaq təhlükəsizliyi və keyfiyyət sisteminin yaradılması, Aİ-nin dövlət satınalma qaydalarına milli gürcü qanunvericiliyinin uyğunlaşdırılması da çox vacibdir. Gürcüstan həmçinin mülkiyyətin müdafiə sistemini və gömrük qaydalarını da Avropa standartlarına uyğunlaşdırmaqdır. Avropa İttifaqı insan ləyaqəti, azadlıq, demokratiya, bərabərlik, insan hüquqlarının müdafiəsi, gender bərabərliyi və s. dəyərlərə əsaslanır. Avropaya inteqrasiyada maraqlı olan hər bir dövlətin maraqlarında bu dəyərlərə hörmət olmalıdır. DCFTA-mn müsbət cəhətlərindən biri sanitar və fitosanitar tədbirlərinin

---

[67] Assessment of the impact of potential Free Trade Agreement of the EU 2015, p. 130.

görülməsi, texniki, ticarət maneələrinin aradan qaldırılması, intellektual mülkiyyətin, rəqabətin qorunmasında dəyişikliklərin edilməsi və qeyri-tarif maneələrinin azaldılmasıdır. Bu dəyişikliklər tərəflər arasında xarici ticarət artımı baxımından nəinki təsirli ola bilər, o cümlədən gürcü istehsalçılarının ərzaq məhsullarının təhlükəsizliyini təmin etmək baxımından da olduqca faydalıdır. Bundan əlavə, rəqabətin qorunmasına yalnız müsbət təsir edəcək. AB standartlarına xarici ticarət qaydalarının uyğunlaşdırılması Avropa İttifaqı və Gürcüstan arasında daha sıx iqtisadi inteqrasiya ilə əvəz olunacaqdır. Aİ investisiyaları ticarət artması ilə nəticələnəcəkdir. Tədqiqatçıların nəticələrinə görə, DCFTA iqtisadi yekunları Gürcüstan üçün olduqca əhəmiyyətlidir. Bu saziş nəticəsində Gürcüstandan Aİ-yə ixracın qısa müddətli və uzun müddətli müvafiq olaraq 12%, 9% artacağı, idxalın 0,6% artması və istehlak qiymətlərinin isə 3,6% azalması, nəticədə xüsusilə orta və uzun dönəmlərdə, gürcü vətəndaşlarının vəziyyətinin daha da yaxşılaşması gözlənilir. DCFTA-ya görə, Gürcüstanın ÜDM-si 4,3% artacaqdır. Orta və uzun müddətli maneələrin azaldılması liberal ticarətin ən əhəmiyyətli nəticələrindən biridir. Digər tərəfdən, Assosiativ Sazişin şərtlərinin həyata keçirilməsi üçün müəyyən xərclər lazımdır. Lakin xərclər normaldan bir neçə dəfə çoxdur. DCFTA öz növbəsində, sanitar və fitosanitar kimi sahələrdə ölkədə tənzimləyici islahatların vacibliyini təmin edəcəkdir. Assosiasiya Sazişi çərçivəsində texniki maneələr, intellektual əmlak ticarəti, rəqabət və gömrük qaydaları tənzimlənəcəkdir. Bu prosses ərzaq təhlükəsizliyini təmin edəcək. Avropa İttifaqı və digər bazarlarda daha yaxşı sanitar və fitosanitariya standartlarına əməl olunacaqdır. Qiymətlərin azaldılması da öz təsirini hər mənada göstərəcəkdir.[68]

Gürcüstanın xarici siyasətinin prioritetləri Avropa dəyərləri və ən yaxşı təcrübələrin mübadiləsi və Aİ-yə yaxın olmaqdır. Ticarət və Aİ ilə iqtisadi, maliyyə və digər sahələrdə əlaqələrin dərinləşməsi Gürcüstan üçün çox strateji əhəmiyyət kəsb edir. Artan mənfi ticarət balansının Gürcüstan üçün əsas problem olduğu nəzərə alınmalıdır. Son illərdə Gürcüstanın ixrac artım sürəti idxal artım sürəti ilə müqayisədə aşağıdır. 2013-ci ildə 3,58 milyard ABŞ dolları idisə, 2010-cu ildə bu göstərici 4,8 milyard ABŞ dolları olmuşdur. 2003-cü ildə Gürcüstanın ticarət balansı 1,5 milyard ABŞ dolları, 2005-ci ildə 679,7 milyon ABŞ dolları, 2008-ci ildə isə bu göstərici artaraq 5,1 milyard ABŞ dolları, 2014-cü ildə 5,7 milyard

[68] Georgia. UNDP, Georgia 2007. 24.07.2017 // www.ge.undp.org/content/georgia/en/-home/library/mdg/tbilisi-mdg-report-2007.html



ABŞ dolları təşkil etmişdir. Avropa İttifaqı ilə Gürcüstanın ticarət balansı həmçinin mənfidir. Əvvəlki illə müqayisədə 5 faiz çox olmasına baxmayaraq, Gürcüstanın xarici ticarət dövriyyəsi 2014-cü ilin 11,457 milyon ABŞ dolları təşkil etmişdir.[69]

Tərəflər arasında ticarət əlaqələrində son vaxtlar intensivləşmə müşahidə edilməkdədir. 2008-ci ildə Avropa İttifaqı ilə Gürcüstanın xarici ticarət dövriyyəsi 2 milyon ABŞ dollarını ötmüşdü. İxrac 335,2 milyon ABŞ dolları təşkil etmişdir və idxal 1 665.5 milyon ABŞ dolları olmuşdur. Beləliklə, idxal beş dəfə ixracı keçmişdir. İxracın 22,4%, idxalın 27,5% Gürcüstanın xarici ticarət dövriyyəsində payı vardır. 2014-cü ildə Avropa İttifaqı ölkələri ilə Gürcüstanın xarici ticarət dövriyyəsi 2990 milyon ABŞ dolları, ixrac 621 milyon ABŞ dolları, idxal isə 2369 milyon ABŞ dolları təşkil etmişdir. Beləliklə, Gürcüstanın xarici ticarət dövriyyəsində Avropa ölkələrinin payı 26% təşkil etmişdir. Bu Gürcüstan Milli Statistika və Eurostat tərəfindən göstərilən məlumatlarla müqayisədə üst-üstə düşür.[70]

***Cədvəl 15. ÜDM və Gürcüstanın xarici borcunun nisbəti***

| | |
|---|---|
| ÜDM | 18149463036 ABŞ dolları |
| Əhalinin hər nəfərinə düşən ÜDM | 4658 dollar |
| ÜDM bu gün | 84684954 dollar |
| ÜDM cari gündə hər nəfərə | 22 dollar |
| Dövlət borcunun hesabı | 11129592757 dollar |
| Əhalinin hər nəfərinə düşən dövlət borcu | 2856 dollar |
| Bu ildə dövlət borcu | 224358837 dollar |
| Bu günə görə dövlət borcu | 89002 dollar |

Gürcüstanı həyat səviyyəsi yüksək olan ölkə hesab etmək olmaz. Öz yolunu tapmağa çalışan ölkədə iqtisadi problemlər tədricən həllini tapmaqdadır.

[69] Yenə orada.
[70] Economic Reforms in Georgia: Analysis, Challenges, forecasts, "Journal Economics and Business" No. 2 / 2015.

*Cədvəl 16. 2014-2015-ci illərdə*
*Gürcüstanın iqtisadi göstəriciləri*

| Göstəricilər | ölçü vahidləri | 2014 | 2015 |
|---|---|---|---|
| Alıcılıq qabiliyyətinə bərabər ÜDM | milyard dollar | 34,68 | 35,37 |
| Rəsmi valyuta | | - | 13,75 |
| Mübadiləsi nəzərə alınmaqla-ÜDM | | | |
| ÜDM-in real yüksəlişi | faiz | 4,8 | 2,0 |
| Alıcılıq qabiliyyətinə bərabər əhalinin hər üzvünə-ÜDM | dollar | 9300 | 9500 |
| ÜDM tərkibi: kənd təsərrüfatı | faiz | - | 9,2 % |
| ÜDM-sənaye | faiz | - | 22,1 |
| ÜDM-xidmətlər | faiz | - | 68,7 |
| Sənaye istehsalı yüksəliş tempi | faiz | - | 43 |
| İşçi qüvvəsi | nəfər | - | 195900 |
| O cümlədən kənd təsərrüfatı sahəsində | faiz | - | 55,6+ |
| - sənayedə | faiz | - | 8,9 |
| - xidmət sahəsində | faiz | - | 35,9 |
| İşsizliyin səviyyəsi | faiz | 12,4 | 16,7 |
| Yoxsulluqdan aşağı səviyyədə yaşayan əhali | faiz | - | 9,2 |
| Büdcə kəsirləri | milyard dollar | - | 3,874 |
| Büdcə gəlirləri | milyard dollar | - | 4,319 |
| ÜDM-vergiləri | Dollar | 35,3 | 38,8 |
| Dövlət borcu (ÜDM -da) | Faiz | 3,1 | 4,1 |
| Kommersiya banklarının kredit yatırımı (ilin sonunda) | Faiz | 11,91 | 12,1 |
| İxrac | milyard dollar | 3,995 | 3,535 |
| İdxal | milyard dollar | 8,235 | 7,446 |
| Xarici valyuta və qızıl ehtiyatları | milyard dollar | 2,699 | 2,422 |
| Xarici borc | milyard dollar | 13,170 | 13,56 |

***Mənbə**: Экономика Грузии - уже лучше, но в долгах // www.deernoolna com/qruziya-georgiya- ekonomika serndval/ html*



2013-cü ildə Gürcüstan C-rowtn index Prosperitu-yə uyğun olaraq birinci onluqda dayanan ölkələr sırasında oldu (bazarı formalaşdıran, enerji ehtiyatları olan ölkə olaraq). 2009-cu ildə az müddətli tənəzzüldən sonra Gürcüstanda ÜDM artmağa başladı:

*Cədvəl 17. Gürcüstanda illər üzrə ÜDM artması*

| İLLƏR | GÖSTƏRİCİLƏR |
|---|---|
| 2010 | 6,3 % |
| 2011 | 7,0 % |
| 2013 | 3,1 % |
| 2014 | 6,3 % |

Gürcüstanın ən böyük bəlası kütləvi işsizlik və qiymətin yüksək olmasıdır. Xarici ölkələrin sahibkarları respublikada iş yerləri yaradırlar. Hakimiyyət orqanları informasiya texnologiyaları və kənd təsərrüfatı sahələrindəki yaxşı mütəxəssisləri əməkdaşlığa dəvət edirlər. Təəssüf ki, gənclər daha çox hüquqşünas və iqtisadçı ixtisaslarına yiyələnirlər. Statistika təsdiq edir ki, bu gün rəsmi əmək haqqına malik olan insanlar otuz beş faizə yaxındır. Bunlar isə iri şəhərlərdə mümkündür.[71]

Kənd və qəsəbələrdə həyat səviyyəsi daha aşağıdır. Kənd əhalisinin 70%-dən çoxu natural təsərrüfat hesabına yaşayırlar, bu yerlərdə mal mübadiləsi aparılır. Ən yüksək işsizlik səviyyəsi 25-35 yaşlarında olan gənclər arasında müşahidə olunur. Gənclər buna görə də iş axtarmaq üçün qonşu ölkələrə üz tuturlar.

2017-ci ildə qəbul edilmiş yeni qanuna əsasən "yaşlı təqaüdçülər 160 lari (60 yaşından sonra) təqaüd alırlar (Bu təxminən 68 ABŞ dollarına bərabərdir). Hakimiyyət orqanları təqaüdün iki dəfə artırılacağını vəd edirlər. Bunun üçün ildə Gürcüstana 12,7 milyon ABŞ dolları lazımdır. Bu məsələ Gürcüstanın dövlət büdcəsində nəzərdən keçirilmişdir.

Ölkədə təqaüd yaşına çatmış təqaüdçülərin sayı 17 min nəfər artmışdır."[72]

Statistika təsdiq edir ki, yaşlıların sayı 703 min nəfərdir. Təqaüd yaşı kişilər üçün 65, qadınlar üçün 60 yaşdır.

[71] Грузия: экономическое развитие страны в 1990-е годы. 02.01.2015. // www.cc-sauran.kz/rubriki/economika/113-gruziya-ekonomicheskoe-razvitie-v-1990.html
[72] Yenə orada.

2016-cı ildə Gürcüstanda əmək haqqı bir neçə dəfə artırıldı. Bu zaman hakimlərə və təhsil üzrə mütəxəssislərə xüsusi diqqət ayrıldı.

2016-cı ildə orta əmək haqqı aşağıdakı kimi idi:

1. Maliyyəçilər – 1477 lari;
2. Dövlət aparatı işçiləri – 1046 lari;
3. Nəqliyyat sahəsi – 875 lari;
4. Sənaye – 843 lari;
5. Tikinti sahəsi – 812 lari;
6. Ticarət sahəsi (pərakəndə) - 665 lari;
7. Sosial xidmət sahəsi – 568 lari;
8. Səhiyyə sahəsi – 508 lari;
9. İctimai iaşə və mehmanxanalar – 480 lari;
10. Kənd təsərrüfatı – 364 lari;
11. Təhsil – 323 lari.

Əmək haqqı iqtisadiyyata xarici investisiyaların qoyulması hesabına artırılmışdır.

2017-ci ildə Gürcüstanda bir çox xarici şirkətlər fəaliyyət göstərirlər. Ölkədə nəqliyyat sisteminin xüsusiyyətlərindən bəhs edərkən qeyd etmək lazımdır ki, bütün avtomobil və dəmiryolları elektrikləşdirilmişdir. Avtomobil yolunun uzunluğu 2700 kilometrdir. Yollar əla vəziyyətdədir. Bunu "yol inqilabı" ilə izah etmək olar. Köhnə yollar əhəmiyyətli dərəcədə genişləndirilmiş və möhkəmləndirilmiş, dağlarda isə yeni yollar salınmışdır. Xüsusilə Ermənistanla müqayisədə ziddiyyətlər açıq-aşkar müşahidə olunur. Ermənistandakı yolların vəziyyəti çox acınacaqlıdır."[73] Bu gün Gürcüstanda dörd xətli geniş avtobanlar çəkilir.

Gürcü təhsil sistemi XVII əsrdən formalaşmışdır. Gürcülər Gelati monastrını Parisin ən iri unversitetlərilə müqayisə edirlər. Gürcü orta məktəblərinin 75 faizində tədris dövlət dilində-gürcü dilində keçirilir. Ali məktəblərdə tədris 100% gürcü dilindədir. İndi ölkənin orta və məktəbəqədər məktəbləri ən ciddi problemlə-maliyyələşdirmənin olmaması ilə qarşılaşır. Maliyyələşmənin mürəkkəbliyi məktəbəqədər müəssisələrə ciddi zərbə vurmuşdur. Uşaq bağçasına gedənlərin sayı da azalmışdır. Son vaxtlar ölkədə özəl təhsil məktəblərin sayı artmışdır. Özəl məktəblərdə təhsil haqqının çox olması buraya şagirdlərin az cəlb olunmasına gətirib çıxarmışdır. Yerli məktəblər xaricdən və doğma vətəndən sponsorlar axtarırlar. Ali məktəblər struktur baxımından kommersiya və dövlət ali təhsil

[73] Yenə orada.



müəssisələrindən ibarətdir. Ölkədə Qərb ölkələri ilə birgə yeni ali məktəblər açılır. Yeni hökumət təhsildə vəziyyəti sabitləşdirmək üçün əlindən gələni əsirgəmir.

| *Cədvəl 18. Gürcüstanın idxal strukturu. 2010–cu il* | | |
|---|---|---|
| **Kod** | **Mal qrupu** | **Strukturu, %** |
| 27 | Mineral yanacaq, mineral yağ və destillə məhsulları, bitium maddələri, mineral mumlar | 22.3 |
| 87 | Dəmiryolu və tramvaydan başqa yerüstü nəqliyyat vasitələrinin ehtiyat hissələri | 10.4 |
| 84 | Nüvə reaktorları, qazanxanaları, avadanlıqları, mexaniki qurğular və onların hissələri | 10.0 |
| 85 | Elektrik maşınları və avadanlıqları, onların hissələri | 8.6 |
| 30 | Farmasevt, dərman preparatları | 5.2 |
| Digərləri | | 65.8 |

*Mənbə: www.he5.biz/ekonnomika?/002/georgia htm*

*Cədvəl 19. Gürcüstanın idxal strukturu. 2010-cu il*



*Cədvəl 20. Gürcüştanın ixrac strukturu. 2010-cu il*




| Cədvəl 21. Gürcüstanın ixracının strukturu. 2010-cu il | | |
|---|---|---|
| **Kod** | **Mal qrupu** | **Strukturu, %** |
| 72 | Dəmir və polad | 26.3 |
| 87 | Dəmiryolu və tramvaydan başqa yerüstü nəqliyyat vasitələrinin ehtiyat hissələri | 15.6 |
| 22 | Alkoqollu və alkoqolsuz içkilər, uksus | 8.9 |
| 71 | Təbii və mədəni incilər, qiymətli və yarımqiymətlidaşlar, qiymətli metallar | 5.9 |
| 26 | Filizlər, kömür qırıntıları, külçə | 5.2 |
| Digərləri | | 38.2 |

*Mənbə: www.he5.biz/ekonnomika?/002/georgia.htm*

Müstəqilliyin ilk illərində Gürcüstanda səhiyyə də ağır zərbə aldı: xəstəxanalar yararsız hala düşdü, həkimlər elementar tibbi avadanlıqların, dərmanların çatışmadığı bir şəraitdə çalışmalı oldular. Bu isə ölkədə ölümün səviyyəsinin artmasına səbəb oldu. Səhiyyə ölkədə rəsmi olaraq pulsuzdur. Lakin vətəndaşlar bildirirlər ki, həkimlər etdikləri tibbi yardıma görə əlavə ödəniş tələb edirlər. Respublika hökuməti səhiyyə sahəsində islahatlar keçirdi, dövlət müəssisələri olan bir çox xəstəxanalar özəlləşdirildi, yeni tibbi avadanlıqlara investisiya qoyuldu, yeni ixtisaslaşmış həkim heyəti təşkil olundu. Lakin 2008-ci ildə iqtisadi böhran bu sahəyə yenidən zərbə vurdu. Son illərdə yenidən dirçələn səhiyyə sahəsində ən uğurlu cəhət Gürcüstan əhalisinin 25% tibbi sığortaya malik olmasıdır. Onu qeyd etmək olar ki, tibbi sığorta dövlət büdcəsinin hesabınadır. Ölkədə fərdi sığorta paketi nisbətən ucuzdur. O, 12-50 lari arasındadır.[74]

[74] Yenə orada.



2017-ci ildə də Gürcüstanda səhiyyənin vəziyyətini o qədər də ideal hesab etmək olmaz. Ölkədə bu sahədə kadr çatışmazlığı özünü göstərir, gənc həkim kadrları isə lazımi təcrübəyə malik deyillər, buna görə də ölkəyə xaricdən yüksək ixtisaslı həkimlər dəvət olunur.

Gürcüstana turistlər vizasız gələ bilərlər. Xarici vətəndaşlar ölkədə 90 gün qala bilərlər. Onlardan bəziləri ölkədə öz bizneslərini yaradır, bəziləri isə yaxşı mütəxəssis kimi Gürcüstanda işləyirlər.

2017-ci ildə Gürcüstan hökumətinin planına uyğun olaraq ölkənin iqtisadi inkişafı 4% artdı. Bu 2016-cı ildəkindən 1,8% çox idi. Dünya Bankının proqnozuna görə, ölkə iqtisadiyyatının artımı 5,2%-ə çatmalıdır. Bunun üçün ölkə rəhbərliyi dördillik inkişaf planı tərtib etdi. Gürcüstanın Nazirlər Kabineti bunun üçün aşağıdakı istiqamətləri nəzərdə tutmuşdur:

1. İqtisadi inkişafa yardım islahatları;
2. İş yerlərinin yaradılması;
3. İqtisadi inkişafa istiqamətlənmiş təhsil islahatları;
4. Regionların inkişaf etdirilməsi və onların infrastrukturunun modernləşdirilməsi;
5. Dövlət strukturlarının səmərəliliyini və onların şəffaflığını təmin edən idarəetmə sahəsində islahatlar.[75]

Gürcüstanın İqtisadiyyat Nazirliyinin Milli Turizm Agentliyinin məlumatına görə, 2016-cı ildə ölkəyə 6,4 milyon turist gəlmiş, gələcəkdə onların sayının artımı gözlənilir.

Gürcüstan hökuməti dörd illik iqtisadi inkişaf proqramına 5 milyard ABŞ dolları xərcləməyi nəzərdə tutur. Gürcüstan hökuməti Qərbi və Şərqi Gürcüstanı birləşdirən, Tbilisidən yan keçən avtoban, Rustavi şəhərini Azərbaycan və Ermənistanın sərhədlərilə birləşdirən magistral yollar çəkməyi planlaşdırır, "Şimal-Cənub" istiqamətində müəyyən infrastruktur layihələr, Rusiya sərhədlərinə qədər yolları genişləndirməyi həyata keçirmək fikrindədir. Bütün bunlar İran-Ermənistan, İran-Azərbaycan-Gürcüstan-Rusiya istiqamətlərində mal dövriyyəsini genişləndirməyə imkan verəcəkdir.

Gürcüstan hökuməti ölkə iqtisadiyyatına vergi qoyuluşunun "Eston modelinin" tətbiqini təklif edir. Bu modelə görə şirkətlər mənfəət vergisindən azad ediləcəkdir. Başqa sözlə, əgər bu və ya digər gürcü şirkətləri-

[75] Папава В. Социально-экономическое развитие Грузии: взгляд на среднесрочную перспективу 18.10.2013 // www.researchgate.net/publication/316430774_Socialno-ekonomiceskoe_razvitie_Gruzii_vzglad_na_srednesrocnuu_perspektivu

nin sahibi öz mənfəətini öz müəssisəsinə investisiya qoyacaqsa vergidən azad olacaq.[76]

İlk baxışdan vergi qoyuluşunun "Eston modeli" maraqlı görünür. Bu ideya Gürcüstanda yerli istehsalı inkişaf etdirmək məqsədi güdür. Məsələ burasındadır ki, gəlirə tətbiq olunan verginin ləğv edilməsi ölkənin büdcəsinə 600 milyon larinin (təxminən 232,5 milyon ABŞ dolları) daxil olmamasına səbəb olur. Hökumət bu kəsiri aradan qaldırmaq üçün 2017-ci il yanvarın 1-dən tütün məhsullarının aksizlərini, gətirilən avtomobillərin və neft məhsullarının qiymətlərini artırdı. 1 ton benzinin qiyməti 250 laridən (96 ABŞ dolları) 500 lariyə (193 ABŞ dolları), 1 ton dizel yanacağının qiyməti 150 laridən (58 ABŞ dolları) 400 lariyə (155 ABŞ dolları), siqaretin bir qutusu 3 laridən (1,16 ABŞ dolları) 4 lariyə (1,55 ABŞ dolları) qədər artırıldı.[77]

İqtisadçı ekspertlər hökumətin "Eston modeli" ilə bağlı qərarlarını düzgün qərar hesab etmirlər. Onlar belə düşünürlər ki, bu qərara görə, əslində gəlirə görə vergi ləğv olunmur, onun sadəcə vaxtı uzadılır.

Gürcüstan iqtisadiyyatı üçün ən təhlükəli vəziyyət milli valyutanın qiymətdən düşməsidir. 2017-ci ildə lari 2016-cı illə müqayisədə 20% qiymətdən düşmüşdür. Bu isə ölkə əhalisinin alıcılıq qabiliyyətinin aşağı düşməsi deməkdir. Gürcüstanın Yeni İqtisadi Məktəbinin Prezidenti Paata Şeşelidze larinin qiymətdən düşməsinin səbəbini büdcə kəsirinin Gürcüstanın Milli Bankının ehtiyatlarının köməyi ilə maliyyələşdirilməsilə əlaqələndirir: "Buna görə də larinin qiymətdən düşməsi davam edəcəkdir. Hökumətin milli bankdan pul götürüb xərcləməsi- doğru yanaşmasıdır. Nə qədər ki, bu yanaşma və müəyyən adamlar dəyişməsə vəziyyət düzəlməyəcək."[78]

Ekspertin fikrincə, Gürcüstan hökumətinin təsdiq etdiyi "lariləşmə" proqramı da larinin möhkəmlənməsinə kömək etməyəcəkdir. Bu proqrama əsasən 2017-ci il yanvarın 1-dən 100 min lariyə qədər məbləğdə (təxminən 38,7 min ABŞ dolları) fiziki şəxslərə verilən bütün ipotekə kreditləri yalnız milli valyuta ilə verilir.

Gürcüstanın ticarət balansı da pozulmuşdur: idxalla ixrac arasında fərq 3 milyard lari (təxminən, 162 milyard ABŞ dolları) təşkil edir.[79]

[76] Yenə orada

[77] Папава В. Социально-экономическое развитие Грузии: взгляд на среднесрочную перспективу 18.10.2013 // www.researchgate.net/publication/316430774_Socialno-ekonomiceskoe_razvitie_Gruzii_vzglad_na_srednesrocnuu_perspektivu

[78] Yenə orada.

[79] Yenə orada.



Gürcüstanda ərzaq malları, qaz və su təchizatının qiymətlərinin artırılması da gözlənilir.

2020-ci ilə qədər ölkənin iqtisadi inkişaf ssenarisi hazırlanmışdır. Bunun üçün "Gürcü Arzusu-Demokratik Gürcüstan" hökuməti aşağıdakıları nəzərdə tutur:

– Brüsseldə Aİ-lə ATR (Azad Ticarət Rejimi) ilə bağlı saziş prosesini reallaşdırmaq, yəni antiinhisar tənzimləmənin tətbiqini, istehsalçıların hüquqlarının Avropa tipli müdafiəsini təşkil etmək.

– Yeni hökumət iqtisadi rəqabəti inkişaf etdirməyi, biznesə dövlətin qeyri-formal müdaxiləsinə son qoymağı nəzərdə tutur.

Aİ-lə ATR-inə dair sazişin reallaşması Gürcüstan iqtisadiyyatının real sektoruna özəl investisiyaların cəlb olunması üçün əlverişli şərait yarada bilər. Aİ-ilə müqayisədə işçi qüvvəsinin ucuz, vergi yükünün az olması Gürcüstan iqtisadiyyatında yeni iş yerlərinin yaradılması üçün stimullaşdırıcı amil hesab olunur.

Gürcüstan 2020-ci ilədək aşağıdakı qrafikdə göstərilmiş nəticələri əldə etməyə çalışır.[80]

*Cədvəl 22. Əhalinin adambaşına düşən ÜDM göstəricisi*

| Göstərici | Cari dərəcəsi | Proqnoz dərəcəsi |
|---|---|---|
| Əhalinin adambaşına düşən ÜDM (Nominal) | 5811.7 | 13.000 |
| Əhalinin adambaşına düşən ÜDM (Lari, sabit qiymətlər) | 5811.7 | 9200 |
| Təbəqələşmə əmsalı | 0.41 | 0.35 |
| İnfilyasiya (faiz) | 2.4 | 3.0 |
| İşsizlik (faiz) | 15.0 | <12 |
| Vergilər (ÜDM) | 24 | 25 |
| İxrac (mal və xidmətlər) | 45 | 65 |
| Cari hesab kəsiri | >10 | 6 |
| Dövlət borcunun ÜDM-ə nisbəti | 34 | <40 |

*Mənbə: Bundeszentrale für Politische Bildung.Werner Weidenfeld/Wolfgang Wes-sels (Hrsg.). Bonn : Bpb. 2009.*

[80] Europa von A bis Z: Taschenbuch der europäischen Integration / [IEP.Institut für 6) Europäische Politik]. Werner Weidenfeld und Wolfgang Wessels (Hg.). 2007. www.booklooker.de/B%C3%BCcher/Angebote/autor=Werner+Weidenfeld+Wolfgang+Wessels&titel=Europa+von+A-Z+-+Taschenbuch+der+europ%C3%A4ischen+Integration

Bu sənəd Gürcüstan tərəfindən bazar iqtisadiyyatına keçid prosesinin qiymətləndirilməsini əks etdirir, eyni zamanda 1990-2003-cü illər və "Qızılgül inqilabını" və 2003-cü ildən indiyə qədərki dövrləri əhatə edir.

Hazırda Avropa İttifaqının iqtisadiyyatı Gürcüstan iqtisadiyyatından 2000 dəfə yüksəkdir. Bu baxımdan Aİ ATR-nin yaradılması Gürcüstan iqtisadiyyatı üçün, gürcü bazarının genişləndirilməsi üçün keyfiyyətcə ən yaxşı şərait yarada bilər. Əgər Gürcüstan Aİ bazarı üçün keyfiyyətli mal istehsal etsə həmin malları Türkiyə bazarına da verə bilər.

– ABŞ-la, ATR ilə bağlanmış xartiyanın da 2020-ci illərdə reallaşacağı təxmin edilir.

– Rusiya ilə iqtisadi əlaqələrin yaradılması, onunla ticarət əlaqələrinin qurulması və inkişaf etdirilməsi siyasi səbəblərdən reallaşmır. Rusiya ilə geniş miqyaslı ticarət əlaqəsinin yaradılması Abxaziya ərazisindən keçən, 1992-ci ilin avqustunda bağlanan Gürcüstanı, Ermənistanı və Rusiyanı birləşdirən Trans-Qafqaz dəmiryolu magistralının açılmasına da təkan verə bilər.

V. Papava yazır: "Aİ ilə ATR–nin reallaşması bazasında Türkiyə ilə ticarət əlaqələrinin genişləndirilməsi Gürcüstanda 2013-2020-ci illərdə iqtisadi yüksəlişi 5-10% təşkil edəcəyini güman etməyə əsas verir. Bu zaman bədbin 5 faizli artım qlobal böhranın kəskinləşməsi, nikbin 10 faizli artımı ilə dünya iqtisadiyyatının sabit inkişafı ilə şərtlənə bilər. Bu isə o deməkdir ki, 2020-ci ildə əhalinin hər nəfərinə ÜDM 9120 ABŞ dolları təşkil edə bilər."[81]

Gürcüstan iqtisadiyyatının müqayisə ediləcək üstünlüyünün göstəriciləri kimi aşağıdakı sektorları qeyd edirlər:

– enerji ehtiyatlarının daşınması (tranzit ölkə statusu);
– kənd təsərrüfatı;
– yeyinti sənayesi;
– hidroenergetika;
– turizm.

V.Papava iqtisadi yüksəlişin də məhz bu sektorlar hesabına təmin olunacağını ehtimal edir: İqtisadiyyatın real sektoruna investisiya qoyuluşu 2020-ci ildə sənayenin payının ÜDM-i iki dəfə artaraq 50 faizə çata bilər.

---

[81] Папава В. Социально-экономическое развитие Грузии: взгляд на среднесрочную перспективу 18.10.2013 // www.researchgate.net/publication/316430774_Socialno-ekonomiceskoe_razvitie_Gruzii_vzglad_na_srednesrocnuu_perspektivu



Gürcüstanın əlverişli təbii iqlim şəraiti kənd təsərrüfatının inkişafına gətirib çıxara bilər. ÜDM–də kənd təsərrüfatının payı 3,5 dəfə artmışdır, 30% təşkil edə bilər. İqtisadiyyatın real sektorunun inkişafı yeni Avropa tipli əmək qanunvericiliyinin qəbul edilməsi və sosial siyasət-bütün bunlar Gürcüstan vətəndaşlarının həyat şəraitini keyfiyyətcə yaxşılaşdırar və nəticədə yoxsulluğun səviyyəsi minimum 2,5 dəfə azala bilər.[82]

Dünya Bankının dünya ölkələrinin iqtisadi inkişaf səviyyələri haqqındakı göstəricilərinə görə, belə qənaətə gəlmək olar ki, Gürcüstanın 2020-ci ildə iqtisadi vəziyyəti Aİ-nın Bolqarıstan və Rumınya kimi ölkələrdən yaxşı, Latviya və Litvadan pis olacaqdır.

İqtisadçıların Gürcüstan hökuməti üçün tövsiyələri aşağıdakılardan ibarətdir:

– Birinci növbədə Avropa İttifaqı ilə ATR-nə nail olmaq Avropaya inteqrasiya olunmaq üçün bütün iqtisadi imkanlardan istifadə etmək;

– Gürcüstan hökuməti istehlakçıların hüquqlarının müdafiə olunması və əmək münasibətləri antiinhisar tənzimləmənin Avropa tipi şəraitində istehsalın inkişafını stimullaşdırmalıdır;

– ABŞ və Gürcüstan arasında ATR-nə dair bağlanmış xartiyanın reallaşması üçün danışıqlar prosesi davam etdirilməlidir;

– Gürcüstanın firma və şirkətlərinin Rusiya bazarlarına qayıtması təmin olunmalıdır;

– Gürcüstanın ixrac potensialının genişləndirilməsi stimullaşdırılmalıdır.

***

Beləliklə, aparılan tədqiqatlar aşağıdakı nəticələri çıxarmağa imkan yaratdı:

Sovet dövründə iri və geniş, hərtərəfli sənaye sektoruna malik Gürcüstanın müstəqillik illərində münaqişə, korrupsiya, digər xarici və daxili amillər iqtisadi inkişafına son qoydu, sənaye sahələri dağıldı. Tədricən dirçələn Gürcüstan iqtisadiyyatı artıq inkişaf yoluna qədəm qoymuşdur. Bu gün Gürcüstanda ərzaq məhsulları və içkilər, polad, dəzgahlar, elektrik cihazları, kimyəvi məhsullar istehsal olunur. Turizm Gürcüstan iqtisadiyyatının inkişafı üçün mühüm amillərdən birinə çevrilmişdir. Dəniz sahillə-

---

[82] Комерики В. 1 октября - День старшего поколения. // www.pervius-geroi.ru/imaqes-/stories.

rində yerləşən kurortlar çoxlu turistləri özünə cəlb edir. Xəzər dənizindən-Azərbaycandan neft-qaz boru kəmərlərinin tikintisi tranzit ölkə kimi Gürcüstanın inkişafına güclü təsir edir. Qeyd edək ki, hələ XX əsrin 90-cı illərinin ortalarında iki ölkə arasında əldə olunan bir sıra razılaşmalar, edilən güzəştlər Gürcüstan iqtisadiyyatının dirçəldilməsində əhəmiyyətli rol oynadı. Məhz o dövrdə ulu öndər Heydər Əliyevin siyasi iradəsi ilə ən böyük neft boru kəməri layihəsi Bakı-Tbilisi-Ceyhan xətti Gürcüstan ərazisindən keçdi. Bu layihəyə dair sənədlər imzalansa da tranzit xərcləri barədə Gürcüstanla razılaşdırıla bilməyən bir çox məqamlar da H.Əliyevin 2000-ci il martın 22-23-də Gürcüstana səfəri zamanı həll edildi. Eyni zamanda bu layihənin gerçəkləşməsi zamanı Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti də nəzərə alındı.[83] Ümummilli lider Heydər Əliyev çıxışlarından birində bu barədə deyirdi:

*"Məlumdur ki, söhbət tranzit tariflərindən gedirdi. Bu tariflər müəyyənləşdirilmişdi. Lakin Gürcüstanın daha böyük tariflərə ehtiyacı vardı. Biz isə bundan ötrü imkanlar tapmalı idik. Odur ki, mən necə olursa-olsun məsələnin həlli yolunu tapmağı tapşırdım. Azərbaycan Dövlət Neft Şirkətindəki mütəxəssislərimiz gəlib dedilər ki, özümüzdən kasıb Gürcüstana güzəştə getməkdən başqa ayrı yol yoxdur, bu halda məsələ həll edilə bilər. Təbii ki, biz bütün bunları hərtərəfli müzakirə etdik və mən buna razılıq verməyi qərara aldım. ...Bu, Azərbaycanın Gürcüstana münasibətini, bizi nə kimi böyük dostluq hissləri birləşdirdiyini, ölkəmizin bu dostluq hisslərini necə yüksək qiymətləndirdiyini, onların möhkəmlənməsinə və inkişafına nə kimi əhəmiyyət verdiyini və nəyin naminə yeni güzəştlərə getdiyini əyani şəkildə əks etdirir."*[84]

Gürcüstanın "Qızılgül inqilabı"ndan sonrakı tarixinin ən təlatümlü dövründə Azərbaycanın rolunu isə elə sabiq Gürcüstan prezidenti M.Saakaşvili Azərbaycan Respublikasının Milli Məclisindəki çıxışı zamanı belə ifadə etmişdi: *"Mən tarixçi olmasam da, bu günün gələcəyə necə təsir göstərdiyini başa düşmək istəyən hər hansı lider kimi tarixə nəzər yetirirəm. Bu gün bizim tariximizə müraciət etmək və Azərbaycan–Gürcüstan dostluğunun uzun əsrlərdən keçib gələn nəğməsini ürək çırpıntısı ilə səsləndirmək istərdim. Bu, bizdən dəfələrlə güclü olan xarici qüvvələrin 2008-ci ildə ölkəmizə soxularaq mövcudluğumuzu təhdid etdiyi zaman bizimlə çiyin-çiyinə dayandığınız vaxt səslənən nəğmədir."*[85]

[83] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) I hissə. Bakı, 2015, s. 618

[84] Əliyev H. Azərbaycan Respublikası Prezidentinin və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin təkbətək görüşü başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyəti arasında Azərbaycan–Gürcüstan çıxış. 22.03.2000 // Müstəqilliyimiz əbədidir. İyirmi altıncı kitab, Bakı:Azərnəşr, 2008, s. 24



Müasir dövrdə dəmir yolları, avtomobil yolları Gürcüstanın həm daxili regionlarını bir-birilə birləşdirir, həm də xariclə əlaqələr yaradır. Gürcüstanın kənd təsərrüfatı, hidroenerji potensialı güclüdür. Ölkə xaricə metal tullantıları, kimyəvi məhsullar, sitrus bitkiləri, çay şərab ixrac edir, ölkəyə idxal olunan mallar-yanacaq, texnika, nəqliyyat avadanlıqları, taxıl, ərzaq malları dərmanlardır. Gürcüstanın əsas ticarət tərəfdaşları Rusiya, Türkiyə və Azərbaycandır. Kənd təsərrüfatı Gürcüstanda əsas fəaliyyət sahəsidir.

Gürcüstan və Avropa İttifaqı arasında iqtisadi əlaqələr getdikcə genişlənir. Gürcüstan və Avropa İttifaqı Assosiasiya Sazişi Gürcüstan üçün böyük əhəmiyyət kəsb edir. Gürcüstan Avropa yolu ilə getmək xəttini seçmişdir. Belə olan halda problemlər və maneələr olsa da, lakin AB təcrübəsindən göründüyü kimi istər yeni, istərsə köhnə AB üzvü ölkələrinin, habelə Avropa İttifaqına namizəd ölkələrinin (İslandiya, Çernoqoriya, Serbiya, Makedoniya, Türkiyə, Albaniya, Bosniya və Herseqovina, Kosovo) iqtisadi inkişaf tarixi göstərir ki, Gürcüstan da bu yolda onlar kimi irəliləyə bilər. Xüsusilə kiçik bir ölkə üçün bunun çox böyük faydaları vardır. Nəticədə Gürcüstan uğurla assosiasiya sazişinin şərtlərini həyata keçirməkdədir.

İqtisadi islahatlar prosesində Avropa təcrübəsini öyrənmək lazımdır. Bundan əlavə, Avropa İttifaqının tövsiyələrinə ölkənin çox böyük ehtiyacı vardır. Nəhayət və ən əsası, Avropa İttifaqına Gürcüstan iqtisadiyyatının tədricən inteqrasiyası daha da davam edir.

[85] Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin V sessiyası iclasının Protokolu № 35. 07.03.2012 // www.meclis.gov.az/?/az/stenoqram/287

# II FƏSİL

# MÜASİR GÜRCÜSTANIN DAXİLİ SİYASİ ŞƏRAİTİ

## 2.1. Gürcüstanda siyasi hərəkatlar və partiyalar

***Gürcüstanda siyasi partiyaların yaranma tarixindən***

XIX əsrdə Gürcüstanda kapitalizmin inkişafı ilə əlaqədar olaraq gürcü cəmiyyətinin sosial strukturunda da dəyişikliklər baş verdi. XIX əsrin 60-cı illərində Peterburq Universitetinin bir qrup gürcü tələbəsi ilə birlikdə İ.Çavçavadzenin millətçi hərəkat yaratmasına baxmayaraq, ilk siyasi təşkilatlar XIX əsrin 70-ci illərində sosialistlər tərəfindən yaradıldı. XIX əsrdə gürcü sosial-demokratlarının "Mesame dasi" ("Üçüncü qrup") təşkilatı milli sosial-demokratik xüsusiyyət daşısa da, XIX əsrin əvvəllərində rus sosial-demokratlarının təsiri altına düşdü. 1900-cu ildə "Tsnobia Purtseli" ("Xəbərlər Vərəqi") adlı qəzetin ətrafında Gürcüstan dövlətçiliyini bərpa etmək məqsədilə cəmiyyət yarandı. 1905-1907-ci il inqilabları millətçi-demokratların aktiv siyasi fəaliyyətinə səbəb oldu. 1909-1912-ci illərdə "Eri" ("Millət") və "Klde" ("Qaya") jurnalları ətrafında yeni millətçi-demokratların qrupları formalaşdı. 1918-1921-ci illərdə Gürcüstan müstəqillik əldə etdi və hakimiyyətə Gürcüstanın sosial-demokratlar partiyası gəldi, təkpartiyalı hakimiyyət formalaşdırıldı. Gürcüstan sovetləşdirildikdən sonra Gürcüstan SSR Kommunist Partiyası yaradıldı. 1954-cü ildə Z.Qamsaxurdiya M.Kostava ilə bərabər antisovet nəşrləri qanunsuz yayan "Qorqasliani" gənclər təşkilatını yaratmışdı. O dövrdə tanınan millətçi təşkilatlardan biri 1956-cı ildə yaradılmış "Siqnaxi Gənclərinin Milli Qvardiyası" olmuşdur.

M.Qorbaçovun aşkarlıq dövründə müxtəlif yeni siyasi partiyalar meydana gəldi. Məsələn, Gürcüstanın azad edilməsi naminə fəaliyyət göstərən "İliya Çavçavadze Cəmiyyəti", 1988-1989-cu illərdə "Milli Bərabərlik Partiyası", "Gürcüstanın Milli Azadlıq Partiyası", "Gürcüstan Xalq Cəbhəsi", "Şota Rustaveli Cəmiyyəti", "Gürcüstan Yaşıllar Cəmiyyəti" və s. 1989-cu ilin aprel hadisələrindən sonra Zviad Qamsaxurdiya, Merab Kostava, İrakli Tsereteli və Georgi Çanturiyanın rəhbərliyi ilə "Milli Qurtuluş Komitəsi" yaradıldı. Komitəyə "Helsinki İttifaqı" (sədr: Z.Qamsa-



xurdiya), "Milli Demokratik Partiya" (G.Çanturiya), "Monarxiya Partiyası" (Temur Jorjoliani), "Milli Bərabərlik İttifaqı" (İrakli Şengeliya), "Milli Azadlıq Partiyası" (İrakli Tsereteli) daxil idi. Bu ittifaqın əsas məqsədi Gürcüstanın SSRİ-dən ayrılması olmuşdur.

1990-cı ilin martında Tbilisidə elan edilmiş fövqəladə vəziyyətlə əlaqədar olaraq milli hərəkata rəhbərlik etmək üçün "Milli Forum" yaradıldı. Lakin bu partiya tezliklə süquta uğradı. Milli azadlıq hərəkatının geniş vüsət aldığı bir zamanda Z.Qamsaxurdiyanın tərəfdarları tərəfindən "Dairəvi Masa-Azad Gürcüstan" bloku yaradıldı. 1990-cı ilin oktyabr seçkilərində də məhz bu blok qələbə qazandı və Gürcüstanda Sovet quruluşunun ləğvinə nail oldu.

1989-cu ildə Caba İoseliani tərəfindən qurulan millətçi təşkilat "Mxedrioni" yaradıldı. Bu təşkilatın köməyi ilə E.Şevardnadze hərbi çevriliş edərək 1992-ci ildə hakimiyyətə gəldi. Təşkilat 1995-ci ildə E.Şevardnadze tərəfindən buraxıldı. 1993-cü ilin yay-payız aylarında E.Şevardnadzenin tərəfdarları "Gürcüstan Vətəndaşlarının İttifaqı"nı yaratdılar və E.Şevardnadzeni sədr seçdilər. 2003-cü ildə isə Gürcüstanda "Qızılgül inqilabı" vasitəsilə hakimiyyətə gələn M.Saakaşvili ilə müxalif partiya hakimiyyət başına keçdi.

**"Qızılgül inqilabı"ndan sonra siyasi partiyaların fəaliyyəti**

Gürcüstanda siyasi partiyalar hüquqi şəxs kimi Gürcüstanın Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçirilir. Partiyalar haqqında qanun 1997-ci il iyunun 26-da qəbul edilmiş və 1997-ci ilin noyabrın 25-də qüvvəyə minmiş Gürcüstan Vətəndaş kodeksinin 1509-cu maddəsi ilə tənzimlənir. 2012-ci ilin yanvarında Gürcüstan Ədliyyə Nazirliyi tərəfindən 216 siyasi partiya və hərəkat qeydiyyatdan keçirilmişdir.[86] Bu gün Gürcüstan Parlamentində təmsil olunan əsas siyasi hərəkat və partiyalar bunlardır:

**Gürcü Arzusu ("Kartuli Otsneba")** - 2011-ci ildən Gürcüstanda hakim partiya kimi fəaliyyət göstərir. Gürcü Arzusu partiyası 2011-ci ildə Bidzina İvanişvili tərəfindən prezident Mixeil Saakaşvili və onun partiyası Vahid Milli Hərəkatın əleyhinə yaradılmışdı. Gürcü Arzusu koalisiyası tərkibində dörd siyasi partiyanı birləşdirirdi: B.İvanişvilinin "Gürcü Arzusu-Demokratik Gürcüstan", İrakli Alasaniyanın "Bizim Gürcüstan-Azad

---

[86] საქართველოს იუსტიციის სამინისტროს მიერ რეგისტრირებული მოქალაქეთა პოლიტიკური გაერთიანებების (პარტიების). 04.07.2010 // www.ivote.ge/images/ doc/pdfs/partiebis_sia_04.07.20110.pdf

Demokratlar", "Respublikaçılar Partiyası" və Kaxa Şartavanın "Milli Forum." Daha sonralar koalisiyaya "Mühafizəkarlar" (Zviad Dzidziquri) və "Sənayeçilər" (Zurab Tkemaladze) birləşdi.

Koalisiya 2012-ci il parlament seçkilərində Vahid Milli Hərəkata qalib gələrək 55% səs çoxluğu ilə qələbə qazandı. Partiya 77 mandatla Gürcüstan parlamentində çoxluq təşkil edərək hökuməti təşkil etdi.[87] 2013-cü il prezident seçkilərində koalisiya təhsil naziri G.Marqvelaşvilini namizəd kimi təqdim etmiş, nəticələrə əsasən o, seçkilər əsasında 62% səslə prezident seçilmişdi. 2014-cü il noyabrın 5-də "Azad Demokratlar", 2014-cü ildə "Respublikaçılar" koalisiya sıralarını tərk etdilər. 2016-cı il oktyabrın 8-də Gürcüstanda keçirilən növbəti parlament seçkilərində partiya sərbəst şəkildə seçkilərdə təmsil olunaraq səslərin əksəriyyətini toplamağa müvəffəq oldu və ölkənin hakim partiyasına çevrildi. Partiyanın daxili siyasətdə əsas məqsədləri kənd təsərrüfatının inkişaf etdirilməsi, həyat səviyyəsinin yüksəldilməsi, xarici siyasətdə isə Rusiya ilə münasibətlərin stabilləşdirilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi və Avropaya inteqrasiyadır. Partiyanın rəsmi saytı: 41.ge

**Vahid Milli Hərəkat ("Ertiani Natsionaluri Modzraoba")** – siyasi ittifaq kimi 2011-ci ildə "Gürcüstanın azad edilməsi naminə milli hərəkat" adı ilə Mixeil Saakaşvili tərəfindən əsası qoyulmuşdur. 2002-ci ildən Vahid Milli Hərəkat (VMH) adı ilə fəaliyyət göstərir. 2003-cü ildə partiya "Vahid Milli Alyans" olaraq tərkibində Vahid Milli Hərəkat, Vahid Demokratlar, Milli Həmrəylik İttifaqı və "Kmara" ("Yetər") gənclər təşkilatını birləşdirərək prezident E.Şevardnadzeyə qarşı çıxdı. 2004-cü ilin yanvarın 4-dən Vahid Milli Hərəkat Partiyasının bayrağı dövlət bayrağı statusunu qazandı.

2008-ci ilin may ayında VMH 63% səs toplayaraq hakim partiya seçilmişdi. 2012-ci il parlament seçkilərində VMH partiya siyahısı üzrə 40,43% səs, majoritar dairələr üzrə 43,84% səs toplayaraq məğlub olmuşdu. 2013-cü il prezident seçkilərində VMH partiyasından David Bakradze namizəd kimi təqdim edildi. Seçkinin nəticələrinə görə o, 21,73% səslə ikinci yeri tutdu. 2016-cı il oktyabrın 8-də keçirilən parlament seçkilərində Vahid Milli Hərəkat Partiyası 27% səs topladı və parlamentdə 27 namizədlə təmsil olunmaq hüququ qazandı. Lakin buna baxmayaraq, 2017-ci ildə Vahid Milli Hərəkat partiyasında parçalanma oldu. Gürcüstan Parla-

[87] ივანიშვილმა პოლიტიკური პარტიის საინიციატივო ჯგუფი წარადგინა 12.05.2012 // www.old.civil.ge/geo/article.php?id=25112&search=



mentində Vahid Milli Hərəkat partiyasından təmsil olunan 27 deputatdan 21-i yeni təşkil olunmuş "Avropalı Gürcüstan" fraksiyasının tərkibinə keçdilər. Hazırda VMH 6 deputatla parlamentdə təmsil olunur.

Partiya iqtisadi və siyasi islahatların keçirilməsi, Gürcüstanın Avropa İttifaqı və NATO-nun tərkibinə daxil olması, gürcü hakimiyyətinin işğal olunmuş Abxaziya və Cənubi Osetiyada yenidən bərpası istəkləri ilə çıxış edir. Partiya Avropa Xalq Partiyasında müşahidəçi statusuna malikdir. VMH həmçinin beynəlxalq əlaqələr də yaratmışdır, məsələn onun "Bizim Ukrayna", "Vitaliy Kliçkonun islahatları-Ukrayna Demokratik Alyansı", "Baltik-Qara dəniz millətləri Alyansı" kimi siyasi partiyalarla əlaqələri vardır. Partiyanın rəsmi saytı: www.unm.ge-dir.

**"Sənaye Gürcüstanı xilas edəcək" Partiyası (Mreç`veloba Qadaarçens Sakartvelos)** - Bu siyasi partiyanın əsası 1999-cu ildə qoyulmuşdur. Partiya ümumiyyətlə, dünya maliyyə və bazar qüvvələrinin ölkənin iqtisadiyyatına müdaxiləsinin əleyhinədir və milli istehsalı dəstəkləyir. Partiyanın 1999-cu ildə yaranmasına səbəb də məhz Sovet İttifaqından sonrakı ağır iqtisadi şəraiti dəyişmək və iqtisadiyyatı dirçəltmək olmuşdur. Partiya rəhbərlərinin fikrincə, SSRİ-nin dağılmasından sonra işsizliyi azaltmaq və dövlət büdcəsini artırmaq məqsədilə düzgün iqtisadi siyasət aparılmalı, liberal qaydalarla vergi tətbiq edilməlidir. Hərəkatın ilk sədri dörd il müddətinə seçilmiş Giorgi (Qoqi) Topadze, sədr müavini isə Zurab Tkxemaladze idi. 2005-ci ilədək Giorgi Topadze partiyanın sədri oldu. 2005-ci ildən isə o, hərəkatın lideri, Z.Tkxemaladze isə sədri vəzifəsini tutdu. Partiya ilk dəfə 1999-cu ildə parlament seçkilərində iştirak edərək 7% səs toplaya bildi. O zaman E.Şevardnadzenin "Vətəndaş İttifaqı" və Aslan Abaşidzenin "Dirçəliş" partiyasından sonra bu hərəkat ilk müxalif qüvvə idi ki, parlamentdə təmsil olundu. 2003-cü il parlament seçkilərində də hərəkat parlamentdə təmsil oluna bildi. "Qızılgül inqilabı"ndan sonra yenidən təşkil olunan hərəkat 2004-cü il parlament seçkilərində "Sənayeçilər" və "Yeni Qanun" olmaqla bir blok kimi seçkilərə qatıldı: "Doğru Müxalif-Sənayeçilər, Yenilər." 2008-ci il parlament seçkilərində isə partiya lazımi qədər səs toplamadığı üçün təmsil oluna bilmədi. 2012-ci ilin aprelin 11-də Sənayeçilərin İvanişvilinin koalisiyasına qoşulması haqqında məlumat yayıldı.[88]

[88] მრეწველთა პარტია ივანიშვილის კოალიციას შეუერთდა. 11.04.2012 // www.old.civil.ge/geo/article.php?id=25340

Partiyanın ali orqanı hər dörd ildən bir çağırılan qurultay hesab edilir. Qurultaylar arasındakı müddətdə Məşvərət Şurası çağırılır. Məşvərət Şurası ildə bir dəfə hərəkatın komitəsi tərəfindən çağırılır. Qurultayın sessiyaları ayda bir dəfə keçirilir. Partiyanın icraedici funksiyasını direktorlar şurası daşıyır. Partiyanın rəhbəri-liderdir, o, həmçinin qurultayın əsas üzvü hesab edilir. Hərəkatın strukturu və idarə olunması qaydaları lider, sədr və sədr müavini tərəfindən tənzimlənir. Maliyyə məsələləri dörd il müddətinə seçilən və 3 nəfərdən ibarət olan təftiş komissiyası tərəfindən həll olunur. Partiyanın rəsmi saytı: www.industrials.ge-dir.

**Gürcüstan Mühafizəkarlar Partiyası (Sakartvelos Konservatiuli Partia)** - Gürcüstanın sağ yönümlü partiyası olub sabiq prezident Zviad Qamsaxurdiyanın tərəfdarları tərəfindən yaradılmışdı. 2002-ci ildə mühafizəkarlar Vahid Milli Hərəkat və Respublikaçılar Partiyası ilə birləşdi. Siyasi blok 2002-ci il yerli seçkilərdə 24% səs toplayaraq qalib gəlmişdi. Mühafizəkarlar 2004-cü il parlament seçkilərində də "Milli Hərəkat-Demokratlar" blokuna daxil idi və 66,2% səslə qələbə qazana bilmişdi. Həmin ildə mühafizəkarlar Milli Hərəkatla əməkdaşlıqlarına son qoydular. 2009-cu ildə Mixeil Saakaşvilinin istefasını dəstəklədilər və bu məqsədlə etiraz aksiyaları təşkil etdilər. 2011-ci ildən Mühafizəkarlar Partiyası "Gürcü Arzusu" koalisiyasının üzvünə çevrildi. Hazırda Gürcüstan üzrə Mühafizəkarlar Partiyası 67 bələdiyyə üzrə 71 nümayəndə ilə təmsil olunur. Partiya əsas diqqətini etnik və milli dəyərlərin, gürcü dilinin qorunmasına cəmləşdirmişdir. Partiyanın əsas orqanı qurultaydır və hər dörd ildən bir təşkil olunur. İcraedici orqanı milli komitədir və bu komitə sədr, 6 üzvdən təşkil olunur. Partiyanın regional, bələdiyyə və gənclər təşkilatları fəaliyyət göstərir. Partiyanın rəsmi saytı: www.conservatives.ge

**Gürcüstan Vətənpərvərlər Alyansı (Sakartvelos Patriotta Aliansi)**-sağçı-mühafizəkar, antiqərb yönümlü partiyadır. Partiya 2012-ci ilin dekabrında Soso Mancavidze, David Tarxan-Mouravi və İrma İnaşvili tərəfindən yaradılmışdır. Georgi Lomiya və Ada Marşaniya partiyanın siyasi katibləridir. Partiya o zaman Vahid Milli Hərəkata qarşı "Obiektivi" media-ittifaqı və "Müqavimət" ictimai hərəkatının əsasında yaradılmışdı. Partiya ilk dəfə 2014-cü ildə yerli seçkilərdə iştirak etdi. Bu zaman İrma İnaşvili Tbilisi şəhəri merliyinə namizəd kimi dördüncü yerdə qərar tutdu. Partiya bu seçkilərdə proporsional seçki üzrə Tbilisi bələdiyyəsində 6,34% səs toplayaraq iki namizədlə (Soso Mancavidze, Manuçar Maxaidze) təmsil oluna bildi. Bu seçki nəticəsində bütün Gürcüstan bələdiyyələri üzrə 4,72% səs toplamaqla təmsilçilik hüququ əldə etdilər. 2016-cı il parlament seçkilərində Vətənpərlərlər Alyansı "Azad Gürcüstan", "Azadlıq", "Yeni Xristian Demokratlar", "Ənənəçilər", "Hüquq Müdafiəçiləri və Silahlı Qüvvələrin Veteranlarının Siyasi Hərəkatı" adlı partiyalarla blok yaradaraq seçkilərdə iştirak etdi. Nəticədə partiya 5,01% səs toplayaraq 6 namizədlə Gürcüstan parlamentində təmsil olunma haqqı qazandı.



Partiya antitürk mövqeyindən çıxış edərək, ölkənin Türkiyə ilə əlaqələrinin məhdudlaşdırmasını dəstəkləyir. Partiya liderləri həmçinin Avropa İttifaqı ilə azad ticarət haqqında sazişin imzalanması əleyhinə də çağırış etmişlər. Onların qənaətincə, Gürcüstanın NATO-ya daxilolma prosesi həddindən artıq gecikdirildiyi üçün ölkədə bu üzvlüyə inamda məyusluq yaranmışdır. İrma İnaşviliyə məxsus "Obiektivi" telekanalı demək olar ki, partiyanın ideyasının əsas təbliğatçısına çevrilmişdir. David Tarxan-Mouravi həmin kanalda provoslavlığa aid Bibliyaya əsaslanan mühazirələr oxuyur. Rəsmi sayt: www.patriots.ge

Gürcüstan Parlamentində təmsil olunmayan partiyalar: Xristian-Demokratlar Hərəkatı, Gürcüstanın İşçi (Leyboristlər) Partiyası, Yeni Sağçılar, Demokratik Hərəkat-Vahid Gürcüstan, Azadlıq, Ədalətli Gürcüstan üçün Hərəkat, Gürcüstan Yolu, Azadlıq Naminə Cənubi Osetiya Xalqı, Ənənəçilər İttifaqı, Gürcü Partiyası, Gürcüstanda Avropalı Demokratlar, Gürcü Truppası, Milli Demokratik Partiya, Azad Gürcüstan, Solçu Alyans, Milli Forum, Gürcüstanın Respublikaçılar Partiyası, Bizim Gürcüstan-Azad Demokratlar, Gürcüstanın İnkişafı Naminə Sosial-Demokratlar, Gürcüstan Yaşıllar Partiyası və Xalq Partiyasıdır.

## 2.2. "Qızılgül inqilabı"

Dünyanın inqilablar tarixinin təhlili göstərir ki, hər hansı bir ölkədə inqilabi proseslərin baş verməsi və xüsusən qalib gəlməsi təkcə daxili deyil, eyni zamanda xarici amillərdən də eyni dərəcədə asılıdır. Daxili qüvvələrin fəaliyyətsizliyi və ya zəif fəaliyyəti hər hansı inqilabi dəyişikliyə gətirib çıxarmadığı kimi, xarici dəstək olmadan bunun reallaşdırılması da mümkünsüz məsələdir. Lakin müasir dünya ölkələrinin tarixində bir sıra çevriliş və dəyişikliklər var ki, onlar inqilab adlandırılsalar da klassik mənada inqilab anlayışına uyğun gəlmirlər.

Tarixə nəzər salsaq görərik ki, müxtəlif ölkələrdə, xüsusən Qərbi Avropada müxtəlif zamanlarda baş vermiş dəyişikliklər ümumilikdə ya mövcud ictimai-iqtisadi formasiyanı, ya dövlət quruluşunu tamamilə də-

yişmişdir. Lakin XX əsrin 40-cı illərindən başlayaraq dünyada baş vermiş və "inqilab" adlandırılan dəyişikliklərin çoxu əksər hallarda klassik anlamda inqilab anlayışı ilə uyğun gəlməmiş, ən yaxşı hallarda ABŞ və Qərbmeyilli hakimiyyətlərin SSRİ meyilli qüvvələrlə əvəzlənməsi ilə müşahidə edilmişdir. SSRİ-nin dağılmasından sonrakı dövrdə isə proses daha çox əksinə cərəyan etməyə başlamış, sovet (sonradan isə Rusiya) dəstəkli hakimiyyətlərin Qərbmeyilli qüvvələrlə əvəzlənməsi prosesi inqilab adlandırılmağa başlamışdır. Dünya tarixində gerçək anlamda ən son inqilab SSRİ-də başlanan xalq hərəkatları fonunda sosializm ictimai-iqtisadi formasiyasının ləğvi və yeni azad iqtisadi sistemə keçid olmuşdur. Xüsusən, XX əsrin sonu – XXI əsrin başlanğıcında ABŞ başda olmaqla qlobal güclərin nəzarəti altında nisbətən kiçik ölkələrdə baş verən səssiz, rəngli, məxməri inqilabları klassik anlamda inqilab adlandırmaq mümkün deyildir. Bunlar daha çox strateji maraqlar uğrunda mübarizə aparan dünya güclərinin, transmilli korporasiyaların maraqlarını təmin edən təşkilatların dəstəyi ilə həyata keçirilən dəyişikliklər, çevrilişlər kimi xarakterizə edilə bilər. Bu mənada 2003-cü ildə Gürcüstanda baş vermiş "Qızılgül inqilabı" da xeyli dərəcədə xarici amillərin təsiri altında baş vermişdir, lakin Gürcüstan həyatına gətirdiyi bir sıra dəyişikliklər onu tam olmasa da müəyyən dərəcədə klassik inqilab anlayışına yaxınlaşdırır.

2003-cü ildə Gürcüstanda başlayan "Qızılgül inqilabı"nın mahiyyətinə nəzər salarkən başlıca diqqət yetirilməli olan amillər inqilabı doğuran səbəblərlə, inqilabın başlaması üçün bəhanələrin fərqləndirilməsindən, proseslərin başlamasında aktiv rol oynamış xarici və daxili faktorların müəyyənləşdirilməsindən, "Qızılgül inqilabı"nın iştirakçısı olan daxili siyasi qüvvələrin məqsədlərinin, mövqelərinin və prosesə yanaşmalarının aydınlaşdırılmasından, "Qızılgül inqilabı"nın Gürcüstan üçün nəticələrinin öyrənilməsindən ibarətdir.

"Qızılgül inqilabı"nı doğuran daxili səbəblər hadisələrin başlamasından çox-çox əvvəl meydana çıxmış, bəzi səbəblər isə SSRİ-nin mirası kimi Gürcüstan Respublikasına ötürülmüşdü. Proseslərin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, Gürcüstanda "Qızılgül inqilabı"na gətirib çıxaran üç başlıca səbəb aşağıdakılar olmuşdur:

1) Ağır sosial-iqtisadi vəziyyət,
2) Korrupsiyalaşmış rejim və kriminallaşma,
3) Separatizm probleminin həll edilməməsi.

"Qızılgül inqilabı"nın başlaması ərəfəsində dəyişikliklər üçün ən mühüm amil olan ağır sosial-iqtisadi vəziyyət dözülməz həddə idi. Hələ



2000-ci ildən etibarən ölkənin iqtisadi idarəçiliyində problemlər açıq aşkar ortaya çıxdı. 1998-ci ildən etibarən faktiki büdcə gəlirləri ilə proqnozlaşdırılan gəlirlər arasında ciddi fərq müşahidə edilməyə başladı. Büdcədə yaranan bu çatışmazlıqları gizlətmək üçün hökumət keçmiş Sovet taktikasından istifadə etməyə başladı. Vladimer Papava "Gürcüstanda "Qızılgül inqilabı"nın siyasi iqtisadiyyatı" adlı bu məsələyə toxunaraq göstərir ki, məhz bu zamandan etibarən hökumət büdcə çatışmazlığını maskalamaq üçün aldadıcı mühasibat taktikasından istifadə etməyə başladı.[89] Gürcüstanın getdikcə maliyyə davamlılığının azaldığını və kreditləri ödəmə gücündə olmadığını görən Beynəlxalq Valyuta Fondu (İMF) iqtisadi səbəbləri və tövsiyələri yerinə yetirmədiyini bəhanə edərək Gürcüstanın kreditləşməsini dayandırdı.[90] Pərdəarxası məqamda isə İMF-nin Gürcüstana qarşı belə münasibəti daha çox ölkəni inqilaba hazırlayan xarici texnoloqların planları ilə bağlı idi. 1998-ci ildə o zamana qədər Gürcüstanın əsas iqtisadi tərəfdaşlarından biri olan Rusiyada iqtisadi böhranın baş verməsi, bu ölkədən Gürcüstana gələn maliyyə axınını da xeyli dərəcədə məhdudlaşdırmışdı. Bu isə ölkənin onsuz da SSRİ-nin dağılmasından sonra məhdudlaşmış iqtisadi əlaqələrini daha da məhdudlaşdırdı. Gürcüstan hökuməti artıq maaşların, müavinət və təqaüdlərin ödənilməsində belə çətinliklərlə qarşılaşdı və 2003-cü ildə proseslər yüksək həddə çatdı. Bütün bu iqtisadi problemlər əhalini hökumətdən xeyli dərəcədə narazı salırdı. Mövcud hakimiyyətə bağlı fəaliyyət göstərən əhali qrupları iqtisadi məhrumiyyətlərlə üzləşərkən, Gürcüstanı inqilaba hazırlamaqda maraqlı olan xarici fondlar ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına və hökumətə xeyli dərəcədə müxalif mövqedə dayanan media qurumlarına maliyyə dəstəyini artırır, bu isə əhali arasında "Qərbdə demokratiyadan doğan firavanlıq" haqqında düşüncələri daha da gücləndirirdi.

E.Şevardnadze hakimiyyətinə qarşı qəzəbi artıran ən mühüm məsələlərdən digər biri olan korrupsiyalaşma və onun məntiqi nəticəsi olan kriminallaşma idi. Korrupsiya təfəkkürü Gürcüstana əsasən keçmiş SSRİ-nin mirası idi. Lakin iqtisadi vəziyyətin getdikcə pisləşməsi bu məsələni daha pis həddə doğru sürükləyirdi. Bu məqama toxunan "Gürcüstan Milli oyanışdan Qızılgül inqilabına: keçmiş Sovet İttifaqında geçikmiş dəyişiklik"

[89] Papava V. The Political Economy of Georgia's Rose Revolution // Orbis. Volume 50, Issue 4, Autumn 2006, p. 657-667.
[90] Welt C. Georgia: causes of the Rose Revolution and lessons for democracy assistance. USAID, 2005, p. 9.

kitabının müəllifi Conatan Vitli maraqlı bir müqayisə aparmaqla korrupsiyalaşmanın həddini ortaya qoyur. Müəllif göstərir ki, 1998-ci ildə Gürcüstanda dövlət nazirinin rəsmi əmək haqqı 150 lari, başqa sözlə desək təxminən 75 ABŞ dolları idi. Nəticədə Gürcüstandakı aşağı gəlirli dövlət məmurları alternativ gəlir mənbələri axtarırdılar.[91]

Hökumət strukturlarının xeyli dərəcədə korrupsiyaya qurşanması, bu amildən istifadə edən kriminal qrupların ölkə ərazisində geniş qol-qanad açması "Qızılgül inqilabı" ərəfəsindəki Gürcüstanın əsas reallıqlarından biri idi. Təsadüfi deyildir ki, "Qızılgül inqilabı"nın lideri olan M.Saakaşvilinin E.Şevardnadze hakimiyyətinə qarşı əsas silahlarından biri bu amilin qabardılması idi. Sonralar M.Saakaşvilinin 10 illik hakimiyyətinin axırına yaxın BBC-nin Rus xidmətinin əməkdaşı Nina Axmeteli "Gürcülər Saakaşvilini necə xatırlayacaq?" məqaləsində yazırdı: "Saakaşvilinin "Vahid Milli Hərəkatı" və keçmiş prezidentə rəğbət bəsləyən təhlilçilər qeyd edirlər ki, eks-prezident özündən sonra təkcə yeni yolları və işıqlı küçələri qoyub getmir. Onlara görə, Saakaşvilinin əsas mübarizəsi "oğrubaşı"na və korrupsiyaya qarşı olub. Saakaşvilinin özü bir vaxtlar demişdi ki, Gürcüstan Rusiyaya şərab yox, oğrubaşı və kriminal ünsürlər ixrac edib. Cinayətkarlıqla mübarizədə Saakaşvili hökumətinin siyasəti birmənalı olmamışdır. Kriminallara qarşı sıfır tolerantlıq siyasəti həbsxanaların dolması ilə nəticələndi."[92]

"Qızılgül inqilabı"nı doğuran üçüncü ən mühüm səbəb isə hələ XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən mövcud olan Abxaziya və Cənubi Osetiya problemlərini E.Şevardnadze hakimiyyətinin həll edə bilməməsi idi. Aslan Abaşidzenin rəhbərlik etdiyi Acarıstanın isə Gürcüstana mənsub olan muxtar respublikadan daha çox, Gürcüstanla konfederativ əsasda birləşmiş müstəqil dövlət kimi fəaliyyət göstərirdi. Ümumiyyətlə, müasir Gürcüstanın ən ağrılı problemləri olan Abxaziya və Cənubi Osetiya problemlərinin həll edilməsi E.Şevardnadzedən sonra "Qızılgül inqilabı" nəticəsində hakimiyyətə gələn M.Saakaşvilinin hakimiyyətinin və nüfuzunun zəifləməsində də xeyli dərəcədə rol oynadı.

---

[91] Jonathan W. Georgia from National Awakening to Rose Revolution: Delayed Transition in the Former Soviet Union. By Jonathan Wheatley. Post-Soviet Politics. Burlington, VT: Ashgate. Vt.: Ashgate, 2005, p. 85, 155.

[92] Axmeteli N. Gürcülər Saakaşvilini necə xatırlayacaq? 29.10.2013 // www.bbc.com/-azeri/region/2013/10/ 131029 _saakashvili_heritage_top10. İstifadə tarixi: 31.05.2018



Gürcüstanda "Qızılgül inqilabı"nın baş verməsi daxili səbəblərlə yanaşı, xarici amillərlə də bağlı idi. Bu baxımdan üç amil xüsusi fərqləndirilməlidir:

– Qərbin və transmilli güclərin Rusiya sərhədlərinə yaxınlaşmaq istəyi;

– Rəngli inqilabla ələbaxımlı demokratiya qurmaq məsələsi;

– Karbohidrogen ehtiyatlarının rahat tranziti üçün Rusiyanın nəzarətində olmayan zolağın qurulması və buna paralel olaraq Azərbaycan və Orta Asiya dövlətlərinin alternativ tranzit yolunu nəzarətdə saxlamaqla onların diqtə altında saxlanılması.

İnqilabın baş tutmasında xüsusən ikinci amil əsaslı rol oynadı. Xarici güclər 2000-2003-cü illər arasında Gürcüstandakı E.Şevardnadze rejiminə dəstəklərini xeyli dərəcədə azaltdılar.[93] Bunu dünyanın bir çox ölkəsində demokratikləşmə prosesi adı altında inqilablara və çevrilişlərə sponsorluq edən Corc Sorosun, Amerika Birləşmiş Ştatlarının Gürcüstandakı səfiri Riçard Milzin, Buş Adminstrasiyasının və onun müttəfiqlərinin demokratiya çağırışlarından da hiss etmək olardı.

Gürcüstanın maliyyə-iqtisadi vəziyyətinin pisləşməsi fonunda xarici fondlar ölkədəki qeyri-hökumət təşkilatlarına və müxalif siyasi partiyalara maliyyə yardımlarını artırırdılar. Seçkilər ərəfəsində ATƏT-in prosesləri daha yaxından izləməsi üçün ABŞ və Avropanın maliyyə yardımları artdı, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi – USAİD Gürcüstanda seçki sisteminin modernləşdirilməsi üçün 1,5 milyon dollar vəsait ayırmışdı. Corc Sorosun nəzarətində olan Open Society İnstitute (Açıq Cəmiyyət İnstitutu) "Qızılgül inqilabı"nın gələcək qəhrəmanı M.Saakaşvili və müxalif təşkilatlar şəbəkəsinə ciddi yardımlar göstərirdilər. Serbiyada həyata keçirilmiş "Slobodan Miloşeviç çevrilişi"ndə tətbiq edilmiş taktika və vasitələri mənimsəmələri üçün xeyli sayda Gürcüstanlı gənclər və fəallar Açıq Cəmiyyət İnstitutunun vəsaiti hesabına Serbiyaya göndərilirdi.[94] 2003-cü ildə Gürcüstanda baş verən prosesləri təhlil edən akademik Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" adlı kitabının "Qlobal transformasiyaların rənglər qamması" bölümündə bu məsələyə diqqət çəkərək yazır: "...Tbilisidə hakimiyyətin dəyiş-

---

[93] Valerie B., Wolchik S. Defeating Authoritarian Leaders in Postcommunist Countries. New-York: Cambridge University Press, 2011, p. 155.

[94] Charles F. Georgia's Rose Revolution // Journal of Democracy. Volume 15, İssue 02.04.2004, p.113.

məsi Miloşeviçin istefasından sonra, əslində, eyni siyasi texnoloji resurslardan və maliyyələşdirmə yollarından istifadə edilən ilk aksiya idi."[95]

"Qızılgül inqilabı"nın ruporu rolunda çıxış edən müxaliflərin əsas kürsüsü Rustavi-2 telekanalına USAİD və Avrasiya Fondunun göstərdiyi dəstək də Qərbdəki düşüncə, güc və maliyyə mərkəzlərinin prosesin reallaşmasında nə dərəcədə maraqlı olduğunu açıq-aşkar ortaya qoyurdu. Demokratiyanı Müdafiə Fondunun rəsmi internet saytı "Qızılgül inqilabı" başa çatdıqdan sonra belə yazırdı: "Soros Şevardnadzenin devrilməsi üçün 42 milyon dollar vəsait sərf edib."[96]

İnqilabın başlaması üçün bəhanə 2003-cü il noyabr ayının 2-də Gürcüstanda keçirilən parlament seçkilərində saxtakarlığa yol verilməsi ilə bağlı iddialar oldu. Bəs həqiqətən də belə bir saxtakarlıq olmuşdumu? Gürcüstanın post-sovet respublikası olmasını, SSRİ-dən qalma "seçki ənənələri"nin hələlik unudulmamasını və baş verən ağrılı proseslər ucbatından Gürcüstanda demokratiyanın tam oturuşmadığını nəzərə alsaq seçkilərdə pozuntuların baş verdiyini istisna etmək olmaz.

"Qızılgül inqilabı"nın səbəblərini, xarici amilləri və inqilabın baş verməsi üçün bəhanəni aydınlaşdırdıqdan sonra prosesdə iştirak edən siyasi aktorların – gürcü siyasi partiya və hərəkatlarının baxışları, yeri və rolu aydınlaşdırılmalıdır. İnqilab ərəfəsində və dövründə hakimiyyətdə olan Eduard Şevardnadzenin yaratdığı "Yeni Gürcüstan üçün" adlı siyasi hərəkat, Acarıstan muxtariyyətinin rəhbəri Aslan Abaşidzenin başçılıq etdiyi "Gürcüstan Demokratik Oyanış Birliyi", Mixeil Saakaşvilinin "Birləşmiş Milli Hərəkatı", parlamentin başçısı Nino Burcanadze və eks-spiker Zurab Jvaniyanın "Burcanadze-Demokratlar" adlı siyasi qrupu Gürcüstan siyasi səhnəsinin əsas aktorları idilər. İlk iki aktor faktiki olaraq hakimiyyətdə olan güclər idi və mühafizəkar mövqedən çıxış edirdilər. Seçkilər dönəmində siyasi səhnədə görünən "Birləşmiş Milli Hərəkat" və "Burcanadze-Demokratlar" adlı aktorların sıralarında yer alan bir çox şəxslər əvvəllər E.Şevardnadze ilə yaxın mövqedə olsalar da, artıq onun opponenti-rəqibi rolunda çıxış edirdilər.

Noyabrın 2-də keçirilən seçkilərin nəticələri ilə razılaşmayan, saxtakarlığa yol verildiyini bəyan edən M.Saakaşvilinin iddiasını bir sıra xarici beynəlxalq təşkilatlar dəstəklədilər. Tbilisidə nümayişlər təşkil edildi. E.Şevardnadzeyə qarşı müxalifətdə olan əksər siyasi güclər və təşkilatlar nümayişlərə qatıldılar.

Noyabr ayının ortalarından etibarən nümayişlər daha da gücləndi. Xüsusən "Kmara" ("Yetər") adlı gənclik hərəkatının nümayişlərə qatılması mövcud hakimiyyət üçün ciddi təhlükə doğururdu. Hətta bir çox hallarda Gürcüstan mərkəzi hakimiyyətinin özünə qarşı çıxan Acarıstan muxtariyyətinin başçısı Aslan Abaşidze də E.Şevardnadzeyə açıq-aşkar dəstək göstərir və başlayan hərəkatı öz hakimiyyətinə qarşı da təhlükə hesab edirdi. Gürcüstan parlamentinin qarşısında təşkil edilən mitinqlərin başlamasından 6 gün sonra hərəkatın nə qədər irimiqyaslı olduğunu və gerçək təhlükə yaratdığını görən E.Şevardnadze hakimiyyəti müxalif liderlərlə danışıqlar aparmağa cəhd göstərdi. Prezident Eduard Şevardnadze, dövlət naziri Avtandil Corbenadze və MSK-nın sədri Nana Devdariani axşamdan xeyli keçənədək müxalifət liderlərini gözləsələr də, onlar görüşə gəlmədilər.

"Burcanadze-demokratlar"ın liderlərindən biri Georgi Baramidze müxalifətin iqtidarla heç bir sövdələşməyə getməyəcəyini, əgər tələbləri ödənilməsə, mitinqlərin davam edəcəyini bildirdi. "Birləşmiş Milli Hərəkat"ın lideri Mixeil Saakaşvili isə dedi: "Biz iqtidarla o zaman danışığa gedərik ki, Eduard Şevardnadze iqtidaryönlü "Yeni Gürcüstan uğrunda" blokunun parlament seçkilərində məğlub olduğunu elan etsin."[97]

Yeni seçilmiş parlamentin açılışı noyabrın 22-nə təyin edilmişdi. Seçkilərdən 20 gün keçməsinə baxmayaraq, iqtidar nümayişlərin qarşısını ala bilmirdi, nümayişçilərin sayının çoxluğu iqtidarın manevr imkanlarını məhdudlaşdırırdı. Eyni zamanda Gürcüstanda maraqlarını təmin etməyə çalışan güclər və onların mətbu-forpostlarının isə daha fəal təbliğata və təzyiqlərə keçməsi də hökuməti bəzi addımlar atmaqdan çəkindirirdi. Parlamentin legitimləşdirilməsi məqsədi ilə 22 noyabrda Parlamentin açılışında iştirak edən prezident E.Şevardnadzenin çıxışı zamanı əllərində qızılgül tutmuş nümayişçilər iclas salonuna daxil oldular. Mixeil Saakaşvilinin başçılıq etdiyi qrupun kürsüyə doğru can atdığı vaxtda E.Şevardnadze mühafizəçilərinin əhatəsində parlament binasını tərk etdi. Nümayişçilərin za-

---

[95] Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, s. 356.

[96] Сорос капитулировал? 24.01.2018 // www.stoletie.ru/vzglyad/soros_kapituliroval-364.htm

[97] Gürcüstan iqtidarı müxalifəti dialoqa,müxalifət isə əhalini mitinqə çağırır. Azərtac-ın Tbilisi müxbiri ölkədə yaranmış vəziyyət barədə məlumat verir. 13.11.2003 // www.azertag.az/xeber/gurcustan_iqtidari_muxalifati_dialoqa muxalifat_isa_ahalini_mitinqa_chagirir__azartac_in_tbilisi_muxbiri_olkada_yaranmis_va ziyyat_barada_malumat_verir-299893.

la daxil olması zamanı əllərində barışı və sevgini ifadə edən qızılgüllər tutmaları sonralar inqilabın adını müəyyənləşdirdi.

Noyabrın 23-də Rusiya Federasiyasının Xarici işlər naziri İqor İvanovun vasitəçiliyi ilə müxalifət liderləri M.Saakaşvili və Zurab Jvaniya ilə E.Şevardnadzenin görüşü prezidentin istefası ilə nəticələndi. Bu artıq dünya tarixinin yeni dönəmi üçün xarakterik olan "yumuşaq güc"ün qələbəsi idi. Seçkilərin keçirilməsinə qədərki dövrdə konstitusiyaya əsasən parlamentin spikeri Nino Burcanadze prezident vəzifələrini icra etdi, 2004-cü il yanvarın 4-də keçirilən prezident seçkilərində M.Saakaşvilinin qələbəsi, həmin ilin mart ayının 28-də keçirilən parlament seçkilərində isə Milli Hərəkat-Demokratların deputat yerlərinin əksəriyyətini qazanması ilə Gürcüstanda "Qızılgül inqilabı"nın hakimiyyət dəyişikliyi mərhələsinin birinci dövrəsi başa çatdı.

Dəyişikliyin ikinci dövrəsi isə 2004-cü ilin mayında Acarıstanda gerçəkləşdi. Son proseslər zamanı E.Şevardnadzenin qatı tərəfdarı kimi çıxış edən A.Abaşidzeyə qarşı "Biləşmiş Milli Hərəkat" və "Kmara"-nın nümayişləri, A.Abaşidzenin E.Şevardnadzedən fərqli olaraq Batum və Kobuletidəki nümayişlərin iştirakçılarına qarşı güc tətbiqindən çəkinməməsi M.Saakaşviliyə onun uzaqlaşdırılması üçün imkanlar açdı. Mayın 6-dan etibarən etirazlar daha da gücləndi. Baş nazir Z.Jvaniya, daxili işlər naziri Georgi Baramidze ilə Acarıstan Muxtar Respublikasının daxili işlər naziri Camal Gogitidzenin arasında keçirilən görüşdə silahlı birliklərin geri çəkilməsi məsələsi əsas müzakirə mövzusu oldu. Acarıstan Muxtariyəti ilə sərhəddə yerləşən Çoloxi çayı sahilindəki A.Abaşidzeyə bağlı silahlı birliklərin çay üzərindəki körpünü partlatması nə nümayişçiləri qorxutdu, nə də mərkəzi hakimiyyətin geri addım atmasına səbəb oldu. Nəticədə A.Abaşidze Batumini tərk edərək Rusiyaya sığındı. Beləliklə, "Qızılgül inqilabı"nın hakimiyyət dəyişikliyi mərhələsinin ikinci dövrəsi da başa çatdı.

Gürcüstan tarixinin bundan sonrakı 5 illik dövrünü gerçək inqilabi dəyişikliklərə cəhd dövrü kimi xarakterizə etmək olar. Hər nə qədər xarici güclərin hesabına qalibiyyətini reallaşdırsa da, M.Saakaşvili ölkənin iqtisadi və infrastruktur inkişafı üçün ciddi adımlar ata bildi. Gürcüstan üçün "qızılgül inqilabı"nın ən böyük nəticələrindən biri kriminallaşma və korrupsiyalaşmaya qarşı aparılan mübarizə və bu sahədə ciddi nəticələrin əldə edilməsi oldu. Lakin M.Saakaşvili hakimiyyəti dövründə obyektiv və subyektiv səbəblərdən separatizmlə mübarizədə uğur qazana bilmədi. Doğrudur, bu dövrdə Acarıstan hökumətinin Gürcüstanın mərkəzi hakimiyyətinə xeyli dərəcədə yaxınlaşması müşahidə edildi. Abxaziya və Cə-



nubi Osetiyaya münasibətdə isə M.Saakaşvilinin atdığı adımlar Rusiya amili səbəbindən Gürcüstanın xeyrinə nəinki həllini tapa bilmədi, hətta M.Saakaşvili hakimiyyətinin özünü belə silkələdi. M.Saakaşvilini Rusiya ilə qarşıdurmaya sövq edən xarici qüvvələr Gürcüstana qarşı Rusiyanın açıq hərbi müdaxiləsi zamanı qətiyyət nümayiş etdirmədilər. Bir sıra pərdəarxası geostrateji məsələlərdə isə hətta Rusiya ilə razılaşmaq məcburiyyətində qaldılar. M.Saakaşvilidən sonrakı dövrdə Gürcüstanda hakimiyyətdə olan qüvvələr xeyli dərəcədə Rusiya ilə münasibətləri düzəltmək üçün cəhdlər etməkdədirlər. Gürcüstan avrointeqrasiya proseslərini davam etdirsə də, bu əvvəlki kimi qətiyyətli və sürətli proseslər deyildir.

## 2.3. Gürcüstanın ərazi bütövlüyü uğrunda vuruşan azərbaycanlılar

*"Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstan dövlətçiliyinə həmişə dəstək olmuşlar və Gürcüstanın yaxşı vətəndaşları olmuşlar. Belə də olmalıdır, çünki siz bu torpaqlarda əsrlər boyu yaşayırsınız. Bu gün xalqlarımızı birləşdirən həm tarixi əlaqələr, həm çoxəsrlik dostluq, qardaşlıq münasibətləri, eyni zamanda, bax bugünkü Gürcüstan-Azərbaycan əlaqələri əlbəttə ki, sizin də həyatınıza müsbət təsirini göstərir."*[98] Gürcüstanın müstəqillik dövrü daxili ictimai-siyasi şəraitinin təhlili Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin bu fikirlərini bir daha təsdiq edir. Məlum olduğu kimi 1990-cı illər Gürcüstanın ictimai-siyasi həyatında çətin dövrlərdən biri olmuşdur. Ağır iqtisadi, siyasi şərait, millətçilik siyasəti ölkə daxilində çaxnaşmaya və nəhayət, müharibəyə səbəb oldu. Bu ağır dövrdə Gürcüstanda yaşayan azərbaycanlılar vətəndaşı olduğu ölkənin ərazi bütövlüyünü müdafiə etmək üçün ayağa qalxmışdılar. Gürcüstanın ərazi bütövlüyünün qorunmasında 500-dən artıq azərbaycanlı iştirak etmişdir. Onlardan bir qismi bu yolda şəhid olmuş, bəziləri isə göstərdiyi rəşadətə görə təltif edilmişlər.

2017-ci ildə Gürcüstanda müəllifi David Maisuradzenin olduğu "Vətən oğulları" kitabı nəşr edildi. Kitab Abxaziya və Cənubi Osetiyada separatçılara qarşı vuruşan Gürcüstan azərbaycanlılarına həsr olunmuşdur. Müəllif yazır: "Böyük siyasətin hərəkətverici qüvvəsi vətənpərvərlikdir. Bu sənin vətəninə, vətəninin torpağına, insanlarına olan sevgidən yaranan

[98] Azərbaycan-Gürcüstan: dostluğun inkişaf yolu. Bakı: Qaya, 2017, s. 39-40.

bir hissdir." Gürcüstanda yaşayan azərbaycanlıların gürcülərin sub-etnik qruplarından biri olmadığına baxmayaraq, yaşadığı torpağın qayğısını çəkən müdafiəçilər adlandıran müəllif vurğulayır: "Bəli, onlar gürcülərin etnik qruplarından biri deyillər. Amma... dəyərli vətənpərvərlərdir, yaşadığı torpağı, suyu, vətəninin yoluxduğu xəstəliyi müalicə etməyə çalışan insanlardır." Yazıçı 90-cı illərdə Gürcüstanın düşdüyü ağır vəziyyətdən dərin kədərlə bəhs edərək hədsiz dərəcədə özbaşnalığın olmasını dəfələrlə vurğulayır və bildirir ki, məhz Gürcüstanı bu çətin dövrlərdə burada yaşayan azərbaycanlılar da qorudu. Müəllif maraqlı bir ifadə işlədir: "Tarix insanları, siyasi şəraiti qiymətləndirməyə imkan verən ən yaxşı vasitədir." Əsərində sanki bütün gürcüləri, həmin dövrdə yaşamasına baxmayaraq, vətəninin qayğısını çəkməyənləri aşağıdakı kimi məzəmmət edir: "Düşmənçilik hissi heç bir zaman sizin qəlbinizi tərk etmədi və siz qardaşlarınızı, dostlarınızı, qohumlarınızı qurban verdiniz! Lakin təəssüflər olsun ki, onlar hələ də bunun fərqinə varmırlar."

Abxaziya və Cənubi Osetiyada baş verən hadisələri bir sınaq kimi qiymətləndirən müəllif bir nəticə olaraq fikirlərini bu cür ifadə edir: "Bu müharibə göstərdi ki, həqiqətən də kimlər bu torpaqlarda gürcülərlə bərabər yaşamağa layiqdirlər." Azərbaycanlıların Gürcüstanın ərazi bütövlüyü uğrunda öz həyatlarını qurban vermələrinə baxmayaraq, onların haqqında Gürcüstan tarixində bir kəlmə də olsun yazılmadığını D.Maisuradze təəssüf hissi ilə vurğulayır. Azərbaycanlıların bəhs olunan dövrdə vətənləri uğrunda vuruşmalarını bu cür ifadə edir: "Gürcüstanı bir vətən kimi qorumağı öhdələrinə onlar da götürdülər... bəli... bəli... qeyri-kartvel və qeyri-provoslav olan Gürcüstan azərbaycanlıları."[99] Kitabda Gürcüstan uğrunda vuruşan döyüşçülər, gənclər hörmətlə yad olunur, Ənvər Hümbətov, Qəhrəman Musayev, Zaur Abdullayev, Mustafa Novruzov kimi müharibədə döyüşənlər haqqında qısaca məlumat verilir. Müəllif hətta bu qəhrəmanların şərəfinə Rustavidə, Borçalıda küçələrə onların adlarının verilməsini və abidələrin qoyulmasını təklif edir.

*Ənvər Hümbətov* - 1950-ci il yanvarın 1-də Marneuli rayonunun Məscidli Görarxı (Algeti) kəndində anadan olmuşdur. Ailəsi Rustavi şəhərinə köçən Ənvər Rustavinin 12 nömrəli orta məktəbində ilk təhsilini almış və oranı müvəffəqiyyətlə bitirmişdir. Məktəbi bitirdikdən sonra Ənvər Rustavi Metallurgiya Zavodunda fəhlə kimi çalışmışdır. Bununla

---

[99] მაისურაძე დ. მამულიშვილნი, გამომცემლობა "უნივერსალი", თბილისი, 2017, გვ., 14.



yanaşı o, həm də Gürcüstan Politexnik İnstitutunun Rustavi filialında Metallurgiya fakültəsində təhsilini davam etdirmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Ənvər Hümbətov təhsil aldığı institutuna, həm də çalışdığı zavoda leytenant rütbəsi ilə qayıdır. Çalışdığı zavodda tezliklə vəzifəsi yüksələn Ənvər Hümbətov zavodda kimyəvi məhsullar üzrə mühəndis kimi işində çalışır. Gəncliyində idmanla məşğul olan Ənvər Hümbətov tez-tez şəhərdə təşkil olunan velosiped yarışlarına qatılaraq mükafat da qazanmışdı. Onun gözəl ailəsi var idi. Xanımı Fatma Xasayeva Ofeliya və Emil adında dəyərli övladlar böyütmüşdü. 1992-ci il avqustun 14-də Abxaziyada İnquri çayı üzərində dəmiryolu körpüsü partladıldı. Bu hadisə Gürcüstanda yeni müharibənin başlaması idi. Hərbi təcrübəsi olan Ənvər Hümbətov könüllü olaraq Rustavi şəhərinin hərbi komissarlığına gəlir. Gürcüstanın Abxaziya Muxtar Respublikası uğrunda qəhrəmancasına vuruşan Ə.Hümbətov 1993-cü ilin iyun ayının 4-də snayper gülləsinə tuş gələrək şəhid olur. Müharibə zamanı o, Oçamçir və Tkvarçeli kimi qaynar nöqtələrdə döyüşmüşdür. Ə.Hümbətov Gürcüstan hökuməti tərəfindən ölümündən sonra dövlətin ən yüksək mükafatı olan "Vaxtanq Qorqasali" ordeni ilə təltif edilmişdir.

*Qəhrəman Musayev* - Abxaziya müharibəsi başlayan zaman müəllim İsfəndiyar Musayevin ailəsində böyüyüb boya-başa çatmış Qəhrəman Musayev də həmin bölgədə Gürcüstanın ərazi bütövlüyü uğrunda vuruşmuşdur. Q.Musayev Tbilisidə Mirzə Fətəli Axundov adına 73 nömrəli orta məktəbi bitirmişdir. Daha sonra təhsilini 65 nömrəli texniki peşə məktəbində davam etdirmişdir. 1972-1976-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsində ali təhsilini davam etdirən Q.Musayev 1984-1989-cu illərdə SSRİ Daxili İşlər Nazirliyinin Ali Tədris Mərkəzinin Tbilisi filialında hüquqşünas vəzifəsində çalışıb və daxili işlər orqanlarında mayor rütbəsinə qədər yüksəlmişdir. 1992-ci ilədək Tbilisi Şəhər Təhsil idarəsində, 1992-ci ildən 2005-ci ilədək Tbilisi Şəhər Polis İdarəsinin İsani-Samqor rayon idarəsində müfəttiş kimi çalışmışdır. 1991-1993-cü illərdə Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələri uğrunda gedən müharibələrdə vuruşmuşdur. Müharibədə göstərdiyi qəhrəmanlığına görə medalla təltif edilmişdir. Qəhrəman Musayev hazırda müharibə veteranıdır. O, müharibə dövrünü bu cür xatırlayır: "Oçamçire-Tkvarçelinin Labra kəndi ətrafında gedən ölüm-dirim savaşında bizim mövqelərimiz SU-24 təyyarələri ilə tez-tez bombardman edilirdi. Tez-tez minalara rast gəlirdik. Heç kəs sağ qalacağına ümid etmirdi. Bir daha qeyd etmək istəyirəm ki, bu müharibədə gürcülərlə bərabər Gürcüstan azərbaycanlıları da fədakarlıqla

vuruşurdular. Dözülməz şəraitə baxmayaraq, o çətin anlarda heç kəs cəbhədən qaçmadı."

**Zaur Abdullayev** - Zaur Abdullayev 1974-cü ildə fevralın 13-də Bolnisidə anadan olmuşdur. İlk təhsilini də məhz burada almışdır. 1991-ci ildə Gürcüstanda baş verən hadisələr səbəbindən, Z.Abdullayevin ailəsi Bakıya köçməli olur. Bakıda universitetə daxil olan Zaur burada ali təhsil almışdır. Bir il sonra yəni, 1992-ci ilin avqustunda Zaurun ailəsi yayda istirahət etmək üçün doğma Bolnisiyə qayıtmışdı. Bu zaman separatçılara qarşı müharibə başlayırdı. Gürcüstan vətəndaşları hərbi xidmətə çağırılmışdılar. Zaur Abdullayev öz dostları ilə bərabər könüllü olaraq hərbi xidmətə yazılır. O, 1992-ci ildə Qaqra ətrafında gedən döyüşlərdə şəhid olur.

**Mustafa Novruzov** - Abxaziya və Cənubi Osetiya uğrunda döyüşən Gürcüstan azərbaycanlılarından biridir O, 1971-ci ildə Tbilisi şəhərində anadan olmuşdur. Tbilisi şəhərinin 62 nömrəli məktəbini bitirmişdir. Sonradan təhsilini 13 nömrəli texniki peşə məktəbində davam etdirir. Gürcüstan Politexnik İnstitutuna qəbul olmağa hazırlaşan Mustafa Novruzov 1992-ci ildə məcburi hərbi xidmətə çağırılır. Müharibənin ağır çətinliklərinə baxmayaraq, Abxaziya və Cənubi Osetiya uğrunda gedən müharibədə gürcü silahdaşları ilə bərabər vuruşur. Hazırda Mustafa Novruzov müharibə veteranıdır.

Tarix bir sınaqdır. Çətin anlarda kiminin dost, kiminin düşmən olduğunu açıq-aydın ortaya qoyan bir səhnədir. Gürcüstanın ərazi bütövlüyü uğrunda vuruşan və hətta canlarından belə keçməyə hazır olan, gürcülərlə çiyin-çiyinə yaşadığı torpaqlara dayaq olan azərbaycanlılarla Gürcüstanda separatçılıq fəaliyyəti ilə məşğul olan və qanlar tökən ermənilərin "Baqramyan batalyonu"nu müqayisə etsək, yəqin ki, doğru nəticəyə gəlmək elə də çətin olmayacaqdır. Unudulan azərbaycanlı qəhrəmanları yada salmaq hər iki ölkəni-Azərbaycanla Gürcüstanın ictimai həyatına öz müsbət təsirini vermiş olacaqdır. Yaxşı haldır ki, uzun müddət keçməsinə baxmayaraq, tarixin bu qaranlıq qalmış səhifələrinə işıq salan gürcü tarixçiləri vardır.

## 2.4. Gürcüstanda keçirilən bələdiyyə seçkilərində ermənilərin separatçı fəaliyyəti

**Gürcüstan bələdiyyə sistemi tarixindən.** Yerli özünüidarəetmə orqanlarının yaradılması yenidənqurma dövründə gürcü dövlətçiliyinin əsas vəzifələrindən biri olmuşdur. Lakin Gürcüstanda bu ənənə olmadığından



parlament və hakimiyyət strukturu ilə müqayisədə bələdiyyə qurumunun reallaşdırılması yarımçıq hesab edilə bilər. Gürcüstanda yeganə özünüidarəetmə təsisatı Tbilisi şəhərində yaradılmışdı və 1080-1122-ci illərdə bu şəhərdə ağsaqqallar şurası (Tbileli berebi თბილელი ბერები) fəaliyyət göstərirdi. Gürcüstanın Rusiya imperiyasına birləşdirilməsindən sonra ölkəni əvvəl hərbi, sonra isə rus işğalçı orqanları idarə edirdi. XIX əsrin 70-ci illərində böyük şəhərlərdə vilayətlər üçün islahatlar keçirildi və nəticədə şəhər şuraları (satatbiro სათათბირო) yaradıldı. Yerli idarəçilikdə şəhər şuraları merləri seçir, kənd rəhbərlərini (mamasaxlisi მამასახლისი) kəndin məşvərətçi şurası təyin edirdi. O zaman seçkilər sərt şərtlər daxilində aparıldığı üçün bu prosesdə ümumi əhalinin 5%-i iştirak edə bilirdi. Bundan başqa, bu orqanlar mərkəzi hakimiyyəti təmsil edirdilər və müstəqil formada idarəetmədə iştirak edə bilmirdilər. 1917-ci il Rusiyadakı inqilabdan sonra yerli özünüidarəetmə sistemini demokratikləşdirmək üçün müəyyən cəhdlər edildi. Buna görə 1919-cu ildə yerli (eroba ერობა) orqanlara seçkilər keçirildi. Lakin bu cəhdlər 1921-ci ildə Gürcüstanın bolşevik Rusiyası tərəfindən işğalından sonra dayandırıldı. Sovet hakimiyyəti zamanı inzibati amirlik və hakim partiya sistemi, tamamilə mərkəzləşdirilmiş büdcə yerli orqanların fəaliyyətinə mane olurdu. 1990-cı ildən 1991-ci ilə qədər yerli orqanlar iki səviyyədə fəaliyyət göstərirdilər. Birinci səviyyə kənd, qəsəbə və kiçik şəhərlərdən təşkil olunmuşdu. Yerli şura (sakrebulo საკრებულო) üç il müddətinə seçilən təmsilçi orqan idi. Yerli orqanın sədri (qamqebeli გამგებელი) prefekt tərəfindən təyin olunurdu, yerli şura isə onu vəzifəsinə təsdiq edirdi. İkinci səviyyə isə xüsusi statusa malik rayon və şəhərlərdən təşkil olunurdu. Bu səviyyədə yerli şuralar üç il müddətinə seçilirdi. Ali Şuranın sədri - prefekt təyin edilir və o da mərkəzi hakimiyyətin nümayəndəsi kimi dörd il müddətində vəzifəsini icra edirdi. 1991-1992-ci illərdə hakimiyyət dəyişikliyi ilə əlaqədar olaraq prefekt institutu ləğv edilərək yerli idarəetmə səlahiyyətləri rayon sədrlərinə həvalə olundu.

Gürcüstanda ərazi vahidləri olan rayonlar 2006-cı ildə bələdiyyələrə ayrıldı. Hazırda Gürcüstanda 67 bələdiyyə fəaliyyət göstərir. Bələdiyyələr özündə şəhərləri, şəhər tipli qəsəbələri (daba დაბა), icmaları (sakrebulo საკრებულო), kənd şuralarını (soplis sakrebulo სოფლის საკრებულო), qəsəbə şuralarını (sadabo sakrebulo სადაბო საკრებულო) birləşdirir.

2014-cü ilin məlumatlarına görə, Gürcüstanda kənd şuralarının sayı 941-dir. Ümumilikdə bu gün Gürcüstanda 54 şəhər və 39 şəhər tipli qəsəbə vardır.[100]

**2017-ci il bələdiyyə seçkilərində ermənilərin iştirakı.** 2017-ci il oktyabrın 21-də Gürcüstanda yerli özünüidarəetmə orqanlarına (bələdiyyə) seçkilər keçirildi. Mübarizə meydanında hansı ictimai-siyasi qüvvələrin fəaliyyət göstərməsi daha çox maraq kəsb edir. Gürcüstanda yaşayan milli azlıqların iştirak dərəcəsinin müzakirəsi önəmli olan məsələlərdəndir. Qeyd edilən bələdiyyə seçkilərində iştirak edən hər iki milli azlığı müqayisə etdikdə məlum olur ki, azərbaycanlıların çoxluq təşkil etməsinə baxmayaraq, partiya siyahılarında onlar erməni namizədlərlə bərabər sayda olmuşlar: əgər yerli özünüidarəetmə orqanlarına azərbaycanlılardan 350-360 nəfər namizəd var idisə, erməni namizədlərin sayı 340-350 nəfər təşkil etmişdi. Ermənilərin sıx məskunlaşdığı Samtsxe-Cavaxetiya regionunda bələdiyyə seçkilərində 7 siyasi partiya iştirak etmişdir. Samtsxe-Cavaxetiyanın 6 şəhərində 35 namizəddən 14-ü erməni olub. Axalkələk (Axalkalaki) şəhərinin 6 namizədindən 2-si real mübarizədə iştirak etmişdir: Yurik Unanyan (Gürcü Arzusu Partiyası) və Samvel Petrosyan (Vətənpərvərlər Alyansı). Yurik Unanyan yerli prokurorluqda, Samvel Petrosyan isə polisdə çalışmışdır. Sonuncu həm də 2012-2016-cı illərdə Vahid Milli Hərəkat Partiyasından parlament deputatı vəzifəsinə seçilmişdir. Nəticələrə görə, Ninotsmindada Anivard Mosoyan, Axalkələkdə (Axalkalaki) Yurik Unanyan şəhər meri seçilmişlər.[101]

Seçkilərdən iki gün əvvəl Axalkələk (Axalkalaki) şəhərindən üç namizədin – Gürcü Arzusu Partiyasını təmsil edən Karapet Paloyan, Eduard Elyazyan, Edik Berikyanın namizədliyini irəli sürə bilməyəcəyi bildirilmişdi. [102]Buna səbəb Avropalı Gürcüstan Partiyasının lideri Giorgi Kandelakinin yuxarıda adı çəkilən namizədlərin Ermənistan vətəndaşları olduqlarını qeyd etməsi olmuşdu. O, Gürcü Arzusu Partiyasını təmsil edən Karapet Paloyan, Eduard Elyazyan, Edik Berikyanın şəxsiyyət vəsiqələrinin surətini təqdim etməklə onların Ermənistan vətəndaşı olduqlarını sübut etməyə çalışmışdır. Gürcüstanda Seçki haqqında qanuna əsasən, başqa

[100] სტატისტიკის ეროვნული სამსახური. მოსახლეობის 2014 წლის საყოველთაო აღწერის. 28.04.16 // www.census.ge/files/results/Census %20Release_GEO.pdf

[101] ადგილობრივი თვითმმართველობის ორგანოთა არჩევნების შედეგები 2017 . 17.10.17. // www.results20171021.cec.gov.ge/

[102] კანდელაკი: ოცნების კანდიდატები მარნეულში უცხო ქვეყნის მოქალაქეები არიან და კანონი ირღვევა // www.on.ge/story/15354



ölkənin vətəndaşı olan şəxslər seçkilərdə iştirak edə bilməzlər. Bu halla rastlaşan zaman qanuna müvafiq tədbirlər həyata keçirilərək həmin şəxs seçki prosesindən uzaqlaşdırılır. Adı çəkilən namizədlər bu bəyanatı təkzib edərək bildirmişdilər ki, partiyanın onların adına bu şəkildə fikir bildirməsinə səbəb onların namizədliklərini irəli sürdükləri təqdirdə 75%-dən artıq səs toplayacaqlarına əmin olmalarıdır. Gürcü Arzusu Partiyasının mətbuat katibi Manana Tokmacişvili namizədlərin MSK tərəfindən qanunauyğun şəkildə təyin olunduqlarını bildirərək məsələnin Ədliyyə Nazirliyi tərəfindən aydınlaşdırılacağını qeyd etmişdi. Hadisəyə Gürcüstan məsələləri üzrə ekspert Conni Melikyan da münasibətini bildirmişdi. Onun sözlərinə görə, bu cür addımı seçkiqabağı təxribat hesab etmək olar. Həmçinin o qeyd etmişdi ki, Avropalı Gürcüstan Partiyasının nümayəndələrinin əksəriyyəti sabiq Gürcüstan prezidenti Mixeil Saakaşvilinin tərəfdarları olmuşlar və hazırda yeni partiya ətrafında birləşmişlər. C.Melikyan həm də hazırda bu partiya sıralarında çoxlu erməni nümayəndələrinin olduğunu da diqqətə çatdırmışdı. Ümumiyyətlə, Gürcüstanda yaşayan ermənilərin çoxluq təşkil etdikləri partiyalar aşağıdakılardır:

– Avropalı Gürcüstan Partiyası (58 nəfər);
– Vətənpərvərlər Alyansı (43 nəfər);
– Demokratik Hərəkat - Azad Gürcüstan (38 nəfər);
– Gürcü Arzusu (36 nəfər).

Media İnkişaf Fondunun 2016-cı ildə hazırladığı nifrət nitqindən istifadə edən siyasi partiyalar və KİV-lər haqqındakı hesabatında apardığı araşdırma göstərir ki, nifrət nitqi türkofobiya, homofobiya, dini ayrı-seçkilik, ksenofobiya, rasizm kimi qollara ayrılır.[103] Maraqlıdır ki, ermənilərin çoxluq təşkil etdiyi Vətənpərvərlər Alyansı Partiyası adı çəkilən bu qollar üzrə aparılmış sistematik təhlil zamanı liderlik edən partiyadır. Həmin hesabata görə, məhz türkofobiya xarakterli çıxışlarda "Türkiyənin Gürcüstanı öz təsiri altına alması", "Türkiyənin işğalçı ölkə və tarixi düşmən olması" kimi mesajlar üstünlük təşkil edir. Bələdiyyə seçkiləri zamanı bu partiyanı təmsil edən nümayəndələrin səsləndirdikləri fikirlərdə də belə məqamlar xüsusi diqqət çəkir.

Bələdiyyə seçkiləri zamanı ermənilərin seçki şüarları, hakimiyyətdən razı qalıb-qalmadıqları məsələlərə gəlincə, qeyd etmək lazımdır ki, onlar Tbilisi şəhərinə namizədliyini irəli sürə bilməmələri ilə bağlı narazı-

[103] მედიის განვითარების ფონდი. სიძულვილის ენა, 2016 წლის ანგარიში // www.mdfgeorgia.ge/uploads/library/55/file/Hate_Speech_GEO_(1).pdf

lıqlarını bildiriblər. Onların fikrincə, hakim partiya milli azlıqlara qarşı düşünülmüş siyasət yeridir. Seçki kampaniyaları zamanı bələdiyyə namizədlərinin seçicilərlə görüşünü izlərkən əhali ilə namizədlərin istəkləri arasında bir uyğunsuzluq müşahidə edilir. Burada əhalini maraqlandıran məsələ təkcə həyat şəraitinin müsbət istiqamətdə dəyişilməsidirsə, namizədləri isə əksinə siyasi məsələlər düşündürür. Məsələn, Vətənpərvərlər Alyansının Axalkələk (Axalkalaki) şəhəri üzrə namizədi Samvel Petrosyanın seçicilərlə görüşü zamanı *"Biz erməni xalqına qarşı törədilmiş genosidin tanınması istiqamətində məqsədimizə nail olmalıyıq. Biz mühacirlərlə bərabər vəziyyətdəyik. Mən gürcü-erməni münasibətlərinin möhkəmləndirilməsi üçün hər şeyi edəcəyəm, biz bir yerdə daha güclü olacağıq. Hər iki xalq mənim üçün doğmadır"* - deməsi bunun əyani sübutudur.[104]

Bütün bu məsələləri təhlil edərkən belə bir qənaətə gəlmək olur ki, ermənilər istər parlament, istərsə də bələdiyyə seçkilərində həm namizəd çoxluğu baxımdan, həm də özlərinəməxsus "ideologiya"larının təbliğ olunma dərəcəsinə görə üstünlük təşkil edirlər. Doğrudur, bu "üstünlük" bir ölkənin daxildən tədricən parçalanmasına səbəb olursa, digər tərəfdən onun qonşuları ilə olan münasibətlərinə, bir sözlə xarici siyasətinə də əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. O zaman belə bir sual meydana çıxır: niyə say baxımından çoxluq təşkil edən azərbaycanlıların Gürcüstanda hər bir sahədə təmsil olunma dərəcəsi nəzərəçarpacaq dərəcədə zəifdir? Bu suala cavab olaraq birlik və dil amilini göstərə bilərik. Hər bir insan yaşadığı ölkənin dövlət dilini öyrənməklə cəmiyyətdə sözünü deməyə, problemlərini ortaya qoymağa, haqsızlıqlara cavab verməyə, bir sözlə yaşadığı cəmiyyətə inteqrasiya olunmaq imkanı əldə edə bilər.

***Cədvəl 23. Bələdiyyə seçkilərində erməni namizədlərin topladığı səslər***

| **Bələdiyyələr** | **Namizədlər** | **Təmsil edilən partiyalar** | **Toplanılan səslər** |
|---|---|---|---|
| **Dedoplisçkxaro** | Dausik Hovsepiyan | Vahid Yeni Gürcüstan | 0,37% |
| **Laqodexi** | Arfenik Kurkçiyan | Vahid Yeni Gürcüstan | 0,84% |

[104] ვის ირჩევენ სამცხე-ჯავახეთში? 20.10.17. // www.jam-news.net/?p=65155&lang=ka



| | | | |
|---|---|---|---|
| **Kxvareli** | Tamara Hovsepiyan | Vahid Yeni Gürcüstan | 0,4% |
| **Borjomi** | Artak Ovsepiyan | Vahid Yeni Gürcüstan | 0,2% |
| **Axalkələk (Axalkalaki)** | Harutyun Aleksaniyan | Avropalı Gürcüstan | 2,66% |
| | Melik Raisiyan | Demokratik hərakat | 5,29% |
| | Samvel Petrosyan | Vətənpərvərlər Alyansı | 32,32% |
| | Ruben Mkrtçyan | Vahid Yeni Gürcüstan | 0,2% |
| | Yurik Unanyan | Gürcü arzusu | 58,62% |
| **Ninotsminda** | Araik Bdoyan | Avropalı Gürcüstan | 5,78% |
| | Mamikon Saakyan | Demokratik hərakat | 3,1% |
| | Qriqor Mxitaryan | Vətənpərvərlər Alyansı | 15,77% |
| | Anivard Mosoyan | Gürcü arzusu | 75,35% |

***Mənbə:*** *საქართველოს საარჩევნო ადმინისტრაცია www.results20171021.cec.gov.ge/*

***Cədvəl 24. Partiya siyahılarında ermənilərin sayı***




***Mənbə:*** *www.cesko.ge/*

## III FƏSİL

# ERMƏNİ SEPARATİZMİ GÜRCÜSTANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ TƏHDİD KİMİ

## 3.1. Müasir dövrdə Gürcüstana qarşı erməni iddiaları və "Samtsxe-Cavaxetiya məsələsi"

Qafqaz təkcə özünün relyefinin və iqliminin rəngarəngliyi ilə deyil, həm də etnik və dil tərkibinin mürəkkəbliyi ilə seçilir. Bu regionda 50-dən artıq xalq və etnik qrup məskunlaşmışdır. Qafqazda həm Hind-Avropa dilli, həm Qafqazdilli, həm də Altay dil ailəsinə daxil olan xalqlar yaşayır. Qafqaz əhalisi dini müxtəlifliyi ilə də fərqlənir. Burada xristian pravoslavlar, xristian monofizit qriqoryanlar, müsəlmanlar, iudaistlər yığcam halda yaşayırlar. Elə yuxarıda göstərilən iki amil Qafqaza marağı olan dövlətlərin köməyinə həmişə çatmışdır. Təsadüfi deyildir ki, hələ XIX əsrin sonlarında Qafqazda yaşamış tanınmış rus jurnalisti və tarixçisi Vasili Lvoviç Veliçko "Qafqaz. Rus işi və tayfalararası məsələlər" əsərində yazırdı: "*Qafqaz müstəqil nəticələr çıxarmaq üçün müşahidəçiyə və tədqiqatçıya geniş meydan verən hər cür təbii laboratoriyalara malik böyük bir akademiyadır. Qafqazda həyat hadisələri və insan xarakterləri olduqca qabarıq və eyni zamanda mürəkkəbdir.*"[105]

Məlum olduğu kimi böyük dövlətlərin Qafqaz siyasətində ermənilər məhz öz mənfur məqsədlərinin həyata keçirilməsi naminə məmnuniyyətlə hər zaman "alət" rolunu oynamışlar. Araşdırmalar sübut edir ki, dünya ağalığına iddia edən güclərin vasitə, erməni qatı millətçi liderlərinin isə son məqsəd olaraq gördükləri "dənizdən-dənizə Böyük Ermənistan"ı yaratmaq xülyası təkcə Azərbaycan və Türkiyə ərazisində deyil, regionda yerləşən digər dövlətlərin ərazilərində də "məzlum erməni xalqına milli zəmində təzyiqlər" adı altında münaqişə ocaqları yaratmağı və perspektiv planda bu əraziləri "erməni enozisi" vasitəsi ilə birləşdirməyi nəzərdə tutur. Uydurma "dənizdən-dənizə Böyük Ermənistan" yaradılması üçün er-

[105] Veliçko V.L. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı: Azərbaycan nəşriyyatı, 1995, s. 6.



məni ideoloqları Şimali Qafqazın Rostov-Don xəttinə və Voronejə qədərki ərazilərinin, Gürcüstanın Axalkələk (Axalkalaki), Acarıstan, Aşağı Kartli (Kvemo-Kartli) rayonlarının, Qarabağ və Naxçıvan da daxil olmaqla bütün Azərbaycan Respublikası ərazisinin, Türkiyənin Şərqi Anadolu vilayətlərinin və İran İslam Respublikasının tərkibindəki Qərbi Azərbaycan və Şərqi Azərbaycan ostanlıqlarının Urmiya gölünə qədərki ərazilərinin ələ keçirilməsini "milli vəzifə" elan etmişlər.[106]

Bu gün Cənubi Qafqazda Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyadan (Tsxinvali regionudan) sonra ən real milli problemin yaşana biləcəyi və yaşandığı bölgə Gürcüstanın Samtsxe-Cavaxetiya regionudur. Maraqlıdır ki, bu dörd münaqişə ocağından Cənubi Osetiya (Tsxinvali regionu) istisna olmaqla digər üçünün yaranmasında erməni milliyətçiliyi birbaşa və ya dolayı yolla iştirak etmiş və etməkdədir.

Samtsxe-Cavaxetiya Gürcüstanın cənubunda yerləşir. Bölgə cənubdan Türkiyə və Ermənistanla, qərbdən Acarıstan Muxtar Respublikası, şimal-qərbdən Quriya, şimaldan İmeretiya, şimal-şərqdən Şida-Kartli, şərqdən isə Kvemo-Kartli bölgəsi ilə həmsərhəddir. Regionun ərazisi 6412,9 kvadrat kilometrdir. Tarixən iki hissədən ibarət olan Samtsxe-Cavaxetiya regionunun qərb hissəsini gürcülər Mesxetiya, türklər isə Ahıska adlandırmışlar. Bölgənin qərb hissəsini isə gürcülər Cavaxeti, ermənilər isə Cavaxk adlandırırlar. Gürcüstanın müasir inzibati ərazi bölgüsünə görə, Samtsxe-Cavaxetiya bölgəsinin tərkibində altı inzibati rayon yerləşir: Adiqen, Aspindza, Borjomi, Axaltsixe, Axalkələk (Axalkalaki) və Ninotsminda (keçmiş Boqdanovka rayonu). Samtsxe-Cavaxetiyanın Borjomi rayonu istisna olmaqla qalan beş rayonunun hamısı Türkiyə ilə həmsərhəddir. Bölgənin sadəcə olaraq Ninotsminda rayonu Ermənistanla sərhəddə malikdir. Bölgə xristianlığa qədərki dönəmdə birmənalı olaraq İveriyanın tərkib hissəsi olmuşdur. IX-X əsrlərdə bölgə Tao-Klarceti çarlığının, 1008-ci ildən etibarən isə Baqrationilərin başçılığı ilə birləşdirilən vahid Gürcüstanın tərkib hissəsi olmuşdur. XV əsrin sonlarında vahid Gürcüstanın parçalanması və tənəzzülü ilə bölgədə Samsxe-Saatabaqo adlı feodal hakimliyi yaranmışdır. XVI əsrin sonu-XVII əsrin əvvəllərində Osmanlı imperiyasının şərq ekspansiyasının güclənməsi ilə bölgə Osmanlı dövlətinin hakimiyyəti altına keçmişdir. Erməni "tədqiqatçısı" İqor Muradyan iddia edir ki, guya osmanlılar şimaldan gələ biləcək təhlükənin qarşısını almaq və

[106] Мобильоглу Т. Армения. Армяне. Армянство. Книга I, Баку: Адильоглы, 2004, с.23-24.

sərhədlərdə etibarlı mühafizəni təmin etmək üçün buraya daxili vilayətlərindən əhali köçürübmüşlər. O, "Samtsxe-Cavaxetiyada siyasi şərait" adlı məqaləsində yazır ki, buraya osmanlılar tərəfindən təkcə türklər deyil, həmçinin kürdlər və digər müsəlman xalqlarının da nümayəndələri köçürülmüşdür.[107] Lakin nəzərə alsaq ki, bölgənin hələ XI əsrdə Səlcuqların, XIII əsrdə isə monqolların və qıpçaqların axınlarına məruz qalmasını ən radikal erməni müəlliflərinin özləri belə etiraf edirlər[108], o zaman buraya türklərin XVI əsrdə köçürülməsi kökündən yanlış fikirdir və hər zaman olduğu kimi ermənilərin "avtoxton", türklərin isə "gəlmə" olmasını sübut etməyə hesablanmışdır.

1828-1829-cu illərdə baş vermiş Osmanlı-Rusiya müharibəsinin nəticələrinə görə, Samtsxe-Cavaxetiya regionu Rusiya İmperiyasının nəzarətinə keçmişdir. 1828-ci il Ədirnə sülh müqaviləsinə əsasən burada yaşayan müsəlman gürcülər – lazlar Türkiyənin daxili rayonlarına köçürülmüş, əvəzində isə Ərzurum vilayətində yaşayan ermənilərin bir hissəsi İrəvan və Qarabağla yanaşı həmçinin Axalkələkdə (Axalkalaki) də məskunlaşdırılmışdır. Yəni, ermənilər Dağlıq Qarabağ kimi Cavaxetiyaya da İrandan və Osmanlı Türkiyəsindən (1828-1829-cu illərin Rusiya-Qacarlar və Rusiya-Osmanlı müharibəsindən sonra) köçürülmüşlər. Təkcə müharibə zamanı buraya köçürülən ermənilərin sayı 35 min nəfər olmuşdur.[109] Hazırda Cavaxetiyada yaşayan ermənilərin 90 faizi o vaxt köçürülənlərin nəsilləridir. Hətta regionda mövcud olan erməni kilsələrinin özləri belə əsasən 1830-cu ildən sonrakı dövrdə inşa edilmişdir.[110]

1918-1919-cu illərdə Qafqazda Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Qarabağ və Naxçıvanla yanaşı, Cavaxetiya regionuna da iddialar irəli sürmüş və Gürcüstanla Ermənistan arasında müharibə baş vermişdir.

Bölgənin mühüm və strateji nöqtədə yerləşdiyini nəzərə alan SSRİ rəhbəri İosif Stalin öz hakimiyyəti dövründə bölgənin qadağan olunmuş sərhəd zonası elan edilməsi barədə göstəriş vermişdir. Müstəqillik dövründə Ermənistan birbaşa və dolayı vasitələrlə bölgəyə iddialarını ortaya qoymuşdur.

---

107 Мурадян И. Политическая ситуация в Самцхе-Джавахетии // www.geopolitica.ru/Articles/769.

108 Karapetian S. Javakhk. Yerevan: Research on Armenian Architecture (RAA) Foundation, 2011, p. 13.

109 Ломсадзе Ш. Самцхе-Джавахети. Тбилиси: Favorite Print, 2013, с. 325.

110 Метревели Е. Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с. 11.



2016-cı ilin statistikasına əsasən, region əhalisinin sayı 160 min 600 nəfər olmuşdur.[111] 2002-ci ilin statistikasına görə, əhalinin 113 min 347 nəfərini yəni, 54,6 faizini ermənilər təşkil edirdi. Bölgədə yaşayan gürcülərin sayı 2002-ci ildə 89 min 995 nəfər olmuşdu ki, bu da əhalinin 43,4 faizi demək idi. Bölgə əhalisinin qalan hissəsini türklər, ruslar, osetinlər və yunanlar təşkil edir.[112] 1944-cü ilə qədər bölgədə türklər əhalinin böyük bir hissəsini təşkil edirdilər.[113] Lakin Mesxetiyada (Ahıskada) yaşayan türklər XX əsrin 40-cı illərində Gürcüstandan Orta Asiya ölkələrinə deportasiya olunmuşlar. Onların nəsilləri keçmiş SSRİ-nin digər respublikalarında, həmçinin Azərbaycanda, Türkiyədə və Amerika Birləşmiş Ştatlarında yaşayırlar.

Cavaxetiya iqtisadiyyatının əsasında kənd təsərrüfatı və turizm dayanır. Axalkələkdə (Axalkalaki) yaşayan etnik ermənilərin əksəriyyəti son illərə qədər ya regiondakı rus hərbi bazalarında çalışır, ya da kartof bitkisi becərməklə məşğul olurdular.[114] Qeyd etmək lazımdır ki, regiondakı rus hərbi bazaları Gürcüstanın müstəqillik əldə etməsindən yalnız 16 il sonra 2007-ci ildə bu ölkənin ərazisini tərk etmişdir.[115]

Bölgədə potensial münaqişə tərəfləri etnik ermənilər və gürcülərdir. Konkret olaraq regionda sabitliyi pozmaq istəyən qüvvə Rusiyanın və Ermənistanın dəstəklədiyi ermənilərdir.

Yuxarıda da qeyd edildiyi kimi, ermənilərin bu bölgəyə olan iddiaları hələ 1918-ci ildən başlamışdır. Ermənistan Cavaxetiyanı özününkü hesab edir. Hətta 1918-ci ildə rəsmi Tbilisi ilə Yerevan arasında gərgin diplomatik danışıqlar aparılmışdır ki, sərhəd mübahisəsinə son qoyulsun. Bununla yanaşı, hələ o zaman həmin ərazilərdə erməni separatçıları və quldurları xüsusi qətllər törədir, bölgəni daim gərgin vəziyyətdə saxlayırdılar. SSRİ yaradıldıqdan sonra İttifaqın digər münaqişəli ərazilərində ol-

---

111 დემოგრაფიული ვითარება საქართველოში სტატისტიკური კრებული. თბილისი: საქართველოს სტატისტიკის ეროვნული სამსახური, 2017, გვ. 19

112 Georgia Census 2002. Ethnic group by major administrative-territorial units // www.geostat.ge/cms/site_images/_files/english/census/2002/03%20Ethnic%20Composition.pdf, p. 3, c. 3.

113 Минасян С. Ситуация в Джавахке в контексте проблемы вывода Российских военных баз из Грузии // «21-й ВЕК», № 1, 2005 г., с. 29.

114 Нерсесян М. Джавахетия: конфликт неизбежен?! 27.12.2003 // www.abxaziya.org, Декабрь 2003 года.

115 Метревели Е. Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с. 5.

duğu kimi burda da "Cavaxetiya ədavəti" dondurulmuşdur. SSRİ-nin dağılmasından sonra ermənilər yenidən Cavaxetiyada təxribatçı əməllərə və separatçı çıxışlara başlamışlar. Gürcüstanın Cavaxetiya əyalətində yaşayan ermənilər artıq 27 ildən çoxdur ki, Tiflisin himayəsindən çıxmağa çalışır, Ermənistanla bir olmağa hazırlıq prosedurunu həyata keçirmək üçün muxtariyyət tələbləri ilə çıxış edirlər. Gürcüstan müstəqillik qazandıqdan sonrakı dövrdə Cavaxetiyaya muxtariyyət verilməsi tələblərinin önündə ermənilərin "Cavaxk" (sonralar "Vahid Cavaxk" adlandırılmışdır) ictimai təşkilatı dayanırdı.[116]

Ermənilərin muxtariyyət və ya Ermənistana birləşmə iddiaları Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadzenin dövründə nisbətən passiv xarakter daşıyırdı. Çünki, Eduard Şevardnadze tarazlaşdırılmış siyasət yürütməyə çalışır və Rusiya ilə açıq qarşıdurmalardan çəkinirdi. Qərbmeyilli M.Saakaşvili rejimi Rusiyanı gözardı edincə, ruslar Cənubi Osetiya və Abxaziya ilə yanaşı Cavaxetiyada da separatçılara dəstək verməyə başladılar. Samtsxe-Cavaxetiya adlı "potensial bomba" o zaman Rusiya üçün vacib silaha çevrildi ki, Gürcüstanda "Qızılgül inqilabı" baş verdi və Amerikameyilli M.Saakaşvili rejimi hakimiyyətə gəldi. Amerikanın məşhur analitiklərindən biri olan A.Koen fikirlərindən birində Gürcüstanın əhəmiyyətini aşağıdakı kimi şərh edir: "Qara dənizin Türkiyə ilə sərhədlənən strateji hövzəsinə nəzarət edərək, Ermənistanın dənizə çıxışını Qərbdən kəsərək, Gürcüstan elə bil Qafqaza giriş qapılarının açarlarını öz əlində saxlayır."[117] Rusiya-Gürcüstan münasibətlərinin pisləşməsindən isə Cavaxetiyadakı etnik ermənilər Yeravanda "cızılan plan" əsasında fəal şəkildə istifadə etməyə başladılar. Məhz "Cavaxetiya məsələsi"nin ideoloqlarından biri olan İqor Muradyanın "Samtsxe-Cavaxetiyada siyasi şərait" adlı məqaləsində də bu açıq-aşkar hiss olunur. O, Saakaşvilinin Gürcüstanda hakimiyyətə gəlməsini gənc türklər inqlabına bənzədərək yazır: *"M.Saakaşvili və onun komandası praktiki cəhətdən Sultanın devrilməsində məzlum azlıqları istifadə edən və daha sonra xristian azlıqların soyqırımını təşkil edən gənc türklərin üsullarını tətbiq etdi."*[118]

[116] Nərimanoğlu H. Türk ya erməni soyqırımı? Bakı: QHT nəşriyyatı, 2005, s. 64.
[117] Чигорин А. Российского-Грузинские отношения. Что дальше // Москва, Красная звезда, 5. 2003, с. 44.
[118] Мурадян И. Политическая ситуация в Самцхе-Джавахетии // www.geopolitica.ru/Articles/769.



Burada iki hədəf vardır, birincisi, ilk növbədə gənc türklər dövrünü xatırlatmaqla guya baş vermiş "soyqırımı" dünyanın təhtəlşüuruna yeritmək, ikincisi isə digər tərəfdən rejimin guya qanlı mahiyyətini göstərmək. Halbuki, bu fikrin tam əksinə olaraq M.Saakaşvilinin hakimiyyətə gəlməsindən sonra Gürcüstanın Avropaya inteqrasiya yolunu tutması ilə milli azlıqlara münasibətdə daha demokratik yanaşma bərqərar olmağa başlandı. Gürcüstan 2006-cı ildə "Milli azlıqların müdafiəsi haqqında çərçivə konvensiyası"nı ratifikasiya etmiş, və çərçivə konvensiyanın tətbiqi ilə bağlı 2007 və 2012-ci illərdə hesabat təqdim etmişdi. 2009-cu ildə Gürcüstan hökumətinin qəbul etdiyi "Tolerantlıq və vətəndaş inteqrasiyası üzrə milli konsepsiya" da bu istiqamətdə atılan addımlardan biri oldu.[119]

Bölgədəki erməni təşkilatlarının Gürcüstana qarşı düşmən mövqeyi xüsusilə 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında baş verən münaqişə zamanı açıq-aşkar ortaya çıxdı. O dövrdə baş verən hadisələrdə digər bir erməni təşkilatı olan "Vahid Cavaxk"la yanaşı "Cavaxetiya gənclik-idman ittifaqı" da radikal mövqe nümayiş etdirmiş və hətta bu təşkilatın üzvləri qeyri-qanuni silahlanmaya cəhdlər göstərmişdilər. Təşkilatın üzvlərindən biri olan Vaahn Çaxalyan bu hadisələrlə əlaqədar həbs edilmişdi.[120]

M.Saakaşvilinin hakimiyyətdən getməsindən sonrakı dövrdə də Rusiya-Gürcüstan münasibətlərindən asılı olaraq bölgədəki ermənilərin "fəallığı" artıb azalmağa başlamışdır.

Hətta 2017-ci ilin oktyabrında bölgədəki erməni separatçıları bir az da irəli gedərək təxribat xarakterli toqquşmalar yaratmağa cəhd göstərmişdilər. Belə ki, rəsmi İrəvanın Gürcüstana Rusiya meyilli Sergey Minosyanı səfir təyin etməsi rəsmi Gürcüstan tərəfindən narazılıqla qarşılandı. Bundan sonra diqqəti başqa yönə çəkməyə çalışan ermənilər Cavaxetiyanın Kumurdo kəndində X əsrdən qalma gürcü kilsəsinin həyətində erməni xaçı qoymağa çalışdılar. Gürcüstan polisi isə buna müdaxilə edərək bu cəhdin qarşısını aldı, nəticədə toqquşma yarandı.[121] 2018-ci ilin əvvəllərindən etibarən ermənilər daha fəal işə keçdilər, Cavaxetiya bölgəsində

[119] Метревели Е. Ключевые тенденции в системе управления в Джавахети // Джавахети вызовы и перспективы. Тбилиси: GFSIS, 2013, с. 5
[120] Yenə orada, s. 13.
[121] Məmmədov M. Ermənistan-Gürcüstan sərhədində ilk toqquşma 03.10.2017 // www.istipress.com/siyaset/03-10-2017/ermenistan-gurcustan-serhedinde-ilk-toqqusma

ASALA terror təşkilatının modernizə edilmiş versiyası sayıla bilinən "Virk-Yerkir" terrorçu təşkilatını yaratdılar.[122]

Gürcüstandakı demokratikləşmə proseslərindən və bu ölkənin milli azlıqlara münasibətdə aktiv multikultural yanaşmasından yenə də mənfur məqsədləri üçün istifadə etməyə çalışan ermənilər, çoxmillətli vahid Gürcüstan ailəsinə deyil, Ermənistana "inteqrasiya" etməkdə israrlıdırlar.

Bu gün Cavaxetiyada separatçı ermənilər tərəfindən irəli sürülən tələblərlə XX əsrin 80-ci illərində Azərbaycanın Dağlıq Qarabağ regionu ilə bağlı irəli sürülən tələblər demək olar ki, eynidir. İ.Muradyan yazır ki, indiki dövrdə Cavaxetiyada mövcud olan əsas sosial-siyasi problemlər bunlardan ibarətdir:

– özünüidarəetmə məsələsi;
– təhsil və dil problemi;
– iqtisadi gerilik məsələsi.

Təbii ki, Cavaxetiyadakı məsələlər təkcə yerli erməni əhalisinin öz gücünə əsaslanmır. Yuxarıda da qeyd edildiyi kimi, bu, xeyli dərəcədə Gürcüstana düşmən olan xarici erməni qüvvələrinin istəklərinin nəticəsidir. Rəsmi Ermənistan isə Qarabağ məsələsində olduğu kimi Cavaxetiya məsələsində də ilk dövrlərdə hiyləgər bir mövqe tutmuş və beləliklə də əsassız iddialarını dünyaya yerli ermənilərin öz müqəddəratını təyinetmə məsələsi kimi təqdim etməyə çalışmış və çalışmaqdadır. Digər tərəfdən isə Cavaxetiyadan Ermənistana gələn erməniləri öz ərazisində təşkilatlandırmışdır və bu proses bu gün də davam etməkdədir. Məsələn, Ermənistanda fəaliyyət göstərən "Zor Ayrenik" ("Güclü ana vətən") təşkilatı bu funksiyanı həyata keçirir. Bəzi hallarda bu cür təşkilatlar mövcud Ermənistan hakimiyyətinə müxalif mövqe tutsalar da, Ermənistan kimi anti-demokratik ölkələrdə təbii ki, bu cür "cib müxalifəti"nin saxlanılması adi norma hesab olunur. Digər tərəfdən Ermənistan dövləti müxtəlif təşkilatlar, o cümlədən əslində Ermənistan dövlətinin və hökumətinin maliyyələşdirdiyi "qeyri-hökumət təşkilatları"nın xətti ilə Samtsxe-Cavaxetiyanın tarixinin ermənisayağı "tədqiqi"ni də dəstəkləyir. Xüsusən, bu istiqamətdə Samvel Karapetyan kimi "tədqiqatçı"ların "araşdırmaları" xüsusi yer tutur. Onun 2006-ci ildə nəşr etdirdiyi "Javakh" adlı kitabı (kitab 2011-ci ildə ingilis dilində təkrar nəşr edilmişdir.) erməni "tədqiqatçı"larının ənənəvi xarakterini əks etdirir və Samtsxe-Cavaxetiya regionunun tarixini başdan-başa saxtalaşdırır.[123]

[122] Ermənilər Gürcüstanda yeni ASALA yaratdı: Terror təhlükəsi 10.02.2018 // www.axar.az/news/gundem/241271.html



Maraqlıdır ki, rus qoşunlarının Gürcüstan ərazisini tərk etməsi prosesi başladığı 2007-ci ildə qəbul edilən "Ermənistan Respublikasının milli təhlükəsizlik strategiyası" adlı sənədin 2.1. bölümünün Gürcüstanla münasibətlərə həsr olunmuş hissəsində Cavaxetiya məsələsinin "həlli" açıq-aşkar irəli sürülmüşdür. Belə ki, sənəddə yazılır: *"Gürcüstan Respublikası ərazisində çoxsaylı ermənilərin yaşaması Ermənistan üçün xüsusi əhəmiyyət daşıyır. Ermənistan bu ölkədə, o cümlədən Cavaxkda (Cavaxetidə) yaşayan ermənilərin sosial-iqtisadi problemlərinin həlli üçün Gürcüstan hakimiyyəti ilə əməkdaşlıq edir."*[124]

Ermənistan Respublikasının Prezidenti yanında Milli Təhlükəsizlik Şurasının 26 yanvar 2007-ci il tarixli qərarı ilə təsdiqlənmiş bu rəsmi sənəddə xarici ölkəyə aid olan ərazilər sırasında sadəcə olaraq Dağlıq Qarabağ və Cavaxetiyanın adı çəkilir. Gürcüstan Respublikası ilə əməkdaşlıq etmək niyyətlərini göstərən erməni "strateqləri" strategiyada regionun rəsmi adını da yazmağa lüzum görməmiş "Cavaxk"ı əsas, Samtsxe-Cavaxetiyanın "Cavaxeti" hissəsini isə mötərizə əlavəsi olaraq göstərməyi yetərli saymışlar.

Ümumilikdə, Qafqazda potensial münaqişə ocağı olan Samtsxe-Cavaxetiya problemi təkcə Gürcüstan üçün deyil, ümumilikdə Qafqazda sülhün və sabitliyin davamlılığı, eləcə də Avropanın enerji təhlükəsizliyi üçün ciddi təhdidlər doğurur ki, bu, təhdidlərdən əsas üçünü aşağıdakı kimi fərqləndirmək mümkündür:

1) Şimaldan xarici dəstək hesabına demək olar ki, Gürcüstandan qopmuş Cənubi Osetiya ilə cənubdan potensial separatizm ocağı olan Samtsxe-Cavaxetiyanın Gürcüstandan qopmasından sonra Gürcüstan ərazisi faktiki olaraq iki hissəyə bölünmüş olur.

2) Münaqişənin silahlı həddə keçəcəyi təqdirdə Avropanın enerji təhlükəsizliyində fövqəladə dərəcədə əhəmiyyətli rol oynayan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xətti, Bakı-Tbilisi-Ərzurum qaz boru xətləri münaqişə zonasında qalmış olur ki, bu yenidən Qərb ölkələrini əvvəlki asılılıq vəziyyətinə qaytara bilər. Doğrudur, faktiki olaraq bu enerji xətləri

[123] Karapetian S. Javakhk. Yerevan: Research on Armenian Architecture (RAA) Foundation, 2011, 76 p.

[124] Стратегия национальной безопасности Республики Армени 29.04.2018 // www.mfa.am/u_files/file/doctrine/Doctrinerus.pdf, c. 18.

Samtsxe-Cavaxetiya regionunun Cavaxetiya hissəsindən deyil, Mesxetiya hissəsindən keçir lakin, Ermənistanın Qarabağdakı işğal siyasətinə baxsaq görərik ki, onlar da ilk dövlərdə sadəcə olaraq regionun dağlıq hissəsinə iddialar irəli sürmüş, faktiki olaraq isə Dağlıq Qarabağdan əlavə ətraf 7 rayonu da işğal etmişlər.

3) Samtsxe-Cavaxetiya regionunda münaqişə Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin də fəaliyyətini təhlükə altında qoya bilər ki, bu isə Orta Asiyadan və İrandan gələn tranzit daşımalarının xərclərini daha da artırmış olar.

Bu isə o deməkdir ki, ermənilərin iddiaları təkcə Azərbaycana və Türkiyəyə qarşı deyil, həmçinin Gürcüstana, bir çox hallarda hətta Ermənistana bu və ya digər formada dəstək verən ölkələrin özlərinə qarşı yönəlmişdir. Bu isə o deməkdir ki, Ermənistanda son dövrlərə qədər hakimiyyətdə olmuş hərbi xuntanın və eləcə də erməni şovinizminin mənfur məqsədləri təkcə Cənubi Qafqaz üçün deyil, Qafqaz, Mərkəzi Asiya və Ön Asiya regionlarında sülhə, eləcə də Avro-Atlantik məkanın enerji təhlükəsizliyinə ciddi təhdiddir.

## 3.2. Gürcüstanda fəaliyyət göstərən erməni təşkilatları

***Erməni təşkilatlarının yaradılması tarixinə qısa baxış***

Ermənilər Gürcüstanda yaşayan milli azlıqlar içində say baxımından ikinci yerdədirlər. 2014-cü ildə keçirilən siyahıyaalmaya əsasən, Gürcüstanda 168,1 min erməni (4,5%) yaşayır.[125] Lakin gürcü soyadlarını qəbul etmiş ermənilər də nəzərə alınarsa faiz nisbəti ilə onlar çoxluq təşkil etmiş olacaq. Məlumdur ki, ermənilər Gürcüstanda hazırda məskunlaşdığı ərazilərə tarixən çarizm dövründə köçürülmüşlər. Gürcüstanda ictimai təşkilatlar hələ Sovet zamanında M.Qorbaçovun "yenidənqurma" dövründən etibarən fəal şəkildə formalaşmağa başlayıblar. Hazırda Gürcüstanda 20 erməni ictimai təşkilatının (bəzi mənbələrə görə isə 40) fəaliyyət göstərdiyi məlumdur. Sovet İtttifaqının dağıldığı ilk vaxtlarda, xüsusilə, Samtsxe-Cavaxetiya erməniləri radikal mövqedən çıxış edərək, Ermənistana birləşməyi tələb edirdilər. İ.Muradyanın fikrincə, əgər Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi olmasaydı, Cavaxetiyanın erməni əhalisi bu ərazinin Gürcüstandan ayrılması tələbi ilə çıxış edərdilər.[126] Tarixə nəzər saldıqda məlum olur ki, hələ Z.Qamsaxurdiyanın hakimiyyəti dövründə Samtsxe-Cavaxetiya erməniləri DQMV ermənilərinin separatçılıq hərəkatının müdafiəsində fəal iştirak edirdilər. Eduard Şevardnadzenin hakimiyyəti zamanı isə aşağıda bəhs edəcəyimiz və hazırda fəaliyyət göstərən təşkilatların əsası qoyuldu: Gürcüstan Erməniləri Birliyi, Gürcüstan Erməniləri Kilsələr Şurası, Gürcüstan Erməni Ziyalıları Birliyi, Gürcüstan Erməni İş Adamları Birliyi, Gürcüstan Erməni Məktəbləri Şurası, Gürcüstan Erməni Gəncləri İttifaqı, Gürcüstan Erməni Qadınları Birliyi, Gürcüstan Erməni Yazıçıları Birliyi, Gürcüstan Erməni Tarixi Abidələrinin Qorunması Federasiyası, Gürcüstan Erməni Dini Məktəbləri Birliyi, Gürcüstan Erməni Cavakk İctimai Hərəkatı, Şarl Aznavur adına Erməni Gənclər Birliyi, Nor Eçmiədzin Kilsələr Şurası, Gürcüstan Erməniləri Cəmiyyəti, Gürcüstan Erməniləri Birliyi Təşkilatı, Tbilisi Erməni İcması, Poros Erməni Qadınlar Təşkilatı, Gürcüstan Erməniləri Xristian Demokrat Hərəkatı, Pryuktun Təşkilatı, Sayat Nova Erməni Mədəniyyət Mərkəzi, Cavaxk Erməni Milli Sosial-Siyasi Hərəkatı, Virk Erməni Milli Partiyası, Vurnatun Gürcüstan Erməni Gənclər Təşkilatı, Ovanes Tumanyan Fondu, Gürcüstan Erməniləri Rəssamlar Birliyi, Gürcüstan Erməni Apostol Kilsəsi, Erməni Dövlət Dram Teatrı, Gürcüstanda Erməni Tələbələrinin İttifaqı, Tbilisi Ermənilərinin Assambleyası, Vrastan qəzeti, Axaltsixe Gənclər Mərkəzi, Gürcüstan Ermənilərinin Milli Konqresi. Bunların içində ən böyükləri - Cavaxk, siyasi partiya olmağa iddialı Virk və özündə 10-dan artıq ictimai təşkilatı birləşdirən Samtsxe-Cavaxkın İctimai Təşkilatlar Birliyidir. Bir çox gürcü mətbuatında radikal və ekstremist mövqedə olması qeyd edilən təşkilat Cavaxkdır. Təşkilat 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ regionundakı separatçı hərəkatla paralel dövrdə yaradılmışdır.Onun yaradılmasında katalizator rolunu məhz Dağlıq Qarabağ regionundakı separatçı hadisələr rol oynamışdır. Axalkələkdə təşkilatın ilk komitəsi meydana gəlmişdir. Yeni yaradılan təşkilatın başlıca məqsədi "Qarabağdakı qardaşlara kömək etmək" olur. Təşkilat 1988-ci ilin mayında fəaliyyət sahəsini genişləndirdi və Cavaxk Milli Hərəkatı adlanmağa başladı.

[125] საქართველოს სტატისტიკის ეროვნული სამსახური. საქართველოს სტატისტიკური წელიწდეული 2014. www.geostat.ge/cms/site_images/_files/-yearbook/Yearbook_2014.pdf

[126] Игорь Мурадян Роль и значение общественных организаций в Джавахке 28.02.2009. // www.lragir.am/index/rus/0/comments/view/8500

*Məqsəd nədir?*

Gürcüstandakı erməni təşkilatlarının fəaliyyətinin onların başlıca məqsədi separatçılıq yolu ilə Gürcüstan ərazisini parçalamaq, muxtariyyət almaq, sonra isə Ermənistana birləşməkdir. Bəzi faktlara müraciət edək: məsələn, 1994-cü ildə E.Şevardnadze Samtsxe-Cavaxetiyada ərazi islahatları apardığı zaman bu təşkilatın üzvləri muxtariyyət tələb etməyə başladılar.[127] 1995-ci ildə Gürcüstan Parlamentində "Dil haqqında qanun" müzakirəyə çıxarıldığı zaman təşkilatın üzvləri tərəfindən bu hadisə birmənalı qarşılanmadı. Gürcü politoloqlarının fikrincə, Tiflis bu təşkilatların muxtariyyət tələbini icra edə bilməz, çünki bu zaman Abxaziya və Cənubi Osetiya misalındakı kimi hadisələrin yenidən baş qaldırması qaçılmaz ola bilərdi. Müşahidələr göstərir ki, Samtsxe-Cavaxetiyada fəaliyyət göstərən təşkilatlar Gürcüstan dövləti tərəfindən xüsusi nəzarətdə saxlanılır, onların haqqında məlumatların toplanılmasına xüsusi diqqət yetirilir. Bu amil təşkilatın separatçı mövqeyi ilə sıx bağlıdır. Adı çəkilən təşkilatın hazırda rəhbəri Vaahn Çaxalyandır. V.Çaxalyan İrəvanda yaşadığı dövrdə iki dəfə kriminal cinayət törətdiyinə görə həbs edilmiş, daha sonra Ermənistanın keçmiş prezidenti S.Sarkisyan tərəfindən İrəvandan deportasiya edilmişdir. Təsadüfi deyildir ki, Gürcüstanın sabiq prezidenti M.Saakaşvili Çaxalyanı özünün dördüncü düşməni (V.Putin, D.Medvedev, B.İvanişvilidən sonra) adlandırmışdır.[128] Samtsxe-Cavaxetiyada fəaliyyət göstərən bir çox təşkilatlar kimi bu təşkilatın da fəaliyyət xronologiyasını müşahidə edərkən bir məsələni vurğulamaq lazımdır ki, Gürcüstanda "Qızılgül inqilabı"ndan sonrakı şərait göstərdi ki, bu təşkilatlar yeni siyasi mühitə hazır deyillər. Təşkilatın proqramının strukturundan göründüyü kimi, onların əsas məqsədi federativ quruluşlu dövlət yaratmaq idisə, yenicə hakimiyyətə gəlmiş M.Saakaşvilinin ideyasında yalnız Qərbə doğru inteqrasiya, Ru-

[127] საქართველოს გაეროს ასოციაცია (თემატური კატალოგი შეიცავს 3 დოკუმენტს). ჯავახეთში მოღვაწე ადგილობრივი ორგანიზაციები და ავტონომიის საკითხი. 2003 წ. www.nplg.gov.ge/gsdl/cgi-bin/library.exe?e=d-00000-00---off-0civil2--00-1----0-10-0---0---0prompt-10---4-------0-1l--10-ka-50---20-about---00-3-1-00-0-0-01-1-0utfZz-8 00&cl=CL1.13.3&d=HASH1301250eee738092d49a4f.3.11&x=1

[128] Саакашвили сравнил Чахаляна с Путиным, Медведевым и Иванишвили 26.10.2013 // www.araratnews.am/%D1%81%D0%B0%D0%B0%D0%BA%D0%B0%D1%88%D0%B2%D0%B8%D0%BB%D0%B8-%D1%81%D1%80%D0%B0%D0%B2-%D0%BD%D0%B8%D0%BB%D1%87%D0%B0%D1%85%D0%B0%D0%BB%D1%8F%D0%BD%D0%B0-%D1%81-%D0%BF%D1%83%D1%82%D0%B8%D0%BD%D1%8B/?lang=ru



siyaya qarşı etirazlar geniş yer tuturdu. 2009-cu ilin aprelində məhkəmə Çaxalyanı "Qanunsuz silah saxlama" və "İctimai asayişi pozmağa çağırış edən kütləvi aksiyalar təşkil etməkdə" təqsirli bilərək 10 il müddətinə azadlıqdan məhrum etdi. Lakin 4,5 il sonra B.İvanişvilinin Çaxalyanın azad edilməsi haqqında amnistiya qərarına qol çəkməsindən sonra Çaxalyan azadlığa buraxıldı. Gürcüstan Daxili İşlər Nazirliyinin keçmiş nümayəndəsi Karina Qriqoryan separatçı Çaxalyanın azad edilməsini yeni hakimiyyətə gəlmiş partiyanın ən böyük səhvi adlandırmışdı. Həmçinin onun bildirdiyinə görə, separatçı V.Çaxalyanı Rusiyanın xüsusi xidmət orqanları maliyyələşdirir.[129] V.Çaxalyan isə K.Qriqoryanı Mixeil Saakaşvilinin əmri ilə bu cür çıxışlar etməkdə ittiham edir.[130]

Digər bir misal: Gürcüstanın "Axali taoba" (Yeni nəsil) qəzetində erməni xalqı adından məktub dərc edilmişdi. Həmin məktubda bildirilir ki, guya gürcülər azərbaycanlılarla əlbir olaraq erməniləri Samtsxe-Cavaxetiya, Kvemo-Kartli (Borçalı) bölgələrindən sıxışdırmağa çalışırlar. Həmçinin məktubda Ermənistan hökumətindən bu prosesin qarşısının alınması üçün kömək də istənilir. Sabiq Gürcüstan Prezidenti M.Saakaşvilinin müşaviri Van Bayburtyan məktubu əsassız adlandırmış, hətta bu məktubun "Cavaxk" təşkilatı tərəfindən yazıldığını bildirmişdir. Müşavirin sözlərinə görə, bu təşkilat Rusiya tərəfindən maliyyələşdirildiyindən bu cür addım gözləniləndir.[131] Qeyd etmək lazımdır ki, Van Bayburtyan hələ E.Şevardnadzenin hakimiyyəti dövründə Samtsxe-Cavaxetiyada erməni separatizminin təbliğatçılarından biri olub. Gürcüstandakı inqilabdan sonra müşavirlik vəzifəsini icra etməyə başlayan bu şəxsin fikirlərində də dəyişikliklər müşahidə olunur. V.Bayburtyan on il müddətində Gürcüstanda nəşr olunan "Vrastan" qəzetinin baş redaktoru olmuş və bu qəzetdəki məqalələrində də Samtsxe-Cavaxetiya erməni fəallarının ideyasını pisləmişdir.

Yayılan məlumatlardan aydın olur ki, 2010-cu ildə Gürcüstanda hüquq mühafizə orqanlarının həyata keçirdikləri Enver əməliyyatı nəticəsində Rusi-

[129] Карина Григорян: "Сепаратиста Ваагна Чахаляна финансировали российские спецслужбы" 12.07.2013 // www.myazerbaijanorg.livejournal.com/40260.html

[130] Чахалян уверен, что заказчик заявления Саакашвили 14.01.2015 // www.jnews.ge/-?p=1125

[131] შორენა გოგოლაძე 21.08.2012. ბაიბურთი: ორგანიზაციას, რომლის ლიდერიც „ქართული ოცნების“ კანდიდატია, რუსეთი მართავს // www.presa.ge/new/?m=society&AID=18432

ya lehinə çalışan 13 nəfər saxlanılmışdır.[132] Onlar arasında iki erməni - Armen Gevorkyan, Ruben Şikoyan da var idi. A.Gevorkyan neft və neft məhsullarının keyfiyyətini yoxlayan "Saybolt" kompaniyasının baş direktoru olmuş və Rusiyanın Əsas Kəşfiyyat Agentliyinə Gürcüstan Silahlı Qüvvələri və onun digər ölkələrlə əməkdaşlığına dair məlumatları ötürmüşdür.[133] R.Şikoyan isə adı çəkilən şirkətin direktor müavini vəzifəsində işləmişdir. O isə Əsas Kəşfiyyat Agentliyinə Gürcüstan Müdafiə Nazirliyinin digər şirkətlərlə gizli əlaqələri haqqında məlumatları ötürmüşdür.[134] Rusiya Federasiyasının vətəndaşları olan hər iki şəxs Batumidə yaşamışdır. "Cavaxk" təşkilatının üzvü Ruben Torosyanın verdiyi məlumata görə, A.Gevorkyan Acarıstanda Aslan Abaşidzenin hakimiyyəti zamanı erməni diasporasını idarə etmişdir. Tbilisidə Avroatlantik Tədqiqatlar Mərkəzinin direktoru Mamuka Neberidze məsələyə dair fikrini bu cür ifadə edir: *"Qəribədir ki, həbs olunanlar Gürcüstan hakimiyyəti ilə daim problemi olan Acarıstanın keçmiş lideri A.Abaşidzenin keçmiş işçiləri olmuşdur."*[135]

Gürcü mətbuatında Armen Gevorkyan və Ruben Şikoyanın Samtsxe-Cavaxetiyada separatçı təşkilatının üzvü olmaları haqqında məlumat yayıldıqdan sonra "Cavaxk" təşkilatının sədri, həmçinin Gürcü arzusu Partiyasının namizədlərindən biri olan Norik Karapetyan həmin şəxslərin partiya üzvü olduqlarını danmışdı.[136] Bir məsələni də əlavə etmək lazımdır ki, 2008-2009-cu illərdə həbs edilmiş və erməni diasporasının nümayəndələri kimi qeyd olunan Qriqor Minasyan, Sarkis Akopcanyan da "Cavaxk" təşkilatının fəallarındandırlar və Gürcüstan hakimiyyətinə qarşı casusluqda ittiham olunmuşlar.[137]

"Virk" (qədim erməncədən-qarabardan tərcümədə "Gürcüstan" deməkdir) təşkilatı "Krunq" təşkilatının prototipi hesab edilir. Virk təşkilatı-

[132] წარმატებული "ენვერი" 05.11.2010. // www.tabula.ge/ge/story/53210-tsarmatebuli-enveri

[133] Армянский след в раскрытой шпионской сети в Грузии 10.11.2010. // www.armenianreport.com/pubs/1056/

[134] В Грузии поймали российских шпионов 06.11.2010. // www.lenta.ru/articles/2010-/11/05/spies/

[135] ლუკა დოლიძე. ენვერის მოლოდინში. 02.11.2010. // www.interpressnews.ge/ge/-specialuri-reportazhi/149569-enveris molodinshi.html?ar=A

[136] "ქართული ოცნების" კანდიდატი სხვა „ჯავახკ"ის წევრია. 20.08.2012. // www.netgazeti.ge/news/15421/

[137] Арестованные в Грузии двое армянских активистов освобождены 09.03.2009 // www.ria.ru/society/20090309/164246334.html



nın liderləri əmindirlər ki, dövlət tərəfindən siyasi partiya kimi qeydiyyatdan keçdikdən sonra Gürcüstandan muxtariyyət tələb edə bilərlər. Qeyd etmək lazımdır ki, Gürcüstan hakimiyyəti "Virk" təşkilatını siyasi partiya kimi qeydiyyatdan keçirməkdən imtina edir. Gürcüstan Konstitusiyasının "Siyasi birliklər haqqında" qanununa əsasən (VI maddə), regional və ərazi prinsipə əsaslanan partiyaların təşkili qadağandır.[138] Qərara görə, milli azlıqlar bu halda partiya yaratmaq üçün Ədliyyə Nazirliyinə müraciət etdikdə rədd cavabı alırlar. Qeydiyyatdan keçsələr belə, parlamentə daxil olmaq üçün keçirilən seçkilərdə etnik partiyalar 7%-lik səddi keçə bilməyəcəklər. "Virk" təşkilatının proqramında bəndlərdən birində Samtsxe-Cavaxetiyaya muxtariyyətin verilməsi barədə yazılmışdır. "Virk" təşkilatı 1994-cü ildə Samtsxe-Cavaxetiyada vahid idarəçiliyin yaradılması və Gürcüstan hökumətinin öz nümayəndəsini təyin etməsi ilə razılaşmamışdı. Təşkilatın rəhbərləri belə bir fikir irəli sürürdülər ki, hökumət bu yolla adı çəkilən ərazidə demoqrafik tarazlığı pozur. Bu təşkilatın tələbləri arasında erməni dilinin dövlət dili statusunda qərarlaşdırılması, etnik kimliyin dəstəklənməsi məsələləri vardır. Təşkilat bu yolla guya iki millət arasında inteqrasiya proseslərinin formalaşacağına "ümid edir." 1988-ci ildən "Cavaxkın separatçılıq fəaliyyətində fəal rol oynayan üzvü Fedi Torosyanın həbsi Cavaxkın siyasi dairələrində həyəcana səbəb olmuş və bu həbsin siyasi xarakter daşıdığı qeyd edilmişdir. Halbuki, F.Torosyan siyasi motivlər əsasında deyil, Axalkələkdə (Axalkalaki) elektrik şəbəkəsinin direktoru olduğu zamanlarda maliyyə sənədlərində buraxdığı hüquqi səhvlərə görə həbs edilmişdi.

Gürcüstan Parlamentinin "Dil haqqında qanun"u müzakirə etməsindən sonra "Cavaxkın intiqamçıları" adlanan təşkilat Ninotsminda adlı yerdə inzibati binanın üzərində aşağıdakı hədələyici və separatçı müraciətlə çıxış etmişdir: *"Biz artıq şovinist gürcü millətinin antiermənі fəaliyyətinə səbr etməyəcəyik, cavab isə sərt və nöqsansız olacaqdır. Sizi sonuncu dəfə xəbərdar edirik-ağıllı davranın və ehtiyatlı olun, Cavaxkdan əl çəkin. Əgər unutmusunuzsa, xatırlayın və bilin: Cavaxkın sahibləri və müdafiəçiləri var. Anlamadınızsa-öz günahınızdır."*[139]

[138] Закон Грузии о политических объединениях граждан (статья 6). // www.matsne.gov.ge/ru/document/download/28324/15/ru/pdf

[139] Сардали А. 13.10.2002. // Армяне угрожают, Москва призывает... www.kavkazcenter.com/russ/content/2002/10/13/2283/armyane-ugrozhayut-moskva-prizyvaet--.shtml

Tbilisidə Azadlıq İnstitutunun əməkdaşı Zurab Çeaberaşvili Samtsxe-Cavaxetiyada belə bir təşkilatın fəaliyyətindən xəbərdar olduğunu bildirmişdir. Qafqazda Sülh, Demokratiya və İnkişaf İnstitutunun əməkdaşı Marina Elbanidze isə "Axali taoba" (Yeni nəsil) qəzetinin 27 sentyabr tarixli sayında dərc etdirdiyi məqaləsində yazır ki, Cavaxetiyada 16 erməni silahlı qruplaşması fəaliyyət göstərir. Bundan sonra erməni qəzeti "AZQ"-da "Cavaxkın intiqamçıları təşkilatı yoxdur və olmayacaq" adlı məqalə nəşr edilmişdir. Maraqlıdır ki, həmin məqalədə Gürcüstan parlamentinin sədr müavini Givi Şuqarov (mənşəcə ermənidir) bu təşkilat haqqında fikirlərini bu cür ümumiləşdirmişdir: *"Cavaxkda qaynar nöqtənin yaradılması Ermənistanın marağında deyil."*[140]

Başqa bir misal: "Yerkir" analitik mərkəzinin eksperti Eduard Abramyan Samtsxe-Cavaxetiyanın, həmçinin Tsalka vilayətinin əhalisini hakimiyyətdən muxtariyyət tələb etməyə çağırmışdır. Onun bildirdiyinə görə, bu, həmin əhalinin haqqıdır. Həmçinin separatçı "ekspert" qurulacaq muxtar respublikanın qədim adı ilə yəni, Zabax adlandırılmasını, paytaxtının Axaltsixe olmasını təklif etmişdir. Onun fikrincə, muxtariyyətin idarəçi orqanı Milli Məclis təşkil edilməli, bu orqan öz növbəsində muxtariyyətin illik büdcəsini təyin etməlidir. E.Abramyan regionun atributlarının, o cümlədən milli polisinin yaradılma zərurətini qeyd etmişdir. Separatçının fikrincə, guya adı çəkilən fəaliyyətlər icra olunduqdan sonra Gürcüstanda milli məsələ, separatizm təhlükəsi azala bilər və guya Gürcüstanın bir dövlət kimi öz suverenliyini qoruması üçün yeganə çıxış yolu məhz federasiyaya çevrilməkdir.[141]

Gürcüstandakı erməni təşkilatları gürcü xalqına məxsus tarix və mədəniyyət abidələrinə əsassız iddia edirlər. Məsələn, aktivliyi birbaşa "Cavaxk" təşkilatının separatçı mövqeyi ilə bağlı olan, dini mərkəz sayılsa da, fəaliyyətində siyasi aspektlərinə geniş yer verən Erməni Apostol Kilsəsinin rəhbəri yepiskop Vazgen Mirzəxanyan Gürcüstanın baş naziri İrakli Qaribaşviliyə 10 dekabr 2014-cü il tarixli məktubunda Gürcüstanın

[140] Оруджев Р. 05.10.2002 // "Мстители Джавакха" www.forum.bakililar.az/index.php?/topic/3697-%D0%BC%D1%81%D1%82%D0%B8%D1%82%D0%B5%D0%BB%D0%B8-%D0%B4%D0%B6%D0%B0%D0%B2%D0%B0%D0%BA%D1%85%D0%B0/

[141] На территории Грузии должна сформироваться армянская автономная республика Забаха. 16.09.2008 // www.horizonworld.com/vb/archive/index.php/t-366.html



442 kilsəsinin erməni kilsəsi olduğunu həyasızcasına iddia edir.[142] Yepiskop özünəməxsus hiyləgərliklə *"totalitar rejim dövründə əllərindən alınmış kilsələrin"* qaytarılmasını tələb edir. Qeyd etmək lazımdır ki, Eçmiədzin kilsəsi (Üçkilsə) bu vaxta qədər Gürcüstanın 5 kilsəsinə iddia edirdisə, indi bu rəqəm dəfələrlə artmışdır. Bir məsələ xüsusilə diqqəti cəlb edir: məlum olduğu kimi, hələ 1995-ci ildə Samvel Karapetyanın erməni dilində (sonradan rus dilinə tərcümə olunmuş) "Gürcüstanda erməni kilsələri" adlı xəritə-sorğu kitabçası nəşr edilmişdir.[143] Müəllif uydurmalarla Gürcüstanda 650 erməni kilsəsini təsvir edib. Hansı ki, əslində bunların çoxu gürcü kilsəsidir. S.Karapetyan isə gürcü xalqının abidələrini "ermənildirmişdir". İnsan hüquqları müdafiəçisi Giorgi Tevzadze bu məsələ ilə bağlı Gürcüstan hökumətini təsirli ölçü götürməyə çağırmışdır. Onun fikrincə, ermənilərin bu cür əsassız iddiası ilk dəfə deyil ki, səsləndirilir və onlar dünya ictimaiyyətini aldatmağa çalışırlar.[144] "Saerto" qəzeti bununla bağlı olaraq yazır: *"Bizim qonşularımız öz xislətlərini və təbiətini dəyişə bilmirlər. İlk baxışdan, zərərsiz görünən tələbdən - mədəni abidələrin onlara verilməsi istəyindən planlı şəkildə addım-addım ərazilərimizin ilhaqına keçirlər. Siz adları çəkilən kilsələri, onların ətraf ərazilərini, qəbiristanlıqların ərazilərini, həmçinin erməni dilini inzibati dil elan olunmasını tələb edən Samtsxe-Cavaxetini təsəvvürünüzə gətirin."*[145]

## *Erməni təşkilatlarının Gürcüstanın Türkiyə və Azərbaycanla münasibətlərini pozmaq cəhdləri*

Erməni təşkilatları təkcə Gürcüstanı parçalamağa, ərazisinə sahib çıxmağa, tarix və mədəniyyət abidələrinə yiyələnməyə deyil, eyni zamanda Gürcüstanın Türkiyə və Azərbaycanla olan münasibətlərini də pozmağa ça-

[142] ვლადიმერ ცხვედიანი. სომხური ექსპანსია - სომხეთის სამოციქულო ეკლესიის მეშვეობით 28.10.2015. // www.geworld.ge/ge/7271/

[143] Некоторые вопросы истории Грузии в армянской историографии. Тбилиси, 2009, стр. 221 // www.religions.am/wp-content/uploads/2017/05/History-of-Georgia-in-Armenian-historiography.pdf

[144] გიორგი თევზაძე: "სომხური მხარე ქართული მართლმადიდებლური ეკლესიების მიტაცებას ცდილობს" 19.01.2015. // www.iverioni.com.ge/print:page,1,10981-giorgi-thevzadze-somkhuri-mkhare-qarthuli-marthladidebluri-eklesiebis-mitacebas-cdilobs.html

[145] ირანდა კალანდაძე. სომხური ეკლესია საქართველოს ხელისუფლებისგან 394 „სომხური" ეკლესიის გადამოცემას ითხოვს. 25.03.2015 წ. საერთო გაზეთი (323) // www.drive.google.com/file/d/0Bx71GjiDWcAOZVZNRG1HM1AtMWc/view

lışırlar. Buna dair çoxlu misallar gətirmək olar: 2017-ci il aprelin 17-də Gürcüstanda Erməni birliyi öz səhifəsində "Nəyə görə gürcü hakimiyyəti erməni xalqının soyqırımını tanımalıdır" adlı məqalə yerləşdirmişdi.[146] Məqalənin ümumi məzmunu aşağıdakı kimidir: *"Əsas məsələ mənəvi dəyərlərdən qaynaqlanır. Özünü Avropa sivilizasiyasının bir parçası hesab edən dövlət bütün insanlığa qarşı törədilmiş cinayət misalında olan kütləvi insan qırğınını tanımalıdır. Artıq 26 ildir ki, Gürcüstan elitası Türkiyə və Azərbaycanla münasibətlərini bəhanə gətirərək öz susqunluğuna bəraət qazandırır. Bu gün Gürcüstanda erməni soyqırımının tanınması milli təhlükəsizlik məsələsinə çevrilmişdir. Bizim qarşımızda yalnız bir çıxış yolu qalmışdır, ölkənin hakim dairələrinə hansısa digər dövlətlərin deyil, məhz öz milli maraqlarının qorunmasına çalışılması aydınlaşdırılmalıdır."*

Qeyd etmək lazımdır ki, "Gürcüstanda erməni birliyi" hər il aprel ayında Türkiyə səfirliyi qarşısında erməni "soyqırımı"nın il dönümü münasibəti ilə aksiyalar keçirir və Gürcüstan hökumətindən tanınmanı tələb edir. Təşkilatın gəncləri Azərbaycanın işğal olunmuş ərazilərinə ekskursiyalar təşkil edir, şəkilləri "qədim torpağımız" başlığı ilə sosial şəbəkədə yayırlar. Bu da təbii ki, Azərbaycan tərəfinin narazılığına səbəb olur.[147]

Gürcüstanda erməni təşkilatlarının fəaliyyətinin təhlili göstərir ki, onlar "Daşnaksütyun" yönlü təşkilatlardır, qurucuları isə hələ Abxaziya müharibəsində gürcü xalqına qarşı vuruşmuş "Baqramyan" batalyonunun veteranlarıdır. Təşkilatların başlıca fəaliyyəti separatçı xarakterli olduğundan, Gürcüstan hakimiyyəti tərəfindən lazımi tədbirlər görülüb ölçü götürülməzsə, Gürcüstanda ikinci Qarabağ problemi yaradıla bilər.

***

Beləliklə, Gürcüstandakı erməni təşkilatlarının fəaliyyətinin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Bu təşkilatlar Gürcüstanda separatçı fəaliyyət göstərir, ölkə ərazisini parçalayır, qan tökməklə muxtariyyət almaq və sonra Ermənistana birləşdirməyə çalışır;

[146] რატომ უნდა დაგმოს ქართველთა სახელმწიფომ სომეხთა გენოციდი 17.04.2017 // www.armenian-community.ge/News/2406?lang=geo

[147] აზერბაიჯანს საქართველოსთან პრეტენზია აქვს 26.08.2015 // www.ghn.ge/com/news/view/137540



2. Erməni təşkilatları Gürcüstandakı gürcü xalqının tarix və mədəniyyət abidələrini qondarma yolu ilə özününküləşdirir;

3. Erməni təşkilatları Gürcüstanın Türkiyə və Azərbaycanla münasibətlərini pozmaq üçün müxtəlif üsullardan istifadə edirlər.

Politoloq Tekol Xaqosun aşağıdakı fikirləri erməni təşkilatları ilə bağlı bir qənaət yaradır: *"Erməni problemini diqqətlə araşdırdıqdan sonra anladım ki, onlar bir çox əsrlər ərzində, bir çox xalqlar üçün problem olmuşlar, xüsusilə tərkibində yaşadıqları dövlətlər üçün".*

## 3.3. Ermənilərin Tbilisi şəhərinə iddiaları

Ermənilər Tbilisinin guya qədim erməni şəhəri olduğunu iddia edirlər. Yaşadıqları ölkələrdə separatizmlə məşğul olan, milli maraqları və xəstə "erməniçilik" ideyaları naminə saxtakarlıqdan, yalanlardan əl çəkməyən ermənilər qonşu Gürcüstanın paytaxtı Tbilisinin də qədim erməni şəhəri "Tpxi" olduğunu iddia edirlər. Hələ sovet dövründə B.S.Nalbandyanın 1961-ci ildə İrəvanda çap olunan "Tbilisi qədim və orta əsrlərin ədəbi mənbələrində" adlı saxta əsərində Tbilisini qədim erməni şəhəri kimi təqdim etmişdir. Gürcüstanın "Saerto" qəzetində 2017-ci il dekabrın 7-də "Ermənilər Tbilisinin adını dəyişdirmək istəyirlər" adlı yazıda müəllif Georgi Qorqadze ermənilərin əsassız iddialarına qarşı Gürcüstan hökumət orqanlarının passivliyini aşağıdakı kimi kəskin tənqid etmişdir: "Biz unutmamalıyıq ki, hələ keçən əsrdə (XX əsr) ermənilər Gürcüstana qarşı müharibəyə başladılar. Lakin onda heç nə əldə edə bilmədilər. Ancaq ermənilər arzulayırlar ki, günlərin bir gözəl günündə, əlbəttə, başqalarının köməyilə onlar Tbilisini "qaytaracaq" və onu daha "yaxşı" erməni adı ilə "Tpxi" adlandıracaqlar."[148]

Ermənilər Tbilisinin özləri tərəfindən tikildiyini və əksər şəhər merinin erməni olduğunu iddia edirlər. Halbuki ermənilər öz xislətlərinə uyğun olaraq bəzi rus soyadlarını saxtalaşdıraraq erməniləşdirmişlər. Məsələn, onlar qədim Tbilisinin merləri olan rus zadəgan nəslindən İzmayılovu İzmayılyans və İvanı Ovanes kimi təqdim edirlər.

Ermənilərin Tbilisiyə əsassız iddiaları gürcü-erməni qarşıdurmasına səbəb olmuşdur. Vətənpərvər gürcü ziyalıları ermənilərin bu cür əsassız iddialarını ifşa etmişlər. Buna görə də, Gürcüstanda XIX və XX əsrlərdə

[148] Армяне потребовали переименовать Тбилиси. 08.12.2016 // www.news.day.az-/politics/848546.html

ermənilər əleyhinə güclü hücumlara başlamışdılar. 1897-ci ildə Tiflisdə nəşr olunan "İveriya" qəzetində çap olunmuş və ermənilərə həsr olunmuş bir məqalədə bir çox ritorik suallar verilir: "Tiflis hansı əsasla erməni şəhəridir: coğrafi mövqeyinə görəmi, ərazi qanunlarına görəmi, yaxud hansı dövlət və beynəlxalq hüquqla? Ermənilər haradadır, Tiflis harada? Onların əlləri haradan haraya uzanır? Onların satın aldıqları evlər onlara məxsusdurmu, bunu hələ aydınlaşdırmaq lazımdır. Lakin Tiflis Gürcüstan ərazisində yerləşir. Burada ermənilərə heç nə məxsus deyildir." İlya Çavçavadze və Akaki Sereteli kimi görkəmli gürcü ziyalıları erməniləri bütün xəyanətlərinə görə ittiham etmişlər.

2017-ci il mayın 29-da erməni Vigen Avetisyanın "Maraqlı tarix" seriyasından nəşr etdirdiyi erməni fondunun eksperti "Noravank" jurnalında Gürcüstan Milli Kitabxanasının fondlar üzrə direktor müavini erməni əsilli tarixçi Levan Taktakaşvilinin "Tbiliselebi" ("Tbilislilər") jurnalının 31-ci sayında "Ermənilər Tbilisini necə inşa etdilər?" başlıqlı müsahibəsi olduğu kimi nəşr etdirilmişdir.

Məlum olduğu kimi Tiflis şəhərinin idarəçiliyini bir vaxtlar şəhər başçısı və ya murovlar yerinə yetirmişlər. Rusiya Gürcüstanı XIX əsrdə işğal etdikdən, Tiflis quberniyası yaradıldıqdan sonra seçilmiş şəhər şurası mövcud olmuşdur. Bu şəhər administrasiyası da öz növbəsində şəhər merini seçirdi. Levan Taktakaşvilinin saxta informasiyasına görə, "öz şəhərinə əksəriyyəti etnik ermənilər olan şəhər merləri qədər sədaqətlə xidmət edən olmamışdı."[149] Müsahibədə deyilir: "Birinci Tiflis şəhər başçısı İzmerov 1876-cı ildə seçilmişdir. Həmin il yeganə gürcü olan Dmitri Kipiani şəhər meri olmuşdur." 1905-1910-cu ildə Levan Taktakaşvili Tbilisi merləri arasında Vasili Çerkezovun (Çerkezeşvili) adını xüsusi çəkir. "O, o qədər yaxşı şəhər başçısı olmuşdur ki, onun adı tarixə düşmüşdür. Hətta Tiflisdə onun adına küçə salınmışdır. Soyadlarının sonu bizi yanıltmasın çünki o zamanlar bütün əhalinin etnik mənşələrindən asılı olmayaraq soyadlarının sonu "ov"la bitirdi.[150]

"Nə üçün Tbilisi şəhərinin əksər şəhər başçıları ermənilər olmuşdur?" sualına saxtakar tarixçi belə cavab verir: "Bu fakt heç kəsi təəccübləndirməsin. O vaxtlar Tbilisi şəhərinin əksəriyyəti ermənilərdən ibarət idi. Ticarət onların əllərində idi, şəhər torpağı onlara məxsus idi. Bu torpaqlarda tikilən bütün evlər ermənilərə mənsub idi. O vaxtlar vəzifəli şəxslər və xırda tacirlər arasında çox az sayda meqrellər və imeretlilərə təsadüf etmək olardı, ticarətin əsas hissəsi ermənilərin əlində idi."[151] Cənubi Qafqaza o cümlədən Gürcüstana və Tiflisə XIX əsrdə məqsədyönlü köçürülən ermənilər artıq bu bölgələri "özünükü" hesab edirlər. O vaxtlar şəhər deputatı olmaq istəyənləri üç dərəcəyə mənsub təbəqələr (xmosnebilər) arasından seçirdilər. Deputatlar əmlakı olanlar, əmlaka, mülkə görə vergi ödəyənlər arasından seçilirdi. Yalnız yəhudilər səs hüququna malik deyildilər. Şəhər idarəsində gürcülər və ruslar azlıq təşkil edirdilər. "Tbilisinin varlı təbəqələri-xmosnebilərin əksəriyyəti ermənilər idi, ona görə də onlar ermənini şəhər başçısı görmək istəyirdilər. Birinci dərəcəli xmosnebilər dar burjua maraqlarını güdür, ikinci və üçüncü dərəcəli xmosnebilərdən fərqli olaraq milli maraqlara az diqqət yetirirdilər. Birinci dərəcəli xmosnebilər Avropa yönümlü idilər, onlar Tiflisi Avropa şəhəri kimi görmək istəyirdilər."[152]

L.Taktakaşvili varlı erməniləri erməni milli maraqlarını qorumadıqlarına, millətçilik, erməniçilik təbliğ edən erməni qəzetlərinə, erməni məktəblərinə investisiya qoymadıqlarına görə tənqid edir, onları kosmopolitizmdə-avropalaşmaqda ittiham edir. O, yalnız ikinci, üçüncü dərəcəli xmosneb erməniləri "şovinizminə" görə alqışlayır, onların erməni milli maraqlarına xidmət etdiklərini Tbilisidə erməni maarifçiliyinin inkişaf etdirilməsi erməni qəzetlərinin nəşrinə və erməni məktəblərinə yardım etdiklərini, bu işdə onları Qriqoryan kilsəsinin dəstəklədiyini göstərir.

Birinci dərəcəli varlı ermənilərin Tiflisdə Avropa tipli evlər tikdirdiklərini, şəhəri təmizlədiklərini iddia edən erməni tarixçisi öz doğma şəhərinin meri seçilmiş (1876-1879-cu illər) Dmitri Kipianini gürcü millətçiliyi mövqeyində durduğuna görə "ittiham edir". Halbuki D.Kipiani gürcülər arasında qiraət və yazının yayılması üçün cəmiyyət yaratmışdı. Guya erməni merləri xüsusən "gizli şəkildə erməni məsələsini müdafiə edən Matişov və biznesmen Pitoyev Tiflisdə Vera bazarını, şəhərin su kanalını, şəhərin indiki meriyasının binasını tikdirmiş, təhsili inkişaf etdirmiş, indiki Rustaveli teatrının binasını tikdirmiş, teatr və opara teatrını təşkil etmişdilər.

---

[149] Бакули А. Почти все меры Тбилиси были армянами 09.02.2006 // www.noravank.am/ rus/issues/detail.php?ELEMENT_ID=3102

[150] «Власти Тбилиси уродуют историю города, но правда для армян окажется еще страшнее». 01.11.2014 // www.vesti.az/news/224022?keepThis=true&TB_iframe=true&height=500&width=1100&caption=Vesti+Az

[151] Армянский Тифлис безвозвратно утерян. 27.12.2008 // www.armtoday.info-/default.asp? Lang=_Ru&NewsID=7777

[152] Армянский мастер главных часов Тбилиси. 19.05.2017 // www.hayernaysor.am/ru/archives/247211

- Bu zaman gürcülər nə edirdilər? Onlar Tbilisidə "erməni şəhəri"nin necə tikildiyini sadəcə seyr edirdilər mi?-sualına saxtakar tarixçi ermənisayağı cavab verir: "Yalnız köhnə Tiflisin Ançisxatiyə bitişik əraziləri gürcülərə, xüsusən Orbelianilərə məxsus idi. Onlar vaxtlarını yaxşı keçirirdilər. Qriqor Orbeliani ermənilərə qarşı mübarizə aparırdı. Gürcülər artıq Tiflisi itirməyə alışırdılar. Hərçənd ki, 1921-ci ildə biz həqiqətən Tiflisi qaytardıq, o yenidən gürcü şəhəri oldu."[153]

– Hansı dövrlərdə Tiflis gürcü şəhəri olmuşdur? Sualına erməni tarixçisi əsl erməni xislətilə cavab verir: "1840-cı ildən 1917-1918-ci illərə qədər hətta Gürcüstan müstəqil dövlət olanda da Tiflis erməni şəhəri olaraq qalırdı. Ən mühümü odur ki, gürcülər erməniləri oradan qovmadılar, onlar özləri öz pullarını qorumaq üçün oradan qaçdılar. Öz aramızdır onlar pulları Yerevana (İrəvana) deyil, Parisə, Avropaya apardılar.Bütün varlı ermənilər Avropaya keçdilər.

– Bəs ermənilər niyə Yerevanı (İrəvanı) Avropa şəhərinə çevirmirdilər? – sualına L.Taktakaşvili belə cavab verir: "Yerevan qalası əyalət şəhəri idi. Orada bir dənə də olsun gözəl, yaxşı bina yox idi. Həm də ermənilər Yerevanda əhalinin əksəriyyətini təşkil etmirdi, orada müxtəlif millətlərdən olan insanlar yaşayırdılar."[154]

Buradan bir həqiqət üzə çıxır ki, ermənilər İrəvana erməni şəhəri kimi baxmırdılar. Bu həqiqətən də belə idi. XIX əsrdə İrəvan Azərbaycanın ən qədim şəhərlərindən biri idi. İkincisi, erməni tarixçisi milli, gözəl Şərq üslubunda tikilmiş İrəvandakı binaları "görmək istəməmişdir." Üçüncüsü, İrəvanda "müxtəlif millətlərdən olan insanlar" deyil, məhz avtoxton azərbaycanlılar yaşayır və onlar ermənilərdən çox idilər.

Erməni tarixçisi bilmədən bir həqiqəti də etiraf edir ki, ermənilər Tiflisə "Ermənistan"dan 1801-ci ildə gəlmişlər. Onların Tiflisə XIX əsrin əvvəllərindən gəlməsi həqiqətdir. Ancaq hansı "Ermənistandan" gəlməsi isə yalandır. Çünki XIX əsrdə "Ermənistan" adlı yer yox idi. Ermənistan tarixdə ilk dəfə yalnız 1918-ci ildə Azərbaycanın İrəvan xanlığı və Qərbi Azərbaycan ərazisində yaradılmış ilk erməni dövlətidir.

L.Taktakaşvili yazır ki, ermənilərin səhvləri ondadır ki, onlar iki hissəyə erməniləri dəstəkləyən millətçilərə və yüksək dərəcəli avropalaşmaq haqqında düşünən ermənilərə bölünmüşdülər. "Ermənilər birləşə bil-

[153] Бакули А. Почти все меры Тбилиси были армянами 09.02.2006 // www.noravank.am/ rus/issues/detail.php?ELEMENT_ID=3102

[154] Yenə orada.



mirdilər, kim hara gəldi qaçırdı." Tarixçi şəhər başçılarının erməni soyadı daşımalarını onların erməni yönümlü olmasını göstərmədiyi qeyd edir. O, bəzi şəhər başçılarının şəhər üçün dəhşətli fəaliyyətindən də bəhs edir.

Onlar gürcüləri hər cür təhqir edirdilər. Onları ikinci, üçüncü kateqoriyalı təbəqələr seçmişdi. Onu da qeyd etmək lazımdır ki, gürcülər ruslarla birlikdə ermənilərə qarşı çıxış etdilər. Gürcülər bilirdilər ki, onlar yalnız ruslarla birlikdə ermənilərin öhdəsindən gələ bilərlər. Onlar ikinci və üçüncü kateqoriyalı təbəqələrə qarşı çıxış edirdilər, çünki birinci kateqoriyalı təbəqələr nə gürcü, nə də erməni problemləri ilə maraqlanırdılar.[155] Ancaq müəllif qəsdən varlı təbəqələrin erməni məsələsinə "laqeydliyini" pərdələyir. Çünki istər aşağı təbəqə, istərsə də varlı təbəqə, istər kommunist, sosial-demokrat, daşnak, faşist, ziyalı, kəndli erməni bir məsələdə-erməni milli ideyası, ermənilik ətrafında sıx birləşir. Onun həyata keçməsi üçün səylərini, var-dövlətlərini əsirgəmirlər.

Müəllif erməni varlı təbəqələrinin pulu Tiflisdə deyil, Bakı neftindən əldə etdiklərini, aşağı təbəqələrin gürcü zadəganları ilə yaxınlıq etməyə cəhd etdiklərini, hətta Gürcüstanın ən varlı adamlarından, aristokrat nəslindən olan Qriqol Orbelianın dəfninə şəhər idarəsinin bir dənə də olsun çələng qoymadığını, bir nəfər də erməni varlısının iştirak etmədiyini göstərir və bunun belə əsaslandırır: "Tbilisi onlar (ermənilər) üçün erməni şəhəri idi, hətta gürcülər şəhəri gürcü şəhəri adlandıranda ermənilər gülürdülər. Öz aramızdır Funiklyor da erməni pulu ilə tikilmişdir."[156] Bu isə əsl erməni həyasızlığıdır. Erməni tarixçi Tbilisidə indiki Marcanaşvili adına teatr binasını da Zubalaşvili adlı bir erməninin öz evi kimi tikdirdiyini, sovetləşmə zamanı o, Tiflisdən qaçarkən gürcülər tərəfindən evinin tar-mar edildiyini, öz əmlakının Fransa muzeylərindən birinə verdiyini qeyd etdikdən sonra fikrini belə tamamlayır: "Bizim qələbəmiz onda idi ki, erməni varlıları üçün sovet idarəçiliyi qəbuledilməz idi və öz pullarını xilas etmək üçün xaricə qaçırdılar. Ruslar isə onların yerinə dağlarda yaşayan gürcüləri yerləşdirirdilər. Göründüyü kimi, tale bizə gülmədi və Tbilisi yenidən gürcü şəhəri oldu. Lakin bu şəhər üçün kifayət qədər işlər görmüş insanları unutmaq olmaz."[157] Saxtakar tədqiqatçı Tbilisinin "yenidən gürcü şəhəri" olmasını ermənilər üçün taleyin ən ağır oyunu olduğunu bildirir.

[155] Yenə orada.

[156] Yenə orada.

[157] Yenə orada.

1918-ci il dekabrın 9-da ingilislərə arxalanan Ermənistan ərazi iddiaları irəli sürərək Gürcüstana müharibə elan etdi. Erməni cəlladı, quldur və terrorçusu, Daşnak Ermənistanın general rütbəsi verdiyi Dro-Drastamat Kanayan dekabrın 14-də Axalkələki (Axalkalaki), dekabrın 20-də Şulaveri, dekabrın 25-də Tiflisi işğal etdi. İnglislərin köməyi ilə tərəflər arasında 1918-ci il dekabrın 31-də barışıq yarandı, Tiflis ermənilərdən xilas oldu. Bundan sonra Gürcüstanda ermənilər əleyhinə düşmənçilik gücləndi. Erməni "tarixçiləri iddia edirlər ki, guya erməni əhalisi Tiflisdən qovuldu, Gürcüstan Erməni Şurası üzvləri, Daşnaksütyun Partiyasının liderlərindən ibarət Gürcüstan Parlamentinin üzvləri həbs edildi, bütün erməni milislərinin silahları alındı və işdən azad edildilər. Tiflisin ermənilərdən təmizlənməsinin birinci mərhələsinə başlandı, iclaslarda erməni dilində çıxış etmək qadağan edildi. İosif Stalin və Lavrenti Beriya Tiflisin ermənilərdən təmizlənməsini gücləndirərək 1936-cı ildən Tiflisi Tbilisi adlandırmağa başladı. Sovet dövründə məhz bolşevizmin dəstəyi ilə qonşu respublikalar hesabına Ermənistana ərazilər bağışlanmasını unudan L.Taktakaşviliyə görə, 1949-cu ildə Tbilisi məkrli antisovet elementlər kimi ermənilərdən ikinci dəfə təmizlənmişdi. Gürcü elitasını ən çox qıcıqlandıran Gürcüstanda yaşayan erməni əsilli tarixçi Levan Taktakişvilinin saxtakarlıqla Tiflisin ermənilər tərəfindən və ermənilərin vəsaitilə tikilməsi iddiasını irəli sürməsidir. Gürcüstan tarixşünaslığında isə haqlı olaraq ermənilərin 200 il əvvəl rus generalı Paskeviç tərəfindən Gürcüstana və Tiflisə köçürüldüyü yazılır.

Erməni icması müasir Tbilisidə Avlabarda məskunlaşmışdır. Ermənilər Gürcüstan hesabına da "Böyük Ermənistan" yaratmaq iddiasındadırlar. Onlar Gürcüstanın Samtsxe-Cavaxetiya bölgəsini öz əraziləri hesab edirlər. Abxaz-gürcü münaqişəsində Abxaziyanın hərbi strukturlarına daxil olan "Marşal Baqramyan adına batalyon" gürcülərə qarşı amansızlığı ilə fərqlənmişdir. Ermənilər Gürcüstanın gözəl, şöhrətli paytaxtı Tbilisiyə həsrətlə baxaraq, onu "itirilmiş erməni şəhəri" siyahısına aid edirlər. Azərbaycanın qədim yaşayış məskəni olan Azərbaycan Xalq Cumhuriyyətinin Ermənistana güzəştə getdiyi İrəvanı özlərinə paytaxt etmiş ermənilər Gürcüstanın paytaxtını da özlərininki hesab etməklə, həyasızlığın ən bariz nümunəsini nümayiş etdirirlər.



### 3.4. Gürcüstan mətbuatı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü haqqında

SSRİ-nin dağılması prosesi münaqişələrin yaranması ilə müşaiyət olundu. XX əsrin sonlarında bütün Qafqaz od içində idi. Şimali Qafqazda Çeçenistanın müstəqilliyini Rusiya "antiteror" əməliyyatı ilə qarşıladı. Cənubi Qafqazda Rusiyanın yardımı ilə gürcü-abxaz və gürcü-osetin qarşıdurması baş verdi. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayəti Rusiyanın və Ermənistanın hərbi yardımı ilə separatçılıq və ayrılmaq xətti götürdü. Bununla da Azərbaycan-Ermənistan münaqişəsi başladı. Ötən əsrin 80-ci illərində başda M.S.Qorbaçov olmaqla SSRİ rəhbərliyinin ermənipərəst siyasəti, məkrli dünya erməni lobbisinin köməyi ilə ermənilərin "Böyük Ermənistan" mifinə uyğun Azərbaycandan əsassız ərazi iddiaları və açıq hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ münaqişəsi regional səviyyədən qlobal səviyyəyə yüksəldi. Əslində bu Ermənistanın Azərbaycana açıq hərbi təcavüzü idi.

Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu ya müstəqil, ya da öz ərazisinin tərkib hissəsi kimi görür, Qarabağ ətrafında işğal etdiyi rayonları qondarma Dağlıq Qarabağın təhlükəsizliyini təmin edən "bufer zona" hesab edir. Hətta Ermənistanın "Milli Təhlükəsizlik doktrinası"nda Dağlıq Qarabağ üçün təhdidlərin Azərbaycan və Türkiyədən gəldiyi rəsmi şəkildə təsbit edilmişdir. Azərbaycan münaqişəni öz ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquqa uyğun olaraq Dağlıq Qarabağa ən yüksək muxtariyyat verməklə və azərbaycanlı qaçqınların öz yurd-yuvalarına qayıtması ilə həll etmək istəyir. Ermənistan isə Dağlıq Qarabağ regionunun Azərbaycandan tam ayrılmasını istəməklə yanaşı, "xalqların müqəddəratını təyinetmə hüququna" "əsaslanır", azərbaycanlı məcburi köçkünləri isə öz dədə-baba yurdlarına qayıtmalarını istəmirlər. Beynəlxalq hüquq və dünyanın əksər güclü dövlətləri ərazi bütövlüyü prinsipini müdafiə edir. Ermənilər "bir dəfə öz müqəddəratlarını təyin edib" dövlət yaradıblar (əslində Azərbaycan torpaqlarında), indi yenə də Azərbaycan ərazisində ikinci dəfə "öz müqəddaratlarını təyin edib" ikinci erməni dövləti yaratmaq istəyirlər.

Bəs Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə Gürcüstan mətbuatında münasibət necədir? Bu yanaşmaları aşağıdakı kimi təsnif etmək olar:

1) Rəsmi Gürcüstan dövlətinin mövqeyi;

2) Gürcü tarixçilərinin, siyasətçilərinin, müstəqil politoloqlarının, konfliktoloqlarının, jurnalistlərin və müxalifət mətbuatının rəyləri və proqnozları.

Rəsmi Gürcüstan rəhbərliyi öz ərazilərində oxşar münaqişələrin (Abxaziya, Tsxinvali) baş verdiyinə və ərazilərini itirdiyinə, Türkiyə və Azərbaycanla strateji əməkdaşlığına görə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində maraqlıdır. Gürcüstan parlamentinin sədri David Usupaşvili bəyan etmişdir: "Biz Gürcüstan üçün qardaş olan iki respublika arasında hərbi münaqişədən narahatıq. Bizim mövqeyimiz belə olub və belə də olaraq qalacaqdır ki, biz Qafqazda və bizimlə qonşu olan ölkələrdə sülh istəyirik."[158]

Avropaya inteqrasiya üzrə parlament komitəsinin sədri Levan Berdzenaşvili bu baxımdan Gürcüstan müstəqil olduğu dövrdə heç bir hakimiyyətin səhv etmədiyini bildirir: "Zviad Qamsaxurdiyadan başlamış Şevardnadzenin və Saakaşvilinin, hətta indiki hökumətin də daxil olduğu Gürcüstanın bütün hökumətləri yaxşı başa düşdülər və başa düşürlər ki, bu məsələdə ehtiyatlılıq lazımdır"-deyə "İmedi" teleşirkətində Dağlıq Qarabağ münaqişəsini şərh edən Berdzeneşvili demişdir: "Biz heç vaxt səhv etməmişik və tərəflərdən heç birinə meyil etməmişik, qonşulardan heç birinin xətrinə dəyməmişik."[159]

Politoloq Korneliya Kokeçiya Dağlıq Qarabağ münqişəsinin kəskinləşməsində bilavasitə Rusiyanın roluna toxunaraq Moskvanın münaqişəyə açıq müdaxilə edə bilmədiyini aşağıdakı kimi ifadə edir: "Rusiya nə Azərbaycanın, nə də Ermənistanın xətrinə dəymək istəyir. Rusiyanın müdaxiləsi avtomatik olaraq Türkiyənin müdaxiləsinə səbəb olar. Buna görə də Rusiyaya hər iki tərəfin zəifləməsi əl verir, onlara vasitəçi kimi müraciət edir. Bu isə heç bir güllə atmadan onun Qafqazda nüfuzunu artırır."[160]

Ekspertin fikrincə, Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsi bəzi hallarda Moskvanın maraqlarına xidmət edir. Rusiya münaqişə edən tərəflərin barışdırıcısı kimi iştirak edir və öz sülhməramlı qoşunlarını orada yerləşdirə bilər. Kokeçiya göstərir ki, əgər Dağlıq Qarabağ münaqişəsi kəskinləşərsə Gürcüstanda vəziyyət gərginləşə bilər:

1) Gürcüstan ərazisində terrorizm aktları təhlükəsi yarana bilər;

[158] Карабахский конфликт Грузия придерживается нейтралитета. 07.04.2016 // www.bbc.com/russian/international/2016/04/160406_karabakh_georgia
[159] Yenə orada.
[160] Yenə orada.



2) Hər iki tərəfdən gələn qaçqınların axını nəticəsində ölkə humanitar fəlakət qarşısında qala bilər;

3) Gürcüstan şimaldan cənuba - Türkiyədən Azərbaycana tranzit ərazi kimi ağır vəziyyətə düşə bilər;

4) Qonşular arasında hərbi qarşıdurma Gürcüstanda ağır iqtisadi nəticələrə gətirib çıxara bilər: "Biz Azərbaycanın enerji ehtiyatlarından asılıyıq. Eyni zamanda sərhədlərində müharibə gedən ölkə kimi Gürcüstanın imicinə zərbə dəyə bilər, heç kəs bu ölkəyə investisiya qoymaz."[161]

Gürcüstan Dağlıq Qarabağ münaqişəsində daim tam bitərəflik nümayiş etdirib. Gürcüstan bu mövqeyini davam etdirmişdir.

Gürcüstanın hüquq və siyasət institutunun dekanı Bakur Kvaşilava Gürcüstanın qonşular arasında vasitəçilik roluna şübhə ilə yanaşır. B. Kvaşilavanın fikrincə, əgər tərəflər Tbilisidə görüşmək istəsələr Gürcüstan bu imkanı təmin etməlidir. "Lakin Gürcüstanın məsələn İsveçrənin Rusiya-Gürcüstan münasibətlərində yerinə yetirdiyi funksiyaya bənzər vəzifəni həyata keçirmək üçün bu mərhələdə ehtiyatları yoxdur ki, fəal vasitəçilik rolunu həyata keçirsin."[162]

Gürcüstan Avropa İttifaqı ilə əlaqələrdə fəal rol oynayır: "Əgər regionda partlayış baş verərsə, Avropa İttifaqı ilə qonşuluqda böyük qeyri sabitlik yarana bilər. Onda Avropa İttifaqı siyasi və maliyyə investisiyası qoyduğu ehtiyatları, bütövlükdə Gürcüstanı itirə bilər."[163]

Münaqişə tərəflərindən gələn müxtəlif xarakterli informasiyalar Qarabağ münaqişəsi ilə bağlı sonrakı hadisələrin inkişafı ilə əlaqədar proqnozlar verməyi mürəkkəbləşdirir. Atəşkəsin əldə olunması hər iki tərəfin geniş miqyaslı hərbi əməliyyatlar aparılmasında maraqlı olmadığını göstərir. Gürcüstanın Avroatlantik İnteqrasiyası üzrə keçmiş nazir müavini Yelena Xoştariya deyir: "Münaqişənin mahiyyəti ondadır ki, onu dondurulmuş hesab etmək olmaz, o, hər an partlayışa səbəb ola bilər, burada heç bir beynəlxalq qabaqlayıcı amil yoxdur və praktiki olaraq beynəlxalq birlik bu prosesdə iştirak etmir."[164]

ATƏT-in Minsk qrupunun mövcud olmasına baxmayaraq, Qərb ölkələrinin, xüsusilə Avropa İttifaqının münaqişənin tədricən tənzimlənməsi üçün real məşğul olması üçün siyasi iradəsi praktiki olaraq yox dərəcəsindədir.

[161] Yenə orada.
[162] Yenə orada.
[163] Yenə orada.
[164] Yenə orada.

Rusiya hər iki tərəfi həm Azərbaycanı, həm da Ermənistanı hərbiləşdirir. Bu baxımdan region hər an partlayışa səbəb ola bilər. Gürcüstan Qarabağ münaqişəsinin 2016-cı ilin aprel döyüşlərindən dərs götürərək belə qənatə gəlir ki, tərəflər arasında növbəti partlayış daha ciddi nəticələrə gətirər.

2016-cı ilin aprel döyüşləri zamanı Gürcüstanın baş naziri Giorgi Kivirikaşvili Dağlıq Qarabağ ətrafında baş verən hadisələrlə əlaqədar keçirdiyi iclasda döyüş əməliyyatlarının başlanması ilə əlaqədar öz narahatlığını bildirmişdir. Baş Nazir sülh və sabitliyin təmin olunması üçün beynəlxalq birliyin səylərini artıracağına ümid etdiyini bidirmişdir.

Rəsmi dövlət mövqeyinə görə, Gürcüstan Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və Ermənistanın Azərbaycana hərbi təcavüzünün aradan qaldırılmasına və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun qısa müddətdə həll olunmasına tərəfdardır. Gürcüstan münaqişənin həllində vasitəçi-mediator rolunda çıxış etməyə hazırdır.

Gürcü hərbi eksperti Vaxtanq Maisaya belə hesab edir ki, Gürcüstanın rəhbərliyi beynəlxalq birliyin Ermənistan və Azərbaycan arasında vasitəçi olmasını məqsədəuyğun olduğunu qəbul edir. O, deyir: "İndiki mərhələdə bu lokal müharibə regional müharibəyə keçə bilər. Mən fikirləşirəm ki, tərəflər düşünməlidirlər. Gürcüstan danışıqlarda fəal iştirak etməlidir ki, bu münaqişə lokal müharibə olaraq qalsın. Gürcüstan indi beynəlxalq qurumlarla birlikdə Azərbaycan və Ermənistan arasında vasitəçi olsun."[165]

Analitiklərdən Sergi Kapanadze Gürcüstan rəhbərliyini xəbərdar edir ki, münaqişənin genişləndiyi halda beynəlxalq təşkilatların mövqelərində özü üçün müəyyən suallara cavab tapmalıdır. Dağlıq Qarabağ ətrafında vəziyyətin kəskinləşməsi nəticəsində tezliklə iri miqyaslı hərbi əməliyyatlar başlaya bilər.

Onun fikrincə, Gürcüstan aşağıdakı suallara cavab axtarmalıdır:

– Biz Rusiyanın aviasiyasını Ermənistana kömək üçün buraxmalıyıqmı?

– Gümrü hərbi bazasına yardım üçün rus hərbi dəstələrini buraxmalıyıqmı?

[165] ცოტნიაშვილი ზ. მთიანი ყარაბაღის კონფლიქტი და საქართველო / TV საპატრიარქოს ტელევიზია ერთსულოვნება // www.youtube.com/watch?v=-NVwGzTDd8UA&in



– Türkiyə hərbi qüvvələrinə və Azərbaycana digər hərbi yardımlara şərait yaratmalıyıqmı?

– Bizim limanları Azərbaycan və Ermənistan tərəfə hərbi və digər mallar üçün verməliyikmi?

– Hansı tərəfə biz humanitar yardım verilməsinə şərait yaradacağıq?

Gürcüstan mətbuatında diqqəti cəlb edən məsələlərdən biri də məşhur "İsgəndər" raketlərinin ermənilərin hərbi paradında nümayiş etdirilməsinə münasibətdir. İrakli Aladaşvili "Kviris Palitra" qəzetində "Kimindir, kimindir..? Qonşumuz olaraq "İsgəndər"? məqaləsində yazır ki, erməni hərbi rənglərinə boyanmış "İsgəndər" raketlərinin nəzarəti və idarəsi əslində Rusiya hərbiçilərinin əlindədir. "İsgəndər"ləri erməni hərbi rənglərinə boyamaqla Moskva və İrəvan Ermənistan əhalisini və Azərbaycan hakimiyyətini çaş-baş salmağa çalışdılar. Emənistan Prezidenti Serj Sarkisyan Rusiya medialarına verdiyi müsahibə zamanı bəyan etdi ki, sentyabrın 21-də Ermənistanda keçirilən hərbi paradda nümayiş etdirilən, erməni hərbi rənglərinə boyanmış "operativ-taktiki raket sistemlərini - "İsgəndər"ləri Ermənistan əldə etmək gücündə deyil və onları Ermənistanda vəziyyəti tarazlaşdırmaq məqsədi ilə Rusiya gətirmişdir. Çünki Azərbaycan son zamanlar müasir silahları əldə etmək üçün küllü miqdarda vəsait sərf etmişdir. Bununla əsas sualın cavabı verildi – İrəvanda keçirilən paradda nümayiş etdirilən "İsgəndər"lər kimindir və onlar hansı modifikasiyadan idilər. Məsələ burasındadır ki, əgər Rusiya bu "İsgəndər"ləri Ermənistana satsaydı, və ya hədiyyə etsəydi, onlar mütləq ixraci modifikasiyalı olardılar və bu tip raketlərinin maksimal uçuş məsafəsi 300 kilometrdən artıq olmamalı idi. Əks halda Moskva "Raket və raket texnologiyaları üzərində nəzarət rejimi" nə dair beynəlxalq razılaşmanı pozmuş olardı. Amma Rusiya "İsgəndər"in ixracı variantını hələ ki, heç kəsə satmamışdır və ola bilsin ki, ixracı variantı heç mövcud da deyildir. Buna görə də 2016-cı il sentyabrın 19-da Gürcüstanın mətbu orqanı "Kviris Palitra" "Moskva Ermənistana "İsgəndər"ləri verməklə Cənubi Qafqazda vəziyyəti son dərəcə gərginləşdirdi" adlı məqaləsində yazırdı ki, rus hərbiçiləri Emənistana "İsgəndər-M" aparmışlar. Onların uçuş məsafəsi təxminən 480 kilometrdir. Yuxarıda qeyd edildiyi kimi, Rusiya Ermənistana bu raketləri verməklə beynəlxalq razılaşmanı pozmuş olardı, Kremlə isə bu mərhələdə belə bir addım atmaq əl vermir. Buna görə də Ermənistana aparılan "İsgəndər"ləri faktiki olaraq rus hərbiçiləri idarə edir və onları Gürcüstanın sərhəddi ya-

xınlığındakı Gümrünün 102-ci rus bazasında yerləşdirdilər. Amma niyə rus "İsgəndər"ləri erməni hərbi rənglərinə boyanmışdır?[166]

Müəllif yazır ki, bununla Rusiya və Ermənistan hakimiyyəti iki məqsəd güdməyə cəhd etdilər. Birincisi, apreldə 4 günlük müharibə zamanı Rusiyanın soyuqluğundan narazı qalan erməni əhalisini aldatdılar. Guya Rusiya Ermənistana Bakıya da çata bilən raketlər verdi. İkincisi isə bu yalan Azərbaycanı qorxutmağa da yönəlmişdir. Onları inandırmalı idilər ki, əgər Bakı Dağlıq Qarabağı müharibə yolu ilə qaytarmaq qərarına gəlmişdirsə, erməni "İsgəndər"ləri Azərbaycanın hər bir bölgəsinə çatacaqdır. Əslində isə İrəvanın Moskvaya nə qədər yalvarmasından asılı olmayaraq, rus generalları Gümrü bazasında yerləşdirilmiş "İsgəndər"ləri Azərbaycana qarşı istifadə etməzlər, çünki Bakının Kreml ilə yaxşı münasibətləri vardır.[167]

O zaman təxminən 480-500 km-ə yaxın uçan nüvə kabinəsini daşıyan Rusiyanın "İsgəndər" raketlərinin Ermənistanda nə işi var? Rusiyanın onları Ermənistana Gürcüstanı qorxudmaq məqsədi ilə gətirməsi ehtimalı inandırıcı deyildir. Çünki Rusiya "İsgəndərləri" ilə Gürcüstanın istənilən nöqtəsini işğal olunmuş Tsxinvali regionundan, Abxaziyadan və həmçinin Şimali Qafqazdan vura bilər. Rus "İsgəndər"lərinin Ermənistana gətirilməsinin əsas məqsədi, Rusiyanın Yaxın Şərqə yönəlmiş artan strateji maraqlarıdır. Kremlin təsirinin Suriyada, İranda və hətta NATO üzvü olan Türkiyədə belə artmasında öz əksini tapır.

Azərbaycan Respublikasının müstəqil xarici siyasəti, iqtisadi cəhətdən inkişafı Rusiyanı ona siyasi, hərbi təzyiq imkanından məhrum edir. Ona görə də Ermənistan Azərbaycanla vəziyyəti kəskinləşdirmək istəmir. Gürcüstan politoloqu Aleksandr Kuxianidze bunun bir neçə səbəbini göstərir: "Birincisi, Ermənistan artıq Dağlıq Qarabağı işğal edib, Azərbaycandan yeni ərazi iddiasında deyil. İkincisi, Azərbaycana da neft planlarını həyata keçirmək və əmin-amanlıq lazımdır. Üçüncüsü, ruslar artıq keçmişdəki kimi o qədər də güclü mövqe tutmurlar. Çeçen müharibəsindən sonra Rusiyanın separatçı qüvvələrə yardımı zəifləmişdir. O, daha çox BMT-nin və ya ATƏT-in müşahidəçiliyi altında vasitəçilik və sülhməramlı funksiyanı yerinə yetirməyə cəhd edir"[168] Lakin gürcü politoloqu unudur ki, Ermənistan Azərbaycandan təkcə Dağlıq Qarabağı deyil, digər əraziləri, o cümlədən Naxçıvanı da "istəyir". Azərbaycan isə öz ərazi bütövlüyünü hərbi yolla bərpa etməyə hazırdır.

Gürcüstana neft və qazın kapital qoyuluşu daxili siyasi sabitlik və mövcud münaqişələrin bütün imkan daxilində tənzimlənməsini, Azərbaycan-Gürcüstan-Türkiyə neft, Rusiya-Ermənistan qaz kəmərinə qarşı təxribat aktlarının qarşısının alınmasını tələb edir. Rusiya Gürcüstan-Azərbaycan və onların Qərb şirkətlərilə əməkdaşlığına öz milli maraqlarına təhdid kimi baxır.

A.Kuxianidze Gürcüstanın Ermənistan-Azərbaycan münaqişəsini tənzimləmək üçün sülhməramlı qüvvələrin yaradılmasının heç bir şəraitdə yolverilməz olduğunu aşağıdakı kimi əsaslandırmağa çalışır: "Birincisi, onun vəziyyəti qonşu ölkə kimi BMT normalarına uyğun olaraq bunu etməyə imkan vermir; ikincisi, onun şərq və cənub regionlarında kompakt yaşayan azərbaycanlılar və ermənilər məskunlaşmışlar və Gürcüstan qorxur ki, sülhməramlı funksiyanı yerinə yetirərkən o, bitərəflik kimi qəbul olunmasın; üçüncüsü, bu kiçik ölkə yoxsul iqtisadi vəziyyətdədir və öz münaqişələrini də tənzimləməlidir. Lakin Gürcüstan yüksək səviyyəli görüşlərin keçirildiyi yer kimi vasitəçi ola bilər"[169]

Gürcüstan Şərq və Qərblə körpü rolu oynamağa cəhd edərək İran, Rusiya və Qərb arasında tarazılığın yaranmasında maraqlıdır. Eyni zamanda Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Qərb ölkələri ilə birgə layihələrdə də iştirak edir. Bütün bunlar isə Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində onun tam bitərəflik nümayiş etdirməsini zərurətə çevirir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı Gürcüstan tam bitərəflik nümayiş etdirərək öz ərazisində yaşayan ermənilərlə azərbaycanlılar arasında toqquşmalara icazə vermədi.

Gürcüstan mətbuatında təcavüzkar Ermənistanın silahlandırılması ciddi təşviş doğurur. Gürcüstanın mətbuat orqanı "Rezonansi" yazır: "Rusiya Gürcüstanın hər iki qonşusunu müasir, güclü silahlarla, operativ-taktiki raketlərlə təmin edir. Gürcüstanı narahat edən odur ki, Yerevan "İs-

[166] ალადაშვილი ი. ვისია, ვისია... ჩვენს მეზობლად "ისკანდერი"? 21.11.2016 // www.kvirispalitra.ge/samkhedro-thema/32460-visia-visia-chvens-mezoblad-qiskanderiq.html
[167] Yenə orada.



[168] Карабахский Конфликт Грузия придерживается нейтралитета. 07.04.2016 // www.bbc.com/russian/international/2016/04/160406_karabakh_georgia
[169] Карабахский конфликт: Грузия придерживается нейтралитета. 07.04.2016 // www.bbc.com/russian/international/2016/04/160406_karabakh_georgia

kəndər" və "U nöqtəsi" raketlərinin köməyilə Azərbaycanın strateji əhəmiyyətli obyektləri olan Mingəçevir su anbarını və Bakı-Tbilisi-Ceyhan neft kəmərini partlada bilər.

Gürcü hərbi eksperti Georgi İnauri belə hesab edir ki, Azərbaycanla Ermənistanın silahlanmasını müqayisə belə etmək olmaz. Yüksək maliyyə imkanlarına malik olan Azərbaycan təkcə Rusiyadan deyil, Türkiyə və İsraildən də silah alır.

Beləliklə, Gürcüstanda KİV Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin yenidən başlanmasının Gürcüstan üçün fəlakətli nəticələrini bu cür göstərirlər:

— Gürcüstanın münaqişə tərəfləri üçün tranzit ölkəyə çevrilməsi ölkəyə siyasi, iqtisadi, mənəvi zərbə vura bilər;

– Münaqişə tərəfləri arasında vasitəçi olması da Gürcüstan vətəndaşları olan azərbaycanlılar və ermənilər arasında gərginliyə səbəb olar, onların hərbi əməliyyatlarda iştirak etməsi ehtimalını artıra bilər;

– Gürcüstana iqtisadi cəhətdən dəhşətli zərbə dəyə bilər. Çünki bütün strateji obyektlər məhv edilər, bu isə iqtisadi tənəzzülə gətirib çıxara bilər.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə gürcü mətbuatında yanaşmaları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) rəsmi Gürcüstan rəhbərliyinin mövqeyi. 2) Gürcü tarixçilərinin, müstəqil siyasətçilərinin, konfliktoloqlarının, jurnalistlərin, müxalifətin münaqişəyə dair rəyləri, proqnozları açıqlanır.

– Gürcüstan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində maraqlıdır.

– Buna görə də rəsmi dairələr Dağlıq Qarabağ regionunu müstəqil qurum kimi tanımır, orada baş verən bütün "siyasi prosesləri" ( hər cür "qondarma seçkiləri") qəbul etmir.

– Hər iki qonşu dövlətlə mehriban qonşuluq siyasəti yeritməyi əsas gətirən Gürcüstan iqtidarı bitərəf, ehtiyatlı siyasət yürütməyə üstünlük verir.

– Hərbi ekspertləri, konfliktoloqları, politoloqları narahat edən məsələ Dağlıq Qarabağ regionunda lokal müharibənin regional, hətta qlobal müharibəyə çevrilmək təhlükəsi və bu zaman Gürcüstanın milli maraqlarına və təhlükəsizliyinə təhdidlərin yaranmasıdır.

– Gürcü ekspertlər Türkiyə və Pakistanın Azərbaycana köməyini siyasi müharibənin "dini qarşıdurma" ya çevrilməsi kimi dəyərləndirirlər.

– Gürcü mətbuatında Dağlıq Qarabağ münaqişəsilə bilavasitə bağlı olan ermənilərin yaşadıqları Cavaxetiya və əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Borçalı (Kvemo Kartli) qarşıdurması baş verməsi təhlükəsindən də ehtiyat edilir.



– Gürcü tərəfini narahat edən digər təhlükə odur ki, qlobal müharibə başlayarsa Rusiya öz müttəfiqi Ermənistana hərbi yardım etmək üçün ya Gürcüstandan dəhliz kimi istifadə edə bilər, ya da Tsxinvalinin separatçı rejimini "sürünən işğal"a sövq etməklə Gürcüstanın ərazilərinin işğalını daha da dərinləşdirərək həmin "yeni işğal olunmuş ərazilər" vasitəsilə birbaşa Ermənistanla əlaqə yarada bilər.

– Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gürcü mətbuatında bədbin (hətta, qeyri-obyektiv, ədalətsiz) və nikbin (obyektiv,ədalətli) proqnozlar səslənir.

– Nikbin proqnoza görə Dağlıq Qarabağ Azərbaycanın əbədi ayrılmaz tərkib hissəsidir və Ermənistan bunula razılaşmalıdır.

— bədbin proqnoza və qeyri-obyektiv yanaşmaya görə guya "Dağlıq Qarabağ əsrlər boyu mübahisəli ərazi olmuşdur öz həllini tapmamış bir ərazidir, müasir dövrdə onun həlli qeyri-mümkündür."

## 3.5. Gürcüstanda müxtəlifdilli KİV və hakimiyyət

Müasir dövrdə KİV cəmiyyətin ictimai həyatında əhəmiyyətli yerlərdən birini tutur. İstər siyasi, istərsə də ictimai həyatda baş verən bütün hadisələrdən xəbərdar olmaq üçün hər gün həm nəşr edilmiş, həm də internet vasitəsilə minlərlə məlumat əldə olunur. Kütləvi informasiya vasitələri məlumatlandırıcı xüsusiyyət daşımaqla yanaşı, həm də cəmiyyətdə fikrin formalaşdırılmasında fəal iştirak edir. Təsadüfi deyildir ki, məhz bu xüsusiyyətlərinə görə, KİV "dördüncü hakimiyyət" statusunu qazanmışdır. Bu anlamda o, beynəlxalq və milli münasibətlərdə əldə edilmiş təcrübələrin cəmiyyət tərəfindən dərk olunmasında iştirak edir. Üstəlik müasir beynəlxalq aləmdə baş verən proseslərin geniş kütlə tərəfindən qəbul olunmasında, demokratik dövlətlərdə hakimiyyətin hüquqi bazasının yaradılmasında, hətta millətlərarası münasibətlərdə şüurun formalaşmasında da rol oynayır. Hazırda Gürcüstanda gürcüdilli KİV-dən başqa Azərbaycandilli, rusdilli və ermənidilli mətbuat da fəaliyyət göstərir.

**Gürcüdilli KİV**. Sovet hakimiyyəti dağıldıqdan sonra Gürcüstanda bir neçə yeni qəzet və televiziya kanalları fəaliyyət göstərməyə başladı. Zviad Qamsaxurdiyanın hakimiyyəti zamanı Gürcüstanda kütləvi infor-

masiya vasitələri əsasən millətçi təbliğatı aparırdılar. 1994-cü ilədək partiyanın nəşrlərinə heç bir məhdudiyyət qoyulmurdu.

1990-2000-ci illər ərzində 600-dək qəzet qeydiyyatdan keçirilmişdi. Gürcüstanda mətbuat azadlığının ilk nümunəsi 1994-cü ildə yaradılan Rustavi-2 telekanalı hesab olunur. Tədricən Gürcüstanda media cəmiyyətin rəğbətini qazanan institutlardan birinə çevrilməyə başladı. Hazırda Gürcüstanda 70 tele və radiostansiya, 200-dək nəşr olunan KİV fəaliyyət göstərir. "Qızılgül inqilabı"na qədərki dövrə nəzər yetirdikdə hakimiyyətdə baş qaldıran özbaşnalıq, korrupsiya hallarının artımı media sahəsinə də öz mənfi təsirini göstərmişdir. Bəhs olunan dövrdə Rustavi-2 telekanalı dəfələrlə bağlanmaq təhlükəsi ilə üz-üzə qalmış, teleşirkətin jurnalisti olan Giorgi Sanayanın qətli, digər jurnalistlərin təqib olunması, təzyiqlərə məruz qalması media sahəsində çaxnaşmaya səbəb olmuşdu. "Qızılgül inqilabı" ilə Mixeil Saakaşvilinin hakimiyyətə gəlməsi mətbuat sahəsində gündəmin də dəyişməsinə gətirib çıxardı. Bir neçə kanal və qəzetin fəaliyyəti dayandırıldı: Bunlardan İberiya telekanalı, "Axali Epoka" ("Yeni dövr"), "Dilis qazeti" ("Səhər qəzeti"), "Mtavari qazeti" ("Dövlət qəzeti") qəzetləri, "Omeqa" jurnalı, "İnter Press" agentliyi, "Ğamis Kuryeri" ("Gecə kuryeri"), "Ğamis Mzera" ("Gecə baxışı"), "Ra xdeba" ("Nə baş vermişdir?"), "60 çuti" ("60 dəqiqə"), "Taimauti" ("Vaxt bitdi") verilişləri və s. adını çəkmək olar. Digər kanallara və mətbu orqanlara rəhbərlik iş adamlarının əlində cəmlənməyə başladı. Ümumilikdə isə Kavkasia telekanalı istisna olmaqla bütün kanalların rəhbərlik sistemi tamamilə dəyişdirildi. 2003-cü il "Qızılgül inqilabı" və 2004-cü ildə prezident seçkilərini müqayisə etdikdə görünür ki, media sahəsində az da olsa inkişaf nəzərə çarpır. Bu dövrə Dövlət Teleradio Şirkətinin İctimai Yayımı formalaşdırması prosesini aid edə bilərik. Bəhs olunan dövrdə Gürcüstanda İmedi (Ümid), Kavkasia, Mze (Günəş) kimi müxalif kanalları fəaliyyət göstərirdi.

Mediada reytinqlərin enməsinə səbəb 2008-ci ildə baş verən hadisələr oldu. Bu əsasən İmedi telekanalında baş verən proseslərlə, gürcü-rus müharibəsi ilə əlaqədar olmuşdu. Həmin ərəfələrdə 3 jurnalist həlak olmuşdu. 2012-ci il seçkiqabağı təzyiqlər nəticəsində "Mestro" və B.İvanişvilinin rəhbərliyi altında fəaliyyət göstərən "Doqquzuncu kanal" teleşirkətlərinin yayımı məhdudlaşdırılmışdı. Paradoksal səslənsə də, 2011 və 2012-ci illərdə media sahəsinin inkişaf etdirilməsi üçün parlament "Yayım haqqında qanun"a dəyişiklik etmişdi. Bu qanun az da olsa mətbuat sahəsinin tərəqqisinə gətirib çıxarmışdı.



Gürcü cəmiyyəti informasiyanı ən çox televiziya vasitəsi ilə alır. Məsələn, 2013-cü ildə aparılan sorğuya əsasən, əhalinin 86%-i informasiyanı televiziyadan, 4%-i internetdən alır. Ən çox reytinqli kanal kimi birinci yerdə Rustavi-2 ("Kuryeri" verilişinə görə), növbəti yerlərdə İmedi, Maestro, Kavkasia dayanırdı.[170]

Mediada şəffaflıq və media sahiblərinin fəaliyyət məsələsi uzun müddət əhəmiyyət kəsb edən əsas problemli məsələlərdən biri olmuşdur. Media vasitələrinin sahibləri dəyişdirildikdən sonra bu proses 2012-ci il parlament seçkilərindən sonra da öz müsbət təsirlərini göstərmişdi. Bəhs olunan dövrdə kütləvi informasiya vasitələri sahəsində aşağıdakı dəyişikliklər olmuşdu:

– İmedi teleşirkəti iş adamı Badri Patarkatsişviliyə qaytarılmışdı;

– Real TV-nin fəaliyyəti dayandırılmışdı. Teleşirkətin bazası əsasında yeni sahibləri tərəfindən tamamilə fərqli konsepsiyaya və redaksiya siyasətinə malik "TV 3" fəaliyyət göstərməyə başlamışdı;

– Rusdilli teleşirkət TV PİK fəaliyyətini dayandırmışdı;

– Həmin dövrdə Rustavi-2 kanalı artıq neçənci dəfə idi ki, sahibini dəyişdirirdi;

– Sakartvelo (Gürcüstan) şirkəti fəaliyyətini dayandırdı və onun lisenziyası Tabula jurnalını idarə edən "Vətəndaş maarifi cəmiyyəti" tərəfindən alındı. İndi həmin kanalın əvəzində Tabula TV fəaliyyət göstərir;

– Dəfələrlə Telekanal 25-in sahibləri dəyişmişdi;

2003-cü ildən bəri Gürcüstanda mətbuat sahəsində ciddi dəyişikliklər baş vermişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, inqilabın baş tutması ilə bir çox kanallar və mətbu orqanlar fəaliyyətini dayandırmışdır. Həmin telekanalların bəziləri haqqında qısaca məlumat aşağıdakı kimidir:

**İberiya teleşirkəti:** "Qızılgül inqilabı"ndan sonra 2004-cü ildə fəaliyyətini dayandıran ilk kanal olmuşdur. Verilən qərarı telekanalın sahibi Zaza Okriaşvili Vergi xidmətinin onun biznesində apardığı yoxlamalarla əsaslandırmışdı.

**Mze teleşirkəti:** 2005-ci ildə kanal hakimiyyətə qarşı müxalif mövqe tutduğundan sahibləri uzaqlaşdırıldı. 2012-ci il parlament seçkilərinə qədər keçmiş sahiblərdən biri olan Vano Çxartişvili məhkəmə qərarı ilə

[170] „რუსთავი 2"-ს წინასაარჩევნო პერიოდში ყველაზე მაღალი რეიტინგი აქვს, საზოგადოებრივი მაუწყებელი კი მსხვილ ტელევიზიებს საგრძნობლად ჩამორჩება // www.transparency.ge/ge/blog/%E2%80%9Erustavi-2%E2%80%9D-s-tsinasaarchevno-periodshi-qvelaze-maghali-reitingi-akvs-sazogadoebrivi-mautsqebel

fəaliyyəti yenidən davam etdirmək istəsə də, sonradan məlum oldu ki, bu addımı GDS TV şirkəti artıq atıb və 2013-cü ilin iyulundan Mze teleşirkəti öz lisenziyasını həmin şirkətə satmalı oldu. Qeyd etmək lazımdır ki, GDS TV şirkətinin sahibi keçmiş baş nazir və hazırda da Gürcü Arzusu Partiyasının sədrliyi vəzifəsini qəbul etmiş Bidzina İvanişvilinin oğlu Bera İvanişvilidir.

**İmedi telekanalı:** 2007-ci ilin payızında dövrünün milli ictimai müxalif kanalı olan İmedi (Ümid) də xüsusi təyinatlı qüvvələr hakimiyyət çevrilişi etməyə cəhd göstərdilər. 2008-ci ildə iş adamı Badri Patarkatsişvilinin ölümündən sonra kanal ölkədə hakimiyyət başında olan qüvvələrin əlinə keçdi. 2012-ci il seçkilərindən sonra Saakaşvili hakimiyyəti onu keçmiş sahibinə Patarakatsişvili ailəsinə geri qaytardı. Gürcüstanda hakimiyyətə Gürcü Arzusu Partiyası gəldikdən sonra İmedi telekanalı təmailə öz siyasi istiqamətini dəyişərək hakim partiyanı dəstəkləyən kanala çevrildi. Hazırda kanal hakimiyyətə qarşı loyal münasibəti ilə seçilən, siyasi məsələlərin ciddi müzakirəsindən uzaq olan sistem əsasında fəaliyyət göstərir. Bu gün İmedi kanalı gürcü cəmiyyətində Rustavi-2 telekanalı ilə rəqabət aparan əsas kanal olaraq qalır.

**Rustavi-2 telekanalı:** "Beynəlxalq şəffaflıq-Gürcüstan" qeyri-hökumət təşkilatının bildirdiyinə görə, təkcə 2004-2012-ci illərdə Rustavi-2 telekanalının sahibləri 20 dəfə dəyişmişdir. Bu cür amillər əsasən şübhəli Mixeil Saakaşvili və Vahid Milli Hərəkat Partiyası ilə bağlı razılaşmalar səbəbilə yaranırdı. Rustavi-2 telekanalı müxalifətlə əlaqəsi olduğu hesab olunan ən böyük kanaldır. Hələ 2013-cü ildə Milli Demokratiya İnstitutunun (NDİ) və Qafqaz Tədqiqat Resursları Mərkəzinin apardığı sorğulara görə, respondentlərin 47%-nin fikrincə, Rustavi-2 Milli Hərəkat Partiyasının maraqlarını əks etdirirdi. Mixeil Saakaşvili hakimiyyətdən getdikdən sonra siyasi aləmdə mübarizəyə davam gətirən bu kanalın hazırda rəsmi sahibləri Giya və Levan Karamanişvili qardaşlarıdır. Rustavi-2 kanalının baş direktoru sabiq təhsil naziri və Gürcüstan Baş prokurorunun müavini olmuş Nika Qvaramiyadır.

**Doqquzuncu kanal teleşirkəti.** 1996-cı ildə yaradılmışdır. 1999-cu ildə Tbilisidə və Şərqi Gürcüstanın bir neçə regionunda yayımlanırdı. Əsas məqsəd kimi 2012-ci ildə keçiriləcək seçkilərlə bağlı yaradılan kanal "Qızılgül inqilabı"ndan sonra B.İvanişvili tərəfindən gözlənilmədən bağlandı. O zaman kanalın texniki vasitələrinin bir qismi Rustavi-2 kanalına, digər hissəsi isə Birinci kanala verildi.



Gürcüstanda qəzetlər cəmiyyətin plüralist baxışını tərənnüm edir və hər dörd vətəndaşdan birinin əsas informasiya aldığı mənbə hesab olunur. 2010-cu ildə Gürcüstanda 502 qəzet Statistika Departamentində qeydiyyatdan keçirilmişdir. Bunlardan 376-sı milli, 126-sı regional qəzetlərdir.[171] "24 saati" ("24 saat") və "Rezonansi" ("Rezonans") qəzetləri ən tanınmışları hesab olunur. Gürcüstanda gündəlik qəzetlərdən: "Aliya", "Axali taoba" ("Yeni nəsil"), "Sakartvelos Respublika" ("Gürcüstan Respublikası"), "Mtavari qazeti" ("Dövlət qəzeti"), "Versiya", "Asaval-Dasavali" ("Kələ-kötür") və həftəlik "Kviris palitra" ("Həftənin palitrası") dərc edilir. Qəzetlərin əksəriyyətinin redaksiyası paytaxt Tbilisidə yerləşir. Regional çap nəşrlərindən isə əsasən həftəlik olanları göstərmək olar ki, bunlardan "Batumelebi", "Axali qazeti" ("Yeni qəzet"), "PS", "Guria News", "Kaxetis xma" ("Kaxetiyanın səsi"), "Spektri" və "Samxretis karibçe" ("Cənub darvazası") diqqəti cəlb edir.

Məlumdur ki, mətbuat cəmiyyətdə ictimai rəyin formalaşmasında əhəmiyyətli dərəcədə mühüm rol oynayır. Baş verən siyasi hadisələrin izlənilməsi baxımından Gürcüstanda bəzi kanallar xüsusilə fərqlənir. Bu fərqi əsasən aparılan sorğular və illik hesabatların nəticəsində müşahidə edə bilərik. Məsələn, Milli Demokratiya İnstitutu (NDİ) 2018-ci ilin mart-aprel aylarında ictimai rəyin öyrənilməsi üçün "Hansı kanala inanırsınız?"[172] adlı sorğu keçirib. Nəticələrə görə, Gürcüstanda yayımlanan kanallar baş verən siyasi prosesləri əks etdirməsi baxımından əhalinin inamını aşağıdakı faiz nisbəti ilə qazanmışdır:

**İmedi**-33%
**Rustavi-2**-27%
**Heç birinə**-22%
**İctimai kanal**-4%
**Tv Pirveli** (Birinci kanal)-2%
**Obiektivi**-2%
**Palitra**-2%
**Digərləri**-4%
**Bilmirəm**-5%
**Cavabdan imtina**-1%

---

[171] Media Landscapes of Eastern Partnership Countries, p. 64. // www.ijc.md/Publicatii/-resurse/Media-Landscapes-en.pdf

[172] NDI: Какому каналу вы доверяете. 01.05.2018 // www.apsny.ge/2018/soc/-1525199662.php

Həmçinin respondetlərdən kanalların hakimiyyət maraqlarını əks etdirib-etdirmədiyi haqqında da soruşulmuşdur. Nəticələrə görə:

– İctimai kanallar hakimiyyət maraqlarını əks etdirir-4%;
– İctimai kanallar müxalifətin mövqeyini əks etdirir-3%;
– İctimai kanallar bitərəf mövqedədir-33%;
– Bilmirəm-34%.

Milli Demokratik İnstitutun (NDİ) apardığı bir başqa sorğuya əsasən, respondentlərin 30%-nin fikrincə, Gürcüstanda Rusiya təbliğatı aparılır. Həmin 30% respondentin 53%-i bu təbliğatın gürcüdilli televiziya kanalları vasitəsilə aparıldığını, 11%-i isə qeyri-gürcü kanalları vasitəsilə aparıldığını düşünür.

Gürcüstan hakimiyyəti KİV-in inkişaf etdirilməsi üçün müəyyən tədbirlər görür. Məsələn, Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili 2017-ci ildə hüquq müdafiəçilərinin iştirakı ilə media-ombudsman institutunun yaradılmasını təklif etmişdi. Bu təklif Rustavi-2 kanalı ətrafında gedən çəkişmələrdən sonra irəli sürmüşdü. Media-ombudsman institutu Rustavi-2 nümunəsində ictimai kanallarda baş verən proseslərə nəzarət edərək ona hüquqi qiymət verməlidir.

Göründüyü kimi, gürcü KİV-ləri xüsusiyyət baxımından olduqca mürəkkəb struktura malikdir. İnqilabdan sonra KİV-lər arasında formalaşmış fikir ayrılıqları, xüsusilə zaman-zaman dövlət əhəmiyyətli proseslər ərəfəsində seçkilərə təsir göstərmə kimi məqsədlər gürcü kütləvi informasiya vasitələri arasında qütbləşmə yaradır. Əlbəttə ki, bu da öz növbəsində proseslərə müəyyən qədər təsirlərini göstərmiş olur.

**Gürcüstanda azərbaycandilli mətbuat.** Qeyd etmək lazımdır ki, Gürcüstanda azərbaycandilli mətbuatın tarixi XIX əsrin 20-ci illərindən başlayır. Hələ o zaman 1828-ci ildən nəşrə başlayan "Tiflisskoye vedomosti" qəzeti 1832-ci ildən Azərbaycan dilində "Tiflis əxbarı" adlı ilə nəşrə başlamışdı. Qəzetin redaktoru P.S.Sankovski olmuşdur. Lakin qəzet uzun müddət fəaliyyət göstərə bilməyərək 1833-cü ildə bağlanmışdı. 1838-ci ildən "Zaqafqazskiy vestnik" qəzeti Azərbaycan və gürcü dillərində nəşr edilmişdir. XIX əsrdə Azərbaycan ziyalılarının Tiflisdə fəaliyyəti ilə əlaqədar olaraq, "Ziya", "Ziyayi-Qafqaziyyə", "Şərqi-Rus" qəzetləri dərc olunmağa başlamışdı.[173] XX əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Tiflisdə Azərbaycan dilində qəzetlərin nəşri ənənəsi davam etdirilirdi. Bu zaman "Gələcək" (1918), "Gənclər yurdu" (1918),

[173] Aşırlı A. Azərbaycan Mətbuatı Tarixi (1875-1920). Bakı, 2009, s. 5.



"Qələbə", "Al bayraq" (1918) qəzetləri işıq üzü görmüşdü. Sovet işğalından sonra Tiflisdə "Kommunist", "Yeni yol", "İşıqlı yol" qəzetləri dərc edilirdi.

Hazırda Gürcüstanda fəaliyyət göstərən mətbu orqanlarının fəaliyyətinə nəzər salaq:

**"Gürcüstan" qəzeti.** Gürcüstanda ilk Azərbaycandilli qəzet "Sovet Gürcüstanı" olmuş, sonralar "Gürcüstan" adlandırılmışdır. Qəzetin redaktoru Süleyman Süleymanov olmuşdur. Qəzetin əsası "Yeni fikir" adı ilə 1922-ci ildə qoyulmuşdur. 1927-ci ildən 1939-cu ilədək "Yeni kənd", 1938-ci ildən "Sovet Gürcüstanı" adı ilə nəşr olunmuşdur. 1990-cı illərin əvvəllərindən isə "Gürcüstan" adlanmağa başlamışdır.

**AMM "Region Press" qəzeti.** Azərbaycanlıların Mədəniyyət Mərkəzinin xətti ilə nəşr edilən qəzetlərdən biridir. "Region Press" ictimai qəzeti 2008-ci ilin mart ayından etibarən nəşr olunur. Qəzetdə Gürcüstanda baş verən hadisələr haqqında məlumat verilir, azərbaycanlıların fəaliyyəti işıqlandırılır. Qəzet gündəm, ölkə içi, dünya, mədəniyyət, cəmiyyət, ədəbiyyat və sərbəst bölmələrdən ibarətdir. Qəzetin baş redaktoru Binnət Məmmədovdur.

**"Yeniləşmiş məktəb" qəzeti.** 2006-cı ilin dekabr ayından fəaliyyət göstərir. Qəzetin tirajı 6-8 min ədəddir. Qəzetin əsas məqsədi Gürcüstanın Azərbaycandilli açıq məktəblərində təhsilə cəlb edilən şagirdlərin dünyagörüşünün, təhsilinin, elminin, mədəniyyətinin, intellektinin artmasına xidmət etməkdir. Həmçinin azərbaycanlıların gürcü ictimaiyyətinə inteqrasiya prosesini tezləşdirmək və gürcü dilini mükəmməl şəkildə öyrənməsinə əlverişli şərait yaratmaqdır. Şagirdlər, eləcə də ictimaiyyətin nümayəndələri qəzet vasitəsi ilə Gürcüstan Respublikasının qanunları, inzibati, hüquqi məcəllələri, təhsildə gedən islahatları, ölkə daxili və xarici siyasəti ilə tanış olurlar. Qəzet şagirdlərin yaradıcılığını, əl işlərini, incəsənət nümunələrini öz səhifələrində işıqlandırır. Qəzetin redaktoru Abay Paşayevdir.

Aylıq ədəbiyyat və sənət jurnalı olan **"Körük"** dərgisinin ilk nömrəsi 2018-ci ildə nəşr edilmişdir. Tbilisidə Gürcüstan Yazıçılar Birliyinin Azərbaycan bölməsinin orqanıdır.

Bolnisidə Bolnisi Mədəniyyət Mərkəzinin dəstəyi ilə **"Ümid"** adlı müstəqil qəzet nəşr olunur. Ölkə, mənəviyyat, şəxsiyyət, ədəbiyyat kimi bölmələrdən ibarət 12 səhifəlik qəzetin redaktoru Əlixan Yəhyaoğludur.

**"Qarapapaqlar" jurnalı.** 2007-ci ildən professor Şürəddin Məmmədlinin rəhbərliyi altında nəşr olunan jurnal dördüncü sayından sonra fəaliyyətini bir müddət dayandırmışdır. Lakin tezliklə Gürcüstan

Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin səyi nəticəsində jurnalın fəaliyyəti bərpa edilmişdir. Artıq on ildən artıqdır fəaliyyət göstərən bu jurnal Gürcüstan hökuməti tərəfindən elmi mətbu orqan kimi qeydiyyatdan keçirilmişdir. Maarifçiliyi əsas götürən jurnalda türk xalqlarının tarixinə nəzər salınır. Jurnalda əsasən, gürcü-azərbaycanlı xalqlarının əlaqələrindən bəhs edilərək, bu istiqamətdə azərbaycanlı və gürcü alimlərinin müsahibələri, elmi məqalələri dərc olunur. Jurnalın baş redaktoru Akif Xansultanlıdır.

Region üzrə Gürcüstanda nəşr olunan azərbaycandilli mətbu orqanlardan Dmanisidə (Başkeçiddə) dərc edilmiş "**Trialeti**", Bolnisidə "**Qələbə bayrağı**", Marneulidə (Sarvanda) "**Yeni Marneuli**" (sonralar Kvemo Kartli), Qardabanidə (Qarayazıda) "**Samqori**" qəzetini göstərmək olar. Hazırda bu qəzetlər fəaliyyətini dayandırmışdır. Bundan başqa Gürcüstanda iki xalqın-azərbaycanlıların və gürcüstanlıların mədəniyyəti, ədəbiyyatı haqqında məlumatlar 2009-cu ildən nəşrə başlamış "**Meydan**" jurnalında əksini tapır. "**Təhsil qəzeti**" (2008-ci ildən nəşr olunur), "**İnam**", "**Sözün işığı**", "**Ozan**", "**Yeni yol**" qəzeti (2015-ci ildən nəşr olunur) fəaliyyət göstərir. İctimai-siyasi qəzet olan "**Varlıq**" 2009-cu ildə fəaliyyətinə yekun vurmuş və ümumilikdə cəmi 15 sayı işıq üzü görmüşdür. Bu qəzet "Varlıq" Mədəniyyət Mərkəzinin dəstəyi ilə dərc olunurdu. Gürcüstan azərbaycanlılarının "**Əhli-beyt**" və "**İman**" adlı dini jurnalları da nəşr edilir. Gürcüstan azərbaycanlılarının hazırda bəzi informasiya portalları da fəaliyyət göstərir. Onlardan ən fəalı Gürcüstan Azərbaycanlılarının Xəbər Agentliyidir. **Gaxa.ge** (Gürcüstan Azərbaycanlılarının Xəbər Agentliyi) 2017-ci ildə yaradılmışdır və Marneulidə fəaliyyət göstərir. Saytın əsas məqsədi Gürcüstan azərbaycanlılarını dünyada baş verən hadisələrlə bağlı məlumatlandırmaqdır. Sayt müstəqil fəaliyyət göstərir, gürcü və Azərbaycan xalqının tarixi dostluğunu, əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək məqsədi daşıyır. Siyasət, iqtisadiyyat, təhsil, cəmiyyət, dünya, mədəniyyət, idman və s. kimi bölmələrdən ibarət olmaqla xəbərlər yayımlayır. Rəsmi səhifə: www.gaxa.ge

Gürcüstanda Azərbaycandilli mətbuat hazırda dövlət daxilində yaşayan azərbaycanlı əhalinin cəmiyyətdə öz mövqeyini tutmasında, iki dövlət arasında tarixi dostluğun və qonşuluq münasibətlərinin qorunaraq inkişaf etdirilməsində əvəzsiz rol oynayır.

**Gürcüstanda rusdilli KİV.** Rusdili Gürcüstanda getdikcə daha az tələb olunan dilə çevrilir. Əlbəttə bu, Gürcüstanda nəşr olunan rusdilli mətbuatın cəmiyyətdə yayılmasına mane olur. Bu səbəbdən nəşriyyat rəh-



bərləri dəfələrlə müzakirələr aparır, Gürcüstanda rusdilli qəzet və jurnalları xilas etməyin yollarını axtarırlar. Gürcüstanda rusdilli mətbuatı izləyə biləcək potensial auditoriyanın sayı 50-70 min nəfər arasında dəyişir.[174] Problem isə bu kütlənin əksəriyyətinin yaşlı nəsil olması və demək olar ki, maddi vəziyyətlərinin qəzet, jurnal almağa yetməməsidir. Əsas məsələ bu olsa da, hətta bu gün bəzi insanlar içində belə bir fikir də formalaşmışdır ki, vəziyyətin belə olmasına səbəb dövlətin rus dilini sıxışdırması siyasətidir.

Gürcüstanda dərc olunan qəzetlərdən- "Свободная Грузия" ("Azad Gürcüstan"), "Головинский проспект" ("Qolovin prospekti"), "Многонациональная Грузия" ("Çoxmillətli Gürcüstan"), "Слово и дело" ("Söz və iş"), "Вечерний Тбилиси" ("Tbilisi axşamı"), "Грузия и мир" ("Gürcüstan və dünya"), "Стратегия и организация" ("Strategiya və təşkilat"), "Вестник самоуправления" ("Özünüidarə xəbərləri"), "Этнополитика" ("Etnosiyasət") və s. adlı qəzetləri göstərmək olar. Hazırda Gürcüstanda rusdilli informasiya saytları da fəaliyyət göstərməkdədir, bunlardan: Грузия Online (www.apsny.ge), Новость.ge (www.novost.ge), Новости-Грузия (www.newsgeorgia.ge), Sputnik-Georgia (www.sputnik-georgia.ru), Грузинское Информационное Агентство (www.ru.gruzinform.ge) və s. adlarını çəkmək olar.

**Gürcüstanda ermənidilli KİV.** Gürcüstanda ermənidilli mətbuat yayılmışdır. Onların bir neçəsi haqqında məlumat aşağıdakı kimidir:

"Vrastan" qəzeti. Vrastan (erməni dilindən tərcümədə Gürcüstan deməkdir.) Gürcüstanda erməni dilində nəşr olunan həftəlik ictimai-siyasi qəzetdir. Qəzet 1920-ci ildə "Karmir astx" (Qırmızı ulduz) adı ilə ilk dəfə dərc olunmağa başlamışdır. 1923-cü ildə "Martakoç" (Mübarizəyə çağırış), 1927-ci ildə "Proletar", 1939-cu ildə "Xorurdain Vrastan" (Sovet Gürcüstanı) adlandırılmışdır. 1990-cı illərin əvvəllərindən isə müasir adını "Vrastan"ı (Gürcüstan) almışdır. XX əsrin 70-ci illərində həftədə üç dəfə 40 min tirajla buraxılan qəzetin 29 dekabr 2010-cu ildə 90 illik yubileyi keçirildi. Bu rəsmi qəzetin redaktoru keçmiş deputat Van Bayburtyandır və erməni icması tərəfindən adı çəkilən qəzetin gürcü təsirində olduğu vurğulanır. Bəzi ermənilərin sözlərinə görə, qəzet erməni icmasını lazımi informasiya ilə təmin etmək qabiliyyətində deyildir. Qəzetdə əsasən rəsmi

---

[174] Русскоязычная пресса Грузии ищет выход. 05.06.2010. // www.sputnik-georgia.ru /actual/20100605/213244634.html

məlumatlar, dövlətlərarası münasibətləri əks etdirən görüşlər, danışıqlar haqqında informasiya dərc olunur.

"Ardzaqank" qəzeti. 2014-cü ilin yanvar ayının 20-də Gürcüstanda yaşayan erməni icmasının "Ardzaqank" ("Əks-səda", "Cavab vermək") adlı qəzetinin ilk sayı çıxmışdır. Qəzetin əsas məqsədi Gürcüstanda yaşayan erməniləri baş verən siyasi, ictimai proseslərdən xəbərdar etmək, geniş auditoriya qarşısında çıxış edərək dinlərarası münasibətlərdə erməni icmasının dini həyatını əks etdirmək, Gürcüstanda yaşayan ermənilərin cəmiyyət həyatında oynadığı rolu qabartmaqdır. Müxtəlif aspektləri əsas götürən qəzetin başlıca amalı erməni icmasının inkişafına dəstək olmaqdır. Qəzetin redaktoru Levon İsaxanyandır.

"Nor serund" qəzeti. "Nor serund" ("Yeni nəsil") adlı qeyri-hökumət təşkilatı tərəfindən eyni adla erməni oxucuları üçün nəşr olunur. Qəzetdə əsasən erməni QHT-lərinin fəaliyyəti işıqlandırılır. Lakin məhdud mövzu əhatəliyinə görə qəzetə olan maraq azlıq təşkil edir.

"Noraşen" jurnalı. Erməni Apostol Kilsəsinin Gürcüstan Yeparxiyası Tbilisidə yaşayan erməni icmasının dini-informasiya təhlükəsizliyinə önəm verdiyi üçün dini, mədəni, informasiya jurnalı olan "Noraşen"in ("Yenilik, Yeni tikili") nəşrinə rəhbərlik etmişdir. Bəhs olunan bu nəşrlər erməni dilindədir və araşdırmalara görə, nəşrlərə olan tələbat günü-gündən azalmaqdadır. Çünki o, əsasən yaşlı nəsil tərəfindən maraqla qarşılanır. Bu jurnalda dəfələrlə gürcü kilsələrinə əsassız tələblərlə bağlı məqalələr dərc olunmuşdur. Misal olaraq Samvel Karapetyanın "Geri qaytarma tələbi" adlı məqaləsini (2008-ci il 1(13), səh. 2-4) göstərmək olar.

"Parvana" telekanalı. "Parvana" radio və televiziya təşkilatı "KNN" şirkəti tərəfindən Ninotsmindada 1990-cı ildə yaradılmışdır. 1993-cü ildə televiziya şirkəti fəaliyyətini Gürcüstanda enerji çatışmazlığı səbəbindən dayandırsa da, 1998-ci ildə fəaliyyətini yenidən davam etdirmişdir. 2000-ci ildə qeyri-hökumət təşkilatı kimi "Parvana" adı ilə qeydiyyatdan keçirilmişdir. Bu zaman eyniadlı telekanal kimi də fəaliyyət göstərməyə başlamışdır. Televiziya şirkətinin rəhbəri Konstantin Vartanyandır. Hazırda "Parvana" Axalkələk (Axalkalaki) və Ninotsmindada yayımlanır. "Parvana" analitik və əyləncəli məzmunda xəbərlər də hazırlayır. Telekanalın əsas auditoriyasını Samtsxe-Cavaxetiya regionunun erməni əhalisi təşkil edir. Televiziya şirkətinin bürosu yalnız Ninotsmindada yerləşir. "Parvana"nın gündə üç dəfə yayımlanan "Andradar" ("Əks olunma"), "Söz azadlığı kürsüsü" kimi verilişləri var. Rəsmi səhifə: www.www.parvana.ge-dir.



"Nor" radiosu. Samtsxe-Cavaxetiya regionunda fəaliyyət göstərən ermənidilli radiolardan biri "Nor" ("Yeni") 2006-cı ildən Ninotsminda rayonunda fəaliyyət göstərir. İlk dövrlərdə təkcə internet vasitəsilə fəaliyyət göstərən radiostansiya 2014-cü ildən 100.1 FM dalğasında da yayımlanır. Hazırda Ninotsmindanın erməni əhalisi arasında məşhurlaşan "Nor" siyasi, iqtisadi, sosial və mədəni proseslərdən yerli əhalini xəbərdar edir. Yayımın Axalkələk (Axalkalaki) şəhərində də reallaşdırılması nəzərdə tutulur. Ninotsmindanın bu radiosu rus və erməni dillərində, o cümlədən gürcü əhalisi üçün gürcü dilində də yayımlanır. Radioda "Fermerin saatı", "Ekonom+", "Qadının səsi", "Mənim hüquqlarım" və s. kimi verilişlər vardır. 2015-ci ilin noyabrın 1-dən "Alik Media" "Nor" radiostansiyası ilə əməkdaşlıq edir. Radiostansiyanın rəsmi saytı: www.nor.ge-dir.

"Alik-media" (ermənidilli internet-radio). 2015-ci ilin aprelindən Gürcüstanda internet-radio Alik-media fəaliyyət göstərməyə başladı. Alik-media Gürcüstanda baş verən prosesləri erməni dilində Gürcüstanın erməni icmasına çatdırır. Tbilisi şəhərində fəaliyyət göstərən mətbuat orqanı müstəqildir. Rəsmi səhifə: www.aliq.ge

Gürcüstanda Axalkələk (Axalkalaki) şəhərində ermənidilli "ATV 12" telekanalı fəaliyyət göstərir. Erməni, ingilis və rus dillərində olan Axalkalaki informasiya agentliyi "A-info" da Cavaxetiyada yaşayan erməni əhalisini məlumatlandırmaq məqsədilə yaradılmışdır. İnformasiya agentliyinin müstəqil internet səhifəsi də var. Ermənidilli mətbuat içində həftədə iki dəfə "Akunk" ("Mənbə"), Ninotsmindada aylıq "Arşaluys" ("İşıqlanma"), "Axpyur" ("Bulaq"), erməni və gürcü dillərində həftəlik "Samxretis Karibçe" ("Cənub darvazası") qəzeti dərc olunur. Erməni icmasına məlumatın çatdırılmasında həmçinin Gürcüstandakı erməni cəmiyyətinin saytı (armenian-community.ge), Cavaxk nyus (www.jnews.ge), Javakhmedia.com saytları da əsas rol oynayır.

2016-cı ilin göstəricilərinə əsasən, Samtsxe-Cavaxetiyada erməni əhalisinin 40%-i rus kanallarını, yalnız 10%-i gürcü kanallarını izləyir. Buna səbəb regionun erməni əhalisinin 80%-nin gürcü dilini bilməməsidir. Tədricən bu problemi aradan qaldırmaq üçün 2017-cı ildən Gürcüstanın İctimai Kanalı xəbərləri erməni dilində sinxron olaraq tərcümə edir. Gürcüstanın ictimai kanalı "Moambe" (Xəbər) informasiya buraxılışını Azərbaycan, erməni, abxaz və osetin dillərində yayımlayır. Bu layihə əsasında gələcəkdə bir sıra verilişlərin erməni dilinə sinxron tərcümə edilməsi nəzərdə tutulur.

Gürcüstandakı ermənidilli mətbuat materiallarının təhlili göstərir ki, erməni icmasına gündəlik siyasi və ictimai xəbərlərlə yanaşı, təbliğat xarakterli məlumatlar da çatdırılır. Ümumən bu məlumatlar arasında qondarma "erməni soyqırımı"nın tanıdılması, hər il Gürcüstandakı Türkiyə səfirliyi önündə nümayişə çağırış, Gürcüstanın Türkiyə və Azərbaycanla münasibətlərinə etiraz xarakterli yazılara təsadüf olunur. 2016-cı il aprel döyüşləri ilə əlaqədar siyasi yazıların da sayı artmaqda davam edir. Əlbəttə ki, "Sumqayıt hadisələri"nin 30-cu ildönümü ilə bağlı xəbərlər də 2018-ci ildə aktuallaşmışdır.

Məsələn, 2018-ci ilin aprelində jnews.ge saytında aprel döyüşlərinin ikinci ildönümü ilə əlaqədar "Ordunun anası": 2016-cı il dörd günlük Qarabağ müharibəsinin xatirəsi" adlı keçid paylaşılmışdı. Xəbərdə 2016-cı ildə ölmüş kapitan Armenak Urfanyanın anası Amest Nersisyanın çəkildiyi qısametrajlı filmin videosu yerləşdirilmişdi. Film müharibədə oğlu ölmüş ana haqqındadır. Filmin sujetində ana öz oğlunun getdiyi yolları keçir. Filmdə aprel döyüşlərinin Azərbaycan tərəfindən başladılması haqqında təbliğat da diqqətdən yayınmır.[175]

Axpyur qəzetinin siyasət bölməsində Batumi şəhərində Surb Prkiç erməni kilsəsinin aprel hadisələrini anma mərasimi haqqında məlumatlara xüsusi yer verilmişdir. Sumqayıt hadisələrinə aid "Azərbaycan dövlətçiliyinin ləkəsi və ya Sumqayıt: 30 il sonra", ""Sumqayıt"- məhdudiyyəti olmayan cinayətkarlıq",[176] "Sumqayıt vəhşiliyinin 30 illiyi" adlı məqalələr həsr olunub. Bundan başqa qəzetin internet səhifəsində "Sumqayıt sindromu: Azərbaycanda rasizmin anatomiyası" adlı elektron kitab yerləşdirilmişdir. Kitabın həcmi kiçikdir - 38 səhifədən ibarətdir. Əsasən Sumqayıt hadisələri haqqında toplanmış "faktlar"a və azərbaycanlılar tərəfindən "törədilmiş soyqırım"a məruz qalmış ermənilər haqqında məlumatlara "əsaslanmışdır." Kitabın sonunda verilmiş son cümlə bütün kitab haqqında ümumi rəyi formalaşdırır: "Rasizm və etnik təmizləmə bügünkü Azərbaycan dövlətçiliyinin açar elementləri olmuşdur. Sumqayıt regional sabitliyi və təhlükəsizliyi pozan ilk dəhşətli simptoma, irqçi təhlükəyə çevrildi. Dünya bu faktı təkzib edə bilməz."

[175] "Мать армии": памяти 4-дневной карабахской войны 2016 года. 02.04.2018. // www.jnews.ge/?p=19561

[176] „სუმგაითი" - დანაშაული, ხანდაზმულობის ვადის გარეშე. 01.03.2018. // www.akhpiur.com/index.php/akhpyur/politika/item/553-sumgait



Göründüyü kimi erməni mətbuatında "Sumqayıt hadisələri" tamam əks yöndə verilərək separatçı xarakter daşıyır. Lakin tarixi faktlar göstərilənlərin yalnış olduğunu sübut etməklə "Sumqayıt hadisələri"nin ermənilər tərəfindən törədildiyini aşkara çıxarır. Məlum olduğu kimi, 1988-ci il fevralın 26-28-də Sumqayıtda iğtişaş baş verdi. Azərbaycan SSR DTK sədri Ziya Yusifzadənin martın 7-də Azərbaycan KP MK-ya yazdığı məxfi arayışdan aydın olur ki, artıq o vaxtadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. İğtişaşlar nəticəsində ölənlərin 24 nəfəri erməni, 5 nəfəri azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi. İstintaq materiallarından aydın olur ki, hücum edənlər artıq əvvəlcədən müəyyənləşdirilmiş mənzilləri seçmişdilər. Öldürülən ermənilər erməni təşkilatlarına pul ödəməyən şəxslər idi.

Hadisənin təşkilatçılarından biri ermənilərin qətli və erməni qadınlarının zorlanmasında bilavasitə iştirak edən Eduard Qriqoryan idi. Şahidlərin və zərərçəkənlərin məhkəməyə verdikləri ifadələrindən Qriqoryanda ermənilərin yaşadıqları mənzillərin siyahısının olduğu və intiqam aktlarına çağırdığı aydın olurdu. Onun qurbanlarının hamısı ermənilər idi. Əsasən erməni millətindən olan şahidlər məhkəmə prosesində Qriqoryanı zorakılığın təşkilatçılarından biri kimi tanıdılar.[177]

Qeyd etmək lazımdır ki, milli münasibətlərin qızışdırılmasında erməni din xadimləri də rol oynayırdılar. Bakıda erməni kilsəsinin dyakonu S.S.Davityan 1988-ci il martın 8-10-da Eçmiədzinə gedərək bütün ermənilərin katolikosu I Vazgenin qəbulunda olmuş, ieromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan ilə görüşmüşdü. Matevosyan Bakı və Sumqayıtdakı hadisələrə dair suallar vermişdi. Bakı ermənilərinin bitərəf mövqe tutmaları ilə maraqlanmışdı. Bildirmişdi ki, Bakı erməniləri böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar. S.Davityan cavabında demişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinə mənfi təsir edə bilər. Bu zaman İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan belə söyləmişdilər: "Burada qorxulu heç nə yoxdur, onları (Bakı erməniləri) qurban vermək olar."[178]

Aliq.ge saytı 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın cəbhə xəttində Tərtər və Ağdam rayonlarına gedərək aprel döyüşlərində vuruşmuş əsgərləri müka-

[177] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) I hissə səh. 108.

[178] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) I hissə səh. 112.

fatlandırdıqları haqqında məlumatı qeyd etmişdir. Saytda yazılır ki, mükafatlanan əsgərlər arasında K.Saloyanı vurmuş əsgər də olmuşdur. Bu məlumatı "Tarix təkrarlanır" başlığı ilə yerləşdirən KİV rəhbərləri R.Səfərovu misal gətirərək Azərbaycanı tənqid etmişlər.

Gürcüstanda erməni mətbuatı dolayısı ilə Gürcüstanın xarici siyasətinə də müdaxilə etmiş olur. Gürcüstanda erməni birliyi hər il aprel ayında Türkiyə səfirliyi qarşısında erməni "soyqırımı"nın ildönümü münasibəti ilə aksiyalar keçirir və Gürcüstan hökumətindən tanınmanı tələb edir, üstəlik birliyin "Miutyun" ("Birlik") qəzetində tanınma məsələsi ilə bağlı "Nəyə görə gürcü hakimiyyəti erməni xalqının soyqırımını tanımalıdır?" adlı məqalə hər il təkrar-təkrar dərc edilir. Məqalənin ümumi məzmunu aşağıdakı kimidir: "Əsas məsələ mənəvi dəyərlərdən qaynaqlanır. Özünü Avropa sivilizasiyasının bir parçası hesab edən dövlət bütün insanlığa qarşı törədilmiş cinayət misalında kütləvi insan qırğınını tanımalıdır. Artıq 26 ildir ki, Gürcüstan elitası Türkiyə və Azərbaycanla münasibətlərini bəhanə gətirərək öz susqunluğuna bəraət qazandırır. Bu gün Gürcüstanda erməni soyqırımının tanınması milli təhlükəsizlik məsələsinə çevrilmişdir. Bizim qarşımızda yalnız bir çıxış yolu qalmışdır, ölkənin hakim dairələrinə hansısa digər dövlətlərin deyil, məhz öz milli maraqlarının qorunmasına çalışılması aydınlaşdırılmalıdır."[179]

Göründüyü kimi, Gürcüstanda ermənidilli mətbuat orqanları əsas məqsəd kimi erməni icmasının gürcü cəmiyyətinə inteqrasiyasını şüar kimi səsləndirsələr də, mətbuat vasitələrinin təhlili onların düşmənçilik və separatçı xarakterli informasiyalar ötürdüyünü göstərir. Bəllidir ki, bu, həm də Gürcüstan daxilində yaşayan erməni əhalisinin ictimai rəyinin formalaşmasına bilavasitə təsir göstərir və dövlət daxilində "dördüncü hakimiyyət" vasitəsilə ayrı-seçkilik yaradır.

### 3.6. Ermənidilli mətbuatda düşmənçiliyin və separatizmin təbliği

Sosial şəbəkələrdə Rus-erməni.info-nun "Rusiya-Ermənistan strateji və ictimai təşəbbüsə yardım Mərkəzi" "Gürcüstanda ermənifobiya" məqaləsi yerləşdirilmişdir. Ermənilər öz təbiətlərinə uyğun olaraq bütün qon-

179 რატომ უნდა დაგმოს ქართველთა სახელმწიფომ სომეხთა გენოციდი 19.04.2018. // www.armenian-community.ge/News/2954?lang=geo



şu xalqlara və dövlətlərə böhtan kampaniyalarına sadiq qalaraq Gürcüstanın guya Türkiyə və Azərbaycanın əlində "girova çevrildiyi"ndən yazırlar. Guya Türkiyənin təsiri altında olan Gürcüstan özünün tranzit potensialından tam istifadə edə bilmir: "Alternativ tranzit istiqaməti- Gürcüstan-Ermənistan-İran tranziti inkişaf etdirilmir, çünki bu istiqamət blokada olunmuşdur." Erməniləri ən çox təşvişə salan Dağlıq Qarabağ regionunda hərbi əməliyyatlar başladığı təqdirdə Türkiyənin Gürcüstanı Ermənistanla olan iqtisadi əlaqələri kəsməyə sövq etmək ehtimalıdır. Guya "Tbilisidə Ermənistanın iqtisadi blokadasının ölkədə gərginliyə, o cümlədən daxili siyasi böhrana gətirib çıxarmasını istəyən dairələr mövcuddur."[180] Buna görə də Gürcüstandakı ermənilərə "Cavaxk məsələsini" dirçəltmək və bu məsələdən Gürcüstana təzyiq vasitəsi kimi istifadə etmək tövsiyə olunur. Məqalədə 2016-cı il aprelin 23-də Cavaxetiya bölgəsində Axaltsixe rayonunun bir kəndində erməni gənclərinin "ənənəvi olaraq əllərində məşəl mövcud olmayan "erməni soyqırımını" xatırlamaq üçün "müqəddəs yerə"(Gürcüstan ərazisində) gedərkən bir dəstə gürcü tərəfindən onların haqlı olaraq döyülməsi "milli təhqir" səviyyəsinə yüksəldilir. Buna görə gürcülərdən qisas alınması, silahlı erməni terror təşkilatının yaradılması və ümumiyyətlə, Cavaxetiya bölgəsinin Gürcüstandan ayrılması "məsləhət görülür."

Digər bir "təhlükəli məsələ" kimi ermənilərin Gürcüstanda yığcam yaşadıqları şəhərlərdə, o cümlədən Tbilisidə onların "demoqrafik böhran"-la üzləşmələri təşvişlə yada salınır. Erməni mətbuatı yenə də məkrli yalanlardan istifadə edərək Tbilisidə guya XIX əsrin ortalarına qədər əhalinin əksəriyyətinin ermənilərdən ibarət olmasından, guya onların "mokalaklar" adlandırılmasından, Tbilisinin erməni şəhəri olmasından, hətta Rusiya İmperiyası və Demokratik Gürcüstanın mövcudluğu zamanı Tbilisinin merləri vəzifəsinə "görkəmli ermənilər"in seçilməsindən, Bakı nefti hesabına sərvət əldə etmiş Mantaşov, Aramyans və başqalarının guya "xeyriyyəçilik edərək" Tbilisidə bir çox yaşayış binaları, hətta həbsxana tikdirdiklərindən bəhs edirlər.

Azərbaycan ordusunun 2016-cı ildə "dördgünlük" aprel rəşadəti erməniləri təşvişə salır. Yenə məkrli erməni yalanı aşağıdakı kimi işə salınır: "Azərbaycan ordusunun qondarma dinc DQR-ə hücum edərkən Gürcüstan ermənilərə və Ermənistana qarşı müəyyən qeyri-dostluq münasibəti başladı." Erməni mətbuatı Gürcüstanın şərq bölgəsində Samtsxe-Cavaxe-

180 Армянофобия в Грузии. 21.03.2016 // www. russia-armenia.info/taxonomy/term/565

tiyada əhalinin yarısı ermənidilli olan əhalidən polisin silah-sursatı müsadirə etməsini də qərəzlə qarşılayır guya bu, "ASALA"-nın Cavaxetiyada izləri olduğunu iddia edən Azərbaycan KİV-nin uydurmasıdır.

Mətbuat Ermənistan Respublikasının Gürcüstandakı səfiri Yuri Vardanyanı bölgəni "ermənisayaq qarışdıra bilmədiyinə"görə ittiham edir. "Dördgünlük" müharibə zamanı səfirin "cinayətkarcasına fəaliyyətsizliyi" onlarda erməni diplomatına qarşı etimadsızlıq yaradır. Guya Gürcüstandakı ermənifobiya və rusfobiya Türkiyə və Azərbaycanın siyasi texnoloqlarının və sponsorlarının köməyilə bəzi KİV-lərdə qızışdırılır. Hətta erməni mətbuatı ermənipərəst, guya "dördgünlük" müharibə zamanı Azərbaycana Abxaziya və Osetiyaya dair 2008-ci il rus ssenarisini xatırladan S.V.Lavrova qarşı təhqiredici materialların yayılmasına təəssüfünü bildirirlər.

Erməni mətbuatını qıcıqlandıran bir məsələ də Ukrayna silahlı qüvvələri tərkibində separatçılara qarşı vuruşan Gürcüstan Milli Legionunun komandiri Mamuka Mamulaşvilinin Azərbaycanın haqq işini müdafiə etməsi və Dağlıq Qarabağ separatçılarına qarşı döyüşlərdə komandiri olduğu legionun zabitlərinin Azərbaycan tərəfində vuruşmalarda iştirak etməsi haqqında verdiyi bəyanatdır. Ermənilər "haqq-ədaləti" erməni uydurmalarına və yalanlarına uyğunlaşdıraraq qəbul edirlər, ona görə onlara qarşı çıxanları "düşmən" hesab edir, onları şantaj, təhdid edir, lazım gələndə terrorla fiziki cəhətdən məhv edirlər. Erməni mətbuatı Gürcüstandan həm də ona görə narazıdır ki, bu ölkədəki sosial şəbəkələr, internet forumlarında Ermənistana və ermənilərə nifrət kampaniyası ara vermir. Gürcüstan KİV-in baş verən bütün qarışıqlıqlarda "dinc", "yazıq", "məsum" ermənilərin əlinin olmasını bəzi ölkələrdə bütün bədbəxtliklərdə yəhudilərin günahlandırılması ilə müqayisə edir.

"Собеседник Армения", "Ноев Ковчег" qəzetləri, "Наша среда" portalı, Ermənistan Respublikasındakı Rusiya Federasiyasının səfirliyi, "Rusiya Erməniləri İttifaqı", Ermənistandakı Rusiya əməkdaşlıq nümayəndəliyi, "Rusiya və Erməni Apostol Provoslav Kilsəsi və Yeni-Naxçıvan Müqəddəs Yeparxiyalığı ilə məkrli əməkdaşlıq edən rus-ermeni.info məşhur erməni yalanlarının təbliğatı ilə də məşğuldur: "Dəqiq (guya) 650 il əvvəl kral Böyük Kazimir Polşa ermənilərinə özünidarəetmə hüququ vermişdir." "Qədim Ermənistan (heç vaxt mövcud olmayan) yeni müstəqillik əldə etmişdir", "Guya ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsininnin məruzəsinə görə, sovet atom bombası Ermənistanda yaradılmışdır." "Qondarma "DQR"-in qondarma "prezidenti"nin verdiyi bəyanata görə "Artsaxa qarşı hər hansı bir təcavüzü ermənilər-bütün dünya erməniləri vətən (hansı vətən?) müharibəsi hesab edirlər" və s.



Yeri gəlmişkən, ermənilərin yalanları haqqında gürcülər arasında çoxlu lətifələr mövcuddur. Onlardan biri maraqlıdır: "Məlum olur ki, Ayda torpaq tapılır. Sən demə bu torpaq "Böyük Ermənistan"ın bir hissəsi imiş."

Beləliklə, yaşadıqları yerlərdə "ərazi iddiaları" irəli sürən, olmayan dövlətçiliklərini və tarixlərini saxtakarlıqla "qədimləşdirən", bütün qonşularına böhtan atan, güclü dövlətlər qarşısında boyun əyən ermənilər bəşəriyyətin sağalmaz xəstəliyi olan ermənilik xəstəliyinə düçar olmuşlar. Bəşəriyyətin xilas yolu ermənilik xəstəliyini ya müalicə etmək, ya da "cərrahiyyə yolu" ilə ondan yaxa qurtarmaqdır.

## 3.7. Ermənilərin gürcü soyadlarını qəbul etməsi: məqsəd nədir?

Hələ sovet dövründə 1956-1986-cı illərdə Gürcüstan SSR-də ermənilər kütləvi şəkildə həm şəhərlərdə, həm də kəndlərdə gürcü soyadına keçmişlər. Bəzi müşahidəçilərin fikrincə, bu addımın atılması "Böyük Ermənistan" ideyasının tərkib hissəsidir.

Müstəqil Gürcüstanda 2004-cü ildə qəbul olunmuş qanuna əsasən hər bir vətəndaş öz soyadını dəyişdirə bilər. Soyadlarının dəyişilməsinə baxmayaraq, ermənilər Gürcüstan hakimiyyətinin strukturlarına məqsədyönlü şəkildə "daxil olaraq" ermənilik vəzifəsini-separatçılıq fəaliyyətlərini və ərazi iddialarını davam etdirirlər. Gürcüstan alimi, tarix elmləri doktoru, erməni məsələsinin araşdırmaçısı Aleksandr Abdaladze bildirir ki, ermənilərin "Böyük Ermənistan" ideyasına bütün Qafqazın erməniləşdirilməsi planı da daxildir. Onların planında Azərbaycanın Naxçıvan, Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, Gürcüstanın Abxaziya, Acarıstan və Cavaxetiya ərazilərinin zəbt edilməsi də əsas yer tutur. Abxaziyaya "Ermənistanın Qara dəniz sahili" kimi baxan ermənilər abxaz separatçılarına kömək edərək Baqramyan batalyonu yaradaraq gürcüləri kütləvi şəkildə məhv etmişlər.

Gürcü soyadlı ermənilər dövlət strukturlarına daxil olaraq Gürcüstanda xaos və milli qarşıdurma yaratmağa çalışırlar. Onlar:

- Gürcüstan vətəndaşı olan azərbaycanlılar arasında məzhəb qarşıdurması yaratmağa çalışır, sünni-şiə təriqətçiliyini qızışdırırlar;

• Azərbaycanlılarla gürcülər arasında etimadsızlıq mühiti yaradır və qarşılıqlı nifrət toxumu səpirlər.

Erməni asilli "gürcü tədqiqatçıları" erməni-gürcü əlaqələrini araşdırarkən məsələni "Böyük Ermənistan" ideyası mövqeyindən şərh edirlər. Gürcü alimi A.Abdaladze birmənalı olaraq yazır: "*Mən erməni kilsəsi tərəfindən maliyyələşdirilən, Gürcüstan əleyhinə fəaliyyət göstərən bəzi "gürcü araşdırmaçı erməniləri" tanıyıram*".

Кавказ плюс.com saytında verilmiş "Gürcüstan hakimiyyətində ermənilər nə qədərdir?" adlı yazı müəllifinin fikrincə, ermənilərin Gürcüstan dövlətindən əsas iddiaları odur ki, burada bir neçə yüz min (rəsmi statistikaya görə 380 min) etnik erməninin yaşamasına baxmayaraq, dövlət idarələrində onların sayı guya 0,5% təşkil edir. Gürcüstan hakimiyyəti tərəfindən guya dövlət idarələri sistemində onlara öz "imkanlarını" reallaşdırmağa şərait yaradılmır. Əslində bu açıq-aşkar yalandır. Məsələ burasındadır ki, Axaltsixe və Ninotsminda bələdiyyəsində bütün dövlət məmurlarının 90%-i ermənilərdir. Onu da qeyd etmək lazımdır ki, Gürcüstanın digər bölgələrində, xüsusilə, Tbilisidə erməni soyadlı məmurlarla yanaşı gürcü soyadlarında olan ermənilərin sayı dövlət strukturlarında çoxdur. Hətta bu və ya digər məmur gürcü soyadı daşısa da, bu o demək deyil ki, o, etnik gürcüdür. Erməni soyadlarının gürcü soyadlarına dəyişdirilməsi planı Gürcüstanda on illərlə davam edir. Kvemo Kartli (Borçalı), Şida-Kartli və Kaxetiyada ermənilər gürcü soyadlarını qəbul etmişlər.

Gürcü soyadına karyera əldə etmək istəyən ermənilər də çox keçir. Ona görə də Gürcüstanda dövlət idarəçiliyi sahəsində pasportda "gürcü" olan ermənilərin sayı hədsiz dərəcədə çoxdur. Lakin bu tip ermənilər bunun geniş açıqlanmasını istəmirlər. Yalançı gürcülük, əslində ermənilik prosesi ermənilərin maraqlarına və Gürcüstan dövlətini daxildən zəiflətməyə xidmət edir.

Bəzi məlumatlara görə, erməni soyadlı etnik ermənilər dövlət strukturlarında 5%, gürcü soyadında olanlar isə 15-20%-dir.

